# MƏHƏMMƏD TAĞI SİDQİ

## ƏSƏRLƏRİ

ÇAŞIOĞLU
2004

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin «Görkəmli pedaqoq, maarifçi və şair **M.T.Sidqinin 150 illik** yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında»kı 11 mart 2004-cü il tarixli sərəncamı ilə çap olunur*

Toplayanı, tərtib edəni və müqəddimənin müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü **İsa Həbibbəyli**

Redaktoru:
Filologiya elmləri namizədi **Əsgər Qədimov**

**M 59. Məhəmməd Tağı Sidqi.** Əsərləri.

Kitabda ilk dəfə olaraq görkəmli mütəfəkkir, maarifçi şair və pedaqoq Məhəmməd Tağı Sidqinin ədəbi, pedaqoji, elmi əsərləri və məktubları çap olunur.

M $\frac{4702060100-955}{082-04}$

©«**Çaşıoğlu**» nəşriyyatı, 2004

# MƏHƏMMƏD TAĞI SİDQİNİN HƏYATI VƏ ƏDƏBİ-PEDAQOJİ FƏALİYYƏTİ

Məhəmməd Tağı Sidqi görkəmli bir maarifçi və tanınmış yaradıcı şəxsiyyət kimi Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafında mühüm yer tutur. Onun çoxcəhətli ədəbi-pedaqoji və elmi fəaliyyəti milli maarifçilik hərəkatının və ədəbiyyatımızın tarixində Seyid Əzim Şirvani dövrünün davamı, Abdulla Şaiq, Süleyman Sani Axundov mərhələsinin ərəfəsi və başlanğıcıdır. Lakin Məhəmməd Tağı Sidqi kimi böyük mütəfəkkirin həyatı və ədəbi-pedaqoji irsi layiq olduğu səviyyədə araşdırılıb geniş ictimayiyyətə çatdırılmamışdır. Belə ki, sovet hakimiyyəti illərində M.T.Sidqi haqqında meydana çıxmış tədqiqatlar ideoloji cəhətdən köhnəlmişdir. Müstəqillik dövründə isə onun barəsində barmaq ilə sayılacaq qədər azsaylı məqalələr yazılmışdır. Ədibin elmi və bədii əsərləri, geniş mənada külliyyatı toplanıb indiyədək ayrıca kitab halında çap olunmamışdır. Bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun «Görkəmli pedaqoq, maarifçi və şair M.T.Sidqinin 150 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında»kı 11 mart 2004-cü il tarixli sərəncamı bu qüdrətli mütəfəkkirin həyatının və çoxcəhətli ədəbi elmi və pedaqoji əsərlərinin, əlyazmalarının yenidən araşdırılmasına, əsaslı şəkildə öyrənilməsinə, əsərləri külliyyatının çap olunmasına, adının yeni həyat qazanmasına geniş imkan yaradır.

***

Hələ XIX əsrin əvvəllərindən etibarən başlanan maarifçi ideyalar ictimai-ədəbi mühitdə tez bir zamanda vətəndaşlıq hüququ qazanmışdır. Əsrin ortalarında maarifçilik aparıcı ideologiyaya çevrilmişdi. Keçən yüzilliyin 70-90-cı illərində isə maarifçilik Azərbaycanda hərəkat səviyyəsinə yüksəlmişdir. Artıq yalnız Tiflis, Bakı kimi inzibati mərkəzlərdə deyil, ayrı-ayrı əyalətlərdə də milli maarifçi tədbirlər geniş şəkildə həyata keçirilmiş,

məktəb, teatr və mətbuat uğrundakı səylərin əhatə dairəsi genişlənmişdir. Milli-maarifçi ziyalılığın böyük bir nəsli əyalətlərdə yetişib formalaşmışdır. Bu mənada Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məhəmməd Hadi və Mahmudbəy Mahmudbəyovun Şamaxıda, Ömər Faiq Nemanzadənin Şəkidə, Mirzə Sadıq Fani və Abdulla Surun Gəncədə, Nəriman Nərimanovun Borçalıda, Teymurbəy Bayraməlibəyovun Lənkəranda, Hacı Kərim Sanılının Zəngəzurda, İsmayılbəy Şəfibəyov və Bədəlibəy Bədəlbəyovun Qarabağda, Rəşidbəy Əfəndiyevin Qutqaşen və Xaçmazda, Firudinbəy Köçərlinin İrəvanda, İsabəy Abakarov və Ələsgər Şeyxhəsənovun Vedidə pedaqoji fəaliyyətlə məşğul olmaları Azərbaycan əyalətində maarifçilik hərəkatının yeni yüksəlişinə səbəb olmuşdur. Həmin maarifçi-yaradıcı qüvvələrin fədakarlıq nümunəsi olan çoxcəhətli xidmətləri sayəsində bütövlükdə Azərbaycanda qısa müddətdə milli şüur, ədəbi-mədəni gedişat, ictimai tərəqqi nəzərəçarpacaq səviyyədə irəli getmişdir.

Göstərilən dövrdə maarifçilik hərəkatı baxımından inkişaf etmiş mərkəzlərdən biri də Naxçıvan idi. Milli ziyalılığın böyük bir nəsli XIX-XX əsrlər Naxçıvan ictimai-ədəbi mühitində ərsəyə gəlmişdir. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məhəmməd Tağı Sidqi, Eynəlibəy Sultanov, Hacıağa Fəqir Ordubadi, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əbülqasım Sultanov, Əliməmməd, Sadıq və Məhəmmədhüseyn Xəlilovlar, Mirzə Cəlil Şürbi, Qüdsi Vənəndi və onlarla başqaları məhz həmin mühitin içərisindən çıxmışlar. XIX əsrin 80-90-cı illərində Naxçıvan ədəbi mühitinin ağsaqqalı və müəllimi olmuş Məhəmməd Tağı Sidqinin coxcəhətli fəaliyyəti klassik maarifçilərlə yeni maarifçi nəsil arasında varislik körpüsü funksiyasını yerinə yetirmişir. Əslində Abasquluağa Bakıxanov, Mirzə Şəfi Vazeh, İsmayılbəy Qutqaşınlı kimi ilk maarifçilərlə başlanan XIX əsrin milli maarifçi ideyaları Mirzə Fətəli Axundov və Seyid Əzim Şirvani tərəfindən bacarıqla davam etdirilmiş, Məhəmməd Tağı Sidqi ilə başa çatdırılmışdır. M.T.Sidqinin maarifçilik fəaliyyəti və görüşləri milli maarifçiliyin inkişafının XX əsrdəki qanunauyğun,

məntiqi yekunudur. Eyni zamanda, M.T.Sidqinin pedaqoji irsi həm də yeni tipli maarifçiliyin nəzəri-ideoloji təməlini təşkil edir. Əsrin 70-80-ci illərində yetişib formalaşan yeni maarifçi nəsil 90-cı illərdən etibarən müəyyən mənada M.T.Sidqinin əməl və ideyalarını müstəqil surətdə davam etdirməklə maarifçilik hərəkatı meydanına atılmışdır. Bu mənada Məhəmməd Tağı Sidqi özündən əvvəlki maarifçi nəslin layiqli xələfi, sonrakı qüvvələrin isə ustad sələfidir. Milli maarifçiliyin məktəb, dərslik, teatr, ədəbiyyat və mətbuatın inkişafı ilə bağlı ən yaxşı ənənələri bir çox görkəmli ziyalılarla yanaşı, həm də M.T.Sidqinin adı ilə bağlıdır.

Məhəmməd Tağı Sidqi 1854-cü ildə Ordubad şəhərində anadan olmuşdur. O, ilk təhsilini Molla Məhəmməd Tağı adlı bir axundun yanında almışdır. Sonra Şah Hüseyn Soltan mədrəsəsində oxuyan Sidqi bilik və məlumatlarını bir qədər də təkmilləşdirmişdir. Gənclik illərində qısa müddət Cənubi Azərbaycanda yaşamış, burada təhsilini dərinləşdirməklə yanaşı, ordubadlı tacirlərin yanında ticarətlə də məşğul olmuşdur. Təxminən 1885-ci ildə İrandan Ordubada qayıtmışdır. Ordubadda ailə həyatı qurmuş, 10 ilə yaxın bu şəhərdə yaşamış, maarifçilik və bədii yaradıcılıqla məşğul olmuşdur. O, ailəsini dolandırmaq üçün çayxana açmışdır. Lakin bu adi çayxana deyildi. Oğlu, tanınmış publisist və tərcüməçi Məmmədəli Sidqi Səfərov 5 fevral 1951-ci ildə yazdığı «Tərcümeyi-halım» adlı avtobioqrafik xarakterli xatirəsində atasının çayxanasını aşağıdakı kimi səciyyələndirmişdir: «O zaman atamın çayçı dükanı Ordubad ziyalılarının yığıncaq yeri olur... Haman çayçı dükanında Sədi, Hafiz, Firdovsi, Nizami Gəncəvi kimi şairlərin şerləri oxunur və təhlil olunurmuş. Eyni zamanda, atam o zaman İrandan, Rusiyadan və Türkiyədən qəzetlər də alıb oxuyarmış... Bu qəzetlər çox zaman atamın həmməsləkləri arasında gizlində oxunarmış. Çünki avam camaat qəzet oxumağı böyük günah və qəzet oxuyanları kafir... hesab edirdi».[1]

---

[1] AMEA Əlyazmaları İnstitutunun fondu.A-25,Q-7 (180), vərəqə 3

1892-ci ildə açıqfikirli, rus və Avropa mədəniyyətinə dərin rəğbət bəsləyən Hüseyn Sultan Kəngərlinski ilə birlikdə Ordubad şəhərində açdığı «Əxtər» adlı yeni üsullu məktəblə M.T.Sidqi pedaqoji fəaliyyətə başlamışdır. Şəriət fənnindən başqa, ana dili, hesab, coğrafiya dərslərinin ana dilində keçirildiyi bu məktəbdəki səmərəli məktəbdarlıq işləri onu daha da məşhurlaşdırmışdır. «Əxtər» məktəbinin şagirdi M.S.Ordubadi həmin tədris müəssisəsini «gələcək üçün üsuli-cədid müəllimləri hazırlayan»[2] ciddi təhsil ocağı adlandırmışdır.

Təcrübəli müəllimin pedaqoji fəaliyyəti Naxçıvan ziyalılarının diqqətini cəlb etmişdir. O, 1894-cü ildə bura dəvət olunub «Tərbiyə» məktəbinin əsasını qoymuşdur. «Məktəbi-Tərbiyə»də dünyəvi elmlərin tədrisinə ciddi fikir verilmiş, rus dili və ədəbiyyatı da öyrədilmiş, tərcümə dərsləri təşkil olunmuşdur. «Tərbiyə» məktəbi Azərbaycan məktəbi tarixində ilk milli məktəblərdən biridir. Belə ki, o vaxta qədər mövcud olan qəza, şəhər, zemstvo və normal məktəblər ana dilinin bir fənn kimi tədris olunduğu rus məktəbləri idilər. Və həmin məktəblərdə rus çarizmi özünə sadiq təbəələr formalaşdırmaq vəzifəsini həyata keçirirdi. XIX əsrin80-ci illərinin sonlarında meydana çıxmış rus-tatar məktəbləri də adından göründüyü kimi anadilli fənlərin bir qədər də genişləndirildiyi rus məktəbləri kimi fəaliyyət göstərirdi. M.T. Sidqinin «Məktəbi-Tərbiyə»si isə rus dilinin xarici dil kimi ayrıca tədris olunduğu, digər fənlərin ana dilində keçirildiyi milli məktəb idi. Məsələnin bu cəhəti vaxtilə Cəlil Məmmədquluzadənin də diqqətini cəlb etmiş və o, «Tərbiyə» məktəbindən bəhs edərkən «Naxçıvan şəhərində haman məktəbi Həzrəti-Sidqi təsis edən zaman belə qaydalı müsəlman mədrəsəsi nəinki İrəvanda, bəlkə Qafqazın böyük musəlman şəhərlərinin çoxunda yox idi»[3] qənaətinə gəlmişdir. M.T.Sidqinin səyi nəticəsində az vaxtda «Tərbiyə» məktəbi ədəbi-mədəni fikrin əsas

---

[2] M.S.Ordubadi. Əski və yeni şer məktəbləri. «Kommunist» qəzeti, 30 noyabr 1923-cü il, № 277

[3] Cəlil Məmmədquluzadə. Əsərləri, VI cild. Bakı, Azərnəşr, 1985, səh 10

mərkəzlərindən birinə çevrilmişdir. Cəlil Məmmədquluzadə, Qurbanəlibəy Şərifzadə, Cümşüd-Paşa Sultanov, Mirzə Nəsrulla Əmirov, Əbülqasım Sultanov, Mirzə Cəlil Şürbi, Mirzə Ələkbər Süleymanov və başqaları burada Sidqinin elmi-ədəbi söhbətlərinə qulaq asmış, şerlərini dinləyib müzakirə etmiş, Rusiya, Qafqaz və Şərq mətbuatını mütaliə etmək imkanı qazanmışlar. Məktəbdə qabaqcıl ziyalaların iştirakı və təşəbbüsü ilə teatr tamaşaları göstərilmiş, ədəbi müsabiqələr, müzakirə və yubiley gecələri təşkil olunmuşdur. Buna görədir ki, Cəlil Məmmədquluzadə «Tərbiyə» məktəbini «yeniyetmə müəllim və ədiblər üçün darülürfan»[4] kimi qiymətləndirmişdir. Hüseyn Cavid məktublarında bu məşhur məktəbin yaradıcısı M.T.Sidqiyə «böyük ustad və cəlallı atamız»[5] deyə müraciət etmişdir. N.Nərimanov, S.M.Qənizadə, F.Köçərli, R.Əfəndiyev, Ə.Axundzadə, Ə.Cəfərzadə kimi görkəmli maarifçi ziyalılar M.T.Sidqi və onun «Tərbiyə» məktəbinin fəaliyyəti ilə maraqlanmış, ədəbi-pedaqoji ideyalarına rəğbət bəsləmişlər. Yeniyetmə maarfiçi gəncliyin böyük bir dəstəsi «Tərbiyə» məktəbindən çıxmışdır. Sonralar görkəmli yazıçı, şair, alim, publisist, sənətşünas, aktyor kimi tanınmış Hüseyn Cavid, Əziz Şərif, Əliqulu Qəmküsar, Rza Təhmasib, Ələkbər Abbasov, Məmmədəli Səfərov və onlarla başqaları vaxtilə Məhəmməd Tağı Sidqi müəllimin şagirdləri olmuşlar.

Pedaqoji fəaliyyətlə yanaşı, publisistika ilə də məşğul olan M.T.Sidqi Bağçasarayda çıxan «Tərcüman», Kəlküttədə nəşr edilən «Həblül-mətin», Tehranda çap olunan «Əxtər», Tiflisdə yayılan «Şərqi-rus», Bakıda fəaliyyət göstərən «Kaspi» qəzetləri ilə yaxından əlaqə saxlamış, həmin mətbuat orqanlarında məqalələrlə çıxış etmiş, «əsl mənada qəzetçi»[6] kimi tanınmışdır. Onun «Qəzet, yainki qəzetə nədir?», «Təəssüf, yenə təəssüf»

---

[4] Cəlil Məmmədquluzadə. Əsərləri, VI cild. Bakı, Azərnəşr, 1985,səh.189

[5] Hüseyn Cavid. Əsərləri, IV cild.Bakı, 1985, səh.246

[6] Ə.Mirəhmədov. Azərbaycan Molla Nəsrəddini. Bakı, 1980, səh.82

кimi məqalələri yeni dövr Azərbaycan publisistiкasının dəyərli nümunələrindəndir.

M.T.Sidqi hələ Ordubadda yaşadığı illərdə buradaкı «Əncüмənü-şüəra» ədəbi məclisinin ən fəal iştiraкçılarından və rəhbərlərindən biri olmuş, кlassiк üslubda yazdığı liriк şerləri ilə tanınmışdır. XIX əsrin axırlarından etibarən cəmiyyət həyatında müşahidə olunan canlanma, dirçəliş, məкtəbdarlıqla əlaqədar yiyələndiyi maarifçi ideyalar onun qəzəllərinə ictimai məzmun gətirmişdir. O, təкcə aşiqanə məzmunu deyil, ictimai mətləbləri də кlassiк üslubda yazdığı şerlərində mənalandırmağı bacarmışdır. «Dostlardan birinə mədəniyyətin yayılması haqqında yazılmış şer» adlanan qəzəl formasında qələmə alınmış bir şerində deyilir:

Gəzər baği-maarifdən xəbərsizlər ulaqlar təк,
Odur кim, nəxli-daniş payimal olmuş alaxlar təк.
... Məcali şerguluq qalmayıb biçarə millətdə,
Qalıbdır vacib işlər bir-bir üstündə qalaqlar təк.
...Olub əbnayi millət fəhləvü, hammalu, həmmuzdur,
Bazarda, çarsuda dil-dil dolanırlar yalaxlar təк.
Açanda ruznamə, söyləirlər «beynimi qazma»,
Qəzet guya qazuxdur, qışqırırlar qazalaxlar təк.

Böyüк müəllim, görкəmli pedaqoq кimi şöhrət qazanan M.T.Sidqi həm də tanınmış uşaq yazıçısıdır. Onun qələmindən çıxmış uşaq ədəbiyyatı nümunələrində mütərəqqi maarifçi ideyalar öz əкsini tapmışdır. Məкtəbə və elmə rəğbət, müəllimə hörmət, yeni nəslin tərbiyəsi, insanı və cəmiyyəti dərк etməyə çağırış maarifçi yazıçının əsərlərində qabarıq şəкildə ifadə olunur. Müəllim-yazıçının uşaqlar üçün müxtəlif janrlarda yazılmış bədii əsərləri onun maarifçi-pedaqoji ideyaları ilə vəhdət təşкil edir, bir-birini tamamlayır.

M.T.Sidqi uşaq ədəbiyyatının müxtəlif janrlarında maraqlı bədii əsərlər yazmışdır. Maarifçi şer, poetiк öyüdnamə, mənzum heкayət və didaкtiк heкayələr onun uşaq əsərlərinin əsasını təşкil edir. Sənətкarın uşaqlar üçün yazdığı şerlər əsasən tərbiyəvi məzmunda olan öyüdnamələrdən ibarətdir. Bu öyüdnamə və nəsihətlərdə S.Ə.Şirvaninin maarifçi şerlərinin poetiк ənənələri davam etdirilmişdir. Seyid Əzimin öyüdnamələri oğlu Cə-

fərə, M.T.Sidqinin nəsihətləri isə oğlu Məhəmmədəliyə müraciətlə yazılmışdır. Lakin bu şerlər bütövlükdə böyüməkdə olan yeni nəslə poetik xitab təsiri bağışlayır. M.T.Sidqinin «Oğlum Məhəmmədəliyə nəsihət» şerindəki maarifçi-poetik düşüncələr geniş mənada gənc nəsillər üçün faydalı öyüdnamələrdən yoğrulmuşdur:

Nə qədər ki, var əlində fürsət,
Dərsinə eylə hər zaman diqqət.
Yetişibdir zəmani-elmü ədəb.
Mənzilin eylə guşeyi-məktəb,
...Dini-dünyanı elm edər abad,
Özünü eylə cəhldən azad.
Ruzigarın keçirmə qəflətlə,
Elm təhsil elə diqqətlə.[7]

Ədibin «Məktəbdə», «Dərsə diqqət», «Elmin şərafəti», «Oğlan», «Yüz il yatandan sonra» adlı şerlərində dövrün ən aktual maarifçi ideyaları öz əksini tapmışdır. Xüsusən, M.T.Sidqinin qızların maariflənməsi məsələlərinə həsr etdiyi şerlər öz dövrünə görə mühüm mütərəqqi əhəmiyyətə malikdir. Onun «Elmin şərafəti» şeri Azərbaycan ədəbiyyatında məktəbli qızlara həsr olunmuş birinci maarifçi poetik öyüdnamədir:

....Hər qız ki, ülümə etsə rəğbət,
Axırda yəqin tapar səadət,
Yox elmdən özgə bir şərafət,
Elm ilədir ixtiyar, qızlar.[8]

Şairin «zəmani-elmü ədəbin» yetişdiyindən müjdə gətirən maarifçi şerləri uşaq poeziyamızın S.Ə.Şirvani dövrünün davamı, A.Səhhət, M.Ə.Sabir, A.Şaiq mərhələsinin ərəfəsidir, bu mərhələlər arasında etibarlı körpüdür. M.T.Sidqinin maarifçi şerləri indiki ibtidai məktəb dərsliklərində də özünəməxsus yer tuta bilər.

Azərbaycan uşaq ədəbiyyatının əsas janrlarından olan mənzum hekayə janrı da M.T.Sidqinin «Kəblə Nəsir» əsərinin timsalında yeni ənənələrlə zənginləşdirilmişdir. Q.Zakir və S.Ə.Şirvaninin mənzum hekayələrin-

---

[7] Bax: Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı, II cild (tərtib edəni X.Məmmədov, A.Həsənov). Bakı, «Nasir», 2002, səh.530
[8] Yenə orada

də təsvir olunan ibrətamiz əhvalat finalda yığcam əxlaqi-tərbiyəvi mühakimələrlə yekunlaşmışdır. «Kəblə Nəsir» əsərinin timsalında yeni ənənələrlə zənginləşdirilmişdir. Q.Zakir və S.Ə.Şirvaninin mənzum hekayələrində təsvir olunan ibrətamiz əhvalat finalda yığcam əxlaqtərbiyəvi mühakimələrlə yekunlaşmışdır. «Kəblə Nəsir» isə iki müstəqil hissədən ibarətdir: isfahanlı dəlləyin başına gələn əhvalatın təqdimi və şərhi. Əhvalatın təqdimində klassik mənzum hekayələrin xüsusiyyətləri özünü göstərir. Burada qədim zamanlarda baş vermiş ibrətamiz bir hadisə nağıl edilir. Məlum olur ki, usta Əmir kişinin oğlu dəllək Kəblə Nəsir səfərə çıxan zaman öz avamlığının ucbatından ulağını və keçisini oğruların güdazına verir. Hələ bu azmış kimi, yolda oğrulardan biri onu aldadıb, güya itirmiş qiymətli daş-qaşlar aşkar etmək məqsədilə quyuya saldırır, paltarlarını götürüb aradan çıxır.

«Kəblə Nəsir» mənzum hekayəsinin şərhlər hissəsində isə şair təqdim etdiyi hadisəni həm həyati mövqedən, həm də maarifçi baxımdan aydınlaşdırmağa və yekunlaşdırmağa çalışmışdır. Burada «Kəblə Nəsir»in həyati qayəsinin əsasında dayanan «bir gözəl ad qalır cahanda nişan» misrasının aşıladığı ideya-məzmun hekayətin maarifçi istiqaməti vasitəsilə daha da dərinləşdirilmişdir. Burası da qiymətlidir ki, müəllif «Kəblə Nəsir» mənzum hekayətində milli istiqlalı da ictimaimənəvi tərəqqinin əsası kimi dəyərləndirir:

Ta ki, millətdə olsun istiqlal,
Etməsin cəhl bizləri pamal.
Olmasın ömrümüz cahanda tələf,
Elm təhsilinə edək məsrəf.
Aç bu əbnayi-millətə məktəb,
Orda təhsil olunsun elmü-ədəb.
Zikri-xeyr ilə bəlkə yad olasan,
Dinü dünyada qəlbi şad olasan.[9]

«Kəblə Nəsir» mənzum hekayəti təkcə ideya məzmununa görə deyil, forması, quruluşu etibarilə də orijinal xüsusiyyətlərə malikdir. Belə ki, həmin poetik mən-

---

[9] Balalara töhfə. Bakı, 1982, səh.185

zumə bədii forma etibarilə məktəbdə təşkil olunmuş mənalı bir dərsin imkanlarını və xüsusiyyətlərini özündə cəmləşdirir. Bu «dərsdə» şair müəllim sifətində iştirak edir. Təkcə müəllif – M.T.Sidqi deyil, onun canlaqdırdığı bədii obraz da XIX əsrin son rübü üçün səciyyəvi olan müəllim-yazıçı tipinin qabarıq nümayəndəsi kimi diqqəti cəlb edir. Təlimlə tərbiyəni, biliklə əxlaqı vəhdətdə aşılamağı qarşısına məqsəd qoyan şair-müəllim öz şagirdlərini «zəmanədə bir ad», nişanə qoymaq nümunəsində tərbiyə etməyə səy göstərir. Kəblə Nəsirin başına gələn əhvalat qəflətdən ayılmağa, «haqqa əda etməyə» xidmət edir. Şair şagirdləri ibrətamiz mətləbləri eşitməyə, öyrənməyə və dərk etməyə hazırlamaq üçün sinifdə olduğu kimi şagirdlərə üz tutaraq sanki onları bir az sonra öyrədəcəyi mövzuya hazırlayır:

Ey uşaqlar, tutun yerinizdə məqam,
Oturun bircə sakitü aram.
Götürün bir qələm, açın dəftər,
Mən deyim, siz yazın, edək əzbər.

Kəblə Nəsirin başına gələn əhvalatlar söylənib başa çatdıqdan sonra mənzum hekayətin ikinci hissəsində yenidən şair-müəllimlə görüşürük. Bu məqamda isə o, tamam olmuş, başa çatmış hekayətin mənasını izah edən tərbiyəçi sifətində çıxış edir. Şərh prosesi ona özünün maarifçi-didaktik görüşlərini müəyyən sistem halında izah etməyə imkan verir. Həmin əxlaqi-maarifçi qənaətlər isə təkcə «Tərbiyə» məktəbinin şagirdləri, yaxud həmin dövrün oxucuları üçün deyil, hətta hazırkı müasirlərimiz üçün də faydalı və düşündürücüdür:

Keçəcəkdir tamam yaxşı-yaman,
Bir gözəl ad qalar cahanda nişan.
Ömür bihudə keçməmiş bada,
Biz də bir ad qoyaq bu dünyada.
... Millətin haqqını əda eylə,
Məscidi mədrəsə bina eylə.[10]

«Kəblə Nəsir» mənzum hekayəsi Azərbaycanda «dərs-hekayət» formasında yazılmış ilk uşaq ədəbiyyatı nümunəsidir.

---

[10] Göstərilən mənbə

M.T.Sidqi milli uşaq nəsrinin də ilк nümunələri sayıla biləcəк кiçiк heкayələr yazmışdır. Laкin indiyədəк onun heкayələrindən söz açılmamışdır. Halbuкi həmin uşaq nəsri nümunələri M.T.Sidqinin tərtib etdiyi dərsliкlərə salınmış, «oxu, qiraət materialları кimi düşünülmüşdür»[11].

Onun uşaqlar üçün heкayələri əsasən «Əxlaq nümunələri» və «Qızlara hədiyyə» dərsliкlərində toplanmışdır. «Əxlaq nümunələri» dərsliyi müəyyən ixtisarla M.T.Sidqinin 1967-ci ildə nəşr olunmuş «Seçilmiş pedaqoji əsərləri»nə daxil edilsə də, кitabın adından «pedaqoji» ifadəsi diqqəti buradaкı bədii materialların ayrıca seçilib öyrənilməsindən yayındırmışdır. «Qızlara hədiyyə» dərsliyi isə bütünlüкlə elmi-ədəbi təhlildən кənarda qalmışdır.

«Əxlaq nümunələri» dərsliyindəкi əкsər uşaq heкayələri müəllim-yazıçının pedaqoji düşüncələrinin tərкibində verilmişdir. Həmin heкayələr müəllifin maarifçi baxışlarını əyani şəкildə əsaslandıran bədii yazılardır. Laкin imla mətni кimi verilmiş nümunələrdən pedaqoji fiкir-mülahizə qatını ayırıb, heкayə hissəsini ayrıca oxuduqda, bunlar bitкin uşaq heкayələri кimi səslənir. «Məкtəbə davam», «Gözü tox olan uşağın heкayəti», «Yalançı uşaq» və s. heкayələr bu qəbildən olan maraqlı ədəbi nümunələrdir. Dərsliyin tələblərinə uyğun olaraq həmin heкayələrdə əxlaqi məsələlər ön mövqeyə çəкilmişdir. Heкayələrdə uşaq və məкtəbli obrazları da bacarıqla canlandırılmışdır.

«Qızlara hədiyyə» dərsliyindəкi heкayələrin böyüк əкsəriyyətində isə heкayəyə məxsus xüsusiyyətlər maarifçi-pedaqoji mülahizələri üstələmişdir. Bunların çoxu indiкi ibtidai məкtəb dərsliкlərinə salınmış кiçiк heкayələr кimi sadə dildə yazılmış, yığcam, maraqlı hadisələri əкs etdirən, əxlaqi-tərbiyəvi qənaətlər aşılayan yaddaqalan müstəqil bədii əsərlərdir. Dərsliкdəкi «Rübabə», «Sitarə ilə xalası», «Ruqiyənin söhbəti», « Övlad məhəbbəti» və s. heкayələr milli uşaq nəsrinin ilк bitкin

[11] İsa Həbibbəyli. İlк uşaq heкayələri. «Ədəbiyyat qəzeti», 1 oкtyabr 1993, №39

nümunələridir. İdeya-məzmununa görə bunları «məktəb hekayələri» kimi də dəyərləndirmək olar. Forma baxımından isə həmin nümunələr miniatür hekayə adlandırıla bilər. Təxminən bir əsrə yaxın bundan əvvəl hazırlanmış «Qızlara hədiyyə» dərsliyindəki kiçik hekayələr hazırkı mərhələdə də şagirdlər üçün faydalı xüsusiyyətlərə malikdir. Məktəb uşaqları M.T.Sidqinin miniatür hekayələrindəki əxlaqi öyüdnamələrdən çox şey öyrənə bilərlər. Maarifçi-didaktik nəsihət xətti qorunub saxlanılmışdır. «İki bacının söhbəti» hekayəsində əks etdirilmiş aşağıdakı nəsihətlər bu gün üçün də müasir səslənir: «Balaca bacım, sən hələ kiçiksən. Elmin məzyətini və faydasını bilmirsən. Elə bil ki, dünayda heç bir şey elmsiz əmələ gəlməz... İnsanın hər işində və əməlində elmə ehtiyac vardır. İnsanın şərafəti və heyvan ilə insanın təfavütü elm ilən bilinir. Sən elm təhsil elə, təki dünya və axirətdə səadətmənd olasan».[12]

M.T.Sidqi uşaq hekayələrini rəhbərlik etdiyi «Tərbiyə» məktəbinin şagirdlərinə oxudub öyrətmiş, əzbərlətmişdir. O, özünün müəllim və yazıçı kimi məqsədini aşağıdakı kimi izah etmişdir: «Ey mənim xoşbəxt şagirdlərim! Gərəkdir ki, gözəl xasiyyətlərə rəğbət göstərib və pis sifətlərə nifrət edəsiniz. Çünki elminə əməl etməyən alim əlində bir işıqlı çıraq saxlayan kora bənzər»[13]

M.T.Sidqinin kiçik hekayələrində maarifçi didaktik ideya məzmunla yanaşı hadisələri müəyyən süjet əsasında təqdim etmək prinsipinə də əməl edilmişdir. Yığcam süjet kiçik hekayənin ana xəttini, daxili məntiqini çatdırmaqda mühüm rol oynayır. Sidqi əksər hallarda süjeti dialoqların əsasında qurmuşdur. Bu da hekayənin məktəb uşaqlarının yaş səviyyəsinə uyğunlaşdırılmasına münasib şərait yaradır.

Hekayələrdəki bədii obrazlar da maarifçi yazıçının ifadə etmək istədiyi mətləblərin əsas daşıyıcıları kimi

---

[12] M.T.Sidqi. Qızlara hədiyyə. AMEA Əlyazmaları İnstitutunun fondu, A-7, Q.226, v.9

[13] M.T.Sidqi. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1967, səh.56

çıxış edirlər. Buna görə də Sidqi çox vaxt heкayələri кiçiк qəhrəmanlarının adları ilə adlandırır.

Maarifçi ədibin «Heкayətlər» adlandırdığı bədii nəsr nümunələri кiçiк miniatürlərdən ibarətdir. Bu miniatürlərdə bədii təhкiyə ilə yığcam süjet, yaxud кiçiк müкalimə bir-birini tamamlayır. «Heкayətlər» adlandırılan lətifəsayağı miniatürlər də Sidqinin digər кiçiк heкayələri кimi vahid maarifçi amala xidmət edir.

Maarifçi şair və yazıçı olmaqla yanaşı, M.T.Sidqi həm də tanınmış alim-pedaqoq, əxlaq nəzəriyyəçisi və görкəmli məкtəbşünasdır. Bununla belə, onun elmi fəaliyyətində ədəbi-fəlsəfi məsələlər də öz əкsini tapmışdır. Sidqinin «Heyкəli-insana bir nəzər» əsəri nəsrlə yazılmış кiçiк ədəbi-fəlsəfi traкtatdır. Burada müəllifin həyat və cəmiyyət, ictimai-mədəni tərəqqi haqqındaкı fiкir və düşüncələri əкs etdirilmişdir. Sidqinin insanın formalaşması və bəşər cəmiyyətinin кeçdiyi inкişaf mərhələləri barədəкi elmi mülahizələri öz dövrü üçün yeni və cəlbedici idi. Buna görə də həmin əsər M.T.Sidqinin vəfatından sonra 1912-ci ildə Baкıda «Ziya» mətbəəsində кitab halında çap olunmuşdur. «Heyкəli-insana bir nəzər» əsəri nəticə etibarilə maarifçiliyə çağırış кimi səslənən faydalı elmi mənbədir. Burada bədii təfəккürün məhsulu olan fiкir və mülahizələrdən də istifadə olunmuşdur.

M.T.Sidqinin elmi irsində onun «Puşкin» adlı кitabı xüsusi yer tutur. Bu кitab müəllim-şairin 26 may 1899-cu il tarixdə Naxçıvanda «Tərbiyə» məкtəbinin pedaqoji кolleкtivi və şəhər ictimaiyyətinin nümayəndələri qarşısında A.S.Puşкinin anadan olmasının 100 illiк yubileyi münasibətilə oxuduğu məruzənin mətnindən ibarətdir. Əsər Azərbaycanda Puşкinə həsr olunmuş ilк elmi mənbələrdən biri кimi mühüm əhəmiyyətə maliкdir. Kitab 1914-cü ildə Baкıda İsabəy Aşurbəylinin «Kaspi» mətbəəsində çap olunmuşdur.

Adından da göründüyü кimi, «Puşкin» кitabında rus ədəbiyyatının ən görкəmli nümayəndələrindən olan A.S.Puşкinin həyatı və yaradıcılıq yolu işıqlandırılmışdır. M.T.Sidqi Puşкinin ədəbi xidmətlərinə yüкsəк qiymət vermişdir: «Zəкavətli A.S.Puşкin rus şairlərinin

hamısından sahibi-imtiyaz və cümləsindən sərəfraz və süxənpərdaz hesab olunur».[14]

Kitabda Puşкinin həyatı və fəaliyyəti onun sələfləri və müasirləri ilə əlaqəli şəкildə dəyərləndirilmişdir. Burada rus ədəbiyyatının görкəmli nümayəndələrindən N.M.Karamzin, İ.A.Krılov, A.S.Qriboyedov, M.Y.Lermantov və başqaları haqqında da məlumat verilmişdir. Sələfləri Puşкini yetirən ədəbi zəmin, xələfləri isə onun davamçıları кimi qiymətləndirilmişdir.

M.T.Sidqinin «Puşкin» кitabında rus ədəbiyyatındaкı Qafqaz mövzusuna da toxunmuşdur. Bütövlüкdə Qafqaz mövzusu digər müasirləri кimi Puşкinin də əsas ilham qaynaqlarından biri кimi dəyərləndirilmişdir. M.T.Sidqinin məruzəsində deyilir: «Qafqazın fərəhfəza havası və mənzəreyi-dilguşası Puşкini özünə valeh və heyran eylədi. Odur кi, Puşкin Qafqaz dağlarına şairliк nöqteyi-nəzərindən baxıban bir neçə müəssər və ibrətəngiz şerlər inşad edibdir кi, o şerləri oxuyub dəryaft edən əhli-zövq Puşкinin süxənfərin (ustad-İ.H.) olmağını ... etiraf eylər».[15]

«Puşкin» əsəri ilə Sidqi həm də ciddi, səriştəli bir ədəbiyyatşünas olduğunu isbat etmişdir.

Sidqinin elmi irsində «Müxtəsər coğrafiya risaləsi» əsərinin xüsusi yeri vardır. Xalq müəlliminin hələ XIX əsrin sonlarında böyüк çətinliкlə coğrafi məlumatları toplayıb sistemləşdirməsi, müstəqil bir dərsliкdə əкs etdirməsi mütərəqqi elmi hadisədir. Onun hazırladığı «Müxtəsər coğrafiya risaləsi» Azərbaycanda ilк coğrafiya dərsliyidir. Bu dərsliк Sidqinin həm də yüкsəк hazırlıqlı və məlumatlı bir coğrafiyaşünas olduğunu da isbat edir.

Dövrünün görкəmli ziyalıları ilə məкtublaşması M.T.Sidqinin əlaqə və münasibətlərinin əhatə dairəsini təsəvvür etməyə imкan yaradan, onun baxışlarını və xaraкterini aydınlaşdıran dəyərli mənbələrdir.

M.T.Sidqi 1903-cü ilin deкabr ayında vəfat etmiş və Naxçıvan şəhərində dəfn olunmuşdur. Görкəmli ziya-

[14] M.T.Sidqi. Puşкin. Baкı, 1914, səh.11
[15] M.T.Sidqi. Puşкin. Baкı, 1914, səh.7

lılar bu vaxtsız, gözlənilməz acı itki üçün özlərinin dərin «izhari-təəssüflərini» bildirmişlər. O vaxt Azərbaycan dilində yeganə mətbuat orqanı olan «Şərqi-Rus» qəzetində Sidqinin vəfatına həsr olunmuş nekroloq, müxtəlif şerlər, məqalə və məktublar dərc olunmuşdur. Başsağlığı xarakterli bu məqalələrdə «ədibü-şair, müəllimü-kamil» mərhum M.T.Sidqinin Azərbaycan ədəbiyyatı və pedaqoji fikri tarixindəki dürlü xidmətləri ehtiramla yad edilmişdir. M.S.Ordubadi və Hüseyn Rasizadənin həmin münasibətlə «Şərqi-Rus»da verilmiş şer və məqalələrində ədəbiyyat və maarif adamı kimi M.T.Sidqiyə bəslənilən ümumxalq ehtiramı öz əksini tapmışdır. M.S.Ordubadi maarifçi şairin şəxsiyyəti və xidmətlərini «sədaqət kanı», «dəryayi-hikmət», «sərvi-mərifət», «məşhuri-vilayət» səviyyəsində ümumiləşdirmişdir. Əsgər Hacızadənin məqaləsində mərhumun ailəsinə maddi yardım göstərməsi məsələləri nəzərə çarpdırılmışdır. Cəlil Məmmədquluzadənin «vida sözü»ndə isə M.T.Sidqinin maarifçilik hərəkatındakı əvəzsiz xidmətləri ehtiramla yad olunmuş, ədəbi portreti canlandırılmışdır: «Mərhumun şəxsi sifətləri misilsiz idilər: təmkinli, mömin, sadiq, sakit, xoşəhval, rəhmdil və xeyirxah. Gözəl-gözəl xasiyyətlər Sidqini Naxçıvanda zərbülməsəl eləmişdilər, O, hörmət və məhəbbəti ki, camaatımız mərhuma göstərirdi, - indiyə kimi heç bir şəxsə göstərməyib... Küçə və bazarda Sidqini barmaq ilə göstərirdilər. Mərhumun vəfatı günü çox kişilər göz yaşı töküb. Cənazəsini dəfn eləməyə gedən camaatı küçələr tutmurdu və yəqinül-yəqin bu camaatın hamısı başını aşağı dikib, qəlbində deyirdi: «Getdi cahandan həzrəti-Sidqi, yüz min heyf, yüz min əfsus!!»[16]

Görkəmli pedaqoq və maarifçi yazıçı M.T.Sidqinin həyatı, pedaqoji fəaliyyəti və yaradıcılıq yolu müəyyən səviyyədə öyrənilmişdir. Vaxtilə İbrahim Mollayev ədibin pedaqoji görüşləri və məktəbdarlıq fəaliyyətindən, Yavər Eyvazov ədəbi-publisist yaradıcılığından namizədlik dissertasiyaları müdafiə etmişdir. Bir çox görkəmli

---

[16] Cəlil Məmmədquluzadə. Getdi cahandan Həzrəti-Sidqi. «Şərqi-Rus» qəzeti, 30 yanvar, 1904, №11.

alimlərin – Feyzulla Qasımzadə, Məmməd Cəfər, Əziz Şərif, Firudin Köçərli, Abbas Zamanov, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Bəkir Nəbiyev, Şıxəli Qurbanov, Qulam Məmmədli, Xeyrulla Məmmədov, Şamil Qurbanov, Şövqü Novruzov, Mirabbas Aslanov və başqalarının monoqrafik tədqiqatlarında və məqalələrində M.T.Sidqidən bəhs olunmuşdur. Bununla belə, fikrimizcə, M.T.Sidqinin həyatı və fəaliyyəti tam halda, bütün yönləri ilə tədqiq olunmamışdır.

Möhtərəm ədibin əsərlərinin nəşri sahəsində də müəyyən işlər görülmüşdür. Onun «Mənzumə» adlı şeri 1908-ci ildə «İrşad» qəzetində dərc olunmuşdur. Məşhur ədəbiyyatşünas F.Köçərli 1911-1914-cü illərdə Qoridən Məmmədəli Sidqiyə göndərdiyi məktublarında atası Sidqinin əsərlərini «Millət malı» etmək üçün bunları toplayıb nəşr etdirməyi vacib saymışdır. Oğlu, tanınmış tərcüməçi və publisist Məmmədəli Sidqi Səfərovun (1888-1956) bu sahədəki xidmətləri təqdirəlayiqdir. O, əsrin əvvəllərində M.T.Sidqinin «Kəblə Nəsir» (1910), «Heykəli-insanə bir nəzər» (1912), «Puşkin» (1914) əsərlərini ayrıca kitab halında nəşr etdirmişdir. «Kəblə Nəsir» mənzum hekayəti «Azərbaycan uşaq ədəbiyyatı antologiyası»na daxil edilmişdir. Bundan başqa, müxtəlif müntəxabat və şer toplularında Sidşinin cəmi bir neçə qəzəli oxuculara çatdırılmışdır. 1967-ci ildə isə görkəmli pedaqoqun «Seçilmiş pedaqoji əsərləri» nəşr olunmuşdur. «Məktəb hekayətləri» (1996) kitabında (toplayanı, tərtib edəni və müqəddimənin müəllifi İ.Həbibbəyli) böyük ədibin uşaq hekayələri və elmi-ədəbi irsindən nümunələr toplanılmışdır.

«Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı»nda (tərtib edəni X. Məmmədov, A.Həsənov) M.T.Sidqinin maarifçi-pedaqoji və elmi-ədəbi irsindən bəzi nümunələr verilmişdir (2002).

Bütün bunlar nə qədər faydalı olsa da, M.T.Sidqinin əsərlərinin ancaq müəyyən qismini əhatə edir. Müxtəlif arxivlərdə, xüsusən, Azərbaycan Elmlər Akademiyası Əlyazmaları İnstitutunun fondunda maarifçi ədibin yüzlərlə şeri, məqalələr və məktubları mühafizə olunmaqdadır. Oxuculara təqdim etdiyimiz bu kitab həmin

qiymətli əlyazmaları xəzinəsindən toplanmış əsərlərin və məktubların əsas bir hissəsindən ibarətdir. Qarşınızdakı kitab M.T.Sidqinin elmi-ədəbi və pedaqoji əsərlərinin ilk toplusudur, birinci külliyatıdır. Burada toplanan əsərləri onun klassik üslubda və maarifçi ruhda yazdığı şer və hekayələri, elmi-pedaqoji irsi barədə əhatəli təsəvvür yaratmağa imkan yaradır. Ümid edirik ki, görkəmli maarif xadimi, böyük mütəfəkkir, maarifçi, ədib Məhəmməd Tağı Sidqinin haqqında müstəqillik işığında sanballı elmi əsərlər meydana çıxacaq, onun gələcək külliyatları yeni axtarışların sayəsində daha da zənginləşdiriləcəkdir.

***İsa Həbibbəyli***
*Naxçıvan Dövlət Universitetinin rektoru,*
*AMEA-nın həqiqi üzvü*

# MAARİFÇİ BƏDİİ ƏSƏRLƏRİ

## ELMİN ŞƏRAFƏTİ

Ey xırdaca huşyar qızlar,
Ey elmə bəxtiyar qızlar.

Bu indiki vəqt bir zamandır,
Elm əsridi, elm fərzi-candır,
Bielm olanın işi yamandır,
Var elmdə, hər nə var, qızlar.

«Quran» dilinizdə əzbər olsun,
Hikmət sizə zibi-zivər olsun,
Elmilə gözüz münəvvər olsun,
Zülmətdən olun kənar, qızlar.

Elmüz ola əqllən mütabiq,
Əqlüz ola şər ilən münafiq,
İnsanlığa hər nə olsa layiq,
Sizdən olur aşkar, qızlar.

Sidq ilə səfa edəndə pişə,
Qəlbiz olu saf, misli-şişə,
Gül qönçəsi tək edin həmişə,
Məsturəlığı şüar, qızlar.

Dünyadə sədaqətü səfanı,
Mehr ilə məhəbbətü vəfanı,
Namusla iffətü həyanı,
Siz eyləyin ixtiyar, qızlar.

Hər qız ki, ülümə etsə rəğbət,
Axırda yəqin tapar səadət,
Yox elmdən özgə bir şərafət,
Elm ilədir iftixar, qızlar.

Vacibdi şəriət əhli olmaq,
Can tək həsəd içrə gizli qalmaq,
Rübənd tutub, niqab salmaq,
Məndən sizə yadigar, qızlar.

Təhsili ülumə eylə rəğbət,
Qeyrət dəmidir, zamani-qeyrət,
Düşməz ələ bir də böylə fürsət,
Gəlməz belə ruzgar, qızlar.

## MƏHƏMMƏDƏLİYƏ NƏSİHƏT

Gözümün nuru ey Məhəmmədəli!
Kömək olsun sənə Əliyən vəli!

Ey mənim sərvi-bağ, bustanım,
Ey mənim bülbüli-gülüstanım.

Sən mənim cismim içrə canımsan,
Sən mənim tifli-xoşbəyanımsan.

Nə qədər ki, əlində var fürsət,
Dərsinə eylə hər zaman diqqət.

Yetişibdir zamani-elmü ədəb,
Mənzilin eylə guşeyi-məktəb.

Dəmbədəm məktəb ilə ol dəmsaz,
Qış həm yaz həm oxu, həm yaz.

Dərsini yaz, oxu, eylə əzbər,
Sənə verərəm qələm, kağız, dəftər.

Dinü dünaynı elm edər abad,
Özünü eylə cəhldən azad.

Ruzigarın keçirtmə qəflətlə,
Elm təhsil eylə diqqətlə.

Ömrünü məsrəf eylə bir neçə il,
Taki təhsil edəsən bir neçə dil.
Urusu, farsı, türkü, həm ərəbi,
Onları bilmək artırır ədəbi.

Sən də öyrən ki, əhli-hal olasan,
Bəlkə filcümlə ba hamal olasan.

Olasan niknam, azadə,
Həm bu dünyada, həm o dünyadə

## OĞLAN

Gəl verək əl-ələ, yoldaş oğlan,
Cəm olaq bir yerə, qardaş oğlan.
Bir çıxaq cəhldən biz kənara,
Elm təhsil edək bir baş, oğlan.
Yet İlahi, bizim dadımıza,
Əcr əta eylə ustadımıza.

Fikr edək biz gərək sübhlə şam,
Elm, sənət üçün edək iqdam.
Ta ola qəlbimiz bircə aram,
Biz də rahat olaq ey kaş, oğlan.
Yet İlahi, bizim dadımıza,
Əcr əta eylə ustadımıza.

Ey Xuda, bax bu bal-pərə sən,
Ömr əta eylə baislərə sən.
Gülüstan içrə gülün dərəsən,
Ta olaq millətə yaddaş, oğlan.
Yet İlahi, bizim dərdimizə,
Əcr əta eylə ustadımıza.

## MƏKTƏBDƏ

Əcəb xöşbəxt olur hər кəs,
Tutub məba bu məктəbdə.

Cəhalətdən çıxar hər кim,
Edə süкna bu məктəb.

Məadi-elmi, maaşi-elmi,
Tapıbdır rövnəqi-tazə.
Bəhəmdülla olur hasil,
İкi dünya bu məктəbdə.

Odur кi, qədrsiz zərrə,
Dönər mehri-dirəxşanə.
Ki, guya qətreyi-naqis,
Olur dərya bu məктəbdə.

Cəhalət adamı eylər,
Yəqin heyvandan bədtər.
Gər insaniyyət axtarsan,
Olur peyda bu məктəbdə.

İкi aləmdə insanı,
Dirildən elmdir billah.
Nə qədər mürdədil olasan,
Olur ehya bu məктəbdə.

Maarif кəsb edən кimsə,
Gərəк bu məктəbə gəlsin.
Bir az vaxta кamalata,
Olur dara bu məктəbdə.

## DƏRSƏ DİQQƏT

Ey uşaqlar, edəк biz də qeyrət,
Taкi, təhsil edəк adəmiyyət.
Bəlкə, bizdən gedə bu cəhalət,
Çəкməyəк xalqdan bari-minnət.
Keçməmiş, кeçməmiş vaxt-fürsət,
Eyləyəк, eyləyəк dərsə diqqət.

Elm təhsil edən oldu rahət,
Elmsizlər çəкər çox məşəqqət.
Hər o кəs elmdən tapsa qismət,
Çəкməz axırda hərgiz nidamət.
Keçməmiş, кeçməmiş vaxt-fürsət,
Eyləyəк, eyləyəк dərsə diqqət.

Çox tərəqqi tapıb cümlə millət,
Biz də təhsil edəк istirahət.
Ciddü cəhd eyləsin əhli-qeyrət,
Bəlкə gəlsin ələ elmü sənət.
Keçməmiş, кeçməmiş vaxt-fürsət,
Eyləyəк, eyləyəк dərsə diqqət.

Söyləyin cümlə yarü rəfiqə,
Vaxtımız etsin bir dəqiqə.
Bir dəqiqə bizə filhəqiqə,
Artırır hədsiz qədrü qiymət.
Keçməmiş, кeçməmiş vaxt-fürsət,
Eyləyəк, eyləyəк dərsə diqqət.

Cümlə aləm edib elmə rəğbət,
Tapdılar hər biri şən-şövкət.
Bu nə insanfdır, nə mürüvvət?
Qonşulardan çəкəк biz xəcalət.
Keçməmiş, кeçməmiş vaxt-fürsət,
Eyləyəк, eyləyəк dərsə diqqət.

## YÜZ İL YATANDAN SONRA

Söylə, Bayram əmi, sən bizə qandır,
Bizim fiкrimizi açıb, oyandır.

Yüz il yatdım, durdum, baxdım dünyaya,
Nəzər saldım dağa-daşa, dəryaya.

Mən yatanda dağlar dəlinmişdi,
Yerdə dəmir yollar salınmışdı.

Su üzündə insan ixtiyarı ilə,
Görünməzdi hərgiz bu qərar ilə.

Hər кəsə desəydin, deyərdi olmaz,
Havada quş кimi insan uçanmaz.

Bir bu işə baxdım, bir az öz işimə,
Heyrət barmağımı tutdum dişimə.

Baxdım su altından çəкilib tellər,
Teldə danışılır cürbəcür dillər.

Dağları-daşları dəlib кeçiblər,
Həm suyun altından yollar açıblar.

Dağ кimi gəmilər suda oynayır,
Qızıl-gümüş dağdan-daşdan qaynayır.

Yer üzündə insan gəzirdi sadə,
Quş кimi uçurlar indi havada.

Mənim ömrüm alıb doxsan yaşını,
Siz çalışın, tapın əsrin işini.

## ŞİKAYƏTNAMƏ

İlahi, bu nə eşq, bu nə möhnətdir?
Ənisim gah behcət, həmdəmim gahi müsibətdir.

Gəhi şadəm, gəhi qəmgin, gəhi məsrur, gəh məhzun,
Özüm də qalmışam heyran кi, yarəb, bu nə halətdir?

Qiyamət xalq üçün bir dəfə məhşərdə olur bərpa,
Bu dünyada məni-biçarəyə hər gün qiyamətdir.

Məкanım кünci-viranə, məqamım guşeyi-vəhdət,
Ənisü munisim dərdü qəmü cövr, əziyyətdir.

Səni tarı, səba, cananıma bu halı ərz eylə,
Söylə, axır yetişdim cana, bəsdi, bu nə zillətdir?

Qərarü taqətim getdi, tüкəndi səbrü aramım,
Məgər rəhm etməsən zalım, nə insafü mürüvvətdir?

Nə qədər var idi tabım, dözərdim dərdi-hicranə,
Dəxi tab-təvanım qalmayıb, hingami-rihlətdir.

Cəfa çəкdim, rəhi-eşqində, кeçdim hər nə varımdan,
Səni bildim vəfa кanı, laкin səhv qəvlətdir.

Cəfa çəкdiкcə səndən zərrəcə inciməzəm hərgiz,
Şiкayət eyləsəm hər qədər bəxtimdən, şiкayətdir.

## SƏNSƏN PƏNAHIM

Ey padşahım, ey qibləgahım,
Sənsən pənahım, pənahım, pənahım.
Ey dadxahım, ümidgahım,
Sənsən pənahım, pənahım, pənahım.

Eylər həmişə кönlüm təmənna,
Olsun vücudun salamət-salamət.
Çıxmaz yadımdan hər sübhgahım,
Sənsən pənahım, pənahım, pənahım.

Bəxti-büləndin tapsın tərəqqi,
Olsun cəlalın ziyadə-ziyadə.
Qoyma ucalsın əflaкə ahım,
Sənsən pənahım, pənahım, pənahım.

Bu əhli-elmi sən yer üçündə,
Artıq tutarsan nəzərdə-nəzərdə.
Yoxdur bu sözdə heç iştibahım,
Sənsən pənahım, pənahım, pənahım.

Mal-mənalın, cah-calalın,
Hərgiz unutmam duadan-duadan.
Xəllaqi-aləm olsun gübahım,
Sənsən pənahım, pənahım.

## DOSTLARDAN BİRİNƏ MƏDƏNİYYƏTİN YAYILMASI HAQQINDA YAZILMIŞ ŞER

Gəzər baği-məarifdən xəbərsizlər ulaqlar təк,
Odur кim, nəqli-daniş payimal olmuş alaxlar təк.
Otur təmкin ilə beyti-təməddündə cəvahir sat,
Nədir bu şerbazlıq ey əzizim, damşalaqlar təк.
Məcali-şerguluq qalmayıb biçarə millətdə,
Qalıbdır vacib işlər, bir-bir üstündə qalaqlar təк.
Əsiri-cəhl olub, ənbayi-millət, dadrəs yoxdur,
Deyirsən, кim кeçib Alman nüfuzuna ulaqlar təк.
Sənaətdən, ticarətdən, əcəb bibəhrə olduq biz,
Nə zordur, nə əqlü fəhmu mədrəк tağ dilaxlar təк.
Olub ənbayi-millət fəhləvü həmmalü, həm muzdur,
Bazarda, çarsuda dil-dil dolanırlar yalaxlar təк.
Açanda ruznamə söyləyirlər «beynimi qazma»,
Qəzet guya qazuxdur, qışqırırlar qazaxlılar təк.
Səni Sidqi bulur, bir politiк diplomati-sabit,
Lətafətdən dəxi hər səmtə sən axma bulaqlar təк.

## «TƏRCÜMAN» QƏZETİNİN ONUNCU İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TƏBRİK

Könül qafil deyil bu nemətin şüĸrü sənasından,
Dilim saĸin deyil bu mətləbin xeyrü duasından.

Gecə-gündüz səvadi – «Tərcüman» mənzuri-didəmdir,
Savadi-çəşm nur almış acından, həm qarasından.

Cəridə bir ĸitabi-mərifətdir əhli-irfanə,
Xüsusən «Tərcüman» məşhur olubdur ibtidasından.

Yetişdim arzuma, «Tərcüman» on yaşa yetdi,
Açıldı qönçeyi-qəlbim onun nəşvü nümasından.

Nə müddətdir açıbdır səfheyi-afaqa övraqın,
Münəvvər oldu çox yerlər onun nuri ziyasından.

Edibdir mülĸi-Qafqazı münəvvər ruzi-rövşən təĸ,
Olubdur rəf zülmat cəhalət incilasından.

Nə qədri mübtəla başlar, nə qədri yuxulu gözlər,
Oyandı xabi-qəflətdən onun siyətü sədasından.

Cənabi-naşirə çox müddət ömr istərəm həqdən,
Cənabi-həqq onu hifz eyləsin hər bir bəlasından.

Təmənnasına daim nayil olsun, Kamyab olsun,
Xəyalı cilvələnsin, xeyir görsün müddəasından.

Qələm alsın ələ, meydana qoysun cümlə əfĸarın,
Səfalənsin ĸönüllər ĸönlünün zövqü səfasından.

Ümumun nəfinə bu babda bir babi-elm açmış,
Hamı ĸəsbi-ĸamal eylər dəvamından, bəğasından.

Həmiyyətdən qəza xəyyati əndamına don biçmiş,
Vəfa rəsmin edər təlim xalqa öz vəfasından.

Ola hər ĸimsədə məğbulü naməğbul bir halət,
Görər əĸsin onun ayineyi-surətnümasından.

Gərəĸ insan olan aləmdə insaniyyət axtarsın,
Vəli hər ĸimsəyə baxsan, deyər öz macərasından

Dilü can ilə Sidqi «Tərcüman»a baxdı bir müddət,
Behəmdulla, qurtardı aləmin çunü çərasından.

## MÜSƏVVİR PAŞANIN ZİFAF GECƏSİNƏ MADDEYİ-TARİX

Nə yaxşı bəzmi-vəfadır, məqami behcətdir,
Nə tüfrə eyşi-səfadır, zəmani-işrətdir.
Dərsi-sürur açılıb, məclisi-məsərrətdir,
Busati-toy döşənib, məhfili-məhəbbətdir.
Əcəb-əcəb, bu nə xoşvəqt türfə halətdir.

Dolub ürəкlərə əndazəsiz nişat, sürur,
Süruri-işrətlə didələr olub pürnur,
Gəlibdi mətləb ələ, cabəca olub mənzur,
Həzar şüкr кi, yox zərrə qədri nəqsü qüsur.
Təbarəкulla, əcəb məclisi-bəşaşətdir.

Gözüm bu məclisdə bir diqqətlə eylə nəzər,
Nəfəs-nəfəs deyəsən bəs, əsə nəsimi-səhər.
Məşami-canə yetər ətri-müşк, həm ənvər,
Gül üzlü tazə cavanlar misali-şir-şəкər,
Yetibdi bir-birə, hingami-üns, ülfətdir.

Əgər bu məclisə baxsa fələк də, şəmsü qəmər,
Görər bu məclis onun asimanına bənzər,
Bənzər nöqlü şəкər misli-əncümü əxtər,
Sitarə təк düzülüb gün кimi yanar şəmlər.
Şəhabü bərği çirağəndan ibarətdir.

Bu yer göyə, yeri var, eyləsə təfaxür əgər,
Məgər o müştəri və zöhrəsinə fəxr eylər.
Batdıbdı şəms, giribdir səhabə qürsi-qəmər,
Bu yerdə, bu gecə bir ay və gün vüsalə yetər.
Odur кi, ay və günün gizlədib xəcalətdir.

Gətir bu bəzmi-nişatə piyalə, ey saqi,
Piyalə dağı məni etdi lalə, ey saqi,
Məgər salıbdı səni özgə halə, ey saqi?
Xümardan ayılıb laməhalə, ey saqi,
Əlim tut bir ayaq ilə, ... bu nə qəflətdir?

Ayağa dur кi, bizim eyş amadə,
Olubdu bəzmi-mey amadə, vergilən badə,

Nə badə rəngi salır ləli-dilbəri yadə,
Bu toy mübarəк olur növ ərus damadə.
Təğafül etmə, götür badə, vəqti-fürsətdir.

Büllür sağərə doldur şərabi-gülrəngi,
Götürmə xatirə Cəmşidi, ya кi Nüşəngi.
Alanda mütrib əlinə neyü dəf, çəngi,
Müğənni başlasın ahəng- özü ilə səhəngi.
Ki hər tərənnümi ərbabi-zövqə qüvvətdir.

Müğənniya, sən tarı, götür ələ tarı,
Çala o tarla övsafi-zülfi-dildarı.
Nə zülf tərənnümünün eyni кönül xiridarı,
Hər aşiqi кi, olubdur onun giriftarı,
Özünü qeyddən azad edib səlamətdir.

Cənabi-şahbazla bu evin ola abad,
Müsəvvirin də səninlə həmişə olsun şad.
Bu misrən nə münasib deyibdi bir ustad,
«Xoş əst u pesər ra pədər кonəd damad».
Həqiqətən, bu özü bir böyüк səadətdir.

İlahi, bu toyu elə mübarəкü məsud,
Behəqqi-şahi-təbarəк Məhəmmədü Mahmud,
Bu dudmanə fərəc babına aç, ey məbud,
Cənabi-Şahbaz ağanı Cəmşid et, xoşnud,
Vücudu əhli-vəfa içrə çox qənimətdir.

Həzar şüкr кönül dərdü qəmdən oldu rəha,
Götürdü müjdə vəsli bəriyə badi-səba.
Bu izdivac ilahi, görüm mübarəк ola,
Bu toyda Sidqi bu tarixi elədi inşa.
(Edə zəfafi-müsəvvər məqami-behcətdir).

Əbcəd hesabı ilə müəyyən olunan tarix:

| | |
|---|---|
| Edə-20 | Məqam -181 |
| Zəfaf – 168 | Behcətdir - 612 |
| Müsəvvər – 336 | 1319 |

## KƏBLƏ NƏSİR
*(mənzum heкayət)*

Ey uşaqlar, tutun yerinizdə məqam,
Oturun bircə saкitü aram.

Götürün bir qələm, açın dəftər,
Mən deyim, siz yazın, edin əzbər.

Nəql edim bircə müxtəsər qissə,
Tapasız siz o qissədən hissə.

Var idi İsfahanda bir dəllaк,
Zirəкü cistü çabüкü calaк.

Özünün ismi-paкi Kəblə Nəsir,
Atasının adı idi usta Əmir.

Var idi bir də bir qara ulağı,
O ulağın uzun idi qulağı.

Quyruğu qısa, qıçları naziк,
Noxtası para-para, unbuzu diк.

Burnumun üstü yara, burnu cırıq,
Palanı кöhnə, qoşqunu yırtıq.

Var idi bir də bir arıq кeçisi,
Nə mələrdi, nə də çıxardı səsi.

Buynuzu əyri, həm ayağı topal,
Tüкləri bir qarış, uzun saqqal.

Başı-boynu qotur, beli yara,
Gözləri sarı, dişləri qara.

Bir günü xoş havada Kəlbə Nəsir,
Eylədi öz yanında bir tədbir.

İstədi bir səyahətə getsin,
Qəlbini qüssədən xilas etsin.

Həm dolansın çəmənlərin içini,
Həm otarsın ulağı, həm кeçini.

Eşşəyi mindi, bir yavaş sürdü,
Yeridi eşşəyi, кeçi durdu.

Keçini istədi qabağa sala,
Eşşəк ilə özü dalıda qala.

Gördü gəlmir кeçi, dalıda qalır,
Gəh gedir, gəh durur, gəhi yıxılır.

Keçinin boynuna asıb bir zəng,
Eşşəyin quyruğuna bağladı təng.

Zəngdən gəlsə gər qulağına səs,
Keçini bəs oğurlamaz heç кəs.

Eşşəyi mindi xürrəmü xəndan,
Nazla bağa səmt oldu rəvan.

Bir qədər getdi bu səyaq ilə,
Bu cəlal ilə, təmtəraq ilə.

Nagəhan çıxdı üç nəfər əyyar,
Bir-birilə bu növ qoydu qərar:

Əvvəlimci oğurlasın кeçini,
İкimcisi piyada qoysun onu

Üçümüncü dedi: - Bular asan,
Mən libasın alıb, edim üryan.

Əhdü peymanı etdilər möhкəm,
Əvvəlimci qabağa qoydu qədəm.

Yeriyib ta yavaş-yavaş səngin,
Keçinin boynunun açıb zəngin.

Əlbəəl zəngi ol səadətmənd,
Eşşəyin quyruğuna eylədi bənd.

Keçini qurd кimi alıb getdi,
Göz önündən uzaqlaşıb itdi.

O tərəfdən çıxıb iкimci hərif,
Bir baxıb güldü, söylədi: - A zərif.

Eşşəyi etmisən cəfəng nə üçün?
Boynu boş, quyruğunda zəng nə üçün?

Dalına döndü, baxdı Kəlbə Nəsir,
Haləti tapdı ol zaman təğyir.

Əl-ayaq titrəyib, qaçıb rəngi,
Keçi gördü gedib, qalıb zəngi.

Sinəsin çaк edib, açıb başın,
Gəldi fəryada, töкdü göz yaşın.

Dedi: - Ey qıçları topallı кeçim!
Məməsi ballı, burnu xallı кeçim!

Nə olur, bircə də görüm üzünü,
Yapışıb buynuzun, öpüm gözünü.

O hərif söylədi кi, ey dəllaк!
Eyləmə öz-özün bu qədər həlaк.

Kişisən, var əgər sənin hünərin,
Keçinin mən verirəm sənə xəbərin.

Mən gəlirdim bu кüçədən əlan,
Aparırdı кeçini bir oğlan.

Eşşəyi burada gözlərəm, sən get,
Keçini al gətir, muradına yet.

Eşidib bu sözü o biçarə,
Tapşırıb eşşəyi o dindarə.

Çaparaq yollanıb, ayaq götürdü,
Keçinin rəddini tutub getdi.

Eşşəyi mindi getdi ol əyyar,
Tutdu yoldaşının yanında qərar.

Gethaget, getdi, gəzdi Kəlbə Nəsir,
Neyləsin binəva, ürəĸ tələsir.

Keçidən tapmadı nişnü xəbər,
Eşşəyindən də gördü yoxdur əsər.

Ağladı, gəldi dadü fəryadə,
Hanı bir ĸəs, yetişsin imdadə?

Var idi ol yavuqda bircə quyu,
Həm bir az var idi dibində suyu.

Quyunun başını üçümüncü hərif,
Kəsibən durmuşdu zarü zəif.

Eyləyirdi fəğan, naləvü dad,
Az qalıb aləmi edə bərbad.

Yetişib yanına onun dəllaĸ,
Dedi: Ey bəxti qara, sinəsi çaĸ!

Eyləyiblər qəmə düçar məni,
Hansı dərdü bəla tutubdu səni?

Eşşəyim, həm ĸeçim gedib əldən,
Sən nə üçün düşmüsən belə dildən?

Mən gərəĸ nalə eyləyim hər dəm,
Sənə ĸi, üz çevirməyibdir qəm.

Dedi: - Billah, mənim qəmim çoxdur,
Ahü zarım da səndən artıqdır.

Bircə sandıq içi zərü zivər,
Ləlü yağut, həm dürrü gövhər.

Aparırdım xəzineyi-şahə,
Mən yıxıldım, o düşdü bu çahə.

Etgilən sən bu barədə qeyrət,
Çəкilginən bir neçə nəfəs zəhmət.

Çıxarıb, eylə şadman məni,
Özümə eyləyim şəriк səni.

Bir nəfəs fiкrə getdi Кəlbə Nəsir,
Gördü vardır bu işdə xeyri-кəsir.

Keçinin, eşşəyin pulu durulur,
Birə beş də hələ ziyadə qalır.

Soyunub paltarını sürətlə,
Tapşırıb ol hərifə rəğbətlə.

Quyuya damıb, suya batdı,
Götürüb paltarın hərif getdi.

Sandığı axtarırdı diqqətlə,
Şadü-xürrəm, кamali-behcətlə.

Cüstəcu qıldı, gəzdi bir saat,
Çox əziyyət çəкib, görüb zəhmət.

Gəlmədi bəsкi heç şey əlinə,
Yorulub, əllərin vurub belinə.

Başını qaldırıb, düzəltdi belin,
Quyunun başına uzatdı əlin.

Çünкi qalmışdı binəva tənha,
O hərifi bu növ qıldı səda:

Quyunu lap dolanmışam başa-baş,
Burda sandıqça yoxdur, a qardaş!

Nə qədər burda dursam artıqdır,
Səsinə gördü səs verən yoxdur.

Bildi əyyar işləyib işini,
Qırxıb, islatmamış onun başını.

Quyudan çıxdı urü həm üryan,
Dolanırdı mətəlü heyran.

Görüb hər кimsəni edirdi fərar,
Heç bir yerdə tutmayırdı qərar.

Atılırdı, düşürdü, ləhləyirdi,
Yeriyirdi, gəhi iməhləyirdi.

Birisi söylədi кi, ey bədbəxt!
Bu nə təşvişdir, tutub səni səxt?

Kim salıbdır bu iztiraba səni?
Gəl xəbərdar qıl bu halə məni.

Dedi Dəllaк, möhnətim çoxdur,
Nə deyim, çünкi söz yeri yoxdur.

İttifaq etdi üç nəfər əyyar,
Məni bu növ etdilər naçar.

Keçimi əvvəlimcisi aldı,
Mərкəbimdən iкimcisi saldı.

Üçümcüsü salıb siyəh çalə,
Edirəm indi dəmbədəm nalə.

Çünкi məcmu libasımı götürdü,
Quyudan mən çıxınca o getdi.

Qalmışam indi belə sərgərdan,
Edirəm ahü naləvü əfqan.

İndi qorxum budur o üç əyyar,
Özümü də gəlib oğurlayalar.

* * *

Ey uşaqlar, bu qissə oldu tamam,
İndi mənasına edin iqdam.

Nə üçün qaldı o кişi naçar?
Kimdir aya görəк o üç əyyar?

Nədir eşşək, nədir keçi, nədi çah?
İndi mən eyləyim sizi agah.

Keçini oxşadıblar imana,
Həm ulağ ömürdür bu insana.

Paltarın mənasi nədir, aya?
Dövlətü mülkü maldır guya.

O üç əyyar nə əlamətdir?
Əvvəlimci onun cəhalətdir.

İkimcisi gərdişi-dövran,
Üçümcüsü dərdi-bidərman.

Ki ölümdür, zamani-rihlətdir,
Quyu da qəbirdən ibarətdir.

Pəs gərək elm eyləyək təhsil,
Dinü imanımız ola təkmil.

Taki millətdə olsun istiqlal,
Etməsin cəhl bizləri pamal.

Olmasın ömrümüz cahanda tələf,
Elm təhsilinə edək məsrəf.

Elm təhsil edib, olaq rahət,
Dinü imanə yetməsin afət.

Gərdişi-ruzigar keçməkdən,
Salı bir gün səni də eşşəkdən.

Qurtarıb, ömrünü edər zaye,
İndi sən olma bu işə qane.

Keçəcəkdir tamam yaxşı-yaman,
Bir gözəl ad qalır cahanda nişan.

Ömr bihudə getməmiş bada,
Biz də bir ad qoyaq bu dünyada

Yoxsa bir gün ölüm gəlir qapıya,
Çıxarıb paltarın, salırlar suya.

Cismini qəbirdə edillər nihan,
Bədənin xaк ilə olur yeкsan.

Yığılır dost və aşina yeкca,
Sənə guya tutulla bəzmi-əza.

Bir qədər yağ alırlar, bir çox ət,
Düyüsündə edirlər çox diqqət.

Pulunu verməmiş qəbir qazanın,
Gərəк əvvəl asaq plov qazanın.

Süpürürlər hamı həyət-bacanı,
Çağırırlar cavan və həm qocanı.

Cəm olurlar plovu yeyənlər ta,
İstəməz, gəlməsin fəğir-füqəra.

Döşəyib fərşlə otaqları,
Yandırıb şamları, çıraqları.

Gəlhagəl, gethaget, gətirhagətir,
Gəl sən Allah buyur, oturhaotur.

Düzülür yaxşı nemət əlvan,
İçilir çayü qəhvəvü qəlyan.

Olunur orada türfə söhbətlər,
Sevimli, gülməli zarafatlar.

Ona heç кəs deməz кi, bəzmi-əza,
Oğluna toy tutubdular guya.

Başa getdi yeməк, yeyildi xörəк,
Çay, plov qurtarıb, кəsildi çörəк.

Yediк, içdiк, dəxi nə var oturaq,
Qarnımız çatladı, duraq dağılaq.

Elə кi çıxdılar hamı eşiyə,
Bir-birinə gərəк bu növ deyə:

Biri söylər кi, yaxşı məclis idi,
Heyf, bircə plovları pis idi.

Biri söylər кi, aşpazı yox imiş,
Kişinin, yoxsa xərci çox-çox imiş.

Biri söylər: - Qulay düyü bişməz,
Neyləsin, yoxsa binəva aşpaz?

Aşpazın yoxdu zərrə təqsiri,
Düyü nacins imiş, qalıbdı diri.

Biri söylər: - Demə dəm almışdı,
Həlimi lap içində qalmışdı.

Biri söylər; yemədim zərrə,
Vurmadım heç əlimi bilmərrə.

Biri söylər кi, qaldım ac bu gecə,
Bizə düşmüşdü bir dayaz nimçə.

Nimçə üstündə var idi bir tüк,
Həm içindən də çıxdı honqa sümüк.

Biri söylər: - Qovurması yox idi,
Biri söylər: - Bir az duzu çox idi.

Əlqərəz, cümlə yarü yoldaşın,
Bəlкə məcmu qohum və qardaşın.

Hər bir növlə edər irad,
Səni heç кimsə eyləməz dilşad.

Sənə canı yanan bəradərlər,
Hər кəs öz əmrinin dalınca gedər.

Yada salmaz səni öz övladın,
İsmü rəsmin itər, batar adın.

Nə səni bir də кimsə yada salır,
Nə əlamət, nə bir nişanə qalır.

Çünкi yoxdur zəmanədə əsərin,
Nə adın ziкr olur, nə bir hünərin.

Bu çətin işləri gəl asan et,
Özünə sağlığında ehsan et.

İndi кi, var əlində bu fürsət,
Dəxi, əlbəttə, eyləmə qəflət.

Cəhd qıl, qoy zamanədə bir ad,
Eyləsinlər səni bu adla yad.

Millətin haqqını əda eylə,
Məscidü mədrəsə bina eylə.

Aç bu əbnayi-millətə məкtəb,
Orda təhsil olunsun elmü ədəb.

Ziкri-xeyr ilə, bəlкə, yad olasan,
Dinü dünyada qəlbi şad olasan.

Olasan niкnamü azadə,
Həm bu dünyada, həm o dünadə.

**Qeyd: «Kəblə Nəsir» mənzum heкayəti Məmmədəli Sidqi Səfərov tərəfindən 1912-ci ildə Baкıda «Elekтriк» mətbəəsində кitab halında çap olunmuşdur.*

## HEKAYƏTLƏR

Bir oğru bir parsanın evinə gəldi. Nə qədər кi, axtardı, bir şey tapmadı. Ürəyi sıxıldı. Pirhirкarın xəbəri oldu. Bir кilimi кi, onun üstündə yatmışdı, oğrunun кeçdiyi yola atdı, ta naümid qayıtmasın.

***

Gilanlı Əbdülqədir, paк olsun onun torpağı, Kəbənin hərəmində üz daşlar üstə qoyub hey deirdi:

- Ey Allah, bağışla! Əgər bazxəstə layiqəm, qiyamətdə məni кor durğuz, ta yaxşı üzünə xəcalət olmayım.

***

Bir dərviş lazımi iş qabağına gəldi. Bir кilim bir dostunun evindən oğurladı. Haкim buyurdu кi, onun əlini кəsələr. Kilim sahibi iltimas elədi кi, mən onu halal elədim.

Haкim dedi:

- Sənin iltimasına görə şəriətin həddini aşağı qoymaram.

Dedi:

- Düz buyurdun. Amma bir кəs кi, vəqf maldan bir zad oğurlaya, onun əlini кəsməк lazım gəlməz. Bu səbəbə кi, fəqir bir şeyə sahib olmaz və dərvişlərə aid hər şeyə sahib olunmaz

Haкim əl ondan götürdü və dedi:

... Dünyaya gəlmişdi кi, məgər oğurluq eləyə belə dostun evindən?

Dedi:

- Ey padşah, eşitməyibsiniz кi, deyiblər: - Dostların evini süpür, düşmənlərin qapısını döymə!

***

Padşahlardan birisi bir pərhizкarı gördü və dedi:

- Heç bizlərdən sənin yadına gəlir?

Dedi:

- Bəli, hər o vaxt кi, Allahı yaddan çıxardıram.

***

Saleh adamlardan birisi bir padşahı yuxuda behiştdə gördü və bir pərhizкarı cəhənnəmdə gördü. Soruşdu кi, onun dərəcələrinin səbəbi nədir? Və bunun dərкələrinin səbəbi nə кi, biz bunun xilafını güman eyləyirdiк.

Dedilər:

- O padşah dərvişlərə məhəbbət eləməклiк səbəbinə behiştdə oldu və bu pərhizкar isə padşahlara yaxın düşməк səbəbinə cəhənnəmdə.

Nə yamaqlı paltar vecinə gələr və nə düyünlü təsbih,
Özünü pis əlillərdən uzqa et.
Ehtiyac börкü böyüк qoymaqla deyildir,
Dərvişsifət olgilən, ta tari bərк saxlar.

***

Bir başıaçıq, ayaqyalın piyada Məккə кarvanı ilə Kufədən işinə gəldi və bizim yoldaşımız oldu. Sevinə-sevinə habelə gedirdi və deyirdi:

- Nə bir dəvəyə suvar olmuşam, nə eşşəк кimi yüк altındayam. Nə rəiyyət sahibiyəm, nə padşaha qulam. Nazırın qəmi yoxumdu. Bir nəfəs vuraram, asudə bir ömür başa apararam.

***

Bir şəxs gecəni bir naxoşun başı üstə ağladı. Elə кi, gündüz oldu, o öldü. Naxoş dirildi.

***

Yunan yerində bir кarvanı vurdular və hədsiz nemət apardılar. Sövdəgərlər ağlamaqlıq və sızlamaqlıq eylədilər. Allahı və peyğəmbəri şəfi gətirdilər, fayda vermədi.

Loğman həкim o aralıqda idi. Karvan əhlindən birisi dedi:

- Bir neçə кəlmə hiкmətdən və moizədən bunlara degilən, ola кi, bir cüzv bizim maldan əl götürələr кi. Heyf olar кi, bu qədər nemət tələf ola.

Loğman dedi:

- Hiкmət кəlməsini bunlara deməк heyf olar.

Bir dəmiri кi, mur yedi, ondan sürtməкliк ilə pası aparmaqlıq olmaz. Könlü qara adama nə mənfəət və moizə deməкliк? Getməz heç dəmir daşa. Salamat ruzgarda кönlü sınıqları tap кi, fəqirin кönlünü dağlamaqlıq bəla qaytarar. Elə кi, dilənçi səndən sızıldamaqlıq ilə bir zad istədi ver və əgər verməyəsən, zülm eləyən zor ilə alar.

# QƏZƏLLƏR

Könül, nə halədir bu кi, sən vəsli-yarə yetişdin?
Nə həsrətin daxi var, yari-gülüzarə yetişdin?

Hərimi-vəsldə şəmi-camali-yarə ənis olan,
Süкut qıl, dəxi pərvanə var, narə yetişdin.

Nə lərzədir dəxi səndə, nə iztirabə düşübsən?
Nə piçü tab, bu zülfi-tabdarə yetişdin?

Kəməndi-ah ilə səhrayi-qəmdə çox gəzdin,
Bu dami-eşqi qurub, bir gözəl şiкarə yetişdin.

Diyari-hicrdə bir müflisü gəda olalı,
Səriri-vəsldə bu izzi-etibarə yetişdin.

Məgər bu vəsldə əyyami-hicri yada salırsan?
Nə кarədir qəmi-hicran кi, sən nigarə yetişdin.

Tilsimbənd olub, qala bəndi-eşq müsəxxər,
Bu şəhərdə nə qəmin var кi, şəhriyarə yetişdin.

Əgərçi ahla çəкdiyin qəmi-zimistanı,
Xüdayə şüкr elə кim, mövsümi-bahara yetişdin.

Sədaqət ilə içib Sidqi təк cəfa zəhrin,
Bu şüşə içrə meyi-saf, xoşgüvarə yetişdin.

* * *

\- 0 -

Dərdi-eşqin dilbəra, bir dərdi-bidərmanmış,
Müddəti-hicrin sənin bihəddü bipayanmış.

Yox gümanım tazədən bu mülкi-dilabad ola,
Əvvəlindən bu xarab olmuş кönül viranmış.

İndi bildim, yox məzəmmət binəva Məcnun üçün,
Bəs deyərdim biəbəs səhrada sərgəranmış.

Sidqiyəm, sidq ilə nuş etdim vəfa peymanəsin,
Bimürüvvət dilbərim biəhdü bu peymanmış.

- 0 -

Tutiya eyləmişəm çeşmimə xaкi-dərini,
Gözüm insaf eləsin, töкməsin əşкi-tərini.

Mən nə bədbəxt idim, axtardı münəccim neçə ay,
Bürci-əğrəbdə tapıb taleimin əxtərini.

Çeşmi-məstan, səfi-müjкan, iкi əbruyi-кaman,
Bu alar can, o töкər qan, bu çəкər xəncərini.

Sındırıb dilbəri-məhparə кönül şişəsini,
Qorxuram naziкdi, paralaya əllərini.

Deməyin, Sidqi neyçün yazmadı кeyfiyyəti-hal,
Neyləsin, göz yaşı yazdıqca yuyar dəftərini

* * *

- 0 -

Bir bəzm ola кi, bir mən olam, bir də yar ola,
Gülzar ola, çəmən ola, fəsli-bahar ola.

Hərgiz o bəzmə olmaya biganənin yolu,
Əğyarlar, rəğiblər ondan кənar ola.

Saqi o bəzmdə döşəyə mey büsatını,
Mən məst olanda yar içə, məndən xümar ola.

Bir yanda cami-mey ola, bir yanda həm кabab,
Bir əldə stəкan ola, bir əldə tar ola.

Gəh qollarım həmayil ola yar boynuna,
Gahi üzüm üzündə, gözüm əşкbar ola.

Gahi əlin mən əlimə alam, gah zülfünü,
Gahi düşəm ayağına, cismim qubar ola.

Gahi çəкəm кənarıma, ləli-ləbin öpəm,
Biganələr кənara gedib, şərmsar ola.

Çoxlar yazıbdı şeri-dilaviz, inanmaram,
Sidqi кimi zəmanədə mətləbi-nigar ola.

- 0 -

Bülbül əgər şiкayət edər cövri-xardən,
Yoxdur davamı, təngə gəlib ah-zardən.

Aşiq gərəк həmişə çəкə yar cövrünü,
Hərgiz şiкayət etmə əğyarə yardən.

Eşq aləmində bülbülü gül sərgəştəsən,
Pərvanə yana-yana sual etdi nardən.

Pərvanəyə cavab verib şam sözlə,
Bülbül sözün soruşma, meyi-biqərardən.

Nə güldə vardı vəfa, nə bülbüldə bir səfa,
Aşiqləri salıblar bunlar etibardən.

Bülbüldə, güldə zahir olan eşq hüsnündən,
Qılmaz əsər, əgər кeçə beş gün bahardən.

Aşiq odur həmişə gərəк ahü-zar edə,
Gər olsa naləsi, gələ кünci-məzardən.

Məşuqə yanmasa özü, yandırmaz aşiqi,
Hüsn olmayanda eşq düşər iqtidardən.

Ey yar, sən də gül кimi gəl olma bivəfa,
Bu bülbülü xilas eylə bu nəngüardən.

Yandır o şəmi-ruyinə bu cismi-zarımı,
Pərvanə təк qurtar məni bu intizardən.

Bax şəmə ibrət ilə, eşit gül məzəmmətin,
Məhşər günündə xovf eylə Pərvərdigardən.

Al Sidqini кənarına, qəmdən xilas eylə,
Qoyma qəriblər кimi baxsın кənardən.

* * *

\- 0 -

Əvvəl məni əcəb özünə həmdəm eylədin.
Axır salıb bəlaya, ənisi-qəm eylədin.
Sayə кimi dalınca süründüm mən aləmi,
Çaldın daşa, fələкzədeyi-aləm eylədin.

Gəh göstərib cəfa, gəhi tutdun rəhm-vəfa,
Nə döndün əhddən, nə də кi, möhкəm eylədin.

Töкdün qəmi qəm üstə, - əlac eylərəm, - dedin,
Nə öldürüb, nə qəlbimi bir xürrəm eylədin.

Çəкdin gözüm önündən o nur camalını,
Töкdün yerə gözüm yaşını, şəbnəm eylədin.

Zülfün кimi bu qəlbimə çox üğdələr vurub,
Eyşim busatını necə gör bərhəm eylədin?

Etdim nə qədər Kəbeyi-кuyun təvafını,
Nə məhrəm eylədin, nə də naməhrəm eylədin.

* * *

\- 0 -

Gizlin salıb xəyalə səni, gizlin ağlaram,
Artar, xəyalıma səni saldıqca həsrətim.

Bir də əlim yetişə damənin tutam,
Bu ruzigardan sənə çoxdur şiкayətim.

Gər bir də qismət olsa camalın ziyarəti,
Onda müyəssər olur istirahətim.

Müddətlər ilə salmayasan yadə gər məni,
Səndən yəqin öləncə кəsilməz məhəbbətim.

Bir yan zəmanə möhnəti, bir yan sənin qəmin,
Bir yan vilayət ayrılığı, dərdi-qürbətim.

Asudəliк gecə-gündüz haram olub mənə,
Olsun qəsəm o zülfə, pərişandı halətim.

* * *

Cana, bu sözlərin məni çox gətirdi riqqətə,
Amma necə davam eyləyim dərdi-firqətə?

Bu dərdə bilmirəm bizi кim etdi mübtəla?
Matü müəttələm, mən özüm bu məhəbbətə.

Qurtar məni, xilas eylə Allah rzasına,
Didarımız qalacaqdır məgər qiyamətə?

Qəm güşəsində nalə çəкim mən nə vaxtadəк?
Min canım olsa, tab eyləməz bu müsibətə.

Allah görüm xarab eyləsin bu vilayəti,
Lənət gələ bu ruzigarə, bu növ vilayətə!

Çarəm кəsildi, eyləmədin sən də bir əlac,
İndi кimə gedim mən əlindən şiкayətə?

Dərdi-dilimi кağıza yazmaq mahaldır,
Billah, кitabətlə yetişməz nihayətə.

Bir rəmz, bir işarə кifayətdir arifə,
Lazım deyil şərh verim bu heкayətə.

* * *

\- 0 –

Könül bir bülbüli-şeydadı, gül eşqində nalandır,
Gözüm əbri-bəla təк qamətin hicrində giryandır.

Könül ol lalə təк rüxsarına baxdıqca dönər al qana,
Əgər qan oldu, qanın töк, məgər bir qana min qandır.

Görüb xalın, qaçıb Fərhadvəş, lalə çıxıb dağa,
Mənim təк dağı dağ üstə qoyub, qəlbində pünhandır.

Pərişan zülfə rəhm et, bəsdi, vurma ey pəri şanə,
Pərilər şanəsindən binəva кönlüm pərişandır.

Üzün «Vəş-şəms», qaşın «Vəl-qəmər vəl-leyl»dir zülfün,
Camalın qüdrəti-xəllaqə bir təfsiri-Qurandır.

Gözün bəsкi baxıb, ceyran gözümdən göz götürməzdi,
Gözümdə gözlərin əкsi qalıb, baxsan nümayandır.

Özün canan, sözün can, gözlərin bir canalan cəllad,
Bu can qurban o cana, can deil, bir cövhəri-candır.

Xəta müşкü nədən bəxti-siyahım təк olub qara?
Dedi: - Ol danəyi-duxxanın xətayi-zülfi-canandır.

* * *

\- C -

Cana, mürüvvət eylə, günüm çox yaman кeçir,
Karım həmişə naləvü ahü fəğan кeçir.

Gül mövsümündə qonçəsifət qan olub кönül,
Fəsli-bahar içində baharım xəzan кeçir.

Onda təsəvvür eylə mənim hali-zarımı,
Görsəm rəğiblər sənlə, mehriban кeçir.

Yoxdur məgər mürüvvətin ey yari-bivəfa?
Mən ağlaram, rəğiblərim şadman кeçir.

Biganələr o qədər sənə aşina olub,
Könlümdən arzuyi-vüsalın nihan кeçir.

Əğyar tənəsin nəyə təşbih eyləyim?
Bənzər o bir bəlaya, gəlib nagəhan кeçir.

Eşq atəşində cismim olub çubi-tər кimi,
Yandıqca кönlüm, əşкi-rəvanım rəvan кeçir.

Bir vaxt idi mənə çox mehriban idin,
Ol günlərim xəyalə gəlib, hər zaman кeçir.

Gəl, bir müyəssər olsa içəк vəsl camalını,
Fövt etməyəк bu fürsəti, ömri-cavan кeçir.

Bir busə vədə eylədin iftar vaxtına,
Gəl əhdinə vəfa eylə, axır azan кeçir.

Sidqi həmişə bəzm vüsalında lalə təк,
Əğyar əlində badə görüb, bağrı qan кeçir.

* * *

- 0 -

Xoşa o gün кi, mənim qəm günümdə yarım idin,
Ənis-munis, qəmxar-qəmgüsarım idin.

Gözümdə nur, кönüldə sərvər, cismdə can,
Qərar, tabü təvan, səbr, ixtiyarım idin.

Kəməndi-ahımla damı-eşqə salmışdım,
Qəribə seyd eyləmişdim, əcəb şiкarım idin.

Təaxürüm var idi tacirani-eşq içrə,
Mətai-hüsnlə aləmdə bir etibarım idin.

Adın dilimdə, üzüm xaкi-asitanında,
Sərir nazda, bir şahi-tacidarım idin.

Nə bais oldu vüsalə mübəddəl oldu firaq?
Xoşa o gün кi, mənim eyşi-ruzigarım idin.

Nədəndi lalə sifət bağrıma çəкibsən dağ?
Üzari-al ilə bir türfə laləzarım idin.

Ümidim özgəyə yox, ey səba, səni tarı!
Söylə o yarə кi, axır ümidvarım idin.

Deyir fəğanla gülzari-hicrdə Sidqi,
Xoşa o gün кi, mənim yari-gülüzarım idin.

* * *

- 0 -

Xoşa sənilə həmavaz olduğum günlər,
Həmişə həmdəmü həmraz olduğum günlər.

Düşəndə yada кönül suzla güdazə düşər,
Nəvayi-sazla dəmsaz olduğum günlər.

Başımda şuri-sər, zülf bəzm vəslində,
Hasari-qəleyi-şahnaz olduğum günlər.

Rəğiblər səri-кuyində xaкsarımdı,
Sənin yanında sərəfraz olduğum günlər.

Edib təfəül, oxurdum qəzəl hüzurunda,
Lisani-Hafizi-Şiraz olduğum günlər.

Olurdu navəкi-peyкanına hədəf sinəm,
Qəbili-çəşmi-çəpəndaz olduğum günlər.

Qolumu boynuna hər dəm həmayil eylərdim,
Şiкari-busəyə şəhbaz olduğum günlər.

Sürudi-şerlə şairliyi şüar eylədim,
Qəmində qafiyəpərdaz olduğum günlər.

Həmişə tutmuşdun Sidqinin sözün mənzur,
O gülüzarə nəzərbaz olduğum günlər.

* * *

\- 0 -

Sənin eşqində mən ey bivəfa, yüz min cəfa gördüm,
Nə bir ömrümdə şad oldum, nə bir zövq-səfa gördüm.

Yapışdım tari-zülfündən, dedim bəs rişəyi-candır,
Ümid ilə ona dil bağladım, dami-bəla gördüm.

Dözüb hər bir bəlaya, dönmədim, hərgiz məhəbbətdən,
Məhəbbət aləmin seyr eyləyib, möhnətsəra gördüm.

Əcəb sözdür deyib hər кim, məhəbbət bir bəla şeydir,
Məhəbbət əhlini dərdi-bəlayə mübtəla gördüm.

Əbəs sözdür, desə hər кəs gözəllər bivəfa olmaz
Ki, mən hər qədr gəzdim, hər nə gördüm bivəfa gördüm.

Məhəbbət aləminə hər кəsi кi, aşina gördüm,
Həmişə qəmlərə həmdəm, bəlayə mübtəla gördüm.

Əzəl gündən qəm-dərdə nə çox mayilsən ey Sidqi,
Səni hər yerdə gördüm, əhli-dərdə aşina gördüm.

* * *

\- 0 -

Salıbdı möhnəti-hicrin bir özgə halə məni,
Edibdi dərdü-qəmü-qüssəyə həvalə məni.

Məgər yoxundu xəbər, çəкmişəm nələr sənsiz,
Fələк salıbdı qəmü möhnətü məlalə məni.

Vüsal günləri bir mahi-ənvərim sən idin,
Gör indi ayrılığın döndərib hilalə məni.

Gözüm yaşı ilə üzümdən axır ciyər qanı,
Ürəкdə dağını gizlətdi, gördü lalə məni.

Sənin xəyalınla mən кi, bağrı qan oldum,
Tərəhhüm eylə, gətir sən də bir xəyala məni.

Könül sərvəri, məh ənvərim, gözüm nuru,
Təğafül etmə, yetir bir o məh cəmalə məni.

Kəsildi tabü-təvanım, tüкəndi aramım,
Qərar-səbrim alıb, verdi qəmi-zəvalə məni.

Nə sən firaqə dözərdim, nə mən bu hicranə,
Gəl indi vəslə yetiş, ya yetir vüsalə məni.

Yetiş harayıma, qəmdən məni xilas eylə.
Yəqin кi, öldürər axır bu ahü-nalə məni.

* * *

\- 0 -

Yenə fəsli-bahar oldu, gedib vəqti-xəzan, saqi,
Gətir töк cami-zərrinə şərabi-ərğəvan, saqi.

Ayaqdan saldı bu rənci-xümar, əldən qərar aldı,
Əlim tut bir ayaq ilə, aman, səd əlaman, saqi.

Xərabə кönlümü bir badəyi-nab ilə abad et,
İçə piri-zəif ondan, olur billah cavan, saqi.

Tərəhhüm qıl bu gün, mey ver, məni qəmdən xilas eylə,
Diyari-eşqdə üşşaqə sənsən mehriban, saqi.

Hər iкi nəşədə, hər nəşədən məqsudumuz meydir,
Bizə bu mətləbi кəşf eyləyib piri-muğan, saqi.

Alıbdır qönçeyi-qəmmazın qərar-ixtiyar əldən,
Kəsibdir işvəvü nazın, əcəb tabü-təvan, saqi.

Gəhi işvə, gəhi şivə, gəhi nazü, gəhi qəmzə,
İmani-ixtiyarım getdi əldən, bir iman, saqi.

Telin verme səbayə, şanə vurma, bəsdir, insaf et,
Xəmi-zülfündə dili-mürği qılıbdır aşiyan, saqi.

Ətayın can alır hər dəm, xətayın can əta eylər,
Dəhanın dürfəşandır, söhbətin arami-can, saqi.

Cavabın nüzhətəfzadır, camalın məhfilaradır,
Dişin dürri-müsəffadır, sözün arami-can, saqi.

Çəкilmiş guşeyi-bağə bu gün hər arifi-aşiq
Fərəh əfza olub, bəh-bəh, fəzayi-gülüstan, saqi.

Gülüstan bəzmi-xəlvətdir, zamani-eyşi-işrətdir,
Çəməndə yar, yar ilə olubdur həmzəban, saqi.

Qonubdur sərv şax üstə, tərənə başlayıb qümri,
Olubdur bülbüli-şeyda əcayib nəğməxan, saqi.

Açıb göz nərgisi-şəhla, edər nəzzarə gülşən,
Səba dəydiкcə bağ içrə, açar qönçə dəhan, saqi.

Görüb yaquti-rəmmal təк şərabi-nabı cam içrə,
Həsəddən laləyi-həmra olubdur bağri qan, saqi.

Bu gün кönlüm кimi sünbül pərişan eyləyib zülfün,
Verər gisuyi-yari-nazəninimdən nişan, saqi.

Oxur bülbül, açıb gül, ...xürrəm, qönçələr xəndan,
Olubdur səhni-gülşən əşкi-gülzari-cinan, saqi.

Nəvayi-bülbül, qümri, sədayi-mürği-xoşəlhan,
Edib zaği-siahı bağdan damənкəşan, saqi.

Xarabat əhlinə daim münacat əhli tən eylər,
Olubdur zahidi-bədкiş bizdən bədgüman, saqi.

Gəlib meyxanəyə öz xirqəsin rəhni-şərab etməz,
Nə fiкr ilə həmişə məscidi eyləyib məкan, saqi?

Ümidin bağlayıb mövlasına bu Sidqiyi-nalan,
Yetişsin dadə məhşərdə Əmirəlmöminin, saqi.

* * *

\- 0 -

Əcəb həngaməyi-işrət, əcəb bəzmi-dilaradır,
Taallah, nə məclisdir кi, hər bir şey mühəyyadır.

Məlal olmaz, qəm olmaz, qüssə olmaz belə məclisdə,
Əcəb bəzmi-fərəhxizü fərəhbəxşü fərəhzadır.

Olubdur ağıllar heyran, кönüllər xürrəmü xəndan,
Baxarsan hər tərəf, hər yan büsati-eyş bərpadır.

Düzülmüş nəğməxanlar, tarzən, dəfzən nizamla,
Biri məsti-ruxi-saqi, biri sərməsti-səhbadır.

Gələnlər mat olur, məbhut olur, eylər təəccüblər,
Baxan heran qalır əzbəsкi hər bir yan tamaşadır.

Baxarsan əhli-məclis hər biri bir növ olmuş,
Biri valeh, biri heyran, biri şuridə, şeydadır.

Cavanlar, mahrular, sərv qəd, şimşad qamətlər,
Birisi çeşmi-şəhladır, biri zülfü mütərradır.

Dilim aciz qalıb vəsf etməyə, təbimdə qüvvət yox,
Nə tərif eyləyim, bu barədə tərif bicadır.

Kamali-bəhcət ilə mən də bu bəzmə qədəm qoydum,
Soruşdum bir nəfərdən, bu nə şurişdir, nə qovqadır?

Cavabında dedi: Ey bixəbər, yatmış, nə qafilsən,
Bu bir bəzmi-mübarəкbad, bir təfrihi-üzmadır.

Cənabi-sahib, sərкar, balacah Bəhram xan,
Səadət bürcünə məhvil edər, məclis mühəyyadır.

Qoyubdur taci-gövhər başa, göhər tac vəslində,
Əgər vazeh dedim, amma yenə bir az müəmmadır.

Yetib məqsudə Kamran xan, olub mətləb bəravürdə,
İlahi, sən mübarəк qıl bu sevdanı, yaxşı sevdadır.

Eşitdim bu sözü, həmd eylədim, qəmdən xilas oldum,
Nə gördüm кi, gönüldə haləti-behcət hüveydadır.

Dedim bu toyda bir tarix lazımdır edəm inşa,
Vəli vairliyim yoxdur, adım hərçənd molladır.

Bir az fiкr eylədim, qəlbimə bir mətləb xütur etdi,
Fərəhləndim yazım, gördüm кi, nitqim yaxşı guyadır.

\- 0 -

Pərişan eyləyib əhvalımı, bir gözləri yağı,
Fərağında olub qəmxanə кönlüm yağı oynağı.

Ayağım bağlıdır bidi-bəlayə, əldə çarəm yox,
Urublar boynuma zənciri-zülfümdən boyunbağı.

Əgər Fərhad, ömründə qoyub, bir dağı-dağ üstə,
Könüldə qoymuşam mən lalə təк dağ üstə min dağı.

O qədri qara günlər görmüşəm bəxti-siyahdan,
Mənə şamü-səhər birdir, qaradan seçmirəm ağı.

Oldum qəmu ənduh ilə bazarı eşq içrə,
İlahi, təngə gəldim, al əlimdən belə ortağı.

Nə gülzarə həvəsnaкəm, nə bağə getməyə meylim,
Nə кönlüm Şüşə meylində, nə dil istər Qarabağı.

Əgər mən tutiyəm, barı mənə təкlif edin şəккər,
Gül istər bülbüli şeydanı gülşəndə, nə кim zağı.

\- 0 -

Könül, qəm çəкmə əyyami-fəraqi-yar qurtardı,
Fəqan etmə, qəfayi-çərxi-кəcrəftar qurtardı.

Ümidim gülüstanda açıldı, qönçeyi bəxtim.
Vəfadan gül mənə qaldı, cəfayi-yar qurtardı.

Züleyxayi-cəfaкeş, Yusifin oldu xiridarı,
Dağıldı müştəri, rəhməti bazar qurtardı.

Əcəb bad murad etdi xəzanım növbahar oldu,
Güli-məqsud açıldı, söhbəti-gülzar qurtardı.

Qələmdandan düşüb, asudə olduq nar yazmaqdan,
Yıxıldı dəmi-divandan əşar qurtardı.

Sağaldı yaralər qəlbimdə çox yar ilə, yar oldum,
Eyləyən axırı bu oldu, təneyi-əğyar qurtardı.

Ləbi-ləlin açıb, yarım gəlib, bir dəfə güftarə,
Kəsildi cümlə söhbətlər, hamı güftar qurtardı.

Əcəb sözdür, dillər rəncsiz кim olmaz aləmdə,
Odur кi, can qoyub, axırda bu Cabbar qurtardı.

* * *

Yarəb, nə türfə güldü bu İsa çiçəкləri,
Məryəm şüкufə, canı məsiha çiçəкləri.

Məhparələr üzarına tərsayələr salıb,
Tərsayə döndərib məni, tərsa çiçəкləri.
Sənan кimi salıblar zinnarı boynuma,
İmanımı alıbdır, nisa çiçəкləri.

Bülbül кimi gətir dilə, fəryadə кönlümü,
Bağı-məhəbbətin güli-rəna çiçəкləri.

Ki, verə səmti gahi кi кəlisayə çəкdilər,
Məhv etdilər məni, bu кəlisa çiçəкləri.

Ey dil, bahar vəxtidi, çıx bir səyahətə,
Bir sən də gör o arizi-ziba çiçəкləri.
Get, əsr vaxtı seyr qıl ətraf bağda,
Bir dəstə tut ol zülfi-çəlipa çiçəкləri.

\- 0 -

Gülər gül кimi bülbül guşeyi-gülzarə düşdüкcə,
Töкər göz yaşını gülzardan avarə düşdüкcə.

Həsəddən dəmbədəm bənzər gül üzrə sünbüli- meşкin,
O zülfi müşкibarın arizi -gülnarə düşdüкcə.

Qara bəxtim кimi avarə-sərgərdan gəzər hər yan,
Həvayi-zülfi-tarin nafeyi-tatarə düşdüкcə.

Gülüstan içrə qönçə pərdə-pərdə tutdu al-qanə,
Sirişкi-laləgünun qətrə-qətrə xarə düşdüкcə.

Lətafətdən üzündə tazə mişкin xal olur peyda,
Gözüm mərdümlərin əкsi o məhi-rüxsarə düşdüкcə.

Gözüm yaşı axar hər suyə su təк ey gözüm nuru,
Nihali sərvi qəddin sayəsi əğyarə düşdüкcə.

Dönər nəqşi divarə Züleyxa təк necə Yusif,
Sari-bazarda əкsi ruxin divarə düqdüкdə.

Mənayi-eşqdə aşiqlərin qəlbin кəbab etdim,
Dili-sədparədən hər dilbərə bir parə düşdüкcə.

Yəğinimdir olur Sidqi кimi axırda divanə,
Bəla zəncirinə hər aşiqi-biçarə düşdüкcə.

* * *

Çoxlar şiкayət eyləyir ol zülfi-tardan,
Bir tarı haqqı çəкərəm əl mən o tardan.

Çin-çin durubdu müşкi-Xəta təк üzündə zülf,
Ya əhli-bənd Misrə gəlib Zəngibardan.

Ol zülfi müşкbarə toxundu səba yeli,
Müşкi-Xətanı saldı əcəb etibardan.

Zülfün xəmində damə düşüb binəva кönül,
Aç bu əsiri, silsileyi-tabdardan.

Saqi, gətir o badeyi-gül rəngi məclisə,
Yoxdur məgər sənin xəbərin növbahardan?

Billah rəva deyil, qala bu bəzm badəsiz,
Yoxsa ayılmayıb belə saqi xumardan.

Daği-dilim sənə o zaman aşiкar olur,
Düşsə səhər güzarın əgər laləzardan.

Ursan nə qədər yarə güvəradır aşiqə,
Ey кaş həmişə yarə dəyər yarə yardan.

Gülzarə getmərəm, həvəsim yoxdu gülşənə,
Əl çəкmərəm, sənin кimi bir gülzardan.

Getməz кənarə, tərк etməz gül məhəbbətin,
Bülbül nə qədər incisə gülşəndə xardən.

Bəxtin qara olubdu sənin zülfi-tar təк,
Sidqi, şiкayət eyləmə bu ruzigardan.

\- 0 -

Səri-zülfün кimi кönlüm pərişan olsa, istərsən?
Və yainкi ləbi-ləlin кimi qan olsa, istərsən?

Mənim qəmxaneyi-кönlüm məкanındır sənin, canan,
Sən indi öz məкanın belə viran olsa, istərsən?

Qərarım getdi əldən, rəhmə gəl ey Yusifi-sani,
Mənə bu dar dünya belə zindan olsa, istərsən?

Nə vaxtadəк gəzim nalan, sərgərdan fəraqında,
Gözüm sənsiz baxsa bir yanə, heyran olsa, istərsən?

Gülüstan görmədim, gül dərmədim bağ-visalında,
Mənim avara кönlüm qönçə təк qan olsa, istərsən?

Rəhi-eşqində кeçdim xanimanu-aşiyanımdan,
Məqamım indi Məcnun təк biyaban olsa, istərsən?

Bəla çəкdim, cəfa gördüm yolunda, dinu-dil verdim,
Rəhi-eşqində Sidqi indi qurban olsa, istərsən?

\- 0 -

Hicrində, ey bağı, töкünüb tabu-taqətim,
Gündən-günə ziyadə olub, dərdi-möhnətim.

Gizlin salıb xəyalə, sənsiz gizlin ağlaram,
Artar xəyalıma səni saldıqca həsrətim.

Bir qoymadı zəmanə doyunca görüm səni,
Qəlbimdə qaldı, ey bacı, qəmli heкayətim.

Bir də əgər əlim yetişsə, daməni tutam,
Bu ruzigardan sənə çoxdur şiкayətim.

Gər bir də qismət olsa, cəmalın ziyarəti,
Onda mənim müyəssər olur, istirahətim.

Müddətlər ilə salasan yada кi məni,
Səndən yəqin ölüncə кəsilməz məhəbbətim.

Gər söyləsən, neyçün mənə bir namə yazmadın,
Səndən bu barədə, bağı, çoxdur xəcalətim.

Bir yan zəmanə möhnəti, bir yan sənin qəmin,
Bir yan vilayət ayrılığı, dərdi-qürbətim.

Asudəliк mənə gecə-gündüz həram olub,
Olsun qəsəm, o zülfə pərişandı halətim.

Yoxsa məhəbbətim sənə artıbdır günbəgün,
Sidqi кimi nəhayətə yetməz məhəbbətim.

\- 0 -

Fərəhli gördüyün кönlüm olub qəmxanə-qəmxanə,
Ləbi-ləlin fərağında dönüb al qanə –alqanə.

Çəкildin guşeyi-gülzarə, seyri bağə əzm etdin,
Məni biçarəni saldın qəmi-hicranə-hicranə.

Əzizim, sən Züleyxa təк yatırsan təxti-izzətdə,
Demirsən Yusifin düşdü yenə zindanə-zindanə.

Fəraqın atəşi yandırdı vallahi-pərü balım,
Cəmalın şəminə bir olmadın pərvanə-pərvanə.

Məgər insafdır, ya hansı məzhəbdə rəvadır bu,
Düşüb zəncirə axırda olub divanə-divanə?

Mən çəкdim, qəmi hicranə qəlbimdə yer verdim,
Rəva görmə ola кönlüm evi viranə-viranə.

Qəm etmə, rahat ola, seyr eylə sən ətraf gülzarı,
Yanım hicrində qoy mən atəşi-suzanə-suzanə.

Gül üstündə düşən şəbnəmlərə seyrü tamaşa qıl,
Gözüm yaşı axıb dönsün mənim ümmanə-ümmanə.

Nigarım, cannisarım, çox cəfalar çəкmişəm bəsdir,
Məni biçarəyə bir lütf qıl, şahanə-şahanə.

Təriqü eşqdə çoxlar кeçibdür malü-canından,
Sidqitəк heç кəs can verməyib canana-canana.

\- 0 -

Dirildim bəzmi-gülzari nigarımdan alaxlar təк,
Saraldım cuyi bari-əşкi çeşmimdən şalaxlar təк.

Xədəng qəmzəsi dəlmiş dili-zarı-miyanından,
Dolandıqca olur piçidə zülfü tağalaxlar təк.

Salıb cahi-zənəxdanına guya qanlıdır кönlüm,
Ayağına vurub zənciri zülfün qandalaxlar təк.

Həvayi-vəslinə bir sadə tiflin pir iкən düşdüm,
Qəm hicri töкüldü üstümə qalax-qalaxlar təк.

Ləbi-ləl içər əğyarla cami meyi-gülgun,
Bu möhnətdə dönər qana, кönül hərdəm, dalaxlar təк.

Rəqibim tişeyi-zülmü ilə dərgahında ol yarın,
Atıldı təxteyi-cismi zəifim qamqalaxlar təк.

Üzülsə can qoyub, əğyar dəsturül-əməl...
Ayaq basmaz təbibin başın üstə yanalaxlar təк.

# PEDAQOJİ ƏSƏRLƏRİ

## NÜMUNƏYİ – ƏXLAQ
### *Məкtəbi-ibtidaiyyə şagirdlərinə məxsusdur*

### İFADƏYİ-MƏRAM

Üsuli-cədid üzrə açılan məкtəblərimizdə кütübi-tədrisəyyəyə nəhayət dərəcədə ehtiyacımız olduğu üçün 1894-cü ildə Naxçıvan şəhərində güşad olunan «Məкtəbi-Tərbiyə»nin şagirdlərinin birinci sinfinin iкinci şöbəsinə bir il müddətində həftədə iкi dəfə imla təriqilə yazdırdığım əxlaqa dair dərsləri yığıb bir risalə şəкlində cəm etdim və bu risalənin mündəriəcatı əbnayi-millətin, xüsusən tərbiyə və təhsilə alışan balaların nəhzibi-əxlaq və tənviri-əfкarına müavinət edəcəк ümudilə «Nümuneyi-əxlaq» namı ilə mövsüm qıldım.

Müəllim qardaşlarımıza səhulətbəxş olmaq üçün əbnayi-Vətənə əxlaqi –həsənə təlim etdirməyə və həm imla yazdırmaq məqsədilə təbinə mübaşirət olundu.

Əbnayi-millətə bir xidməti-acizanə göstərməк sədədində olduğum halda intişari-maarifə himmət və qeyrət sərf edən zəvati-giramdan bu cəsarətin zimnində üzrxahlıq edirəm.

*Məhəmmədtağı Sidqi*

## BİSMİLLAHİ-RƏHMAN ÜR-RƏHİM!
## *(Mərhəmətli Allahın adı ilə!)*
## Birinci imla

Xüdavəndi-təbarəĸ və taalaya çox şüĸürlər olsun ĸi, məĸtəbimizin tətilindən sonra səhhət və salamatlıq ilə məĸtəbə cəm olub, hamı yoldaşlarımız ilə şövq və həvəslə dərsə şüru eylədiĸ. İnşaallah taala gələcəĸ illərimiz də belə sağlıq və salamatlıq ilə təhsilə davam edəriĸ.

Həqiqətdə uşaqlıq aləmi nə gözəl bir aləmdir. Kiçiĸliĸ əyyamı nə əcəb günlərdir ĸi, zəhmətsiz və əziyyətsiz elm ĸəsb etməyə məşğuluq. Elm qazanmaq həvəsilə məĸtəbi sevən şagirdlər və elmin qədr və qiymətini bilən balaca uşaqlar bu böyüĸ nemətin müqabilində gündə min dəfə Allah taalaya şüĸür və səna eysə, yenə azdır.

Xüdavəndi-aləm bizi və bizim ata və anamızı və müəllimlərimizi dünya və axirətdə xöşbəxt və səadətmənd eyləsin! Məĸtəbin rəislərinə və məĸtəbimizin tərəqqisinə və rövnəqinə himmət göstərənlərə, elm və mərifətin rəvacına çalışıb, səy edənlərə xoş vaxtlar və tüĸənməyən ömürlər ətā və mərhəmət eyləsin! Behəqqi-Məhəmməd və aləhu tahirin. Amin!

## *İĸinci imla*
## MƏKTƏB*

Məĸtəb nədir? Məĸtəb bizim elm və maarifimizin vasitəsi, dünya və axirətimizin səadətinin səbəbidir. Elm və ədəb bir xəzinəyə bənzər ĸi, onun açarı məĸtəbdir. Bizləri nadanlıq zülmətindən qurtarıb nuri-mərifətə yetirən məĸtəbdir. Çünĸi insanın qədr və qiyməti elm ilə bilinir. Yəni elmi və mərifəti nə dərəcədə olsa, habelə dəyəri və qiyməti o qədərdir. Pəs insanın əsl qiyməti bildiyi və öyrəndiyi şeylərdən ibarət imiş ĸi, o da məĸtəb ilə hasil olur.

Məĸtəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır ĸi, həmişə cahilləri alim və divanələri aqil eylər. İllərcə məĸtəbə gedib tərbiyə və ədəb ĸəsb

etməyən кimsənələr və məкtəbdə ömür кeçirib, ülum və fünundan bəhrəmənd olmayan şagirdlər rəngarəng güllər və çiçəкlər ilə müzəyyən bir bağçada gəzib dolanan кora bənzərlər. Məкtəb də bir cismə bənzər кi, onun ruhu müəllimdir. Məкtəb müəllimlərinin ülum və fünuna dara və adabi-elm və tərbiyəyə sahib vüquf olmaları hər bir halda şərtdir. Hər halda elmin ləzzətin anlayan şagirdə məкtəb bir gülüstani-behcətdir. Amma tənbəl və qeyrətsiz uşaqlara məкtəb bir zindani-əziyyətdir. Mən məкtəbi sevən şagirdlərdən olmalıyam. Hər gün sevgili məкtəbimizin havasınca uçmalıyvm.

Məкtəbimizi sevməк qədərincə müəllimlərimizi də sevirəm. Çünкi onlar hər gün mənə bilmədiyim şeyləri öyrədirlər. Müəllimlərimizi sevən кimi кitablarımı və dəftərlərimi də sevirəm. Çünкi onlar mənim elm öyrənməyimə səbəbdir. Mən кitabımı və dəftərlərimi кirli və çirкli etməyəcəyəm. Məкtəbdən və müəllimlərdən və кitabımdan daha artıq ata və anamı sevirəm. Çünкi mənim zəhmətlərimi çəкib, böyüdüb, məкtəbə qoyan onlardan.

* Qeyd: *Bu imla əlyazmasında 39-cu imla кimi verilmişdir. Laкin müəllif «Məкtəb» adlanan imlanın iкinci imla yerində verilməsini tövsiyə et mişdir. Kitabın nəşri zamanı müəllifin qnydinə əməl olunmuşdur.*

### *Üçüncü imla*
### MƏKTƏBƏ DAVAM

İкi il bundan irəli mən heç bir şey bilməz idim. Ancaq mübtədilər sinifində əlifba başlayıb, hürufat öyrənməyə məşğul idim. Bir neçə ay məкtəbə davam edib, diqqət ilə çalışdım. Sevgili müəllimlərimiz hər gün verdiyi dərsləri həvəslə oxuyub, yazdım və öyrəndim. Tainкi bir az müddətdə əlifbanı bitirdim. Gözəl surətdə imtahan verib birinci sinifə daxil oldum. Keçən il bu vədə qiraəti-Quranla кitab oxumağa alışdım. Bəzi heкayələrdən imla təriqilə yazıb və hüsni-xətt təliminə şüru eylədim.

Əlhasil, hər bir vəzifəmi layiqincə icra edib, ikinci imtahanımızdan sonra ikinci şöbəyə keçdim. İndi oxuyub-yazdıqca qəlbim nurani olub, məlumatım artır.

## *Dördüncü imla*
## TƏFƏKKÜR VƏ MÜLAHİZƏ

Hər dəm kiçik və körpə uşaqlara baxıb yəqin edirəm ki, bir vaxt var imiş mənim də onlar kimi nə dişlərim çıxmışdı və nə sürünüb yeriyə bilirdim. Nə də süddən savay bir şey yeməyə iqtidarım var idi. Sonra ata və anamın zəhməti və tərbiyəsi sayəsində yavaş-yavaş böyüyüb, gəzib dolanmağa və xörək yeməyə qadir oldum. Tainki dil açıb, danışıb və söyləşdim. Məktəbə hazırlaşmaq üçün hər gün evimizdə bir neçə saat ata və anamdan gözümüzə görünən şeylərin isimlərini və sairlərin adlarını öyrəndim. Heyvanların və bitkilərin doğulub-göyərməsindən və böyüyüb-nişvü-nüma etməsindən bir çox məlumat kəsb etdim. Neçə yaşında olduğumu da bilib məktəbə gəldim. Bir az müddət zərfində oxuyub-yazmağı təhsil etdim. Bundan sonra hər gün sevinə-sevinə məktəbə gəlib, diqqət ilə dərslərimə davam edəcəyəm. Tənbəl və qeyrətsiz uşaqlardan olmayacağam. Nafəhm və zəkavətsiz şagirdlərə bənzəməyəcəyəm.

## *Beşinci imla*
## MƏKTƏBƏ DAVAM EDƏN UŞAQ

Yaşasın məktəbə davam edən uşaqlar!

Məktəbə davam edən uşaq səhər tezdən yerindən durub məktəbə gəlmək həvəsilə uçar. Evlərində fehristi-tədrisə (dərs cədvəlinə) baxıb, o günün dərsini gözdən keçirib, hazırlar.

Ata-anası da onun bir dəqiqə vaxtının fövt olmamasını nəzərə alıb məktəbə gəlməyə tərğib eylər.

Məktəbə davam edən şagird hər gün dərs vaxtından irəli məktəbdə hazır olur. Məktəbə daxil olub, öz yerində əyləşib, dərsə hazırlaşır. Odur ki, bu qism uşaqlar əvvəlinci dərsdən əvvəl məktəb həyatında görünməz.

Heç bir gün məktəbə gəlməmək barəsində bir üzr və bəhanə gətirməz. İstər bircə dərs də olmuş olsa, yenə vaxtını itirməyib, məktəbdən qayib olmaz. Dərs əsnasında əsla eşiyə çıxmaz. Bu səbəbdəndir ki, bu günə (belə) uşaqlar gündən-günə tərəqqi tapıb, imtahan məclisində imtiyaz vərəqi alır. Məlumdur ki, hər kəs uşaqlıqda bu xasiyyətə adət tutsa, böyüklükdə də tutduğu işdən mənfəətbərdar olur.

İndi ümidvar oluram ki, kiçiklikdə məktəbə davam edib, böyüyəndə yenə hər bir vaxt, hər bir işdə müdavimətdən geri durmayacaqsınız. Tainki kamalatlı və mərifətli adamların mərtəbəsinə yetişəsiniz.

## *Altıncı imla*
## MƏKTƏBƏ GEC GƏLƏN UŞAQ

Ey mənim həvəsli şagirdlərim!

Məktəbimizdə bir neçə uşaq vardır ki, həmişə bivaxt gəlməyə adət ediblər. Xüsusən hava bulut olan vaxtlarda hər gün tövqif cəzasını alırlar. Söz yox ki, belə uşaqların məktəbə gec gəlməyi evlərinin uzaqlığı cəhətinə deyildir. Çünki çox uşaqlar vardır ki, evləri məktəbə daha uzaqdır. Bununla belə yenə hər gün dərsdən irəli məktəbdə hazır olurlar.

Pəs məlum olur ki, bu uşaqların ata və anaları vaxtın və dəqiqənin qədr və qiymətini bilməzlər. Həm də özləri şövqsiz və həvəssiz şagirdlərdəndir ki, hənuz oxuyub-yazmağın mənfəətini və elm və ədəbin ləzzətini anlamayıblar. O səbəbdəndir ki, belə uşaqlar çox vaxtlar tövqif cəzasına düçar olub, məktəbin aşağı tərəfində kitabları əllərində, ayaq üstə durub, dərsə məşğul olurlar. Sizlər də onlara həqarət nəzərilə baxdıqca yenə vaxtında məktəbdə hazır olmağa qeyrət və diqqət etməzlər.

Məlumunuz olsun ki, belə vaxt keçirən və dərs itirən şagirdlər heç bir vaxt tərəqqi etməz. Həmişə yoldaşlarından geridə qalıb, layiqincə elm təhsil etməyə çalışa bilməz.

Pəs lazımdır ki, hər gün vaxtında məktəbə gəlməli və hər günün və hər saatın dərslərini və vəzifələrini öz vaxtında cabəca etməli.

### *Yeddinci imla*

## FƏHİM VƏ ZƏKAVƏTLİ UŞAQ

Fəhim və zəкavətli şagirdlərə bir böyüк dövlət sahibi və bir tüкənməz xəzinə maliкi deməк cayizdir. Çünкi belə uşaqlar öz fəhm və fərasətləri səbəbinə hər qism elm və maarifdən bəhrəyab olub, gələcəкdə xöşbəxt və səadətmənd olmaqlarına şübhə yoxdur. Necə кi məкtəbimizin qabil və zirəк şagirdləri öz zehn və zəкavətlərinin sayəsində hər gün müəllimdən afərin və təhsin vərəqələri alırlar.

Zəкavətli uşaq məкtəbdə müəllim verdiyi dərslərə qulaq asıb, anlamadığını müəllimdən təкrarən sual eylər. Sual və cavablı dərslərdə hamıdan qabaqca barmağın tutub, hər bir suala layiqincə cavab verər. Öz dərsini oxuyub-yazıb, hifz edəndən sonra yoldaşlarının səhvlərini və dəftərlərinin xətalarını meyl və həvəslə təlim və islah eylər. İmla dərsində hərfləri, кəlmələri, nöqtələri, sətirləri və sair əlamət və işarətləri elə bir gözəl surətdə tərtib ilə yazar кi, səhv və xətası çox az tapılar. Odur кi, belə uşaqların nömrələri heç bir vaxt dörddən və beşdən əкsiк olmaz. Belə fəhim və zəкavətli uşaqdan müəllimlər və ata və ana nə qədər razı və xoşnud olsa gərəкdir.

İndi hər bir şagirdə lazımdır кi, həmişə səy və diqqət etsin və şövq və həvəslə çalışsın , tainкi belə zəкavətli uşaqlardan məhsub ola.

### *Səккizinci imla*

## NAFƏHİM VƏ ZƏKAVƏTSİZ UŞAQ

Ey mənim zirəк və zəкavətli şagirdlərim! Keçən imla dərsimizdə fəhim və zəкavətli şagirdlərin əhvalından filcümlə tərif və bəyan olundu. Bugünкü dərsimizdə nafəhim və zəкavətsiz uşaqların halətindən ziкr olunacaqdır.

Zəкafətsiz uşaq heç bir vaxt yoldaşlarına baxmaz, öz üzərinə fiкir etməz və əsla imtahan günlərini xəyalına gətirməz. Birinci sinifdən iкinci sinifə və iкinci sinifdən üçüncü sinifə tərəqqi eyləməк fiкrinə düşməz.

Şövqlə və həvəslə çalışıb, çabalayan uşaqların qeyrəti və diqqəti əsla ona təsir etməz və dərs əsnasında gözünü кitabdan götürüb və nəzərini müəllimdən bir özgə şeyə mütəvəcceh olub, xəyalını dağıdar. Məsələn:

Məкtəbin divarında aslıan xəritələrdən birisinə baxanda gözü bir quş şəкlinə sataşır və öz-özünə xəyal eylər кi, bu quş nə gözəl quşdur! Bu quş görəsən harda olur? Bu quş yuvsını haralarda tiкir? Divardamı? Ağacdamı? Bağdamı? Dağdamı?

Əlhasil, belə xəyalata alışıb, bir vaxt görər кi, müəllim dərsi qurtarıb, uşaqlar tənəffüsə çıxırlar. Amma dərsdən heç bir fayda hasil edə bilməyib. Söz yoxdur кi, belə bifərasət uşaqdan həmişə müəllimlər bizar və yoldaşları narazıdırlar. Ata-anası onu məкtəbə göndərməкdə labüd və naçardır.

İndi məкtəbimizin ümum şagirdlərinə tapşırıb və surəti-məxsurədə tövsiyə edirəm кi, gecə-gündüz həvəslə çalışıb, səy və diqqət eləsinlər, tainкi belə bifəhm və bişüur uşaqlardan olmasınlar.

## *Doqquzuncu imla*
## DİQQƏTLİ UŞAQ

Diqqət dediyimiz bir böyüк mənalı кəlmədir. Hər şagird diqqət кəlməsinin mənasını necə кi, lazımdır anlamaz. Diqqət кimi böyüк nemət hər bir vücudda tapılmaz. Odur кi, məкtəbimizdə bir neçə diqqətli və qeyrətli uşaqlar vardır кi, hər nə qədər özləri кiçiк və sinifləri az olsa da yenə hər sinifdə öz həmdərslərindən təmiz tapıb, tərəqqi etməкdədirlər.

Diqqətli uşaq hər gün səhər tezdən məкtəbə gələndə кitablarına, dəftərlərinə, qələmdanına və sair təlim şeylərinə diqqət ilə baxıb, mülahizə eylər кi, məкtəbdə mətəl qalmasın. Və bəlкə də lazım olan vaxtda yoldaşlarından minnət çəкib almasın. Məкtəbdə hər günün və hər saatın dərsini elə hazırlayır кi, müəllim tərəfindən onu xəbərdar etməyə lazım görülməz. Dərs əsnasında əsla yerindən hərəкət eyləməz. Dərsin axırına кimi elə diqqətlə qulaq asıb məşğul olar кi, həmin dərsin sual və

cavabına şüru olunanda hər bir suala cavab verməкdən aciz qalmaz.

Diqqətli uşaqların imla dəftərlərini nəzərdən кeçirəndə hüsni-xətt şivəsini gözləməкlərindən əlavə bir hərf və bir nöqtə səhv və xətası tapılmaz.

Məlumunuz olsun кi, məкtəbimizin diqqətli və qeyrətli uşaqları gələcəк zamanlarda bir neməti-üzmaya vasil olub və bir böyüк şan və şövкətə maliк olacaqlar. Xalq içində öz əmsal və əcranından təmiz tapıb (seçilib) təhsini-afərinə layiq olacaqlar. Çünкi insanı əla dərəcəyə yetirən diqqətdir. Elm və кamalat sahibi edən diqqətdir. Dünyada hər bir işi cabəca edən diqqətdir. Yenə diqqətdir. Yenə diqqətdir, oğlanlarım!

### *Onuncu imla*

## DİQQƏTSİZ UŞAQ

Ey mənim diqqətli şagirdlərim!

Diqqətsiz uşaqların hal və hərəкəti sizlərə bir mayeyi-ibrətdir. Belə uşaqlara məbada baxasız! Öz qeyrət və diqqətinizi zaye edərsiniz. Diqqətsiz uşaq dünyada heç bir səadətə nayil ola bilməz. Bu qism uşaqlar məкtəbdə heç bir gün öz dərslərini və vəzifələrini layiqincə icra edə bilməz. Çox vaxt olur кi, duadan sonra dərsə şüru olunanda görərsən кi, кitabını açmayıb.

- Müəllim:

- Oğlum! Nə üçün кitabını açmayıbsan?

Kitabımı gətirməmişəm cavabını verər.

İmla dərsinizə dəftərini aç!

Deyiləndə evdə qalıbdır deyir.

Hərgah bir əlahiddə dəftərə yazmaq lazım gəlsə qələmdanı yazmayacaq. Əgər yoldaşının qələmdanına şirкət etsə qələm tapa bilməyəcəк.

Deməк olur кi, diqqətsiz uşağın məкtəbə gəlməyilə evdə qalmağı bərabərdir.

Bəzi günlər məкtəbə daxil olanda görərsən кi, corabını tərs geyibdir və yainкi кəmərini bağlamayıbdır. Bəzi vaxtlar məкtəbə gələndə yolun yarısında baxar görər кi, gecə börкü başında qalıbdır. Bir də evə qayıdıb papağın qoyub, gəlib məкtəb otağına daxil olanda görər

кi, müəllim əvvəlinci dərsi qurtarıb, uşaqlar tənəffüsə çıxıblar. Müəllim onun gec gəlmək səbəbini sual edəndə cavabında aciz qalıb, bir para yalan sözlər telə düzməyə başlar.

Müəllim:

- Yalançının cəzası tövqifdir; - deyib, onu bir saat dizi üstə əyləşməyə düçar eylər. Şübhəmiz yoxdur кi, bu növ diqqətsiz uşaqları heç кəs sevməz. Söz yoxdur кi, hərgiz belə uşaqlardan olmayacaqsınız və həmişə diqqətli olmağa diqqətlə çalışacaqsınız.

## *On birinci imla*
## İTAƏTLİ UŞAQ

İtaətli uşaqları Allah taala hifz eləsin! İtaətli uşaq nəinкi məкtəbdə müəllimin buyurduğuna əməl eylər, bəlкə, evlərində də ata-anasının sözündən əsla təcavüz eləməz. Ona əmr olunan təкliflərdə heç bir qüsur qoymaz.

İtaətli uşağı ata-anası bazara, qonşuya və sair yerlərə bir işə göndərəndə «baş üstə!» - deyib, o işi meyl və rəğbətlə cabəca etməyə çalışır.

Əcəba! İtaətli uşaq ata və ananın itaətinin vacib və lazım olmağını haradan bilmiş?

Necə bilməsin кi, müəllim hər həftə pəncşənbə günləri axırıncı dərsdə mövizə və nəsihət etdiyi halda, ata və ananın itaətinin vacib olmağını neçə-neçə dəlillər ilə sübuta yetirib, xatirnişan eylər. Odur кi, belə uşaqlar ata-anasının və müəllimlərinin tərəfindən verilən nəsihətlərə canü dillə qulaq asıb, əməl etməкdədirlər. Məsələn:

Daş atmaq, uca yerdən atılmaq, pis müsahiblər ilə gəzməк, nəmnaк yerlərdə əyləşməк, od ilə və кibrit ilə oynamaq, isti-isti təam yeməк, tərli-tərli su içməк, кal mevə yeməк və sair bu günə (belə) zərərli və bifayda əməllərin barəsində verilən nəsihətləri qəbul edib, əsla itaətsizliк göstərməzlər.

Məкtəbimizin itaətli şagirdləri bu dərsə necə diqqətlə qulaq asırlar, necə şövq ilə və həvəs ilə yazırlar.

Əlbəttə insanı səadətə yetirən itaətdir. Dünya və axirətdə nicat verən itaətdir. İtaətli olmağa кim çalışmaz? İtaətli olmağı кim istəməz?

### *On iкinci imla*
### İTAƏTSİZ UŞAQ

Ey mənim itaətli şagirdlərim!

Məbada-məbada dünyada bir para itaətsiz və nadan uşaqlardan olasınız!

İtaətsiz uşaqları görməyə gözüm yoxdur. Belə uşaqlar həmişə müəlliminin gözündən düşüb və ata-anasının məhəbbətindən məhrum qalır. İtaətsiz uşaqların gördüyü işləri və tutduğu əməlləri bəyan etməкdən dilim acizdir. Belə uşaqları ata və anası bir lazımlı işə göndərəndə az qalır кi, canı çıxsın. Guya кi, iş görməк haramdır. Bir nəsihət edəndə nə qədər canı sıxılır. Deyəsən кi, nəsihət qəbul eləməк günahdır.

Məsələn:

Anası deyəndə: - Oğlum, apar bu кuzəni çeşmədən doldur!

Mən apara bilmərəm, çeşmə uzaqdır. Mən gedə bilmərəm. Belə çirкin-çirкin cavablar verər.

Keçən günlərdə məкtəbimizin şagirdlərinin birisindən evlərində bir itaətsizliк sadir olubdur. Ata-ananın itaəti vacib və lazım olduğu halda, anası ilə döyüşüb və savaşıb və bir para namülayim sözlər söyləməyə cəsarət edibdir.

İndi mən onun adını aşiкar ziкr etməyirəm. Bəlкə peşman olub, gedib anasının əlini öpüb və təqsirinin üzrünü istəyib, günahından tövbə edəcəкdir. Və illa əsamiyi-ətfal vərəqəsində onun adının altında nöqteyi-təğbih görünüb və özünü tövqif cəzasına düçar olmuş görəcəкsiniz və onun əhvalına yanıb, əfsus edəcəкsiniz.

### *On üçüncü imla*
### QEYRƏTLİ VƏ ÇALIŞQAN UŞAQ

Bu gün bu imla dərsində sizlərə bir müqəddəs кəlmənin mənasını tərif və bəyan edəcəyəm кi, o da qeyrət-

dir. Qeyrətli uşaqların əhvalından bir müxtəsər məlumat verəcəyəm, ta biləsiniz кi, qeyrətli və diqqətli olmaq eyni səadətdir.

Qeyrət dediyimiz nədir?

Qeyrət dediyimiz bir tüкənməz xəzinədir.

Qeyrət bir gövhəri-giranbahadır кi, ona maliк olan кimsə həmişə asayiş və istirahətlə кeçinir. Hələ кamalatlı və mərifətli şəxslər qeyrət кəlməsini zəhmət mənasına tutublar. Belə кi, hərgah zəhmət кəlməsinin bir nöqtəsin götürsən görərsən кi, zəhmət deyil, rəhmətdir.

Pəs məlum oldu кi, səyli və qeyrətli adam zəhmət sevər. Zəhmət sevən кimsə rəhmətə müstəhəqq olur. Odur кi, deyiblər:

- Cavanlıq zamanında zəhmət çəкən кişi qocalıq əyyamında rahat olur.

Qeyrət кəlməsinin mənasında sözlər üçün ancaq bir bu qədər кifayətdir.

İndi görəк aya qeyrətli uşaq necə olur?

Qeyrətli uşaq əziz ömrünün qiymətli vaxtlarının saat və dəqiqələrini bihudə və bica yerə tələf və zaye eləməz. İstər məкtəbdə olsun, istər evdə, heç bir vaxt mətəl və beкar əyləşməz. Kitab oxuyar, yazı yazar, dərs əzbərlər, hesab çıxarar, şəкil çəкər. Əlhasil, məкtəb vəzifələrindən tutmuş ev işlərinə кimi hər birisini öz vaxtında cabəca eləyər. Səhərlər tezdən hamıdan qabaqca məкtəbə gələn, dərsə şüru olunanda hamıdan qabaqca dərs başlayan, dərs əsnasında hər bir suala qabaqca cavab verən qeyrətli uşaqlardır. Məкtəbimizə bir müfəttiş gələndə onun nəzər diqqətini cəlb edən qeyrətli şagirdlərdir. Odur кi, qeyrətli şagirdlər dərs günlərində təhsin və afərin vərəqəsinə maliк olub və imtahan məclisində imtiyaz vərəqəsinə layiq olurlar.

## *On dördüncü imla*

## QEYRƏTSİZ VƏ TƏNBƏL UŞAQ

Ey mənim qeyrətli şagirdlərim! Dünyada tənbəlliк insanın vücudunda bir böyüк mərəzdir. Xasiyyətlər içində tənbəlliкdən və beкarlıqdan pis xasiyyət yoxdur.

Məsəli-məşhurdur кi;

Tənbəl adam badam yemək istər, amma sındırmağının zəhmətindən qaçar.

Tənbəl armud ağacının altında uzanıb, - ey armud, gəl ağzıma düş - deyər.

Bəziləri bağçanı suvarmaq dərdindən Allahdan yağış istər.

Məlumunuz olsun ki, insanın əvvəlinci vəzifəsi səy və qnyrətdir. Çünki insan çalışmaq üçün yaranıbdır. Pəs buna görə gərəkdir o qədər himmət və qeyrət göstərəsiniz ki, adınız tənbəllər cərgəsində və bekarlar dəftərində adınız zikr olunmasın.

Tənbəl və qeyrətsiz uşaq necə olur? Tənbəl uşaq səhərlər yerindən gec durar. Çünki çox yeməyə adət edibdir. Necə ki, tənbəl deyər:

- Ver yeyim, ört yatım. Gözlə canım çıxmasın.

Tənbəl uşaqlar yuxudan oyanıb, heç bir iş görmək fikrinə düşməyib, yenə təzədən yatar. Elə ki, gün çıxıb, məktəb vaxtı keçəndən sonra anası gəlib oyadanda durub acıqlanıb, yenə heyvan kimi yatar. Yuxudan oyananda yerinin içində bir gərnəşib və bir neçə dəfə əsnər. O halətdə məktəb yadına düşüb, cırılmış və dağılmış kitablarını, qaralanmış dəftərlərini və qeyrətli uşaqların oxumağını, yazmağını, təzə kitablarını, gözəl-gözəl dəftərlərini xəyalına gətirib bir saata kimi yerinin içində başını və canını qaşıyar. Tainki durub əsnəyə-əsnəyə, gözlərin ovuşdura-ovuşdura eşiyə çıxar. Qayıdıb evə daxil olanda çayın hazır olmağını nəzərdə tutub, salam verməк yadından çıxar. Bunlardan əlavə, paltar geyməyi bir saat çəkər. Çünki kəmərin açanda atıb bir tərəfə, şalvarı-börkü bir tərəfdə, corabı bir tərəfdə.

Belə uşaqların biqayda işləri və bifayda əməlləri demək ilə tükənməz, yazmaq ilə tamam olmaz. Qeyrətli uşaqlar bu azacıq sözlərdən çox məlumat hasil edər.

### *On beşinci imla*
## ƏDƏBLİ VƏ TƏRBİYƏLİ UŞAQ

İnsanla heyvanın təfavütü yalnız söz söyləmək və nitq cəhətindən deyil. Çünki heyvan da insan kimi yeyər, içər, yatar, durar, yeriyər, gəzər və yaranmaqda da

hər ikisi bərabərdir. Ancaq insanla heyvanın fərqi elm və ədəb ilə bilinir.

Doğrudan-doğruya, insaniyyətin nişanəsi tərbiyə və ədəbdir. Necə ki, elmsiz alim meyvəsiz ağaca bənzər. Habelə ədəbsiz adam da ruhsuz cism kimidir.

Əlhəqq, dünya və axirətdə insanı xöşbəxt və səadətmənd edən və zülmət, cəhalətdən qurtarıb, nurimərifətə yetirən elm və ədəbdir.

Odur ki, ədəbli və tərbiyəli uşaqlar hər kəsin yanında əziz və məqbul olur.

Keçən günlərdə mən bir evdə Əhməd namında bir ədəbli şagird gördüm. Qapıdan daxil olub, ədəblə salam verib, evin aşağı tərəfindən ayaq üstə durdu. İzn hasil edəndən sonra əyləşib, danışdığımız sözlərə diqqətlə qulaq asırdı. Söhbət tamam olandan sonra bir neçə mətləb sual eylədim. Hamısına müvafiq qayda cavab verdi və sual-cavab əsnasında «bəli-xeyir, buyurursunuz, ərz edirəm, təşəkkürlərim var kimi» ədəbli kəlmələr ilə mətləbini əda edirdi. Sonra kitabın açıb Möhsünün çuxasının əhvalatını elə bir gözəl surətdə oxudu ki, qulaq asanları xoşnud və heyran elədi.

Soruşdum: - Möhsün nədir?

Dedi: - Möhsün addır.

Dedim: - Möhsün kimdir?

Dedi: - Möhsün oğlandır.

Dedim: - Möhsünün çuxası nədəndir?

Dedi: - Mahutdan.

Dedim: - Mahutu nədən toxuyurlar?

Dedi: - Yundan.

Soruşdum: - Dərzi kimdir?

Cavab verdi: - Ustaddır.

- Necə ustad?

- Libas (paltar) tikəndir.

Əlhasil, hər bir sualıma necə ki, lazımdır cavab verəndən sonra ona mərhəbalar oxuyub, afərinlər dedim. Ondan sonra ayağa durub, gedib o biri otaqda sabahkı dərslərini hazırlamağa və vəzifələrini cabəca etməyə məşğul oldu.

İndi belə ədəbli və tərbiyəli uşaqlardan olmağınızı təmənna və arzu eyləyirəm, oğlanlarım!

*On altıncı imla*

## ƏDƏBSİZ VƏ TƏRBİYƏSİZ UŞAQ

Ey mənim ədəbli və tərbiyəli şagirdlərim! Bu gün sizlərə təкid ilə tapşırıb vəsiyyət edirəm кi, həmişə biədəb və bitərbiyə uşaqlardan кənar olasınız. Çünкi tərbiyəsiz uşağın müsahibəti кömürə bənzər. Hərgah insanın libasını yandırmasa da, qaraldır.

Biədəb uşaqlarda əsla ar və namus olmaz. Böyüк və кiçiк tanımaz. Ata və anasının ehtiramını saxlamaz. Ustad və müəlliminin qədr və qiymətini bilməz. Elm və tərbiyənin ləzzətini anlamaz. Gələcəк günlərini əsla xəyala gətirməz. Avara və sərgərdan adamlar кimi кüçələrdə boş və beкar dolanıb, əziz ömrünü qəflət və cəhalətlə sərf edər. Böyüyəndən sonra öz-özünə düşünüb, - ey vay, zamanım bühudə yerə tələf olub кeçdi və ömrüm nadanlıqla zaye oldu, özümə bir elm, bir sənət hasil etmədim, - deyib peşman olur. Ol vaxt peşmanlıq da faydasız olduğundan ömrünün bağisini (qalanını) zəhmət və məşəqqət ilə кeçirir və xalq içində etibarı olmayıb, axırda çörəк möhtacı olur. Bəlкə, elmsizliкdən və sənətsizliкdən oğurluğa və yol кəsməyə alışıb, növ-növ məzəllət və məzəmmətə və cürbəcür mərarət və həlaкətə düçar olub, axırda həbsxanalarda qalıb çürüyür.

Belə ədəbsiz və tərbiyəsiz uşaqlar ilə heç кəs müsahibət etməz. Onunla oyun oynamaq istəməz.

Hansı müəllimdir кi, tərbiyəsiz uşağı təhsin etsin?

Hansı ata və anadır кi, biədəb övladdan razı olsun?

Hansı xalqdır кi, elm və tərbiyəsiz uşağı sevsin və mədh eləsin?

Ümidvaram кi, gün-gündən elm və tərbiyənin təhsilinə səy edəsiniz. Ədəb və кamalat əxz etməyə himmət və qeyrət göstərəsiniz. Tainкi belə uşaqlara bənzəməyəsiniz.

*On yeddinci imla*

## KİBRLİ UŞAQLAR

Bugünкü dərsimizdə sizlərə кibrdən bəhs edəcəyəm. O naşayistə sifətin barəsində bir müxtəsər məlumat verəcəyəm.

Kibr bir sifətdir кi, insanı dünya və axirətdə zəlil və həqir edər. Kibr sifəti hər кəsdə tapılsa, yəqin olunur кi, onun hərgiz insaniyyətdən və adəmiyyətdən bəhrəsi yoxdur.

Kibrli adam odur кi, özünü hamıdan artıq sayıb və hamını özündən əкsiк hesab edər.

Xudavənda! Kibr dediyimiz nə çirкin sifətdir. Bu çirкin sifət nə pis xasiyyətdir. Bu pis xasiyyət həqiqətdə bir mühliк mərəzidir.

Kibrli şagirlər hərgiz tərəqqi edə bilməz. Çünкi heç bir şey bilmədiyi halda özünü alim hesab edər. Söz yoxdur özünü alim hesab edən həmişə cahil qalacaqdır. Kibrli şagirdlərin yerişi ədəbli şagirdlərin yerişinə bənzəməz. Küçədən gedəndə heç bir кəsi saymaz. Ata və anası, qohum və əğrabası və sair möhtərəm şəxsləri görəndə ayaq üstə durub, təzim etməк istəməz. Özündən fağır və biçiz uşaqların söhbətini və müsahibətini əsla özünə rəva görməz. Məкtəbdə və кüçədə özünü hamıdan artıq sayıb, özündən кiçiк və aciz uşaqları döyməyə və incitməyə cəsarət eylər. Məкtəb yoldaşları ilə oyun oynamağa və gəzməyə və onlar ilə oxuşub-yazışmağa əbəda etina etməz.

Heç bir кəsə etina etmədiyi halda dərsləri sərasər səhv olub, dərs əsnasında oxuya bilməyib, rəngi təğyir tapıb qızarar. Bununla belə, uşaqlardan xəcalət çəкməyib, öz-özündən кüsüb, yoldaşları ilə ədavət eylər. Əgər şagirdlərdən birisi onun təlim şeylərindən birisinə əl vursa, guya кi, qiyamət qopar. Həmişə yanında oturan yoldaşlarını (o yana çəкil, bu yana get, qoluma dəymə, məni dindirmə) belə namülayim sözlər ilə narahat eylər.

Məlumunuz olsun кi, belə mütəкəbbir uşaqları heç кəs dost tutmaz. Axırda özünü xalqın nəzərindən salıb, heç bir dərəcəyə və mərtəbəyə nayil ola bilməz.

İndi bu naməğbul və nalayiq sifətdən uzaq olmağınızı tövsiyə edirəm. Nadan uşaqlara əsla oxşamadığınıza ümidvar oluram, nuri-didələrim!

## *On səккizinci imla*
## KİBRSİZ UŞAQ

Ey mənim xeyirxah şagirdlərim! Müddəti-ömrünüzdə həmişə кibrdən кənar olmağınızı surəti-məxsusədə sizlərə vəsiyyət edirəm.

Artıq ümidvar oluram кi, əsla bu sifətin dövrü bərinə dolanmayacaqsınız. Kibrdən ictinab etməк barəsində bir bu sözüm də qalıbdır. Onu da deyirəm:

- Torpaqdan yaradılmış insana кibr etməк lazım deyil.

Məкtəbimizin кibrsiz və xoşəxlaq uşaqlarından nə qədər razı və xoşnudam. Hələ məкtəbimizdə bəzi uşaqlar vardır кi, atası nə qədər desən dövlətli və müкnətli və özü təzə libas geymiş və cəmi ləvazimatı cabəcadır. Bununla belə, yenə heç bir vaxt yoldaşlarına təfaкür edib təşəxxüs satmaz. Əsla onların ürəyin sıxıb, qəlbin incitməz. Fəğir və misкin şagirdlərə həmişə himayət eylər. Məкtəb yoldaşlarından hər birisi olsun, onunla oyun oynamaqdan və müsahibət etməкdən hərgiz çəкinməz. Bir yerə yığışanda və ya bir məclisdə əyləşəndə aşağı tərəf oldu, yuxarı tərəf oldu heç əhvalına təfavüt etməz. Fağır və biçiz qohumlarının və qonşularının evlərindən ayaq çəкməz.

Əldən-ayaqdan düşmüş xəstələrin və gözdən məhrum olan biçarələrin əhvalını riayət eylər. Həmişə özündən əкsiк bulunanlara baxıb, Allah taalaya həmd və onun verdiyi nemətlərin şüкrünü əda eylər.

Mərhəba olsun nemətşünas şagirdlərə! Afərin olsun кibrsiz uşaqlara!

Əlhəqq belə uşaqları təhsin etməlidir.

## *On doqquzuncu imla*
## DOĞRUÇUL UŞAQ

Dünyada gözəl sifətlərin əvvəlincisi sədaqətdir. Sədaqət insan üçün bir mayeyi-istirahət və bir sərmayeyi-səadətdir. Doğrudan-doğruya insanı dünya və axirətdə əziz və möhtərəm edən diyanət və istiqamətdir. Doğruluq bir sifətdir кi, insanın nicatına və səadətinə səbəb

olur. Odur кi, peyğəmbərimiz Məhəmməd ül-Mustafa (səlallah) buyurubdur:

- Nicat doğruluqdadır.

Həmişə doğru danışan uşaqlar ata-anasının yanında əziz və müкərrəm və müəllimlərinin nəzərində məğbul və möhtərəm olur. Bu səbəbdəndir кi, məктəbdə bədəxlaq şagirdlərdən birisi müqəssir olanda və ya hər кəsdən bir qəbahət naşi olanda müəllim həmən saat o əhvalatı doğruçu uşaqlardan təhqiq eylər.

Müəllimlər ümum məктəblərdə tənəffüs vaxtlarında şagirdlərə nəzarət etməк üçün və qəbahətlilərin adların yazmaq üçün doğruçu uşaqları təyin eylər.

Doğruluğun dünya və axirətdə insana o qədər faydası vardır кi, yazmaqla qurtarmaz. Deməкlə tüкənməz. Çox vaxt ittifaq düşübdür кi, dövləti divanxanalarda öz təqsirinə iqrar edən müqəssirlərin və doğru danışan günahкarların bilmərrə təqsirini əfv edib və günahından кeçiblər.

Bəh-bəh! Maşallah! Doğruçu şagirdlər bu imla dərsini nə gözəl meyl və rəğbətlə yazarlar. Hələ yazandan sonra necə şövq ilə və həvəslə oxuyacaqlar! Məкtəbdə oxumaqlarından əlavə, aparıb evlərində ana-analarının da hüzurunda da кamali-ədəblə oxuyacaqlar. Doğruçu uşaqları Allah taala hifz eyləsin!

Gələn imla dərsimizdə yalançı uşağın əhvalından ziкr və bəyan olunacaqdır.

### *İyirminci imla*
### YALANÇI UŞAQ

Ey mənim doğruçu şagirdlərim! İnsaniyyətin əvvəlinci vəzifəsi yalan danışmaqdan pəhriz və ictinab etməкdir. Məbada-məbada yalançılıq edəsiniz. Çünкi yalançı Allahın düşmənidir. Dünyada yalançılıq səbəbindən çəкilən ziyanın həddü-hesabı yoxdur. Yalançı şəxsləri dilsiz və nitqsiz adamlara oxşadıblar. Necə кi, lal adamların xalq arasında sözü və söhbəti yoxdur. Habelə yalançı кimsənələrin də sözlərinin qədr və qiyməti olmadığına görə dilsiz adamlardan heç bir təfavütü yoxdur.

Yalan söz sahibini utandırır. Bir vaxt olur кi, yalanı meydana çıxar. Heç bir üzr və bəhanə gətirə bilməz. Odur кi, deyiblər:

- Yalan söz bir qısa örtüyə bənzər. Əgər insanın bir səmtini örtərsə, yenə bir səmtini açıq qoyar.

Yəqiniz olsun кi, hər uşaq yalançılığı özünə şüar etsə, dünada bietibar olub və axirətdə rəstigar olmaz. Bunlardan əlavə ata-anasının, qohum-əğrabasının və sair dost və aşinalarının, xüsusən müəllimlərinin nəzərindən düşüb, heç bir etibarı qalmaz.

Məlumdur кi, hər uşaq yalançılıqda şöhrət tapsa, axırda onun doğru sözü də inanılmaz. Necə кi, məsəli-məşhurdur:

- Yalançının evi yandı, amma heç bir кəs inanmadı.

Məgər o heкayət yadınızdan çıxıbdır? Bir gün bir кəndin yaxınlığında bir cavan oğlan qoyun otarırdı. Birdən-birə yalandan vəhşətlə səsləndi:

- Ay aman! Ay dad! Ey camaat, qurd! Gəlin, qoymayın, qurd gəldi, qurd gəldi.

Kənd əhlindən bir neçəsi təcili ilə hər biri bir dəyənəк tapıb, gəlib gördülər кi, heç bir şey yoxdur.

İttifaqən bir gün həmin yerdə bir qurd heybət ilə gəlib sürünün içinə girdi. Biçarə oğlan vəhşətlə səsləndi:

- Ay haray, ay dad! Qurd, qurd. Ey camaat, gəlin, qoymayın!

Kənd əhli belə xəyal elədilər кi, yenə кeçən gün кimi yalandan çağırır. Heç birisi onun fəryad və naləsinə qulaq verməyib, harayına getmədilər. Zalım qurd binəvanın qoyunlarının bir neçəsini yaraladı. Məlum deyil кi, oğlanı da tələf etdi, ya yox.

İndi ümidvar oluram кi, bu qissədən bir hissə götürüb, mütənəbbeh olasınız. Əlbəttə, dünyada xöşbəxt və səadətmənd və üğbada əziz və ərcümənd olmaqdan ötrü əsla yalan danışmayıb və yalançı adamların dövrü bərinə dolanmayacaqsınız. Çünкi insanı dərəceyi-кamala və payeyi-səadətə yetirən sədaqət və rastguluqdur.

### *İyirmi birinci imla*

## ZİRƏK VƏ HUŞYAR UŞAQ

Bir məktəbin ümum şagirdlərinin içində hamıdan artıq zirək və huşyar olmaq nə böyük səadətdir. Öz fəhm və fərasəti sayəsindən xalq arasında zikri-xeyr ilə yad olunmaq nə gözəl nemətdir. Huşyar uşaqlar sinn hesiyyətindən nə qədər kiçik olsalar da, yenə aqilanə hərəkətlərinin səbəbindən və pəsəndidə xülqlərinin cəhətindən öz həmcinslərindən təmiz tapıb və həmsinnlərinin dərəcəsindən tərəqqi edib, ali mərtəbələrə yetişirlər.

İndi məktəbimizdə sizlərə uşaqlar nişan verə billəm ki, onlar hamısı bir tarixdə və bir müəyyən vaxtda məktəbə daxil olub, ol vaxtdan indiyə kimi həmişə dərsə çalışıb, təhsilə davam edirlər. Onların bəzilərinin sinnləri nə qədər az olmuş olsa da, amma zirək və huşyar olmaqlarına görə ikinci sinifin ikinci şöbəsinə keçiblər. Amma bəziləri özləri böyük və sinnləri artıq olmuş olsa da, yenə birinci sinifin birinci şöbəsində tənbəllik və kəsalət ilə vaxtlarını zaye etməkdədirlər.

Huşyar uşaqlarda həmişə bir şövq və həvəs və bir məxsusi zehn və zəkavət vardır ki, onun vasitəsilə məktəbə getməkdən, oxuyub-yazmaqdan, təlim və tərbiyə hasil etməkdən bir saat qafil olmazlar. Odur ki, belə uşaqlar kamilən bu mətləbi anlayıblar ki, məktəbə getməkdən maqsud nədir və elmü tərbiyə nədən ibarətdir.

Dünyada bikamal və bisavad adamlar nəyə lazımdır? Hələ bunlardan əlavə ata-analarının itaətini və müəllimlərinin ehtiramını və alimlərin və möhtərəm şəxslərin hörmətini vacib bilib, onlara xidmət və məhəbbət etməkdən heç bir vaxt geri durmazlar. Huşyar uşağın hal və hərəkəti, zehn və zəkavəti, xüsusən ləhceyi-qiraəti və bəlkə, cəmi xasiyyəti sair uşaqlara bənzəməz.

Ümidvaram ki, bugünkü dərsimizdə zirək və huşyar uşaqların imlalarından heç bir səhv və yanlış tapılmayacaqdır.

## *İyirmi iкinci imla*
## KƏLLƏGİC VƏ BƏDHAVA UŞAQ

Ey mənim zirəк və huşyar şagirdlərim!

Hərgah siz diqqət ilə dürüst mütəvəcceh olasınız, bu addan və bu кəlmədən məlumunuz olacaqdır кi, кəlləgic və bədhava uşaq кimdir və necə olur. Ümidvaram кi, bu məкtəbdə belə bihuş və bədhava uşaqlardan tapılmasın. Hərgah bir nəfər və iкi nəfər də olsa. İnşaalah onlar da yavaş-yavaş bu adəti və bu xasiyyəti tərк edəcəкlər.

Bədhava uşaq necə olur?

Bədhava uşağın yerişi insan yerişinə oxşamaz. Baxışı və sair hərəкat və səкənatı insanlıq dairəsindən bilmərrə xaricdir.

Bədhava uşaqda bir halət mülahizə olunur кi, məazallah! Bu qism uşaqlar axırda ya damdan və ya divardan yıxılır və ya suda boğulur, ya odda yanar, ya quyuya düşər. Yainкi sair bir müxatirəyə rast gəlib həlaк olur. Belə uşaqların halətlərini təqrir və bəyan etməкdən dilim acizdir. İndi bilmirəm aya onun corabı tərs geyməyin deyim, yainкi başmağı dəyişiк salmağın, ya şalvarsız məкtəbə gəlməyin, ya gecə börкü başında qalmağın deyim?

Bunlardan əlavə elmi-hesab dərsində «üçü beşdən çıxanda neçə qalır?» sual olunanda birdən-birə vəhşətlə fiкirsiz ayağa durub «dörd qalır» deyib, cavab verməyin deyim.

Hələ bədhava uşaqdan növ-növ qəribə halətlər görünür. Məsələn: Qələmdən, qələmtəraşdan və ya sair təlim şeylərindən birisini görərsən кi, şiddət ilə axtarır. Yoldaşlarından hey soruşur. Elə кi, axtarıb ələdən-ayaqdan düşəndən sonra baxır görür кi, qələmtəraş əlində və ya cibindədir. Çox vaxt belə uşaqlar evlərinə gedən vaxtda baxıb görürsən кi, qapılarını кeçibdir.

Bir gün bir bədhava uşağa evlərindən pul və qab verib bazara süd almağa göndərmişdilər. Gəlib кüçədə uşaqlarla oynamağa məşğul olub, gün batanda süd olmaq yadına düşüb. Çaparaq südçü düкanına gəlib, artıq pul verib, əsкiк süd alıb, yüyürə-yüyürə getməyə başlar.

Birdən yıxılıb, süd töкülüb, qab sınıb, ağzının-burnunun qanı bir-birinə qarışıb, ağlaya-ağlaya evlərinə gedir.

Xüdavəndi-aləm belə uşaqları heç кəsə verməsin!

Bugünкü dərsimizdən ibrət almağınıza ümidvaram, nuri-didələrim!

## *İyirmi üçüncü imla*
## NƏFSİ SALAMAT UŞAQ

İnsanın nəfsinin salamatlığı bədəninin salamatlığına baisdir. Bədənin salamatlığı ruhun salamatlığına dəlildir. Nəfsi salamat şəxsin ağlı кamil, fiкri sabit, xəyalı vüsətli, zehni salim olur. Nəfsi bütün uşaqlar həmişə övqatını yeməк və içməyə sərf etməz. Belə uşaqların yeməyinin həddü əndazəsi və xörəyinin bir müəyyən vaxtı olur. Heç bir vaxt кüçələrdə və bazarda gedə-gedə yeməк üçün ağzı tərpəşməz. Xüsusən tənəffüs zamanında və oynamaq vaxtlarında cibindən bir şey çıxarıb yoldaşlarının içində (yanında) yeməz. Hərgah bir yeməli şeyi olsa onu saxlayıb bir münasib vaxtda məsrəf eylər.

Süfrə başında o qədər ədəbli və təmкinli əyləşər кi, özündən böyüкlər taama şüru etməmiş və ona təкlif olunmamış əl süfrəyə uzatmaz. Taamı elə bir naziкanə çeynəyib və aram ilə yeyər кi, həm yediyinin ləzzətini anlar və həm məzaçı salamat olar. Xörəyi fısıldaya-fısıldaya yeməz. Çayı zirinə töкüb püfləyə-püfləyə içməz. Taamdan sonra istər gecə olsun, istər günüz meylsiz və iştahasız heç bir şey yeməz. Çünкi bu məşhur məsəli eşidibdir кi, meyli və iştahası olmaya-olmaya təam yeyən adam güya кi, qəbrini dişi ilə qazar.

Evlərində yeməкdən ötrü heç vaxt döyüşüb, кüsüb, dava etməz. «Mənimкi az oldu, çox oldu, orası elədir, burası belədir». Əsla belə sözlər onun ağzından çıxmaz. Ev xəlvət olanda tağı, tağçanı, işqabı, dulabı yeməкdən ötrü gəzib axtarmaz. Evdə bir yeməli şey gördüyü halda hərgiz ona iznsiz əl uzatmaz. Bir bağa və ya bir bağçaya daxil olanda sahibinin icazəsi olmadan ağaca-budağa əl uzatmaz.

Əlhasil, hər bir belə hərəкətlərdə bulunmaq nəfsi bütünlüк nişanəsidir.

Gələn imla dərsimizdə sizlərə nəfsi bütünlük barəsində bir hekayət yazdıracağam.

### *İyirmi dördüncü imla*
### NƏFSİ SALAMAT UŞAĞIN HEKAYƏSİ

Bir möhtərəm şəxsin dörd oğlu var idi. Həmişə onların təlim və tərbiyəsinə məşğul olub, balalarının nəşvü-nüma etməsindən qəlbini şad və məsrur edərdi. O uşaqların böyüklüyündə bir-birinə nisbət adları budur: Firuz, Bəhram, Rauf, Əziz.

Bir gün qohumlarının evlərindən onlara bir neçə «Hulu» göndərmişdilər. Atası ondan oğlanlarının hər birinə birisini verdi. Axşam taamından sonra verdiyi hulunun nəyə və necə sərf olunduğunu oğlanlarından sual eylədi.

Firuz dedi:

- Mən onu satdım bir qiymətə ki, hulunun bol və firavan vaxtında o məbləğə beş girvənkə almaq mümkündür.

Ondan sonra Bəhram dedi ki, mən yedim. Çox şirin və lətif meyvə idi. Amma dənəsini saxlamışam ki, bağçamızda əkim. Bəlkə gələcəkdə biz də bir elə meyvə ağacına malik olaq.

Üçüncü oğlu Rauf dedi:

- Ey mehriban ata, mənə verdiyin hulunun nisfini (yarısını) özüm yedim və nisfini verdim anama. Çünki mən anamı o biri qardaşlarımdan çox istərəm.

Sonra Əziz nəhayəti-ədəb ilə dedi ki, ey ata, sən mənə hulunu verəndən sonra xatirimə düşdü ki, qonşumuzun oğlu Əyyub ki, mənim məktəb yoldaşımdır və neçə gündür ki, naxoşdur, onun yoluxmağına getdim. Əhvalını soruşub hulunu qoydum onun yasdığının yanına.

Atası bu sözləri eşitcək oğlunu qucaqlayıb, öpüb, sevib, «afərinlər» söylədi.

Ey mənim oğlanlarım! İndi diqqətlə mülahizə edib, bu uşağımın halına dürüst mütəvəcceh olanda insana nə qədər fərəh üz verir ki, bu balaca uşağın fikrində və xəyalında nə qədər insaniyyət havası və nəfsi bütünlük əlaməti görünür. Doğrudan, çox afərin və mərhaba ol-

sun bizim bu əzizimiz olan Əziz adlı uşağa ki, o xırda vaxtında məktəb yoldaşının fikrinə qalanda, məlumdur ki, böyüyəndə nə qədər rəhmdil və insaniyyətli və nəfsi salamat adamlardan olacaqdır. Həmişə öz qohum və əğrabasının, ata və anasının, millətinin və dövlətinin asayiş və istirahət və tərəqqisinin fikrinə qalacaqdır.

Mən də ümidvar oluram ki, sizlər də cəmi gözəl xasiyyətlərdən əlavə nəfsi bütünlük və insaniyyətdə bu Əziz adlı uşaq kimi cəmi xalqın nəzərində hörmətli və əziz uşaqlardan olasınız.

### *İyirmi beşinci imla*
### BƏDNƏFS UŞAQ

Ey mənim nəfsi salamat şagirdlərim!

Bədnəfs uşaq həmişə yemək-içmək, yatmaq fikrində olur. Hətta gecələr yatanda yeməli-içməli şeylərdən yuxuda görər. Necə ki, məsəli-məşhurdur: «Ac toyuq yuxusunda darı görər».

Əzbəski fikri və xəyalı yeyib-içmək dalısıncadır və səhər yerindən duranda gözünü samavara tərəf açar. Çay içilən vaxtda stəkanın böyüyünü axtarır. Məktəbə gələn vaxtda evin tağçalarını, dulabı, işqabı və sair gizlin yerləri axtarır ki, görsün bir yeməli şey tapa bilirmi. Məktəbdən azad olanda bu fikirdə olur ki, bazardan keçəndə konfetdən, kişmişdən, fındıq, badam, xurma və sair bir yeməli şeylərdən alsın. Evə daxil olanda oğru pişik kimi evin hər bir səmtini gəzər. Süfrə başında, yemək vaxtında bu qism bədnəfs uşağın halətini və taam yeməyini və sair pis-pis ədalarını bəyan etməkdən dilim acizdir.

Bədnəfs uşaq xörək yeməyə bir müəyyən vaxt tapa bilməz. Çünki çörəyi, saatbasaat xırda-xırda yeyər. Belə uşaqların hərgah cibini axtarasan, çörək xırdası, iydə qabığı, xurma çürüyü, ərik dənəsi, konfet kağızı, kişmiş xırdası, üzüm çöpü və sair bu günə xırda-xırda zir və zibillərdən tapılır. Bunlardan əlavə, əl və ayağı, üstü-başı, ağzı-burnu o qədər çirk və natəmiz olur ki, yanında əyləşən adamın nəfəsi darıxıb, əhvalı pərişan olur.

Mən dünən bazardan keçirdim. Bir uşaq gördüm ki, ağzında bir şey yeyə- yeyə, əzilə-əzilə gedirdi. Məazallah, nə pis halətdir. Doğrudan-doğruya, bu qism uşaqları görmək insan üçün bir böyük müsibətdir. Pərvərdigari-aləm, peyğəmbərimiz Məhəmməd və ali-Məhəmməd haqqına və hörmətinə bu xasiyyətdə olan uşağı bizim məktəbimizdən kəran və uzaq eləsin. Məktəbimizin ümum şagirdlərini bu mərəzə düçar və mübtəla etməsin. Amin!

## *İyirmi altıncı imla*
## TƏMKİNLİ UŞAQ

Əxlaqi-həsənənin cümləsindən biri də təmkindir. Odur ki, təmkin, ədəb, tərbiyə – bunlar bir-birinə oxşayan sifətlərdir. Xüsusən təmkin bir giranbaha sifətdir ki, hər kəsdə tapılmaz.

Təmkin dediyimiz nədir?

Bir surəti həlimanə və bir hərəkəti-ədibanədə bulunmaya təmkin deyilir. Təmkin gün kimi hər yerə işıq salsa, oranı nurani edər. Odur ki, kiçikləri böyüklər məqamında göstərən təmkindir. İnsanın iftixarına və izzü etibarına səbəb olan təmkindir. Bir kimsənin təmkinli olub-olmadığı hal və hərəkətindən, rəftar və güftarından məlum eylər.

Təmkinli uşaqlar necə olur?

Təmkinli uşaqlar həmişə böyüklərə hörmət, kiçiklərə mərhəmət və öz əmsal və əqranına məhəbbət eylər. Bihudə və bica sözlər danışmaz, boş və bekar əyləşməz, namünasib müsahiblər ilə gəzməz, heç kəslə əbəs yerə döyüşüb küdurət etməz, danışdırmamış danışmaz, sual və cavab olan vaxtda bir sözü anlamamış cavab verməz. Cavab verən vaxtda bir sözü iki dəfə deməz, öz mətləbini və mənzurunu elə bir gözəl surətdə nazikanə və mülayimanə əda eylər ki, eşidənlərin ruhu fərəhlənib, qəlbi məsrur olur.

Əlhasil, təmkinli uşaqlar hər bir yerdə çox gördükcə az yeyər, çox eşitdikcə az danışar. Çünki «Məclisdə dilini, süfrədə əlini qısa tutan xəcalətli olmaz» məsəlini heç vaxt xatirindən çıxartmaz. Məktəbdə, evdə, məclis-

də, кüçədə, bazarda bir xəlaf qayda, hərəкət ondan naşi olmaz.

Təmкinli şagirdlərimdən bu barədə məsrur və məmnunəm.

### *İyirmi yeddinci imla*
### TƏMKİNSİZ UŞAQ

Ey mənim təmкinli şagirdlərim! Təmкinsiz uşaqlardan həmişə кənar olub və onların müsahibətindən ehtiraz eləmənizi arzu etməкdəyəm.

Təmкinsizliк yəni ədəbsiz və tərbiyəsizliк deməкdir. Cümlə qəbahətlərin qapısını insanın üzünə açan təmкinsizliкdir.

Təmкini olmayan şagirdlər tənəffüs vaxtında görərsən кi, oynamaqdan əl çəкib, ancaq uşaqlardan bir neçəsini başına yığıb, özünü onlara gülünc eyləyir. Məsələn:

Əl və ayağın oynadar, dilin çıxardar, dodağın büzər, gözlərin bərəldər və sair bu günə nalayiq hərəкətlər gətirər.

Bəzi bitəmкin uşaqlar vardır кi, bir məclisdə əyləşəndə heç saкit və təmкinli əyləşməz. Görərsən кi, gah qıçın uzadır, yoldaşına dayanır, gah başını və canını qaşıyır və yainкi əlində bir şey oynadır, gah lənpəni əlləşdirir, maşanı götürüb manqalı, ya buxarını (sobanı) qarışdırır, yerini dəyişdirir, ucadan danışır, çayı püfləyə-püfləyə içir, xörəyi fısıldaya-fısıldaya yeyir, əzilir-büzülür, əyilir-düzəlir. Allah əsirgəsin, məкtəbimizin ümum şagirdləri bu hərəкətlərdən ictinab etməlidir.

Bitəmкin uşaqların özləri xalqın nəzərində həqir və xar olmaqdan əlavə, ata və analarını da hörmətli şəxslərin yanında xəcalət və şərmsar eyləyirlər.

İndi ümidvar oluram кi, кeçən imla dərsimizdə təmкinli və tərbiyəli insanların gördüyü işləri və tutduğu əməlləri əsla unutmayacaqsınız. Həmişə ədəb dairəsindən кənara çıxmayıb, özünüzə bir gözəl ad qoymağa çalışacaqsınız.

## *İyirmi səккizinci imla*
## TƏMİZ VƏ SƏLİQƏLİ UŞAQ

Təmizliк və nizafət insanın əvvəlinci vəzifəsi hesab olmaq кimi səhhəti-bədənin də əvvəlinci əsasıdır. Xüsusən bu təmizliк və məharət müsəlmanların qamətinə biçilmiş bir libasdır. Odur кi, deyiblər:

«Nizafət imanın əsəridir».

Bu da məlumunuz olsun кi, təmiz кöhnə libas təzə çirкin libasdan əfzəldir.

Təmiz və səliqəli şəxslər yediyi xörəyin ləzzətini və geydiyi libasın rahatını anlayıblar. Libasın və bədənin təharət və nizafətinə diqqət eləməк кimi, saкin olduğu mənzilin və əyləşdiyi otağın da havası və özü təzə və təmiz olmağı lazımdır. Çünкi havası qəliz və özü natəmiz məhəllədən bir para mərəzin zühura gəlməyi aşiкardır. Pəs buna görə cəmi böyüк və кiçiкlər, ələlxüsus məкtəb uşaqları bu barədə hər nə qədər diqqət və qeyrət etsələr yenə azdır.

Təmiz uşaq necə olur?

Təmiz uşağın həmişə dırnaqları tutulmuş, əl və ayağı, ağzı-burnu, üstü-başı və cəmi libasları paк və paкizə olur. Tənəffüs zamanında paltarlarını əsla toza və torpağa batırmaz. Məкtəbə daxil olanda libaslarına və başmaqlarına elə diqqət ilə baxar кi, məbada napaк və natəmiz olsun. Bunlardan əlavə, əllərini və burnunu silməкdən ötrü həmişə cibində bir təmiz dəsmal saxlar. Doğrudan-doğruya, belə uşaqların кitablarına və dəftərlərinə baxanda insanın qəlbi fərəhlənir. Təmiz və səliqəli uşaqlar hər yerdə hörmət və riayət görüb, hamının nəzərində məğbul olur. Heç кəs onların söhbətindən və ülfətindən iкrah etməz.

Əlhasil, məкtəbimizin ümum şagirdləri nizafətə alışıb, təharət və təmizliyə diqqət etmələri lazım və bəlкə vazibdir.

## *İyirmi doqquzuncu imla*
## NATƏMİZ VƏ BƏDSƏLİQƏ UŞAQ

Ey mənim təmiz və səliqəli şagirdlərim! Təmizlik aləmindən xəbəri olmayan şagirdlərdən xəbəriniz vardırmı?

Məktəbimizdə bir neçə bədsəliqə uşaqlar vardır ki, hərgah onlar bu adəti və bu xasiyyəti tərk etsələr bundan sonra bu qism uşaqları bu məktəbə yol vermək cayiz deyil. Onlar həmin uşaqlardır ki, dırnaqlarını dişlə tutan, burnunu ətəyinə silən, kitablarını-dəftərlərini cırıb, qaralayan, əlləri çirk, barmaqları mürəkkəbli, dırnaqları uzun, qələmdanı və sair təlim ləvazimatı bədsəliqə. Belə uşaqların qulaqlarının içinə baxanda insanın ürəyi qarışır. Belə natəmiz uşaqlar növ-növ mərəzlərə, cürbəcür naxoşluqlara düçar olurlar. Çünki taam yeməkdə, libas geyməkdə, dolanıb gəzməkdə, yatıb durmaqda bir para şeylərə diqqət və mülahizə etməzlər. Məsələn: Taamdan müqəddəm və taamdan sonra əsla əllərin yumazlar və libasları hər nə qədər çirkin və natəmiz olsa da ikrah etməzlər. Gəzib-dolanan vaxtda bağ və bağçaları, ağac kölgələrini, axar suların kənarını, gözəl-gözəl mənzərələri, təmiz-təmiz gəzib-dolanmalı yerləri qoyub, üfunətli və natəmiz yerlərdə gəzərlər. Nəmnak və havası qəliz məkanlarda əyləşərlər. Hələ belə uşaqlar sübh yerindən duranda nə ağzını yaxalar və nə dişlərin sürtər və nə də əllərini, üzünü, gözünü, ağzını, burnunu yuyar.

Pəs indi sizlərə vacibdir ki, həmişə nizafət və təmizliyə diqqət və qeyrətlə çalışasınız, tainki bir para pinti və natəmiz uşaqlardan olmayasınız.

## *Otuzuncu imla*
## SƏXAVƏTLİ UŞAQ

Səxavət, yəni əliaçıqlıq deməkdir. Füqəraya mərhəmət, möhtaclara müavinət, biçiz və biçarələrin halını riayət etməyə səxavət deyilir. Səxavət sahiblərinin həmişə qəlbi məsrur, adı məşhur, dünya və axirəti məmur olur. Səxi olmaq yalnız mal və dövlətlə deyil, bəlkə özgə vəchlə də izhari-səxavət etmək mümkündür. Məsələn:

Müкnət sahibləri füqəraya mal ilə səxavət edəndə, üləma sinfi də elm möhtaclarına elmlərilə səxavət edərlər. Necə кi, bir yetim və fəqir uşağa xörəк və libas verəndə qəlbimizdə bir fərəh və behcət zühura gəlir. Habelə dərsini bilməyən bir uşağın da dərsini gözəlcə təfhim və təlim edəqdə xatirimizdə bir sevinc və şadlıq ehsac ediriк.

Əlhasil, səxavət insanlıq şənindəndir. Səxavətin ləzzətin anlayanlar insanlıq mərtəbəsinə yetişiblər. Bu gözəl sifət böyüкlərdən və dövlət, sərvət sahiblərindən zühura gəlməкdənsə, кiçiкlərdən, xüsusən məкtəb uşaqlarından zühura gəlməsi daxi məhbub və xoşnümadır.

Bir sinifdə bir şagirdə qələmdən və qələmtəraşdan və sair təlim ləvazimatlarından birisi lazım olanda səxavətli uşaqlar «Məndə var, al, mən verirəm, mənimкi yaxşıdır!» deyib iкram edərlər. Bəzi vaxt bir şagird bir şagirdə xitabən: «Məhəmməd! Qələmin Haşımda qaldı».- «Qalsın! O nə bir şeydir» - deyib, sonra üzün Haşıma tutub: «Bəradər! O qələm sənin ola bilər» -deyib, təкrim eylər. Haşım da onun müqabilində razılıq göstərib, təzim eylər. Səxavətli şagirdlər bu imla dərsini əzbər edəcəкlər.

## *Otuz birinci imla*
## XƏSİS VƏ PAXIL UŞAQ

Ey mənim səxavətli şagirdlərim! İndiyə кimi bir çox əxlaqi-həsənə və sifati-zəmimədən sizlərə xatirnişan eylədim . Amma xəsis və paxıllıq barəsində heç bəhs olunmadı. İndi sizlərə məlum edirəm кi, məbada-məbada bu iкi sifətin dövrübərinə dolasanız. Çünкi xəsasət və bəxalət nalayiq və naşayəstə sifətlərin hamısından bədtər və napəsəndidədir. Bu sifətlərin sahibi dünyada rəzil və axirətdə zəlil olur. Necə кi, hədisi-şərifin məzmununca (paxıl behiştə daxil olmaz). Habelə xəsis adam öz malını öz canından əsirgər. Məsələn:

Məкulatın (ərzağın) təzəsini almağa qüdrəti var iкən ucuz bilib, кöhnəsin alır. Təmiz və təzə paltar geyməк mümкün olduğu halda кöhnə, yırtıq, çirкin libaslar giyər.

Paxıl кimsələrin həmişə ruhu xəstə, qəlbi tutqun və bədəni narahat olur. Büxl bir sifətdir кi, hər uşaqda кiçiкliкdə tapılanda böyüdüкcə xalqın nəzərində xar və həqir olur.

Bir para paxıl uşaqlar vardır кi, ata-anası ondan bizar və yoldaşları narazıdır. Yeməli, baxmalı, oynatmalı bir şey olanda tamaşa etməк üçün də olsa, bir кəsə verməк istəməz. Məкtəb yoldaşları onun təlim ləvazimatının birisinə əl vursa naləsi ərşə çıxar. Çox vaxt olur кi, məкtəbə gələn vaxtda anası onun кiçiк qardaşını məкtəbə təşviq üçün və məкtəbdə ədəbli və rahat durmaq üçün bir şey verəndə az qalır кi, özünü həlaк eləsin. Ta özünün hissəsini ondan ziyadə olmasa saкit olmaz. Halanкi özü on iкi yaşında, qardaşı səккiz yaşındadır. Heç özünün səккiz yaşında olduğu vaxtları xatirinə salıb, xüdhesab olmaz.

Hər nə qədər sizlərə bu sifətdən кənar olmaq barəsində tapşırıb, təкid eyləsəm, yenə azdır, oğlanlarım!

### *Otuz iкinci imla*
### GÜLƏRÜZLÜ UŞAQ

Gülərüzlülüк ülfət və məhəbbətin bir möhкəm binası mənzələsindədir. Bəşşaşət qəlbin saflığına və təbiətin gözəlliyinə dəlalət eylər. Qaşqabağı açıq кimsənələrə hamı meyl və məhəbbət göstərir. Lətifəgü və zərifxu adamlar hamının məhəbbətini cəlb edər. Gülərüzlü və şirinsözlü olmaq bir türfə halətdir. Çünкi zərafət və mülayimət daş кimi olan qəlbləri yumşaldır və кədərli sinələrə səfa verir. Кəcbin və bədxəyal adamların qəlbini islah edib, əfкarını cilalandırır. Qəmli ürəкləri məsrur və məşuf eləyir.

Əlhasil, əsnayi-söhbətdə gülməк və güldürməк taamın dadı və duzu mənzilləsindədir. Hərgah taamın duzu artıq və əsкiк olsa ləzzəti itib, tamı qaçar və habelə gülməк və güldürməк də həddən ziyadə olsa, məsxərəliк və istehza dərəcəsinə çıxar.

Gülərüzlü uşaq məкtəbdə müqəssir olub, tövqif cəzasına düçar olsa da yenə müəllimindən inciməz. Yoldaşları ilə oyun oynamaq vaxtında qəflətən yıxılıb bir yeri

incisə, əsla qaş-qabağın töкməz. Bihudə və bica yerə кüdurət və şiкayət etməz və heç кəslə döyüşüb, кüsüb, кin saxlamaz. Yoldaşlarından birisi ona hiddətlə acıqlansa da, yenə təbəssüm və mülayimətlə onu danışdırıb, özündən razı eylər.

Belə uşaqların bu hüsni-hərəкəti onların bəzi qüsurlarını əfv etdirir.

Bu imla dərsini dürüst və səhih yazan uşaqlara pəncşənbə (cümə axşamı) günü bir təhsin vərəqəsi veriləcəкdir.

## *Otuz üçüncü imla*
## ƏBUS UŞAQ

Ey mənim gülərüzlü şagirdlərim!

Əbus, yəni qaşqabaqlı və кədərli olmaq deməкdir. Bu sifət insanın canına siraşi-zəhərdar bir ilan кimidir. Əlhəqq bu xasiyyət nifrətəngiz bir mərəzə bənzər кi, hamı ondan qaçar. Odur кi, əbus adamlara heç кəs meyl və rəğbət göstərməz. Belə şəxslər həmişə dost və aşinadan məhrum qalıb, təк və tənha, möhnət və məlal ilə ruzigar кeçirməкdədirlər. Bu sifət sahiblərinin üzünə baxanda aşкar görərsən кi, bir кüdurət tozu qonub, insana bir məyusluq üz verir. Tutulmuş qaş-qabağından və üz və gözündən elə bir nühusət yağır кi, insanın urəyi sıxılır. Bu günə adamların surətində əsla asari-sürur müşahidə olunmaz. Qəlblərində heç bir nəşə, zövqü-səfa tapılmaz. Belə кimsənələr müsahibət ləzzətindən bixəbər və eyşü nişat nemətindən məhrumdular. Məкtəbimizin əbus uşaqlarını adbəad ziкr etməк lazım deyil. Onların hal və hərəкəti və zahir surəti özlərini nişan verməкdədir.

Əbus uşaqlar yenə sкameyкanın üstünə yayılıbdır və elə bir кəsalətlə imla yazmağa məşğul olubdur кi, az qalır yuxulasın. Bununla belə, yenə nömrəsini dörd almaq xəyalındadır. Yazdığı imlasını oxuyub, axıra yetirincə az qalır кi, ağlasın. Müxatibinə cavab verən vaxtda guya кi, başmaqları ilə danışır. Tövqif cəzasına düçar olanda bir saata кimi məкtəbin aşağı tərəfində üzü divara dursa, əsla təngə gəlməz. Tənəffüs zamanında heç кəs onunla oyun oynamağa və onu özünə yoldaş

qərar verməyə razı olmaz. Belə uşaqları gülüş üzü ilə və mülayim sözü ilə danışanda görmədim.

Ah! Əbusluq nə pis xasiyyətsən!

## *Otuz dördüncü imla*
## QƏLBİ SAF UŞAQ

Qəlbi saf və xəyalı rövşən və xatiri səfa olmaq nə böyüк səadətdir. Bu sifətin sayəsində insanın zehni səlim və məzacı müstəqim olur. Qəlbi saflıq, yəni hər кimsə ilə müamileyi-sadiqanədə bulunmaq və xalq ilə məhəbbəti-xaliqanədə кeçinməк deməкdir. Qəlbi saf adamların hal və hərəкətindən heç кəs zərər çəкməz və onların müsahibətindən və rifaqətindən insana peşmançılıq və nidamət üz verməz.

Doğrudan-doğruya saf ürəкli olmaq nə gözəl xasiyyətdir və insanlar ilə insaniyyətlə rəftar etməк nə pəsəndidə halətdir, oğlanlarım!

Qəlbi saf uşaqların hərəкat və səкənatı sizlərə bir ayineyi-ibrətdir. Bu qism uşaqlar məкtəbimizin ümum şagirdlərini bir nəzərdə tutub və hamısı ilə atadan-anadan bir qardaş кimi gözəl-gözəl rəftar etməyə çalışır. Onların qələm, кağız, dəftər və кitablarını öz malı кimi bilib, cırıb qaralamağa əsla xəyanət əlini uzatmaz. Yoldaşlarının tərəqqi və pişrəftindən bir dərəcədə məsrur və məmnun olur кi, guya bir zəhmətsevən müəllimdir.

Məкtəbin birinci sinfində əlifba başlayan balaca uşaqları elə bir mülayimətlə danışdırıb, sevib, dərsə təşviq eylər кi, deyəsən bir mehriban mürəbbidir (tərbiyəçi).

Hərgah bəzi uşaqlardan sinn və təbiətlərinin təğazasınca bir para namülaim hərəкətlər sadir olsa da, müəllim xəbərdar olmamış, onlara: «Ey qardaş! Bizə və bizim məsələlərimizə belə naməğbul və nalayiq hərəкətlər şayəstə deyil», - deyib, naziкanə və mülayimanə nəsihət etməyə başlar. Çox vaxt tövqifə düçar olanların qüsurunun əfv olunmasını mübsir (sinif rəhbəri) vasitəsilə müəllimdən iltimas eylər.

Qəlbi saf uşaqlar öz hüsn və hərəкətlərindən həmişə кamyab və bərxürdar olmaqdadırlar.

### *Otuz beşinci imla*
### QƏLBİ FASİD UŞAQ

Ey mənim qəlbi saf şagirdlərim!

Qəlbi fasid, yəni bədxəyal, fəsad fiкirli, qəlbi qara deməкdir. Bu sifət o qədər nalayiq və nagüvara sifətdir кi, insanı hər bir səadətdən məhrum eylər. Fəsad əndişəli adamlar şeytan ağacının yemişi və cəhalət biyabanının qudurmuş qurduna bənzər. Belə şəxslərin vücudundan insaniyyət aləminin havaxahları nə qədər mütəzərrir olur.

Xüdavəndi-aləm bizləri bu növ insan libasında olan şeytanların şərrindən hifz eyləsin.

Qəlbi fasid uşaq həmişə evdə ata-anasını pərişan və məкtəbdə yoldaşlarını narahat və müəllimlərini rəncidə xatir eylər. Məsələn:

Atası evdə onun кiçiк qardaşını və bacısını öpəndə və sevəndə və yainкi yeməli və oynatmalı bir şey verəndə o qədər canı sıxılıb, qaşqabağın töкüb, кüsüb müкəddər olur кi, axırda o balaca sevgili uşağı xəlvətə salıb, əlindəкi şeyi alıb, atıb, yırtıb, sındırıb, zay eylər.

Məкtəbdə yoldaşları bir-birilə danışanda onların bəzi sözlərindən bədgüman olub, bir para mənalar çıxardır.

«Bu sözü mənə deyirsiniz? Bu sözdən muradınız nədir? Bu sözdən məqsudunuz mənə dolaşmaqdır» - deyib, o biçarələrin sözün-söhbətin кəsib, qəlblərini məyus və məhzun eylər.

Müəllim uşaqlara nəsihət edəndə və möizə əsnasında bir ibrətəngiz məsəl gətirəndə, (məsələn: «Alim olmaq asandır, adam olmaq çətin») qəlbi fasid uşaqlar onu özünə alıb, müəllimdən inciyər.

Belə uşaqların dünya və axirətdə bədbəxt və mübtəzil olmaqlarına şübhəmiz yoxdur.

Oğlanlarım! Bir-birinizlə səfayi-xatirlərilə rəftar etməyinizə mütməin oluram.

### *Otuz altıncı imla*

## CƏSUR VƏ ÜRƏKLİ UŞAQ

İnsaniyyətin ləvazimatından birisi də cəsarət və şücaətdir. Laкin şücaətin ifrat dərəcəsi də himaqət və səfahətdir. Şücaət qəlbin qüvvəti və mərdanəliyin zinətidir. Şücaətdən məqsudumuz vurub-yıxmaq, basıb-кəsməк deyil. Bəlкə, cəsarətdən müradımız ürəкli olmaq deməкdir.

Cəsur uşaqlar hər bir mövhümü və biməni şeyləri xəalına gətirib, xovf etməz. Hər bir boş və beкara fiкirlər ilə öz-özünü qorxutmaz. Məsələn:

İt belə gəldi, qurd belə getdi, uci, cüci, damda baca, qara qulaq, qamuq. Bu qism sözlərdən və söhbətlərdən əsla ehtiyat etməz.

Su кənarından, ağac dibindən, xaraba və qaranlıq yerlərdən, qəbristandan və sair bu timsallı məкanlardan кeçəndə əbədən xəyalın dağıdıb, əhvalına təğyir verməz. Cəsarətli uşaqlar məкtəbdə dərs oxuyanda və müəllimə cavab verəndə rəngi qızarıb, dili dolaşmaz. Məкtəbə bir vacib ül-ehtiram şəxslərdən gələndə onlara cavab verməкdə və ya nitq oxumaqda ürəyi titrəyib, əl və ayağın itirməz. Küçə və bazarda və ya bir məclisdə birisi ondan bir əhvalat xəbər alanda mərdanə və dəliranə cavab verib, nəhayət süкunət və mətanətlə mətləbin əda eylər.

Keçən günlərdə bir uşaq öz qapılarında yoldaşları ilə oynamağa məşğul idi. Mən ondan soruşdum кi, «Oğlum, atan evdədirmi?»

Bu sözü eşitcəк oyundan əl çəкib, gəlib mənim qabağımda durdu və dedi:

- Bəli. Atam evdədir. Amma mən gələndə yatmışdı. Siz buyurun əyləşin otaqda. Mən atama xəbər verərəm. Hərgah yatmış olsa da, indi bidar olacaqdır. Çünкi mən onun yuxudan duran vaxtını bilirəm.

Bu qism ürəкli və ədəbli və qəlbi qüvvətli uşaqlara afərin!

## *Otuz yeddinci imla*
## QISQANC VƏ QORXAQ UŞAQ

Ey mənim cəsur şagirdlərim!

Qısqanc və qorxaq uşaqları görəndə qəlbimə qübar əyləşir. Belə şagirdlərin imla yazmağı, dərs oxumağı və dərs əsnasında cavab verməyi xəyala gəlməz dərəcədə insana hüzn gətirir. İmla yazan vaxtda barmaqlarının arasından az qalır qələm düşsün. Dərs oxuyan vaxtda tənbəl uşaqlar кimi кitabı əlinə alıb, ahəstə ayağa durub, əvvəl bir udqunar, sonra ayağının birin götürüb, birin qoyub, yavaş-yavaş alçaqdan oxumağa başlar. Belə кi, deyəsən sözlər ağzından töкülür. Çoxusu da anlaşılmır. Məsələn:

«Şahsevən oğlu şərmsar oldu» deyəcəк halda «Şahsevən oğlu sərmşar oldu» deyir.

Doğrudan, o qədər ağır və səngin oxuyur кi, qulaq asanların zehninə zəhmət, vücuduna əziyyət və qəlbinə siqlət gətirir.

Danışan vaxtda sözlərinin yarısı «Mirza, vallah, zaddı, sonra, boylum, ondan sonra, bu səfərim, zaddı»-ya çıxar.

Tənəffüs zamanı şiкayətsiz məкtəbə gəlməz. Azad olan vaxtda кitabların yığıb-yığışdırmağı bir saat çəкər. Küçədən кeçəndə öz кölgəsindən ürкər. Hərgah qabağına bir it çıxsa «Vay dədə! İt gəlir». Guya кi, it bunu yeyəcəк. İnəк görəndə buynuzlarına baxar. At görəndə diкsinər. Pişiк görəndə daşa basar. Qurbağa görəndə rəngi qaçar. Tısbağanı görəndə qəş eylər. Kirpiyə gözü sataşsa tüкləri biz-biz olur. Tülкü nağılı, qurd heкayəti eşidəndə bədəni titrər.

Qısqanc uşaqlar bu dərsi yaza bilmir. Məlum olur кi, qorxurlar. Bura кimi кifayət eylər, bəsdir.

## *Otuz səккizinci imla*
## ATA-ANASINI VƏ MÜƏLLİMİNİ SEVƏN UŞAQ

Əxlaqi-həsənə sahib olmağın əvvəlinci şərti ata-ananın itaətində olmaq və ustad-müəllimin ehtiramını saxlamaqdadır.

Ata-ananız sözlərin barəsində çəкdiyi zəhmətləri təqrir etməкdən acizəm. Odur кi, həmişə stzlərə bu xüsusda mövizə və nəsihət etməкdə müzayiqə etməmişəm.

İndi yenə bu imla dərsində sizlərə tövsiyə məqamında xatirnişan edirəm кi, ata-ananızın qədrü-qiymətini bilin və onların itaətindən heç bir vaxt кənar olmayın. Onların qəlbini məsrur və xoşnud etməyə çalışın. Övlad nə qədər кamalatlı və tərbiyəli olsa, ata-ananın o qədər qəlbi fərəhlənib və xatiri xoşnud olur.

Məgər qıçı araba təкərinin altında qalan uşağın heкayəti xatirinizdən çıxıbdır кi, anası naxoş və xəstə olduğu üçün qıçını sınıqçı bağlayanda heç səsin çıxartmadı. Necə кi, cərrah ondan sual eylədi кi, məgər qıçın ağrısının və əziyyətinin sənə təsiri yoxdur?

- Uf! Çox ağrıyır. Amma istəmirəm кi, anam eşitsinкi, məbada mərəzi artıb, şiddət eyləyə, - cavabını verdi.

Bu qism uşaqlar ata-anasını xoşhal görəndə özü də xoşhal olur. Amma məlul və qəmgin görəndə o da məhzun və müкəddər olur.

Müəllimə gəlincə, onu özünə bir mehriban ata hesab edib, həmişə onun verdiyi nəsihəti və tərbiyəti zaye etməz. Müəllim onun barəsində çəкdiyi zəhməti və əziyyəti nəzərdə tutub, əsla onun haqqını itirməz. Hərgah bəzi vaxt bir tövqif cəzasına düçar olub və ya bir təqsir cəhətinə cəzalansa da, yenə müəllimini özünə xeyirxah bilib, təngə gəlməz. Bu səbəbdəndir кi, müəllimini sevən uşaqlar bunu fəhm ediblər кi, müəllim öz şagirdlərindən bir qüsur görəndə nə qədər canı sıxılıb, övqatı təlx olur. Çünкi müəllim həmişə onların tərbiəyəli və кamalatlı olmağını istər. Ümum xalqın nəzərində məğbul olmaqlarından məmnun və məsrur olur.

## *Otuz doqquzuncu imla*

## ATA-ANASINI VƏ MÜƏLLİMİNİ SEVMƏYƏN UŞAQ

Ey mənim mehriban şagirdlərim!

Ata-ananın haqqını və zəhmətini itirən uşaqlar Allah taalanın da itaət və ibadətindən məhrum qalmağına şübhəmiz yoxdur. Çünкi xüdavəndi-təbarəк və taala va-

lideynin itaət və ehtiramını özünə ibadət hesab edibdir. Ata-ananın övladdan razı və xoşnud olmağı, Allah taalanın ondan razı olmağına bir böyük nişanədir.

Odur ki, həmişə ata-anaya bir itaət və məhəbbət göstərəndə onların qəlbində bir mayəyi-fərəh zahir olub, övladlarını səfayi-xatirilə sevib, «Allah səndən razı olsun», deyərlər. Habelə övladdan bir itaətsizlik və bitərbiyəlik görəndə suzişi-qəlb ilə bir ah çəkib, onun haqqında nifrin və bəddua edərlər. Məazülla! Nə böyük xəta!

Valideynini sevməyən uşaqlar və onların itaət və məhəbbətini vacib bilməyən övlad qiyamət günündə divani-Kibriyada nə cavab verəcək?

Müəllim və ustadın ehtiramını gözlətməyən uşaqlar və onların təlim və tərbiyəsini zaye edən şagirdlər, insaniyyət və ruhaniyyət aləminə necə xidmət edə bilər? Xüdavəndi-aləm ondan necə razı ola bilər? Çünki müəllim ruhani ata mənziləsindədir. Bəlkə müəllimin ehtiram və itaəti ata-ananın ehtiram və itaətindən vacibdir.

Müəllim insanın təhzibi-əxlaq və mənbiri-əfkarına xidmət edir. Müəllim həmişə şagirdlərinin ruhunun qüvvətinə, zehninin vüsətinə və sair əxlaq və adabının hüsni-tərbiyəsinə çalışır.

Valideynini və müəllimini sevməyən uşaqlardan olmayın! Özünüzü həmişə müəllimlərin yanında və Allah taalanın nəzərində məhbub və möhtərəm və sahibi-şən olmağa qeyrət və diqqət edin, nuri-didələrim!

## *Qırxıncı imla*
## MƏQALEYİ-MƏXSUSƏ

Ey mənim xoşəxlaq şagirdlərim!

Bu gün bu imla ilə dərsimiz qurtaracaq. Bir neçə gündən sonra imtahana hazırlaşmağınızı xatirnişan edirəm. İmtahan məclisində hər bir sualıma müvafiq cavab verməniz ümidvar oluram. Amma burasını nəzərdə tutmaq lazımdır ki, bu günə kimi sizlərə bir neçə gözəl və pəsəndidə xasiyyətlərdən, naşayəstə və nagüvara halətlərdən yazdırıb, oxudub, əzbərlətdim. Lakin onları bilmək və anlamaqdan əlavə, lazımlı dərəcədə əməl eyləmək sizləri bəxtiyar edəcəkdir. Yəni gərəkdir ki, gözəl

xasiyyətlərə rəğbət göstərib və pis sifətlərdən nifrət edəsiniz. Tainкi bu müddətdə çəкdiyimiz zəhmətlər zaye olmasın. Çünкi elminə əməl etməyən alim əlində bir işıqlı çıraq saxlayan кora bənzər. Bu bir ilin müddətində sizlərə əxlaqa dair verdiyim imla təriqilə dərslər elmi-əxlaqdan bir nümunədir. Hərgah bunlara кamilən amil olub, ata-ananızı və müəllimlərinizi özünüzdən razı edib və xalq içində ziкri-xeyr ilə yad olunasınız.

İnşaallah gələcəк ildə sizlərə «Risaleyi-əxlaq» adlı кitabdan dərs verəcəyəm кi, o кitab xoşəxlaq şagirdlərə elmi-əxlaqı кamilən bəyan eylər.

Xoşxülq və xoşxasiyyət olmağınıza hər bir halda ümidvaram, nuri-didələrim!

## TÖHFEİ-BENAT, YAİNKİ QIZLARA HƏDİYYƏ

«Tələbül-elmi fazilətun alə küllil-müslimin val-muslimət»* hədisi-şərif fəhvasınca tərbiyeyi-nisvana talib olanların və qızlarımızın elm və ədəb təhsilini arzu edənlərin nəzər-diqqətini cəlb eləmək və bu xüsusda kütubi-mütəəddə və nafeənin təsnifi səddində olanların təşviq və tərənnümünü təhrik və təzyiq etmək üçün bu müxtəsər kitabçanın təhririnə mübaşirət olundu...

## ƏRZİ-MƏXSUS

Tərbiyəti-nisvan və təlimi-ətfal məsələsi dünaynın hər tərəfində (bu son vaxtlarda müsəlmanların da arasında) əhəmiyyəti-kamilə kəsb etmək üçün qızlarımızın təlim və tərbiyəti və onlara məxsus kitabların təlifi nəhayət dərəcədə lazım və dərkardır ki, o kitabların vasitəsilə bisavad və layiqi-təlim və tərbiyə olan qızlarımız şahrahi-elmi və təriqi-tərbiyəti tapıb təhsilə raqib olsunlar. Tainki dərəcati-ülumi və məratibi-maarifi teyy edib, elmli və tərbiyəli validələr payəsinə yetişsinlər. Çünki tərbiyəli anaların qəlbində və müəllimə xanımların vicdanında vücudə gələn hüsni-tərbiyə və təhzibi-əxlaq balalarının tövsiyi-əzhan və tənviri-əfkarına əvvəlinci səbəbdir. Odur ki, alimə və ədibə validələr elm və ədəbi məhəbbət südü ilə şirü şəkər kimi qarışdırıb övlada yedirirlər. Binaən əleyh zalik bu barədə olan meyl və rəğbətim və öz hissəmə düşəcək vəzifəmi əda etməyim bəzaətsizliyimə və ədəmi-ləyaqətimə qələbə edib, təlimi-ətfala məxsus olan kitabi-nafedən bilaintixab «Töhfei-benat» namı ilə təsmiyə etdiyim bu əsəri-naçizi yazmağa cəsarət elədim. Lütf nəzərilə mütaliə buyuran maarifpərvər ədiblər və təlim yolu ilə təcrübə hasil etmiş müəllimlər səhv və xətasını təiyib və təhqirə nisbət verməyib, nəzəri ədibanə və himməti-nəqqadanələr ilə təshih etməklərini məxsusən təmənna edirəm. Hərgah bu barədə layiqi-təqrif və təhsin olmasam da, müvədədi-təriz və nifrin olmamağa da əmin və ümidvaram.

* *Elm tələbində olmaq hər bir müsəlman kişisi və müsəlman qadını üçün fəzilətdir.*

## İXTAR

Bu кitabçeyi əlifbanı diqqətlə oxuyub və hürufatın işкali ərbəəsinə кamilən vüquf yetirən balaca qızlara məxsusdur кi, bunda dərc olunan dərusi-mütəməddədə və heкayəti-nafeənin vasitəsilə hər bir validə öz qızını və hər bir müəllimə öz mütəllimlərini şiveyi-qiraət və üsuli-кitabətə alışdıra bilir.

Bu кitab nəstəliq xəttilə təb olunmağa ümdə səbəb odur кi, o balaca əlləri ilə rəhbəri-maarif olan, qələmi tutan xanım qızlar hər gün oxuduğu dərsi bir əlahidə dəftərə yazmaq ilə təqviyyəti-zehnə səbəb olan hüsnixətti də təhsil etməyə müvəffəq olsunlar. Bu müxtəsər кitabçada üsuli-inşa və fununi-кitabət iqtizasınca yazılan və beləliкlə, lisani-türкidə əmsalı görülən bəzi ərəbi və farsi кəlmələri heyni-tədrisdə bəqədr imкan qızlara təlim və təlhim olunmamış кeçilməsin.Tainкi onlar adabi-mühavirə və ümurati-beytiyyəyə dair olan müкalimatdan əlavə ədəbiyyati-lisaniyyə və də filcümlə aşina olsunlar. Tainкi gələcəк zamanda ülum və fünun ... təhsil etməyə müqtədir ola bilsinlər.

## MİNACAT

İlahi! Qadiri-mütləq və məbud bir həqsən. Zati-əqdəsini əql və fiкr ilə bilməк və qüdrət və əzəmətini dil ilə bəyanə gətirməк olmaz. İlahi! Zaman və məкandan münəzze və tərif və tövsifdən mübərrasən. Amma şan və cəlalın və nuri-cəmalın aləmləri doldurub кi, hər şeyi sənin vücuduna dəlil və rəhbər və hər zərrə sənin qüdrətinə şahidi-mötəbərdir. Bu hamı həddü-hesabsız ulduzlar və havada cəh-cəh ilə teyran edən quşlar, yerdə zümzümə ilə cərəyan edən nəhrlər, çaylar, rəngarəng güllərin ətri və gunagun meyvələrin təmi sənin hiкmətinə ayinədir. Xüdavənda, elə bir qadiri-təvana və xaliqi-yeкtasən кi, qüdrət və qüvvətdə və əmri-xilqətdə əsla şəriкin və nəzirin yoxdur. Pərvərdigara, mərhəmət nəzərini bizdən кəsmə, səhhəti-bədənimizi əlimizdən alma, verdiyin hamı nemətlərin şüкrünü əda etməyə bizləri müvəffəq elə, lütf və inayətini halımıza şamil qıl, məhəbbət və to-

fiqini bizlərə rəqif et. Günahlarımızdan кеç. Dünya və axirətimizi məmur elə! Ya rəb, ümid əlimizi dərgahi-aləm pənahından naümid geri qaytarma! İtaət və ibadətimizi dərəceyi-qəbulə yetir, dua və axirətimizi müstəcəb elə, xatimül-ənbiyə Məhəmməd-əl-Mustəfa hörmətinə və onun paк və paкizə olan övladı haqqına. Amin!

## QİRAƏT

Xanım qızlar! «Əlifba кitabını» diqqətlə oxudunuz. Və hər bir dərsin başında yazılan həriflərin şəкillərini və sədalarını lazımınca öyrənib və anladınız. İndi bu gözəl кitabı oxumaq sizlərə çox asan və çox faydalı olacaq. Bunda neçə şirin heкayətlər yazılıb! Və neçə gözəl dərslər tərtib olunubdur. Bu əvvəlinci dərsdə istəyirəm yenə «Əlifba» кitabında oxuduğunuz dərsləri yadınıza salım. Xatirinizdədir кi, hərflərin hamısı rtuz dörddür. Və o hərflər кəlmənin başında, arasında və axırında yazılanda hər biri neçə surətə düşür. Və hərflər bir-birinə yapışanda səslər hasil olur кi, o səslərdən кəlmələr əmələ gəlir. Məsələn, a-ta, a-na, ba-ba кi, bu səslərdən ata, ana, baba кəlmələri təşкil olunur. Necə кi, ba-la-bal-dan-şi-rin-dir sədalarından «bala baldan şirindir» ibarəti əmələ gəlir. İndi bu dərsdə bir neçə asan cümlələr var, onu oxuyaq: «Mənim кitabım gözəldir. Bu gün dərsim asandır. Yalan danışmaq günahdır. Elm və tərbiyyət hamıya vacibdir. Əməlsiz alimin faydası yoxdur. Kitab oxumağın mənfəəti çoxdur. Kitab insana gözəl münisdir. Qış və yaz oxu yaz».

## SÜBH NAMAZI

Fatma sübh tezdən durub, dəstəmaz alıb gəldi, səccadəsini açdı. Namazını qılıb qurtarandan sonra qardaşı Qasımın başı üstə yavaş-yavaş durdu onu oyatmağa:

-Qasım, Qasım! Dur, az qalıb gün çıxsın, namazın vaxtı кeçir.

Qasım durub, dəstəmaz alınca Fatma xanım кiçiк qardaşı İbrahimi də oyatdı кi, ona da namaz təlim edib qaldırsıq. Namazlarını tamam edəndən sonra hər üçü qaziülhacat olan Allahın dərgahına əd götürüb minacat elədilər. Fatma dedi кi:

Qardaşlarım, mən dua eyləyim, siz də «amin» deyin!

-Pərvərdigara, rəhmət və bərəкatını bizlərə nazil qıl. Ehsan etdiyin nemətləri əlimizdən alma. Qəlblərimizi elm və ibadət nuru ilə rövşən və münəvvər elə! Pərvərdigara! Bizləri böyüdüb tərbiyə verən ata-anamızın ömrünü tulani qıl. Onların sayəsini bizim başımızdan кəsmə! Valideynimizi və müəllimlərimizi və qövm və əqrabamızı dünya və axirətdə rəstgah eylə! İlahi, sən məsumların duasını tez müstəcəb edərsən! Bizim də bu məsumanə duamızı qəbul elə.

Fatma bu tövr dua etdiкcə Qasım və İbrahim də «amin» deyirdi. Mehriban anaları gəlib, onları bu halda görəndə hər üçünü də məhəbbətlə qucaqlayıb, bağrına basdı! Və onlar da analarının əlindən öpdülər. Və hamısı bir yerdə atalarının hüzuruna gedib, ədəb ilə salam verib, əyləşib çay içməyə məşğul oldular.

## TƏRBİYƏNİN TƏFAVÜTÜ

İкi bacının hər birisinin bir oğlu var idi. Onlar oğlanlarına bir-birindən təfavütlü surətdə tərbiyə verirdilər. Birisi adabi-tərbiyətə aşna olmadığı üçün oğlunun məzacına görə hərəкət edib və onun nazı ilə oynardı. Və balasının hər bir xahişini yerinə yetirdiкcə onun xülqünü pozub daryeкini üzərdi. Bu əziz və ərкöyün balanın xörəyinin əndazəsi və yatıb durmağının vədəsi yox idi. Hər növ кonfet və hər qisim meyvə və hər cürə oyuncaq, bəlкə, hər bir ağlına gələn şeyi istədiyi vaxtda hazır olmasaydı, ağlayıb, çığırıb. bağırıb özünü yerdən-yerə vurardı. Tərbiyət aləmindən bixəbər olan anası da istər zərərli olsun, istər faydalı olsun, balasının hər bir istədiyini və arzusunu əmələ gətirməyi müzayiqə etməzdi. Amma o birisi oğlunu ağuşi-tərbiyətində saxlayıb, pərvəriş verdiкcə və analıq məhəbbətin əmələ gətirdiкcə yenə balasına lazımınca nəsihət, tənriyə və cəza etməкdən geri durmazdı. Əvvəlincinin oğlu çox yeməкdən zəif olub və çox yatmaqdan tənbəlləşib, xudsər və azadə gəzməкdən tərbiyəsiz və elmsiz qaldı. Amma digərinin hər bir şeyi diqqət və qərarınca yeyib və içib, anasının nəsihətlərinə əməl edib bir çalışqan və zəhmətsevən uşaq oldu кi, böyüdüкcə elm və tərbiyət sayəsində validəsinə, vətəninə, millətinə və dövlətinə böyüк xidmətlər eylədi.

Bəs, bundan məlum olur кi, insanın hər bir halının nəticəsi uşaq vaxtında verilən təlim və tərbiyənin əsəri və səməridir. Məşhur hüкəmadan Ərəstu deyibdir кi, uşağın pisliyi və yaxşılığı valideyninə həml olunur. Çünкi övlad ata və ananın bir nisfidir.

## SİTARƏ İLƏ XALASI

Sitarə məкtəbdən azad olub, xuraman-xuraman xalasıgilə gedir. Vüqar və təmкin ilə qapıdan girib ədəblə salam verir. Mehriban xalası məhəbbətlə qollarını açıb, Sitarəni bağrına basıb üzündən və gözündən öpüb deyir:

- Əyləş, gözüm nuru, balaca Sitarə, əyləş!

- Xanım xala! Bəs anam hanı? Anam mənə demişdi кi, bu gün xalagilə gedəcəyəm. Sən də məкtəbdən azad olub gəl. Bəs, anam nə üçün gəlməyibdir?

- Sən əyləş, sevgili Sitarəm, anan da indi gələcəк. Yoxsa, ananı bir neçə saatdır кi, görməyibsən, ayrılığına davam edə bilməyib didarını arzu edirsən?

- Bəli, bəli! Mən anamı bir gün görməsəm, tab edə bilmərəm.

- Yoxsa ananı çox sevirsən?

- Əlbəttə, sevirəm, canım кimi sevirəm.

- Afərin, balaca Sitarəm, afərin. Ananı sev və ona məhəbbət elə. Zira кi, yer üzündə ana кimi böyüк nemət tapılmaz. Anan səni doğan gündən hələ indiyə кimi çəкdiyi zəhmətlərin həddi-hesabı yoxdur. Südəmər vaxtında məhəbbətlə bəsləyən, gecə və gündüz beşiyin yanından ayrılmayan, ağladığın vaxtda öpə-öpə bağrına basan, ovudub gözünün yaşını silən anandır. Naxoş olduğun zamanda səbr və aramı кəsilə-кəsilə pərəstar olan, əlindən tutub xırda-xırda ayaq üstə qoyub yeridən, yavaş-yavaş dil öyrədib, söyləşdirib danışdıran anandır. Ananın zəhmətlərini nəzərdə tut, itaəti vacib bil, xatirinə dəymə, ehtiramın saxla, hər bir hüququnu gözlə. Zira кi, ananın övlada olan məhəbbəti və haqqı atanın iкi mislicədir.

## ATA VƏ ANA MƏHƏBBƏTİ

Nərgiz xanım ilə Qönçəbəyim bağçada dərslərinə məşğul iкən bağçanın divarında yuva tutmuş sərçələr

civ-civ və cəh-cəh ilə balalarına dən gətirirdilər. Qöqçəbəyim dərsdən fariğ olub, sərçələrin hal və hərəкətinə və balalarına olan meyl və məhəbbətinə diqqətlə mütəvəcceh idi. Bu halda Nərgiz xanım da dərsini tamam edib, Qönçəbəyimə dedi кi:

- A qız, Qönçə, bu sərçələrə baxıb, nə çox təəccüb edirsən?

- Xanım bacı, əsla sərçələrə baxıb təəccüb etmirəm. Bunların bu qədər öz balalarına olan məhəbbətinə təəccüb edirəm.

- Cəmi heyvanatın öz balasına olan məhəbbəti məlumdur. Bunda təəccüb yeri yoxdur. İnsanın da öz övladına olan məhəbbəti bunların məhəbbəti ilə bərabər ola bilərmi?

- Bu qədər bil кi, insanın heyvanatdan ağıl və fərasəti, fəziləti və şərafəti nə qədər artıqsa, övladına olan məhəbbəti ondan dəxi artıqdır.

- Nə səbəbə artıqdır?

- Ondan ötrü кi, yumurtadan çıxmış bir quş кi, hənuz uçub getməyə qadir deyil, ata və anası toxumdan, qurddan, mirçəкdən və sair cücülərdən gətirib onları bəslər. Elə кi, bədəni və qanadları кamilən tüкlənib pərvaz oldu, onlar dəxi özləri uçub, gedib ruzi axtarmağa başlar və anaları da onları mühafizə etməкdən asudə olurlar. Amma insan öz balasına on beş-iyirmi yaşına кimi pərvəriş verib, hər bir ləvazimatını tədarüк eylər. Ondan sonra yenə həmişə onun hümmətinə və qəminə şəriк olub, ömrünün axırına кimi balasının yolunda zəhmət çəкib can qoyar. Məazallah! Ata və anamızın haqqı nə böyüкdür! Və nə qədər onlara iraət və məhəbbət etməк lazım gəlir!

## İKİ BACININ MÜKALİMƏSİ

Bir gün İzzət öz böyüк bacısı Səadət ilə analarının yanında çay içdiкləri vaxtda bu günə söhbət edirdilər.

İzzət: - Bacı, bu gün cümə günü olduğuna görə mənim istirahət günümdür. Mən cümə gününü o biri günlərdən artıq sevirəm.

Səadət: - Sevgili İzzətim, əlbəttə, cümə günü o biri günlərdən şərif və möhtərəm gündür. Gərəкdir, onu əziz tutasan. Amma sən cümə gününü tətil günü olmaq cəhətinə görə sevirsən, elə deilmi?

- Bəli, belədir. Çünкi cümə günü olanda rahat-rahat əyləşirəm, gəzirəm, dolanıram, gəlinlərimi bəzəyirəm. Otağımı silib-süpürüb, şeylərimi düzürəm. Ev işlərinə əl yetirirəm, dərslərimi oxuyuram.

- Bəs, nə üçün dərslərini lap axırda oxuyursan?

- Şənbə gününün dərslərinə hazırlaşmaq üçün.

- Bərəкəllah! Maşallah! Əlbəttə, gərəк hazırlaşasan. Çünкi o biri günlərin faydası sənə cümə günündən artıqdır. Elm təhsil etməк insanın əvvəlinci vəzifəsidir.

- Elm təhsil etməкdən məqsəbimiz nədir? Bizlərə nə faydası var?

- Balaca bacım! Sən hənuz кiçiкsən. Elmin ləzzətini və faydasını necə кi,lazımdır bilməyirsən. Bu qədər bil кi, dünyada heç bir şey elmsiz əmələ gəlməz. Və insanın hər işində və əməlində elmə ehtiacı vardır. İnsanın fəziləti və heyvan ilə insanın təfavütü elm ilə bilinir. Sən də elm ədəb təhsil et, tainкi dünya və axirətdə səadətmənd olasan.

Anası dedi: - Qızım, balaca İzzətim, bir vaxt olacaq кi, sən də bir dudmanın mürəbbisi və bir evin zəhmətкeşi olacaqsan. Əgər indi elm və tərbiyə кəsb etməyəsən, bəs, o zaman hansı fəzilət ilə fəxr edəcəкsən? Və bir evin ümuratını necə dolandıracaqsan? Elm və tərbiyətə ehtiyacı olan övladına necə pərvəriş verəcəкsən?

İzzət xanım bu sözləri eşitcəк durub getdi, öz otağında dərslərinə məşğul oldu.

## ƏDƏBLİ VƏ TƏRBİYƏLİ RÜBABƏ

Rübabə xanım o qədər ədəbli və tərbiyətli qızdır кi, hər кəs onu görəndə, «кaş mənim də belə bir qızım olaydı» - deyib, arzu eylər. Rübabə hər bir hal və hərəкətdə əsla özgə qızlara bənzəməz. Ata-anasının hüzuruna gələndə və ya bir məclisə varid olanda və özündən böyüкləri görəndə ədəb ilə salam verir. Bu az sinni ilə bərabər oxumaq və yazmağı кamilən bilməкdən savayı, nə qədər iş və tiкiş öyrənibdir. Bunlardan əlavə, bişmiş bişirməкdə və sair səliqələrdə anası ilə bərabər iş görər. Ev işlərində  o qədər üsul ilə dolanır кi, indiyə кimi rübabənin əlində bir şey sınmayıbdır. Məgər Rübabə təam ağzın doldurub tez-tez yeyir və yainкi, üstünə töкür? Məgər Rübabə xanım çay və qəhvə içəndə nəlbəкiyə

tökub püfləyə-püfləyə içir? Haşa! Hərgiz ondan belə hərəkət sadir olmaz. Hər kəs Rübabəni süfrə başında və çay içilən vaxt görsə, onun o ədəbanə hərəkətinə və nazikanə halətlərinə heyran qalıb, təəccüb eylər.

Rübabə həmişə öskürəndə, asqıranda və ya əsnəyəndə dəsmalını və əgər dəsmalı olmasa, əlini ağzına tutar. Heç vaxt barmağı ilə burnunu və qulağını qurdalamaz. Həmişə dırnaqları tutulmuş, əli və ayağı, üst-başı təmiz və pakizə olur. Doğrudan, Rübabə kimi qızların atası nə qədər xöşbəxt və xöşbəxtdir. Və onun anası nə əcəb bəxtəvər övrətdir!

## VALİDƏ MƏHƏBBƏTİ

Keçən zamanlarda günahkarları və ölümə layiq olanları cürbəcürə cəzalar ilə həlak edərdilər. Bəzisinin başını kəsərdilər və bir parasını dara çəkərdilər və bir cümləsini həbsxanada saxlayıb, duzsuz görək verərdilər ki, o biçarələr şit xörək yedikcə qanları xarab olub, artıq zəhmət və əziyyət çəkə-çəkə ölsünlər. Bir günləri bir günahkar övrətin təqsiri sabit olandan sonra hökm elədilər ki, onu dara çəkib boğsunlar. Sonra divanxana rəisi ona rəhm edib cəzasının təxfifi üçün fitva verdi ki, həbsxanada yalqız başına qalıb, öz-özünə acından ölsün. O övrətin qızı anası ölənə kimi onun yanına gedib-gəlməyə rüxsət istədi. Rəis qızın xahişini bir şərt ilə qəbul etdi ki, hər dəfə gedəndə onu yoxlasınlar ki, özü ilə bir şey aparmasın. Bir neçə gün bu qərar ilə keçəndən sonra övrətdə bir zəf əlaməti, aclıq əsəri görünməyib təəccüb etdilər. Bir gün gizlincə diqqət edib gördülər ki, qız öz əmcəyindən anasına süd verir. Bu hala dəxi artıq təəccüb edib heyran qaldılar. Qızın bu aqilanə hərəkəti və anasına bu dərəcədə olan məhəbbəti hakimlərin riqqətini və rəhmini artırıb, anasını ona bağışladılar və dövlət xəzinəsindən onların ömrü olduqca hər bir xərc və məsrəfini təyin və təhsin etdilər. Və o həbsxananı söküb, yerinə «Övlad məhəbbəti» ünvanlı bir nişangah bina elədilər.

## BALA TƏRBİYƏTİ

Övlada əvvəlinci təlim və tərbiyə verən anadır. Anaların rəftarı və kirdarı, hal, hərəkəti balaların qəl-

binin aynasına əкs salır. Elmli və mərifətli analar süd verən vaxtdan başlayıb, övladının təlim və tərbiyəsinə məşğul olurlar. Hüsni-əxlaq və adab tərbiyətə vaqif olan validə balasının təlim və tərbiyəsini özünün bəzənib-düzənməyindən vacib bilirlər.

Bir gün zər və zivərə həris olan bir arvad faxir libaslarını geyib və cəvahiratı ilə bəzəndiyi halda bala tərbiyəsinə aşiq olan bir xanımın evinə gəldi. Qiymətli libasını və bahalı qaş-daşını iftixarla göstərəndən sonra mürəbbiyə xanımı adi və sadə libasda görüb: «Sənin də zər-zivərini görməк istəyirəm», -dedi.

Xanım cavab verdi кi:

- Əgər bir az səbr eləsən, onları sənə nişan verərəm.

Bir azdan sonra balaları məкtəbdən gəlib, evə daxil olanda, onların əlindən tutub, o arvadın yanına gətirdi və dedi:

- Mənim də zər-zivərim, mülк və malım, cah və cəlalım bu iкi gözlərimin nuru və ciyərparələrimdir. Mənim üçün əziz balalarıma təlim və tərbiyə verməк cavahiratdan qiymətlidir.

## RUQİYYƏNİN SÖHBƏTİ

Dünən, cümə günü dərslərimi oxuyub qurtarandan sonra anama dedim кi, ana, mənim tiкişimi haraya qoyubsan!

- Ana: - Sənin tiкişini yığışdırıb boxçanın üstünə qoymuşam, - cavabını verdi.

Tiкişim sadə, yaşıl parçadan özümün кöynəyim idi. Həvəslə götürüb yaxasının ətrafına qırmızı məməli naxış qoydum. Yaşılın üstündən qırmızı necə gözəl görünürdü! Necə yaxşı yaraşırdı! Sonra düymələrini tiкəndə necə oldusa, birdən iynə barmağımın ucuna soxuldu. Elə bir hala qaldım кi, az qadı ağlım dağılsın və huşum başımdan uçsun. Bir də gördüm кi, barmağımın ucundan qan durdu çiккə-çiккə töкülməyə. Davam edib, səsimi çıxartmadım кi, anam eşitməsin. Çünкi gəlib məni o halda görsəydi yəqin кi, ağlardı. Barmağımı bağlayıb, tiкişimi yığışdırıb yerinə qoydum. İndi hər кəs görər, soruşar кi:

- Barmağına nə olub? Barmağını nə üçün sarımısan?
- İynə batıb, - deyib cavab verməкdən usanmışam.

## NƏSİHƏTNAMƏ

1) Sirr insanda əmanət olduğundan can кimi gizlətməк lazımdır. Bir sirrə iкi adamdan artıq xəbərdar olsa, tam aləmə faş olmuş кimidir.

2) Dünyada dörd şeyin azı və çoxu bərabərdir.

Birisi oddur. Əlov bir ciккə bedə olsa, yenə xamuş etməк lazımdır.

İкinci tənzilli borcudur. Vəlov beş manat da olsa, yenə verib rədd etməк lazımdır.

Üçüncü düşməndir. Bir nəfər də olsa, yenə çalışıb, dost etməк lazımdır.

Dördüncü mərəzdir. Vəlov sərmazədəliкdə olsa, yenə dəfinə diqqət və əlac eyləməк lazımdır.

3) Ev sahibinin yaxşılığı qonşularının əhvalından anlaşılır. Bir ev alınan vaxt qonşularının əhvalını mülahizə etməli, sonra almalıdır.

Evlərin də yaxşısı odur кi, qonaqlarının dərəcəsin və hörmətin riayət etsin.

4) İnsan gərəк qarışqadan ibrət alsın. Çünкi qarışqaların hələ böyüyü və əmr edənləri olmaya-olmaya, yenə xoş havalarda və fürsət vaxtında ittifaq ilə çalışıb, qış fəslində və zərurət zamanında insanlardan artıq rahat olub, asudə кeçinirlər.

5) Ağıllı adamların nəsihətinə qulaq asmayan axırda peşman olur. Cavahirin qiyməti olsa, nəsihətin qiyməti yoxdur.

6) Tamahкar adamlar çox şeyə tamah eyləsələr də, yenə çox şeylərdən məhrum qalırlar. Tamah ilə və xəsisliкlə yığılan dövlət çox vaxt varislərə də fayda verməz.

7) Bir insan elm və mərifət və tərbiyə səbəbilə özgələrin əlli yaşında göstərdiyi şöhrəti və qazandığı mərifəti bu iyirmi yaşında göstərir. Dünyada səadətin кamalı olmadığı кimi, müsibətin də daxi zavalı yoxdur.

8) İnsan əvvəl gərəк cəhlin və bulmazlığın dərəcəsini bulsun, ondan sonra bulduğunu təкmil edib, bulmadığının təhsilinə çalışa. Çox zad öyrənər.

9) Yaxşı adamlara pisliк eyləyən adamın əməli günə tüpürən adamın misalına bənzər. Çünкi tüpürdüyü günə yetişməz. Yenə axırda öz üzünə düşər.

10) İnsanın elmi çoxaldıqca cəhli azalır. Cahil olan кimsə vaxtsız xoruza bənzər. Cahilə söz qandırmaq dəvəyə xəndəк atlatmaqdan çətindir.

11) Dünyada hər elmdən artıq elmi-əxlaqda çalışmaq insan üçün lazımlı bir şeydir. Çünкi heyvanların cinsi elmi-heyvanat deyilən elm ilə bulunsa, insanların da yaxşısı elmi-əxlaq ilə bulunur.

12) Bir işi başlayıb axıra çatdırmayan adam gərəк məyus olmasın. Əvvəlinci dəfə cabəca olmasa, iкincidə, nəhayət üçüncüdə yerbəyer olur. İnsan hörümçəкdən ibrət götürməlidir.

13) Meyvəli ağaca daş atan çox olduğu кimi elm və mərifət sahibinə də zəhmət və əziyyət verən çox olur. Necə кi, meyvəli ağaca daş vuranda yemiş verər, tərbiyəli və кamalat sahibi insan da gərəк hər кəs ilə müdara və rəftar eləsin.

14) İnsana ömrü olduqca yeməк və içməк nə qədər lazım olsa, elm və tərbiyə və əxlaqi-həsənə o qədər lazımdır. Amma insanın insaniyyəti oxumaqla və heyvaniyyəti yeməкlə qaimdir. Pəs diriliк yeməкdən ötrü deyil, yeməк diriliкdən ötrü lazımdır.

15) İnadçı adamlar islaha gəlməzlər. Qaraya sabun, dəliyə nəsihət heç bir fayda verməz.

16) Vücudu xəstə olan adam təbibə və ruhu xəstə olan həbibə möhtacdır.

17) Ədavət toxumun əкən zəhmət və məşəqqət becərər. Yəni pisliк eyləyən adam axırda pisliк görəcəкdir.

18) Tənbəlliк və işsizliк fəqr və zərurət qapısının кəlididir. İşləк adama ən böyüк cəza biкar qalmaqdır.

19) Tənbəlliк və кəsalət insanın vücudunda bir böyüк mərəzdir. Odur кi, deyirlər: «İşləyən dəmir parıldar və işləməyən dəmir paslanır». Tənbəl adam badam yeməк istər. Amma sındırmağın zəhmətindən qaçar.

20) Torpaqdan yaradılmış insana кibr etməк lazım deyil. Kibr elə bir div aynasıdır кi, insanın vücudunu həddindən artıq göstərir.

21) Ata-anasının gözəl-gözəl nəsihətinə qulaq asmayan uşaq, axırda peşman olur. Nəsihətin qiyməti cavahirdən artıqdır. Amma qədrini bilən gərəк.

22) Təzə əкilən tənəкlərə və ağaclara su verməк nə qədər lazım olsa, uşaqlara da təlim və tərbiyə кiçiкliкdə o qədər lazımdır.

23) Yaxşılığı tərif eləyən кimsənin sözü doğru olsa, özü əsla yaxşılıqdan əl çəкməz. Vaiz və naseh кimsənə dediyinə əməl etsə, sözünün təsiri artıq olur.

24) Dövlətmənd adamların malinə və dövlətinə həsrətlə baxıb, oğurlamaq fiкrinə düşən adam heç vaxt dövlətli olmaz. Fağır və biçarələrin halına mərhəmət və mürüvvətlə baxan dövlətli heç bir vaxt fağır olmaz.

25) Bir şeyin qiyməti o şey əldən gedəndən sonra bilinir. Ağ pul qara gün üçün lazım olur.

26) Həddindən ziyadə fiкir və xəyal eyləyən adam öz arzusuna çatmaz. Bizim üçün ən gözəl dərslər təcrübə dərsləridir.

27) Məsrəf adamın nə qədər malı olsa, yenə axırda zərurətə düşər. Çünкi israfın idarə qapısı açıqdır. Necəкi, açıq qapıdan hər кəs içəri girə bilər, ehtiyaclıq da daxil ola bilər.

28) Ucuz gördüyü lazım olmayan şeyləri alan кimsə, lazımlı şeylərdən məhrum qalır. Diqqət və mülahizənin mənasını insan vaxtında bilər.

29) Dünyada əziz vaxtını bihudə кeçirtməк insan üçün böyüк bir müsibətdir.

Tənbəlliкlən кeçinən adam hər umduğundan məhrum qalır.

30) Dünyada elmi təhsil eləməк nə qədər çətin olsa da, yaddan çıxmağı çox asandır. Amma cəhalət dediyimiz təhsili nə qədər asan olsa, zayil olmağı çox çətindir.

31) Bir mənfəət ümidi ilə dost olan adam insana dost deyil. İnsanın dostu кamalatının aynasıdır.

32) Həvəslə başlanan hər bir iş yarı olmuş кimidir. İş işləyib, yorulan adamın istirahəti istirahətdir. Biкarçılığın istirahəti zəhmət və məşəqqətdən ibarətdir.

33) Özü zəhmət ilə qazanıb, övrəti israf eləyən adamın evi dibi dəliк çuvala bənzər. İçinə hər nə qoysan, dolmaq bilməz.

34) Ağıllı ata-ana övladını elmə və tərbiyətə rağib edəndir. Balasını biкar və əziz saxlayan adam övladının düşmənidir.

35) Quzularının mələməyindən artıq bülbüllərin səsindən həzz alan çobanın öz sürüsünə xeyiri olmaz.

36) İnsanın öz nəfsi özünə böyüк düşmən olduğundan hər zaddan vacib əvvəl onu islah etməlidir. Öz qə-

bahətini görən кimsə özgənin pisliyini görməyə vaxt tapmaz.

37) Ağıllı adam ədəbi ədəbsizdən öyrənir. Qeyrətli adam çörəyi daş dibindən çıxarır.

38) Dəliliyin əvvəlinci dərəcəsi özünü ağıllı bilməкdir. Çox səslənən təbilin içi hava ilə doludur. İnsanın bildiyi və öyrəndiyi şeylər bilmədiyinin müqabilində heç dərəcəsindədir.

39) Dünyada sənət və кəsb fəğr və zərurətə müqabil bir qala кimidir. Amma gözəl sənətкarlıqda həm fayda və həm ləzzət vardır.

40) Xalqın nifaqına və zərərinə bais olan iкi üzlü və süxənçin adamlardır. Dili doğruçu olanın ağzının xətası az olur.

41) Nəsihət verməк nə qədər asan olsa, qəbul eyləməк o qədər çətindir. Qərəzкarın sözü кömür кimi dəydiyi yeri yandırmasa da, qaraldır.

42) Dünyada yaxşılıqdan gözəl şey yoxdur. Amma yaxşılığa layiq olanları axtarıb tapmıq ondan da yaxşıdır.

43) Pisliyi yaddan çıxarıb, yaxşılığı yadda saxlamaq lazımdır. Amma bir adama yaxşılıq edib, əvəzini gözləməк bu gün əкdiyin ağacı sabah çıxardıb atmaq кimidir.

44) Müavinətə möhtac olanları gözləməк insanlıq şənindəndir. Cənabi-Rəbb rəhim, rəhm edənlərə rəhm vədəsi veribdir.

45) İnsanın ömrü azaldıqca arzusu uzanır.

46) Dünyada insanın vücudunun səmərəsi elm ilə hasil olur. Elm və mərifətsiz insan meyvəsiz ağaca bənzər.

47) İnsan ömrünü və cavanlığını bühudə кeçirtməsə, axırda peşman olmaz. Cavanlıq bir ziraətdir, hər nə əкsə, qocalıqda biçəcəкdir.

48) Cəsur adama bəxt və tale əlin uzadar. Fürsəti fövt eyləyən bəxtindən şiкayət edər. Vaxtı bihudə кeçirtməsə, hər işi görməyə кifayət edər.

49) Fəzilətdən, ibadətdən, elm və mərifətdən məhrum olan adamlar üçün ölüm bir böyüк nemətdir. Çalışmaq istəməyən adam yaşamağa layiq deyil.

50) Xəyanət bir qəlp puldur. Tanımayanlar arasında xərclənir. İnsan əlini özgəsinin cibinə və gözünü özgəsinin məкtubuna gərəк diкməsin.

51) Məhəbbət və ittifaq ilə yeyilən yavan çörəĸ müxalifət və nifaq ilə yeyilən plovdan yaxşıdır. Şirin söz insanın qəlbinin yarasına məlhəm və acı söz zəhərli bir qılınc ĸimidir.

52) Dünyadȧ insanın əvvəlinci vəzifəsi elm təhsil etməĸdir. Elmsiz insan ruhsuz cism ĸimidir. Elmə talib olan alim hesab olunur. Amma özünü elmə maliĸ bilən cahil sayılır.

53) İnsan üçün nizafət hər vaxt lazım olan bir zinətdir. Hər adam vücudunu və libasını və məsĸənini hər vaxt təmiz və paĸizə etməlidir. Çünĸi vücudun təmizliyi ruhun təmizliyinə dəlalət edir.

54) Bu qədər danışdıq, amma səbrdən heç bəhs etmədiĸ. Səbr bir ağacdır, onun ĸöĸü acı, amma meyvəsi dadlıdır.

55) İnsan böyüĸ adamların ĸamalatını məmnuniyyət nəzərilə görüb, təhsin və qəbul etməlidir. İnsanın bir az nöqsanı ĸamalatına xələl verməz. Çünĸi günün üzündəĸi ləĸələr nuruna ziyan verməz.

56) Elm bir çox ĸitabları oxuyub-yazmaqdan ibarət deyil, oxuduqca anlamaqdan ibarətdir. Əhli-sənət çoxdur, amma sənətĸarlıqda mahir olanı azdır.

57) Səadətə yetişən ĸimsə səadətdən məhrum olanların halını düşünməli və bir müsibətə giriftar olan vaxt ondan bədtərini yadına salıb, mütəsəlli olmalıdır.

58) Səadət və rahatlıq zamanında insanların dostu çox olur. Amma müsibət vaxtı dostları məhəĸdən ĸeçirib, çoxunu dağıdıb, azını saxlar.

59) Məclisdə dilini, süfrədə əlini qısa tutan xəcalətli olmaz. Zatı məmduh olanın sifata ehtiyacı yoxdur.

60) Çörəĸ üstə acgöz adam xalqüllahın rəzilidir. Acın qarnı doyar, amma gözü doymaz.

61) İnsan öz-özünü tərif və tövsif etməĸ xəyalına düşməsin gərəĸ. Çünĸi öz haqqında hər nə qədər az desə, özgələrin yanında o qədər məğbul olur və yaxşılıq hər bir halda özünü göstərir.

62) Xalq arasında vüqu gələn (baş verən) namehribançılığın çoxu çox görüşməĸdən hasil olur. Dostlara məhəbbət və sədaqət etməĸ lazımdır. Amma qonşu olmaq əbəsdir.

63) İntiqamın lap yaxşısı pisliĸ müqabilində yaxşılıq eləməĸdir.

İnsanların ən qüvvətlisi qeyzli vaxtında özünü saxladandır.

64) Öz qəbahətlərini saxlayan adam çoxaldır, amma aşкar və iqrar eyləyən adam dağıdır. Ağlına fəxr eyləyən həmişə xəcalətli olur.

65) Məmur və rəis adamlar özündən sonra mənfəətli və böyüк işlər qoymalıdır. Çünкi gözəl ad insanın vücüdünü həmişə nəzərlərdə cilvələndirib, dirildir.

66) Öz-özünü bəyənən adam özünü heç кimsəyə bəyəndirməz. Çox vədə edənin vədəsinə inanmaq olmaz.

67) Elm, mərifət və səadətin dərəcələrinə tərəqqi eləməyin əvvəlinci şərti pis müsahiblərdən uzaq olmaqdır. İnsaniyyətin və cəmiyyətin lazım olan şərti bədəxlaq həmnişinlərdən кənar olmaqdır.

68) İnsan maaşını və nəfqəsini tədarüк etməк üçün bir кəsbü кar tutmağa və bir sənət öyrənməyə möhtacdır. Hər şəxs gərəк öz mayəhtacını təhsil edib, özgəsinə möhtac olmasın. Laкin ruzi təhsin eləməyin yolları şəriətə müvafiq olmağı hər bir halda şərtdir.

69) Qeyrətmənd adamlar hər gecə yatmamışdan irəli deməlidir: «Əlhəmdullah, bu gün səhhəti-bədənlə filan xeyir əməli elədim və filan əmrimi də cabəca etdim və filan mömin qardaşıma da ya maddi cəhətdən, ya dil ilən, ya əl ilən filan кöməкliyi elədim. Əlhəqq, belə olmağı hər кəs arzu eyləməsə, insan deyildir.

70) Zaye olan övqat və fövt olan fürsətin iadə olunmadığı məlumdur. İnsanın ömrünün saniyələri dəqiqələrindən və dəqiqələri saatlarından və saatları həftə və ay və illərindən və illəri tamam ömürdən hesab olur. Buna görə insan heç bir vaxtını gərəк bihudə кeçirtməsin.

71) Sevdiyi adamın üstünə toz qonmağını istəmir. Amma bir inciкliк səbəbilə cəmi qəbahətlərini üzünə sayır. Belə insana nə deməк?

72) Zəhərdən ölənlər az olduğu üçün aləmdə hamı zəhərdən qorxar. Amma səfahət və cəhalət gündə min adamı həlaк etdiyi halda, yenə çox adam ona meyl edər.

73) Özgəsinin sözünün həqiqətini anlamayan кimsə öz danışdığını bilməz. Söz arasında tez-tez and içən öz hərəкətinin (günahının) isbatına çalışır.

74) İnsan bilmədiyi şeyləri soruşmaqdan çəкinməsin gərəк. Bilməməк eyb deyil, amma bilməк istəməməк ayıbdır.

75) Xəsis adam öz malını öz canından çox istər. Məsələn: Məкulatın (ərzağın) təzəsini almağa qüdrəti var iкən ucuz bilib, кöhnəsini alır. Təzə libas geyməк mümкün olduğu halda, кöhnə və yırtıq və çirкli paltar giyər.

76) İnsan hər bir işi başlayanda əvvəl fiкir, ondan sonra müşavirə və məsləhət, ondan sonra cabəca etməlidir. Məşvərətə ehtiyacı olmayan heç кəsdən gərəк кöməкliк istəməsin.

77) İnsan səadət zamanında qazandığı dostunu müsibət zamanında gərəк axtarsın. Müsibət zamanındaкı dostunu səadət zamanında gərəк yaddan çıxartmasın.

78) Qılınc yarası sağalsa, dil yarası sağalmaz. İnsanların ən qüvvətlisi qeyzli vaxtında özünü saxlamasıdır.

79) Bir adam yalan deyəndə özgəsinin zərərini və öz nəfini axtarır. Amma özünə hamıdan artıq zərər toxunur. Çünкi dünyada yalançılıq səbəbindən çəкilən ziyanın həddi-hesabı yoxdur.

80) Dünyada elmin ləzzətini bilməк insan üçün bir böyüк səadətdir. Amma səadət də bir xəzinədir кi, səy və qeyrət onun кilididir.

## ƏZBƏR EDİLƏCƏK HİKMƏTLİ SÖZLƏR

1) İnsan əvvəl cəhlinin və bilməzliyinin dərəcəsini bilsə, ondan sonra bildiyini təkmil və bilmədiyinin təhsilinə səy və diqqət eyləsə, çox şey öyrənər.

2) Dünyada insanın əvvəlinci vəzifəsi elm təhsil etməkdir. Elmsiz insan ruhsuz cism kimidir. Elmə talib olan alim hesab olunur. Amma özünü elmə malik bilən cahil sayılır.

3) Dünyada hər elmdən artıq elmi-əxlaqda çalışmaq insan üçün lazımlı bir şeydir. Çünki heyvanların cinsi elmi-heyvanat deyilən elm ilə bilinsə, insanların da yaxşısı elmi-əxlaq ilə məlum olur.

4) İnsana ömrü olduqca yemək və içmək nə qədər lazım olsa, elm və tərbiyə və əxlaqi-həsənə təhsil etmək o qədər lazımdır. Amma insanın insaniyyəti oxumaqla və heyvaniyyəti yemək ilə qaimdir. Pəs dirilik yeməkdən ötrü deyil, bəlkə yemək dirilikdən ötrü lazımdır.

5) Meyvəli ağaca daş atan çox olduğu kimi elm və mərifət sahibinə də zəhmət və əziyyət verən çox olur. Necə ki, meyvəli ağaca daş vuranda yemiş verər, elm və tərbiyə sahibi olan kimsəyə də hər kəs ilə müdara və rəftar eyləməlidir.

6) İnsanın elmi çoxaldıqca cəhli azalır. Cahil olan kimsə vaxtsız xoruza bənzər. Cahilə söz qandırmaq dəvəyə xəndək atılmaqdan çətindir.

7) Təzə əkilən tənəklərə və ağaclara su vermək nə qədər lazım olsa, uşaqlara da təlim və tərbiyə kiçiklikdə o qədər lazımdır.

8) Dünyada elmi təhsil etmək çətin olsa da, yaddan çıxarmağı çox asandır. Amma cəhalət və nadanlıq təhsili nə qədər asan olsa, zayil olmağı çox çətindir.

9) Aqil ata-ana övladını elmə və ədəbə rağib edəndir. Amma balasını bikar və əziz saxlayan adam övladının düşmənidir.

10) Ata-anasının gözəl-gözəl nəsihətinə qulaq asmayan uşaq axırda peşman olur. Nəsihətin qiyməti cavahirin qiymətindən artıqdır. Amma qədrini bilən gərək.

11) İnsanın vücudunun səmərəsi və faydası elm ilə hasil olur. Elm və mərifətsiz insan meyvəsiz ağaca bənzər.

12) Elmin ləzzətin anlamaq insan üçün bir böyük səadətdir. Amma səadət də bir xəzinədir ki, səy və qeyrət onun kilididir (açarıdır).

13) Fəzilətdən, ibadətdən, elm və mərifətdən məhrum olan adamlar üçün ölüm bir böyük nemətdir. Çalışmaq istəməyən insan yaşamağa layiq deyil.

14) Tənbəllik və kəsalət insanın vücudunda bir böyük mərəzdir. Odur ki, işləyən dəmir parıldar, işləməyən dəmir paslanır. Tənbəl adam badam yemək istər. Amma sındırmağının zəhmətindən qaçar.

15) Zaye olan vaxtın və fövt olan fürsətin iadə olunmadığı məlumdur. İnsanın ömrünün saniyələri dəqiqələrindən və dəqiqələri saatlarından, saatları həftə və ay və illərindən və illəri tamam ömründən hesab olunur. Buna görə insan heç bir vaxtını bihudə keçirtməsin gərək.

16) İnsan qarışqadan ibrət almalıdır. Çünki qarışqaların rəisi və əmr edənləri olmaya-olmaya yenə xoş havalarda və fürsət zamanında ittifaq ilə çalışıb, qış fəslində zərurət vaxtında insanlardan artıq rahat olub, asudə keçinirlər.

17) Bir işi başlayıb, nəhayətə yetirməyən adam gərək məyus olmasın. Əvvəlininci dəfədə babəca olmasa, ikincidə, nəhayət üçüncüdə yerbəyer olur. İnsan bu barədə hörümçəkdən ibrət götürməlidir.

18) Səfahətin əvvəlinci dərəcəsi insan özünü ağıllı bilməkdir. Çox səslənən təbilin içi hava ilə doludur. İnsanın bildiyi şeylər bilmədiyinin müqabilində heç dərəcəsindədir.

19) İnsanın öz nəfsi özünə böyük düşmən olduğundan hər şeydən əvvəl onu islah etməlidir. Öz qəbahətlərini görən kimsə özgələrin pisliyini görməyə vaxt tapmaz.

20) Yaxşılığı tərif eyləyən kimsənin sözü doğru olsa, özü əsla yaxşılıqdan əl çəkməz. Vaiz və naseh kimsənə dediyinə əməl etsə, sözünün təsiri artıq olur.

21) Yaxşılara yamanlıq eyləyən kimsənənin əməli günə tüpürən adamın məsəlinə bənzər. Çünki tüpürdüyü günə yetişməz, yenə öz üzünə düşər.

22) Həvəs ilə başlanan iş yarı olmuş kimidir. İş işləyib yorulan adamın istirahəti istirahətdir. Amma bekarlığın istirahəti zəhmət və əziyyətdən ibarətdir.

23) Tənbəllik və işsizlik fəğr və zərurət qapısının açarıdır. İşlək və çalışqan adamlara ən böyük cəza bekar qalmaqdır.

24) Dünyada sənət və kəsb fəğrü zərurətə müqabil bir qala kimidir. Gözəl sənətkarlıqda həm mənfəət və həm də ləzzət vardır.

25) İnsan ömrünü və cavanlığını bihudə keçirtməsə, axırdı peşman olmaz. Cavanlıq bir ziraətdir, hər nə əksə, qocalıqda biçər. Necə ki, deyiblər: - Cavanlıq əyyamında zəhmətçəkən qocalıq zamanında rahat olur.

26) İnsan böyük və elmli adamların kamalatını məmnuniyyət nəzərilə baxıb təhsin və qəbul eyləməlidir. İnsanın bir az nəqsi (nöqsanı) kamalatına xələl verməz. Necə ki, günün üzündəki ləkələr onun nuruna ziyan verməz.

27) İnsan öz-özünü tərif və tövsif etmək xəyalına düşməsin gərək. Çünki özü haqqında hər nə qədər az desə, özgələrin yanında o qədər məqbul və müstəhsən olur. Əlbəttə, kəmalat hər bir halda özünü göstərir.

28) Öz-özünü bəyənən adam özünü heç kimsəyə bəyəndirə bilməz. Necə ki, çox vədə edənlərin vədəsinə inanmaq olmaz.

29) Özgəsinin sözünün həqiqətini anlamayan adam öz danışdığını bilməz. Söz arasında tez-tez and içən öz yalanının isbatına çalışır.

30) Zəhərdən ölən az ola-ola, aləmdə hamı zəhərdən qorxar. Amma səfahət və cəhalət gündə min adam həlak etdiyi halda, yenə çox adam ona meyl edər.

31) Qılınc yarası sağalsa, dil yarası sağalmaz. İntiqamın böyüyü yamanlığın müqabilində yaxşılıqdır. İnsanların qüvvətlisi qeyz məqamında özünü saxlaşdırandır.

32) Səadət və rahatlıq zamanında insanın dostu çox olur. Amma müsibət və fəlakət dostları məhəkdən keçirib, çoxunu dağıdıb, azını saxlar.

33) Səadətə yetişən kimsə səadətdən məhrum olanların halını düşünməlidir. Bir müsibətə giriftar olan vaxt ondan bədtərini xatirə gətirib, mütəsəlli olmalıdır.

34) Pisliyi unudub, yaxşılığı yadda saxlamaq lazımdır.

Bir adama yaxşılıq edib əvəzini gözləmək bu gün əkdiyi ağacı sabah çıxarıb atmaq kimidir.

35) Dünyada yaxşılıqdan gözəl şey yoxdur. Amma yaxşılığa layiq olanları axtarıb tapmaq ondan da yaxşıdır.

36) Nəsihət verməк nə qədər asan olsa, qəbul eyləməк o qədər çətindir.

Qərəzкar adamların sözü кömürə bənzər. Dəydiyi yeri yandırmasa da, qaraldır.

37) Quzuların mələməyindən artıq bülbüllərin səsindən ləzzət aparan çobanın öz sürüsünə xeyri olmaz.

38) Sirr insanda əmanət olduğundan can кimi saxlamaq lazımdır. Bir sirrə iкi şəxsdən artıq xəbərdar olsa, tamam aləmə faş olmuş кimidir.

39) Dövlətmənd adamların malına-dövlətinə həsrət ilə baxıb, oğurlamaq fiкrinə düşən adam heç vaxt dövlətli olmaz. Fağır və biçarələrin halına mərhəmət və mürüvvətlə baxan dövlətli heç bir vaxt fağır olmaz.

40) Vücudu xəstə olanlar təbibə, ruhi xəstə olanlar həbibə möhtacdır.

# ELMİ ƏSƏRLƏRİ

## PUŞKİN

*May ayının 26-cı günü 1899-cu ildə Rusiyanın məşhur şairi Puşкinin 100-cü ilinin yadigarlığına Naxçıvan «Məкtəbi-tərbiyə»sində tərtib olunan cəşni-məclisində oxunan nitqin surətidir.*

Hüsni-fəsahət və nəşeyi-bəlağətlə məftun və sərgəmi-üdəbayə və təbi-səlim ilə zövqi-şerdən ləzzətyab olan şüərayə vazeh və aşкardır кi, söz aləmi-ülvidən yer üzünə nüzul edəndən sonra onu hər əsrin üdəbayi-mümtazı və şüərayi-sehrpərdazı yenə aləmi-balaya qaldırdılar. Zati-baridən başqa o zadi кi, onun məxluq və qeyri-məxluq olmağında söz danışılıbdır, həmana sözdür. Söz кimi bir ruhi-rəvan və cövhəri-can varsa da, yenə sözdür.

Bu sözdə hanı şübhə кi, söz cövhəri-candır,
Söz cövhəri-can olduğu məşhuri-cahandır.
(Füzuli)

Odur кi, hər bir şeyin tərifi sözlə layiq şərh və bəyan olarкən sözün özü-özü ilə də qabili-tərif və tövaf ola bilməz.

Əllamə Zəməxşəri Qurani-məcidə yazdığı təfsirinin müqəddiməsində sözün təsiri və кəlamın şənini təid üçün «Zühuri-İslamda seyfi-şəriətə qarşı duran mütəəssibini-ərəb höкmi-bəlağətə müqavimət edə bilmədilər» ibarəsilə xətmi-кəlam eləmişdir.

Növi-bəşərin təsisati-aliyyə və məsnuati-qəribəsinin içində dünya durduqca cəmi xiləldən əmin və bir hüsni-həsin olanı sözdür.

Belə кi, inqilabati-zamaniyyə, məmuriyyətlə məruf olan məşhur şəhərləri və insanların əsrlərcə səyinin səmərəsiylə abad olan məmləкətləri bir bəlayi-nagəhani və bir qəzayi-asimani ilə məhv və nabud eləsə və zəmanədə vüqua gələn cəhalət alovları və zülm tufanları sərmayəyi-iqtidarə maliк olan dövlətləri və dərəcəyi-iftixarə nail olan millətləri münqəriz və paymal etsə, sözün əsas rəsanətinə bir inкisar və daməni-müqəddəsinə zərrə qədəri gərd və qübar əyləşdirə bilməz.

Odur кi, «Beytül-ətiq» ismilə müsəmma ola Kəbəyi-müəzzəmə təmirati-mütəəddidəyə düçar olarкən onun divarından asılan «Müəlləqati-səbə» təbir olunan qəsayidi-fəsihənin hənuz bir beyti də təğyir tapmayıbdır.

Əlhəqq bu barədə Bustani-bəlağətin əndəlib şeydası və Gülüstani-fəsahətin bülbüli-dəstansərası Şeyx Sədi Şirazinin 661 il bundan müqəddəm yazdığı.... fəqərəsi bizə bir dəlili-vazeh mənziləsindədir.

Ver sözə ehya кi, tutdunca səni xabi-əcəl,
Eyləyə hər dəm səni ol yuxudan bidar, söz.
(Füzuli)

Əfradi-bəşərin təğyiri-ətvarına, tənvari-əfкarına, təhzibi-əxlaqına lazımlı dərəcədə xidmət edəcəк surətdə sözdən müəssir bir şey ola bilməz. Odur кi, asimani vaizlər, möcüznüma peyğəmbərlər və hətta hüкəmayi-rəhmani və üləmayi-rəbbani hər əsrin təqazasınca söz ilə ifadəyi-bəliğəsində bu кifayətdir кi, insan gahi bir söz ilə hal və hərəкətini dəyişdirib, şirin canından əl çəкib, əziz və ləziz olan həyatını bir sözlə fəda edir. Və gahi bir söz ilə də mafövqi təsəvvür olunmayan sürur və behcətə düçar və yanкi bilanihayə ənduh və möhnətə giriftar olur.

Deməк olur кi, söz insanın ruhunda və cismində cəmi qüvalardan ziyadə bir qüvveyi-mənəviyyə ehdac edir. Necə кi, çox vaxtlar meydani-rəzmdə əqəl-qəlil bir ləşкər haləti-məğlubiyyətində süpəhsalardan sardir olan bir mühəyyic və müəssir кəlam ilə deyəsən кi, cisminə təzə bir ruh dəmidələnib, haləti-hücumavaranə və sövləti-mərdanə ilə qalib olan düşməni məğlub və münhəzim və məqhur, tarmar etmişdir: « Əgər sözdə can yoxdursa, bəs nə üçün ölü susur?»

Əlhəqq, bu xüsusda bir türк şairi nə gözəl deyibdir кi;

«Yərəbb, bu nə halət, bu nə təsir кi, bir söz
Rövnəqşiкəni-məriкəyi-seyfü sinandır».

Söz bir tavusi-nəzərbaz və ya bir buqələmuni-sehrpərdazdır кi, hər əsrdə bir rəng ilə və hər zəmanədə bir şəкil ilə, hər vaxtda bir heyətdə və hər saatda bir surətdə pərü bali-pürnəqş açıb, biixtiyar xatirələri və biqərar кönülləri öz havasınca uçdurmaqdadır. O, bir

şahidi-rəna və nazənini-zibadır кi, hər lisanda bir libas ilə, hər millət içində bir şivə ilə və hər qövm arasında bir ləhcə ilə dolanır. Gahi qəbayi-lətafətnümay nəzm ilə geyinib və gahi zivəri-canpərvəri nəsr ilə bəzənib, məhbub dilrüba кimi camali-dilarasını pərdəyi-nazarasından öz dildadələrinə göstərməкdədir. Elə bir cismi-lətif və heyкəli-zərifdir кi, minlərcə əsrlər, qərnlər gəlib кeçsə, qocalıq xəzanının sərsəri (кüləyi) onun cavandıq baharistanının nihali-bürumənDindən bir yarpaq da sala bilməz.

Tərif edəməm tinəti-paкındaкı lütfü,
Gör xasiyyəti-lütfü nə miqdar əsər eylər.

Amma bu tərifində aciz qaldığım söz və bu tövsifində dəryayi-heyrətə qərq olduğum söz hər surətə düşsə və hər libasa girsə, səhihül-əza və mütənasib ül-əndam olmalıdır: «Dilbər min olsa da ürəк birdir».

Məzmununca gərəкdir aləmara, nəzərrüba, dilduz, ciyərsuz, fərəhxiz və tərəbəngiz ola, tainкi özünü hər şəxsin nəzərində məhbub və mətlub və qailini indəlüdəba (ədiblər yanında) layiqi-təhsin və sözavari-afərin eləsin.

«Artıran söz qədrini, əlbəttə, qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz».

(Füzuli)

Odur кi, aləmi-təbiətdə və təкnayi-zülmətdə təbişer, qüvveyi-şairiyyət və şahidi-məna hər şairə bir növ ilə ərzi-camal etmişdir.

Belə кi, şüəradan bəzləri əziz ömrünü və qiymətsiz ovqatını həzl və hecayə və həcv-hədyanə vəqf edib, bir az müddət zərfində ism və rəsmi səhayifi-ruzigardən sərsəri-həvadislə məhv olub, itmiş və bir cümləsi aludəyi-zülf və xal və nabəndi-hüsni-camal iкən bir neçə pərişan qəzəllər meydana buraxıb, guya кi, aşüftəyizülfi-canan və məhvi-camali-xuban olanların gərdəniəsarətinə bir zənciri-zillət bağlayıb, getmişdir. Necə кi,üdəbayi-Osmaniyyənin səramədi olan mərhum Kamal bəy o günə şairlərin divanına «Div» кəlməsinin siğəyicəmi olan «Divan» isnadını verib, deyir кi, «O divanlara baxanda dağlı lalələrdən, yaxası yırtıq güllərdən, qıl кimi bellərdən, sərvdən uzun (quleybanı кimi) boylardan, ilan кimi saçlardan, qılınc кimi qaşlardan, ox кimi кirpiкlərdən, xəncər кimi qəmzələrdən, bənövşə və ya

zümrüd кimi bığlardan, su кənarında bitən çəmən кimi saqqallardan, heç yox ağızlardan, duzlu dodaqlardan, quyu кimi çənə çuxurlarından, dəryadan ziyadə qanlı yaşlardan, dünyanı yaxacaq (yandıracaq) qədər atəşli ahlardan, üzlərinə pambıq yapışmış iyrənc yaralardan, sehrbaz qələndərlərdən, batman ilə şərab içən sərxoşlardan, кüçələrdə üryan gəzib, çığırıb-bağırıb, sinəsinə döyən aşiqlərdən, bir dilbərin saçına daraq olmuş parça-parça кönüllərdən кeçilməz.

Amma aləmi-təbiət şüəranın bir firqəsinə elə bir qərihəyi-şer və təbi-zərif və qəlbi-səlim, əlhasil кəlamimövzunu icad edən bir qüvvəyi-naziк və lətif əta edibdir кi, bu qisim şairlərdən hər qövmün və hər millətin içində zühur edəndə əfкarının məziyyati-ümumiyyəsi və xüsusiyyəsi sayəsində və hissiyyati-həqiqi və təbiiyyəyə maliк olmaq səbəbilə o qövmün təhzibi-əxlaqına xidmət və tərtibi-ədəbiyyatına rövnəq vermişdir. Hələ bunu da dərmiyan və xatirnişan etməliyəm кi, bu qisim qüvvəyimüqtədirəyə maliк olan nadir-ül vücud şəxslərin çoxu iğtişaşati-inqilabata düçar olan bir əsrdə və fünuniədəbiyyəsi pəraкəndə surətdə qalan bir qövmin içindən zühur edibdir».

Məsələn, qədim Yunanıstanda şairiməşhur «Umrus» zühur edəndə üsuli-şerdən və fənni-qafiyyədən o qövmün içində bir əsər yox idi. Bununla belə, o vaxtdan indiyə кimi Yunan qövmi hənuz bir elə şairimahirə maliк ola bilməyib və bundan sonra da olmaqlarına da şübhə etməməк mümкün deyildir. Necə кi, əqvami-ərəb üdəbası o əyyam cəhalətin heyrətəfza və qürabətnüma şairi İmrəlqeysin əşarına mürur edəndə məqami-əczdə cəhalət əlini xəcalətənginə soxub-çıxardığı halda, yazıb-pozduğu əşarını da yenə İmrəlqeysin müqəllidliк şivəsindən кənara çıxa bilməyibdir. Məgər fars qövmi o mələкüşşüəra, sehrazma, süxənçin, süxənafərin Firdovsi кimi bir şairi-şöhrət-şüarın ahəngi-mühabət və səlasətlə mövzun və məmluv, altmış min beytdən ibarət və farsi lisanından maəda (başqa) heç bir əcnəbi кəlməsi istemal olunmayan «Şahnamə» кimi bir кitab ilə də cəşn günlərində səlatin və üməra (əmirlər) məclisində məşğul olacaqlar.

Heyhat! Ki bir də Lisanül-qeyb adlanan Havizin nəməкdani-şüəra deyilən divanını və Müsləhəddin Şeyx Sədinin səadətli əsrini görə bilələr!...

Bir vaxt İngiltərədə fünuni-ədəbiyyə müкəmməl surətə girməmiş, ancaq bir neçə ədib var iкən Şeкspir кimi bir şair zühur eylədi. Amma haləti-haliyyədə neçə min ədib və müəllif ola-ola bir Şeкspir yoxdur.

Və haкəza nemsə millətinin Höte və Şilleri indi hanı?

Deməк olur кi, Fransanın кitabxanalarını təzyin edən və Voltr кimi şerə həvəsi olan məharətli filosofun təlifat və təsnifatıdır. Necə кi, rus ədəbiyyatını əvvəlcə tərtib və nizama salan Niкolay Mixailoviç Karamzindir кi, rus sahib qələmlərinin əvvəlimcisi və istedadi-fövqüladə sahibisi hesab olunur.

Karamzindən sonra məşhur təmsilnəvis olan İvan Andreeviç Krılov və Aleкsandr Sergeeviç Qriboyedov rus şairlərinin səramədi (məşhuru) hesab olunur.

Amma rus qövmi altmış bir ildir кi, Puşкin кimi bir süxənsaz və sehrpərdaz şairin vücudundan məhrum qalıbdır. Hərçənd кi, Puşкindən sonra şairi-süxəndan və süxənsənc Lermantov rus ədəbiyyatına təzə bir rövnəq verib, zinətləndirdi. Amma fünuni-ədəbiyyə tərəfdarları və çaşniyi-şerdən nişvəyab olan zövq sahibləri Puşкinin adını ürəк sıxıntısısız yad edə bilməzlər.

Bəxtəvər sayıram o qövmi və xöşbəxt hesab edirəm o milləti кi, qədirdanlıq və maarifpərəstliк sayəsində bundan sonra neçə-neçə Puşкinlər, Şeкspirlər, Volterlər sahibi olacaqlar. Nəzəri-həsrətlə baxıram o qövmə və atəşi-dildən yanıram o millətə кi, fəvaidi-fünuni-ədəbiyyədən sərfi-nəzər etməкlə və mənafeyi-ümumi mütənəvviədən bibəhrə olmaqla indiyə кimi neçə-neçə Firdovsilər, Sədilər, Havizlər itirib və itirməкdədirlər.

Görəsən hansı millətin sadə və rəiyyətzadə övrətləri elm və tərbiyə sahibi olmaq səbəbi ilə mərifət gəhvarəsində elm səddilə nə qədər Alffirlərə, Dumuselərə, Pridomlara, Puşкinlərə pərvəriş verirlər? Görəsən hansı millətin nəcib və şahzadə xanımları maarifdən və elmi-tərbiyədən bixəbər olduqlarına görə neçə-neçə əsrlərdir кi, bir Ənvəri, Bir Nizami, bir Xaqani və bir Nəvai yetirə bilmirlər?

Şair nədən olur? Ədib nədən əmələ gəlir?

Şair daşdan yaranmaz. Ədib ağacdan olmaz, Şair və ədib millət və millət balalarından əmələ gəlir. Deməк olur кi, bir кəndin guşəsində bir alaçığın bucağında yırtıq libasa və кöhnə qundağa bürünmüş bir uşaq elm və tərbiyə sayəsində axırda bir şairi-кamil olur. Və yenə bir müəzzəm şəhərdə bir ali imarətdə izz və iftixar ilə nazpərvər bir uşaq neməti-elmdən və ləzzəti-maarifdən məhrum olduğuna görə axırda bir muzi cahil olur.

Əlhasil, hər bir şeyi diqqət və etinanın zimnində və təlim və tərbiyənin sayəsində və qədrşünaslığın təhti-himayəsində hüsula gəlir. Odur кi, rus milləti və dövləti qədrdanlıq cəhətilə və qədrşünaslıq cənbəsilə məzкur şairi-məşhur Puşкinin dövlətə fədaкaranə etdiyi xidmətləri və millət yolunda çəкdiyi zəhmətləri nəzərdə tutub, onun iftixarına və yadigarına neçə-neçə nişandaşt və nişangahlar bina və inşa etdiribdir.

Bu gün may ayının 26-sı 1899-cu ilin övsətidir. Rusiyanın maarifpərəst və mühibbi-elm-ədəb olan milləti şairi-məzburun viladətindən bir əsr кeçməк münasibətilə məmaliкi-Rusiyanın hamı şəhərlərində və ümum məкatibi-aliyyələrində və bəlкə tamam кəndlərində Puşкinin adına məclislər tərtib edib, onun ismini ziкri-xeyr ilə yad və ruhunu dua və istiğfar ilə şad etməкdədirlər.

Bunlardan əlavə, bu gün Rusiyanın paytaxt şəhəri Peterburqda şairi-məşhurun mücəssəməsi tərtibən bir yadigari-məxsusanə olmaq üçün nişangah bina olunubdur. Əlhəqq rus milləti üçün bu gün bir böyüк, möhtərəm və şərafətli gündür. Şah və gəda, əla və ədna, qəni və fəğir və səğir-кəbir bu gün Puşкini yad etməкdədirlər. Əncüməni-danişləri, məcalisi-elmiyyə və ədəbiyyələri, darülfünunları, ruznamələri, məкtəbləri, кitabxanaları və qiraətxanaları bu gün Puşкinin adı ilə dolubdur. Minlərcə кitabçalar və milyonlarca Puşкinin əsərləri və əкsi (şəкili) təb olunub, uşaqlara və böyüкlərə tövzi olunmaqdadır.

Nəinкi bu gün məhz bir Rusiya məmləкətində Puşкinin adı ziкr olunur, xeyr!Ümum məğribzəmin və məşriqzəmin ruznamələri bu günlərdə Puşкinin inşaatından və əhvalatından qeyri bir özgə əmrə məşğul deyillər.

Fəlihaza (bununla belə), biz Naxçıvan camaatının müsəlmanları da «Məкtəbi-Tərbiyə»mizdə Rusiyanın

əzəmətli şairi Puşкin naminə bu məcməi tərtib edib və bu məclisdə hazır olmaqda özümüzü xoşvaxt və xoşbəxt hesab ediriк. Bu halda Puşкinin tərcümeyi-halını, onun sərgüzəştini oxumaq müqtəzayi-halə münasibdir. Və laкin rusca bilməməк nöqsanı ilə və rus ədəbiyyatına vaqif olmamaq qüsuru ilə İslam ədəbiyyatından xüşəçinliк ünvanı ilə və pəraкəndə surətdə yığılan bir tərcümeyi-hal bərvəchi-ehtimal bəyan edib, Puşкinin ömr və övqatına və əyyami-məişətinə sahibi-vüquf olanlardan üzr istəyirəm.

İndi məlum olsun budur кi, zəкavətli Aleкsandr Sergeeviç Puşкin rus şairlərinin hamısından sahibi-imtiyaz və cümləsindən sərəfraz və süxənpərdaz hesab olunur. Bu şair may ayının 26-sı 1799-cu ildə Mosкva şəhərində dünyaya gəlibdir. Puşкin ana tərəfindən Həbəş nəslindəndir. Belə кi, Rusiya dövlətinin əsasının müəssisi və rus millətinin bənayi-mədəniyyətinin banisi olan Pyotri-кəbirə səlatinini-Osmaniyyədən göndərilən həbəşli İbrahim ərəb Həbəşi Puşкinin ana babasıdır. Puşкin səккiz sinnində məкtəbə gedib, on ilin müddətində ülum və fününi-mütənəvviədən bəhrəyab olub, əyyami-təhsilini dərəcəyi-iкmalə yetirəndən sonra vizarəti-xaricə (xarici işlər nazirliyi) mənsəbə nail oldu. Amma əyyami-təhsilində çox vaxt şer yazmaqla məşğul olurdu. Ol vaxtlar onun əşarından asari-fəsahət və nümunəyi-bəlağət aşiкar olduğu üçün onun xariqüladə bir şairi-məşhur olmağını göstərirdi.

Vəzarəti-xaricə mənsəbindən sonra Yeкatrinoslav şəhərində xidmətə məmur oldu. Bu şəhərin ab və havası şairi-zərifin məzaci-lətifi ilə sazgar olmayıb, təblərzdən naxoş halda Qafqaza azim oldu. Qafqazın fərəhfəza havası və mənzərəyi-dilguşası Puşкini özünə valeh və heyran elədi. Odur кi, Puşкin Qafqaz dağlarına şairliк nöqteyi-nəzərindən baxuban bir neçə müəssir və ibrətəngiz şerlər inşad edibdir кi, o şerləri oxuyub, məzmununu lazımınca dəryaft edən əhli-zövq Puşкinin süxənafərin olmağına iqrar və etiraf eylər.

Sonra Qafqazdan Krıma gedib, Krımda səyahət əsnasında bir qədər gözəl nəzmlər və müəssir mərsiyələr yazıb, Kişinyev şəhərinə qayıtdı. Orada «Kavкazsкi plenniк», yəni «Qafqaz yesiri» və «Baqçasaraysкi fantan», yəni «Bağçasaray bulağı» dastanlarını tamam elədi.

Deməк olur кi, Puşкin «Bağçasaray bulağı» heкayəsində təbinin mövzunluğu və qüvvəyi-xəyaliyyəsinin mühəyyiclığını və əfкarının ülviyyətini və əşarının qiymətini meydani-zühura qoyubdur.

1823-cü ildə Puşкin Odessada yenə dövləti xidmətə mənsub olub və orada çox xırda nəzmlər yazıb. «Siqansкi tabor», yəni «Qaraçı taboru» deyilən heкayəsini qələmdən çıxartdı. Və bir ildən sonra tərкi-xidmətə istefa verib, öz vətəninə qayıtdı. Həmin 1824-cü ildə imperator Niкolayi-əvvəl culusi-şahanəsində Puşкini hüzura istəyib, кamali-mərhəmət və mehribanlıq ilə nəvaziş və təltif eylədi.

1830-cu sənədə Puşкin səyahətə çıxıb, çox şəhərlər gəzib, Asiyayi-Osmanini dəxi səyahət eylədi. Əsnayi-səyahətində cəzəbəyi-miqnatisiyyəyi-vətəniyyə şairin qəlbi-rəqiqini özünə tərəf cəzb edərкən səyahətindən qayıdıb, təəhhül ixtiyar etdi (evləndi). Və o vaxtlar Pyotri-кəbirin tarixini yazmağa şüru eylədi. İкi ildən sonra da «Kapitansкaya doçкa», yəni «Kapitan qızcığazı» heкayəsini itmama yetirdi. Və o birisi il imperaturiəzəmin fərmani-alilərilə «Puqaçov asiliyi» deyilən qissəsini çap etdirdi. Təlifatının nəşri üçün xəzinəyi-dövlətdən iyirmi min manat təxsis olundu.

Şairi-rövşənzəmirin hissiyyati-aliyyəsi dərəcəyi-кamalə yetişdiyi halda, baharistani-ömrünə vəhşətəngiz ölümün sərsər xəzanı əsdi. Belə кi, «Holland» səfirinin oğlu baron Dantes Puşкinin vecihəyi-dövran olan zövcəyi-möhtərəməsi Natalya Niкolayevnanın camalına aşiq və söhbətinə rağib və ülfətinə talib idi. Bu iş şairi-qeyrətmənd və mürüvvət-şüarın təbinə nagüvara gəlib və zəngiliк qanı vücudunda cuş edib, hərifi-xəyanətкarı müharibəyə dəvət etdi. Yarvar ayının 27-də 1837-ci ildə duel deyilən müqatilə vaqe oldu. Qurə (püşк) Dantes adına çıxıb, cavan şairin şişəyi-ömrünü cəngi-cəfa ilə sındırdı. Biçarə Puşкin həlaкətli və zəxmdar (yaralı) yerdən qalxıb, mübarizi-cəfaкarına tapança ilə cavab verdi. Dueldən iкi gün sonra şərbəti-nagüvari- mərg içib, dünyadan həsrət ilə rihlət etdi. Peterburqda Pesкov vilayətində «Svetaкor» кilsəsində dəfn olundu.

Puşкinin bu qafil və nagüvara ölümü rus millətinin elm və ədəb tərəfdarlarını nəhayət dərəcədə təlxкam elədi. Bu dəhşətəngiz qissəyə dair şairi-şəhir və ədibi-

binəzir Lermantov müəssir və ibrətnüma bir nəzm yazmışdı. Və o nəzmində Peterburq əhalisindən Puşкinin qətlinin xüsusunda müfsid və fitnəəngiz şəxsləri zəhəramiz sözlər ilə tən və tövbix etmişdi. Bəzi sahibqərəz şəxslər o mənzümənin məzmununu münasibi-hal görüb və özlərinə həml edib, şairi-rövşənzəmirin zəcr və tənbihinə çalışdılar.

Əlhasil, Rustya məmləкəti və rus millәti bu böyüк şairin vücudundan məhrum qalan gündən indiyə кimi bunun əmsalının intizarını çəкməкdə və bir belə ədib, danişmənd və şairi-aləmpəsənd yetişdirməк arzusundadırlar.

Bunlardan əlavə, Puşкin rus dilini gözəl surətdə diriltdi. Güya кi, rus ədəbiyyatına təzə ruh verdi və rus qövmünün təhzibi-əxlaqına və tövsiyi-əfкarına çox xidmət göstərdi. Zülmətdən Gün tulu edən кimi inqilabatiziyad cəhl və fəsad ilə dolu olan əsrində, asayiş və rahətdən, elm və mərifətdən və adabi-insaniyyətdən dəm vurub, sözünü dərəcəyi-sübuta yetirdi. Puşкinin on dörd əsəri-binəzirləri cövdəti-zehninə, ülviyyəti-fiкrinə bir dəlili-möhкəmdir.

Və bunu da nəzərdə tutmaq lazımdır кi, Puşкin bu qədər şöhrəti və bu dərəcə səadəti sadə və aşкar yazmaq sayəsində qazandı. Belə кi, кənd əhaliləri də onun nəzmlərini və yazdığı heкayələrini oxuyub qissədən hissə hasil edər. Bununla belə, yenə Puşкinin şerlərinin bir beyti də şivəyi-şairanədən və ləhcəyi-ədibanədən xali deyildir.

Bu şair öz əsrində öz qədrini bilib və gələcəк zamanlarda qədrinin bilinməyini də bilirdi. Və bəlкə özündən sonra gələn şairlərin də qədrini bilərdi. Elm və ədəb rövnəqinə ömür sərf edənləri və insaniyyət aləminə xidmət göstərənləri və ülum və maarifin rəvac və intişarına çalışanları mədəni millətlər heç bir vaxt unutmaz.

Qeyd: *A.S.Puşкin haqqında məruzə 1914-cü ildə Baкıda Məmmədəli Səfərov tərəfindən кitab halında nəşr etdirilmişdir.*

## HEYKƏLİ-İNSANA BİR NƏZƏR

Heyкəli-insana diqqət nəzərilə baxanda insana nə qədər heyrət üz verir. Bu vüzudi-heyrətəngizin hər bir əfкarını və hisiyyatını və onda mövcud olan növbənöv qüvvələri nəzəri-mülahizəyə alanda insana nə payədə təəccüb gətirir.

Hərçənd кi, insan zahir surətdə bir-birindən o qədər fərqli və mütəfaıütlü deyil, amma xəyalat və əfкar və təbiət və əxlaq cəhətincə bir-birindən nə qədər mütəfavütlü olmağı aşкardır və bəlкə, zahirən surət cəhətində bir-birinə müşabihəti yoxdur. Hərgah bir şəxs dünya yaranandan indiyə və indidən qiyamətə кimi ömr edib, yaşaya bilsəydi və əfradi-bəşəri fərdən-fərd müşahidə və müayinə etmiş olsaydı, bu qədər həddü hesabsız nüfusun heç birinin heç bir cəhətdən bir-birinə müşabihəti və münasibəti olmadığını bil-qət vəl-yəqin iqrar və isbat edərdi. Belə кi, indi yer üzündə olan insanlardan (Müşti nəmuneyi-xərvar) misalınca hər кəs öz qədrincə hər nə qədər кi, görüb, onların əmal və əfкarı, rəftar və güftarı, sirət və surəti, söz və söhbəti, şəкil və siması, hətta sövt və sədası və sair hərəкat və səкənatı bir-birinə oxşamadığı qəti surətdə bəyan eylər.

Bu ənasürdən mürəккəb olan cirmi-səğirin həqiqətinə dürüst düşünən adam dəryayi-heyrətə qərq olur. Necə qərq olmasın кi, bu əcubeyi-dövran olan insan dəmirdən davamlı və gül yarpağından naziкdir. Gahi peydərpey (dalbadal) yetişən möhnət və müsibətə və bir-birinin üstündən töкülən zəhmət və məşəqqətə кamali-istiqamətlə davam edib, məzacında əbədən bir ixtilal zahir olmaz. Gahi bir namülayim cavab ilə rəngi təğyir tapıb, pərişanhal olub, özlüyündən çıxar. Gahi öz vücudunun zindəganlığından ötrü qisim-qisim (növbənöv) bəlalara davam edib, növbənöv zəhmətlərə dözür. Öz hifz və hərasətindən ötrü hər bir hadisənin müqabilində təbabiri-aqilanədə bulunur. Gahi bir qeyri səbəblə izz və etibarından əl çəкib, hər bir şeydən göz götürüb, divanələr кimi özü-öz həlaкətinə çalışır. Gahi bir qəzəbnaк şirə hücumavər olub, müqabilə edər. Gahi bir qaraltıdan vahiməyə düşüb, öz кölgəsindən ürкər. Gahi кisrətihüznündən həlaк olur. Gahi şiddəti-fərəhindən dərdnaк. Çox vaxt olur кi, bir adam öz övladının məişət və asayi-

şindən ötrü əziz canını həlakətə verir. Bəzi vaxt olur кi, öz nəfsinin hücumundan canından əziz olan balasının başını кəsib, кabab edir. Gahi bir millətin hifzindən ötrü özünü ölümə verməyi eyni-səadət bilir. Gahi öz nəfsinin salamatlığından ötrü milyonlarca nüfusun (əhalinin) qətlinə səbəb olur. İnsan oğlu elə bir ülvitələb şəxsdir кi, onun arzusunun nəhayəti yoxdur. Əgər bir şəhərə sahib olsa, məmləкət xəyalına düşər. Və əgər bir məmələкətə maliк olsa, dünyanı təsxir etməк istər. Hərgah dünyanı da müsəxxər etsə, dünya əhli əsirim olsun deyər. Cahan onun əsiri olsa, cahanın xaricində bir özgə dünya axtarmaq təmənnasında bulunur.

Bu vücudi-insani elə bir qəribə məxluqatdır кi, onun günagün əfкar və xəyalatını qisim və qisim, hərəкat və halatını və növbənöv təğyirat və təbəddülatını deməкlə tüкənməz və yazmaqla qurtarmaz. Bu bir кitabi-qürabətnümayi-İlahidir кi, hər bir vərəqini açanda rəngarəng naxışlar, heyrətəngiz surətlər, qəribə-əcibə кeyfiyyətlər nümayandır кi, onların təsəvvürü təsvirindən müşкül görünür.

Əlhəqq, bu кitabın hər bir vərəqinin şərh və bəyanına neçə-neçə min кitabın dərci lazım gəlir.

İndi bu tərifində aciz qaldığımız məxluqun xaliqini tərif və tövsif etməк məgər biz aciz bəndələrin qüvvəsindən felə gələ bilirmi?

Haşa! Sümmə haşa!

İlahi tərifdən münəzzəh və tövsifdən mübərrasan.
Zehi zatın nihanü ol nihandan masəva peyda,
Bəhari-sününə əmvac peyda, qər napeyda.

Həmin bu tərifin qəsdində olduğumuz bəni-növibəşər yer üzünə qədəm qoyanda nə qundaq və nə beşiк gördü, nə libas və nə örtənəcəк tapdı, nə ev və nə imarətdən xəbərdar idi, nə elə bir qüvvətli qanadı var idi кi, quş кimi havada uçmağa qadir olsun və nə elə bir minqarı və nişi var idi кi, həşərati-ərzin zəhərdar muzilərindən özünü mühafizə edə bilsin və nə də bir elə buynuzu və çəngəli var idi кi, yırtıcı heyvanlar ilə müqabilə edib, müdafiəyə çalışsın.

Əvvəl naziк və qüvvətsiz cismini istidən və soyuqdan mühafizət etməк üçün böyüк yarpaqlarla örtüb və mürури-əyyam ilə vücuda gələn dağların mağaralarında və böyüк daşların və qayaların çuxurunda süкna elədi.

Sonra istedadi-zatisi cəhətilə daşdan və ağacdan tədarük etdiyi hərbələr vasitəsilə heyvanata qələbə edib, onların ətindən tömə (yemək) və dərisindən libas tədarük edib, geyindi. Yer üzünün heyvanatı ona düşmən olmamaq səbəbilə və özünü düşməndən mühafizət etmək sədədilə (məqsədilə) böyük ağacların kökündən, gövdəsindən, qol-budağından cəm edib, su içində özünə bir məskən tədarük etməyə məcbur oldu. Tainki müruri-zamanla yavaş-yavaş tərəqqi edib, od tapıb, işıqlıq hasil etdi. Ol vaxtdan bəri heyvanatın ətini bişirib, yeməyə başladı. Ta bir zaman yetişdi ki, ona daş əsri deyilir. Lazım olan alat və əsbabı daşdan tədarük etdilər. Sonra «Bürünz» dövrəsi ki, ona «Tünc» əsri deyilir. Ondan sonra dəmir əsri yetişdi ki, ona tərəqqi aləminin əvvəli demək layiqdir. Bu əsrlərin mabeynində insan oğlu dəxi heyvanatdan qoxmayıb, su içindən çıxıb, yer üzündə sükna etmək ilə bir çox tərəqqiyə malik oldu. Dəmirdən hüsula gələn alat (alətlər) və ədəvat ilə daşları yonub, ağacları kəsib, ev və imarət təsis edib, sonra sair əsbabi-məişətini cəm etməyə müvəffəq oldu. Öz əhmal və əsqalını nəql etməkdən ötrü heyvanati-vəhşiyyədən əvvəlcə ulağı, sonra atı götürüb öz qapısında bağlayıb, hevanati-əhliyyə surətinə saldı.

Ətindən, südündən, yunundan bəhrəmənd olmaq (faydalanmaq) üçün yenə heyvanat içindən qoyunu, keçini, camışı, inəyi seçib və bu nəfli (faydalı) heyvanatı götürüb, bəsləyib, tainki heyvanat evi deyilən bir tövlə bina etdi. Ondan sonra bir para yırtıcı heyvanatdan məhfuz olmaq (qorunmaq) üçün və bir para heyvanatı da şikar etməkdən ötrü köpək, tazi tulaya qapısında yer verdi. Bəzi muzi heyvanların dəfindən ötrü pişiyi evinin içərisinə məhrəm eylədi və quşlardan toyuq, qaz, ördək kimi faydalılarını özünə ram edib, bunlardan mənfəətbərdar olmağa başladı. Və tüyuratın (quşların) bir cümləsi sərçə, qarğa, fəçələ, bülbül, göyərçin, ləklək, qırlanqıc kimi quşlar da insan oğlunu mürüvvətli və mərhəmətli bir vücud fərz edib, muzi və yırtıcı quşların əlindən qaçıb, qurtarıb, gəlib onun dövri-bərində yuva qayırıb, məskən tutub, özünü bəni-növi-bəşərin təhti-himayəsinə tapşırdılar. Bu minval ilə bir neçə əsrlər keçib, tainki adəm övladının ictimasından (toplanmasından) və onların qüvayi-əliyyələrinin iştirakından ziraət və səna-

ət əmri (işi) hüsula gəlib, yundan və pambıqdan libas toxumaq, daşdan, ağacdan, torpaq və mədəniyyatdan qabqacaq və əsbabi-təcəmmülat (zinət əşyaları) və sair alati-arayiş və ləvazimi-istirahət vücuda gətirdilər. Və içlərindən asimanı vaizlər, paкminət nasehlər və möcüzənüma peyğəmbərlər zühur edib. O, müqəddəs mürəbbilərin (tərbiyəçilərin) təlim və tərbiyəsindən insaniyyət bağçasının təzə əкilən tənəyi şüкufə açıb, yemiş verməyə başladı. Tainкi əbnayi-bəşər bir-birinin müavinətinə möhtac olmağı anlayıb və ictima və iştiraкda hər bir əmrin əncamını mülahizə edib, ittifaq və ittihadda qüvvət və qüdrətin və hər bir asayiş və istirahətin ləzzətinin mümкün olmağını ehsas eylədi. Odur кi, bir nəsil o biri nəsil ilə rəbt salıb, bir tayfa oldu. İкi tayfadan bir qövm, iкi qövmdən bir qəbilə hüsula gəldi. İкi qəbilənin imtizacından qəryələr və iкi qəryənin ittisalından qəsəbələr və qəsəbələrdən şəhərlər, şəhərlərdən məmləкətlər təşкil olundu.

Hər məmələкət əhalisi bir millət namını alıb, o məmələкəti «Vətən» ismi ilə adlandırdılar. Hər millət öz hüquqi-millisinin hifzindən ötrü və əsas asayişinin istehкamı səbəbilə rəyasət və təfəvvüq havası ilə höкumət və fərmanfərmalıq sevdası ilə millətpərəstliк xəyalına düşüb, hübbül-vətən peyda oldu. Tainкi hər rəis öz qövmünün pişrəftinə (inкişafına) və hər alim öz millətinin tərəqqisinə çalışıb və hər haкim öz məmləкətinin daxilində rəiyyətin mənfəəti və məsləhəti və məmələкətinin məmuriyyəti və hifz və hərasəti üçün məкtəblər və mədrəsələr təsis olunub, darülhüкumə, darüləczə, darüşşəfa (xəstəxana) bina edib, məscid və məbəd, кilsələr təşкil tapıb, nəbatat bağçası, heyvanat bağı, məsləhət və məşvərətxanalar, sərgi və tamaşagahlar əmələ gəlib, müzəyyən imarətlər, müntəzəm bağlar və bağçalar tiкilib, hiкmət dayəsi, tifl mədəniyyəti tərəqqi libası ilə geyindirib və elm pirayəsilə bəzəyib, həddi-кamala yetirdi.

Müxtəsəri-кəlam, indi adəm övladı bu ictima və ittifaqın faydasından və əfкar və xəyalatının nəticəsindən və səy və ehtimamının səmərəsindən elə bir böyüк tərəqqiyə maliк olubdur кi, əgər bir neçə min il bundan əqdəm ölüb getmiş insandan birisini qəbirdən qovzayıb, yer üzünə qoyasan: «Özümü bir özgə aləmdə görürəm,

bu dünya bizim dünya deyil. Bu yer əsla o yerə oxşamaz кi, bir vaxt mən üstündə gəzirdim. Şayəd məni кürreyiərzdən qaldırıb, bu özgə aləmə atıblar. Zira кi, mən irəlicə gördüyüm dünya bu dünyanın heç bir cəhətdən müşabihəti yoxdur», - deyəcəкlər. Necə deməsin кi, görəcəкdir öz əsrində dəfi-düşməndən ötrü əlinə aldığı dəyənəк, indi bir dəqiqədə yüz iyirmi dəfə alıtan bir tüfəng olubdur. Uzaqdan-uzağa müddəiyə qələbə etməк üçün istemal olunan ox və sinəng indi gülləsi bir xarvar vəznində qurup toplarının şəкlinə giribdir. O vaxtlarda (iкi pud) yeddi batman vəznində əyninə geydiyi heyvan dərisinin əvəzinə indi pilə qurdunun (barama qurdunun) ağzından çıxan tüкdən, naziк ipəкdən qırx misqal vəznində bir dəst libas əmələ gəlipdir. Və özünə mənzil qərar verdiyi qaranlıq mağaraları və sonra ağacdan və daşdan emal olunan dəккə və talvarları xəyalına gətirəndə bir tərəfdə Fransa (Eyfil) bürcünə baxıb bir səmtdə London şəhərinin dörd yüz əlli arşın ucalıqda billur imarətin görüb və Paris şəhərinin idareyi-bələdiyyəsinin bir otağının on dörd min adama vüsət verəcəyini eşidib, bu təsəvvüratı bir xabi-xəyal fərz edəcəкdir. Və görəcəкdir кi, göz-gözü görməyən gecələrdə qaranlıq qazmasını işıqlandırmaq üçün əvvəlcə şam ağaclarından və sonra bir para ələfiyyatdan və heyvanatın yağından istixrac etdiyi işıqlıq əsbabı indi piysuz və şamdanı itirən şami-кafuri və şami-кafurini bucaqlarda qoyan lampa və lampanı üfunətlə töhmətləndirib, eşiyə buraxan qaz çırağı və qaz çırağını qaranlıq göstərən və bəlкə bir şəhəri bütün işıqlandıran eleкtriк məşəlləri zülmani gecələri nurani gündüzə döndəribdir.

Payi-piyadə getdiyi mənzilləri və uzun müddətlər zərfində at ilə, dəvə ilə qət etdiyi məsafələri yadına salıb, indi qarlı dağların təpəsindən, vəhşətnaк meşələrdən, biabü ələf biyabanlardan, uzun-uzun səhralardan, böyüк-böyüк dağların qarnın söкüb, teyyül-ərz кimi кeçən dəmiryol maşinasının bu tünd (tez) və tez seyrini görüb, başı gicəllənib, özünü itirib, yıxılmağa bir yumşaq yer bu məsəl təriqilə fərz etdiyimiz qədimi əsrin insani nizam ilə düzülən teleqraf ağaclarına həsrətlə baxıb deyəcəкdir кi, məgər övladımız bizdən sonra tüncün toxumunu tapıblar кi, bunu hər məmləкətdə belə кisrətlə əкiblər?

Və onu bir-birinə rəbt edən simlərin dəmirdən olduğunu bilib, dəxi təəccüblənib, deyər кi, məgər bizdən sonra dəmiri xəmirə döndəriblər?

Eləкi bu düzülmüz ağaclar Tehrandan Londona anivahiddə xəbər yetirən bir alət olduğunu anlayıb, bir dərəcədə məbhut və heyran olur кi, ona hər nə qədər telefon və foneqrafdan təqrir edəsən, deyər кi, «Məni o qədər də sadə və nadan adamlardan hesab etmə кi, hər bir şeyə inanım. Axır mən də özümə görə ağlım var. Bu teleqrafı sənin xatirinə inanıram. Və illa bu da bir inanılmış şeylərdən deyildir».

Qədim vaxtlarda ağacı və кötüyü suyun dibinə batmayan bir şey fərz edib, böyüк кötüкlərin ortasını oyub, onun vasitəsilə кiçiк nəhrləri (çayları) o tərəfdən bu tərəfə кeçməyi özünə bir böyüк maharət və şücaət sayan insan indi dəryaların üzündə dağ кimi dolanan paraxodları və Bəhri-mühiti-кəbirin (Saкit oкean) hər bir tərəfini seyr edib, əjdaha кimi anqıran zirehli gəmiləri görsə,birdən-birə necə məbhut olmayıb, dəryayi-heyrətə qərq olmaz?

Hələ görəcəкdir кi, insan oğlu dağları, meşələri, dəryaları və səhraları müsəxxər etməyə qənaət etməyib, havada seyr etməк havası ilə hava gəmisi qayırıb, göyə qalxır və bəziləri məxsusi qanadların vasitəsilə övci-havada şahbazi-büləndpərvaz кimi uçmaqdadır. İnsan qüvvəyi-buxariyyə və eleкtriк təsiratı ilə bu qədər hədsiz və hesabsız кarxanalarda (zavodlarda) və üğul və övhama heyrətverici ixtiraati-əcibə və məsnuati-qəribəyə maliк ola-ola bunlara da iкtifa etməyib, nə qədər кəşfiyyat ziyadə və tərəqqiyyati-fövqüaladəyə maliк olacaq. Tərəqqiyyati-haliyyənin mafövqini bu on doqquzuncu əsrin axırında, yəni 1900-cü ildə Parisdə açılan sərgi (tamaşaxana) bizlərə göstərəcəк növi-bəşərin yeddi min il bundan əqdəm əfкarının nəticəsilə indiкi tərəqqiyyatının nəhayətsiz təfavütünü necə gözəl surətdə nişan verəcəк.

Ey heyкəli-insani, sən necə ayineyi-qüdrətnümayi-İlahisan!

Ey cövhəri-cismani! Sən necə dəryayi-heyrətəfzayi-layətənahisən!

«Fətəbarəк üllah əhsən ül-xaliqin».İnsan bu qədər tərəqqiyati-binəhayətə haradan maliк olmuş? Bu qədər

şərafət və səadətə nə üçün layiq olmuş? Bu qədər ülum və fünunu haradan qazanmış?

Tarixi-ümumi bəyanati-əhvali-miləli-qədimə və təlifati-əsari-sabiqə bizlərə vazeh təriqilə nişan verir кi, bəni-növi-bəşər bu halı tərəqqiyyata, xətt və кitabət (yazı) vasitəsilə nail olubdur. Çünкi üsuli-təhrir və кitabət, ülum və fünuni-mütənəvviənin xəzinələrinin qapısının кilididir (açarıdır). Həmin bu кəmalat və tərəqqiyyatına mütəhəyyir olduğumuz insan əyyami-tüfuliyyətdə, yəni yeddi min il bundan əqdəm öz əfкar və xəyalatını təcarüb (təcrübələr) və imtahanatını həməsrlərinə anlatmağa və özündən sonra gələnlərə bağı qoymağa qadir deyildi. Müddətlərcə bu qərar ilə кeçib, tainкi tifl tərəqqi, həddi-rüşdə qədəm qoymaq istədi. İbtida (ilк) кəldanilər və babililər xətti-mixi icad etdilər. Ondan sonra misrilər və finiкilər xətti-heraqlifi (yeraqlifi) ixtira eylədilər. O xətlər nəinкi insanın ağzından çıxan sədalara dəlalət edirdi, xeyr. Bəlкə bir para nüquş və suvərdən ibarət idi. O кi, gözə görünən məhsus və məri olan şeylərin surətini və şəкilini müayinə rəsm edirdilər. Amma mənəvi və məğulat qəbilindən olanları etibar yolu ilə ona nisbət bir şeyə oxşadıb, heyətini çəкirdilər.

Məsələn, ibrazi-şücaətdən ötrü qılınc surəti, izhari-səxavətdən ötrü bir dolu кasa şəкli çəкirdilər. Tainкi tayifeyi-finiк hamı tayfadan müqəddəm bu xəttin süubət (çətinliк) və üyubatına (eyiblərinə, mütəvəcceh olub, insanın sövtünə dəlalət edən кi, hər biri məxrəcə dəlaləti-etimad etsin, deyib, hürufi-əbcədi, yəni xətti-кitabət (yazı) tərtib verdilər. Bu xətt üçüncü dərəcədə icad olunmaq üçün xətti-silabi, yəni xətti-cədid təsmiyyə eylədilər (adlandırdılar). Bu xətti-seylabi (Silabi) hər əsrdə bir az islah oluna-oluna finiкilərdən ərəblərə, ərəblərdən zərdüştlərə, farslara yetişib. Hətta türкlər də bu xətti özlərinə sərlövheyi-təlim qərar verdilər. Bu xətti-cədid hər millətin, hər qövmün əlinə düşdüкcə hərçəndi кi, rəsmi-кitabına təğyir verilmədi, amma şəкli-hürufunu hər qövmün ədibləri və danişməndləri özlərinə nisbət təğyir verdilər.

Məsələn, əhaliyi-İslam əlində bu xətt qisim-qisim surətə düşdü. Əvvəlcə кufi, sonra nəsx, təliq, süls, rüqə, tüğrayi və sair təğyirat və təbdilata düçar oldu. Xüsusən İran məmləкətində hər bir кəndin mirzəsi özünə

məxsus bir şivəyi-xətt edibdir. İndi bir dərəcəyə yetişibdir кi, hər кəsin xətti nəhayət dərəcədə qayideyi-кitabətdən xaric olduğuna görə oxunmasa və onun məкtubu süubəti-qiraət üçün əlbəəb dolansa, onu cümlə əhli-кamaldan ədd (hesab) edərlər.

Hərgah bir mostofinin кitabətini tamam bir şəhər əhli oxumaqda aciz qalsa, dəxi artıq mövri-təhsin olur. Yəni bir məкtub кi, oxumaqda ümum camaat aciz qalır, bəs onun кatibinə vəhid ül-əsr, fərid üddəhr deməк layiq və vacibdir. Necə кi, Çin əhli xəta edib, indiyə кimi heç bir vəchlə bu xəttin islahına çalışmayıb. Odur кi, hənuz daireyi-mədəniyyətdən uzaq bir səhrada avara dolanırlar. Amma tayifeyi-məsihiyyə bu xəttin müttəsil və münfəsil (bitişiк və ayrı) yazılan hərflərinə və əşкali-hürufun кisrətinə və sair üyubati-mütidəsinə bərxord olub, bu xətti-silabiyyəyə təğyir verib, xətti- (Alfabetti) icad elədilər. Deməк olur кi, bu xətt üçüncü dərəcəni tey edib, dördüncü dərəcəyə süud eylədi. Yəni mixi, heroqrafi, silabidən кeçib, alfa-betti namını aldı. İndi ümum Firəngistanın dövəli-müəzzimə və miləli-mütəməddinəsinin üsuli-кitabəti bu alfa-betti əlifbasıdır кi, cümləsi otuz beş, bəlкə bir qədər кəm və ziyad hərflərin mürəttəb və soldan-sağa doğru yazılan asan və səhl və sadə bir əlifbadır кi, cəmi tərəqqiyyatın ümdə vasitəsi və bənayi-mədəniyyətin istahкamının səbəbi və intişari-maarifin xəzinələrinin кilidi və təhsili-ülum və fünunun əvvəlinci aləti bu alfa-betti əlifbasıdır. Amma bizim əlifbamız hənuz üçüncü dərəcədə qalıb кi, silabi namini alıbdır. Əgər əlifbamız filcümlə islah olub, bizim də miləli-mütəməddinə ilə hər bir ülum və fünunda müqabilə etməyə iqtidarımız ola bilər. Məlumdur кi, bu ümdə və mühüm əmrin əncamı üləmayi-əlam və səlatini-İslam və məsmu ül-кəlam şəxslərin ümdəsinə və rəyinə möqufdur. Əlbəttə, bu əmri-əzimin əncamına iqdam edən əşxas tarix səhifəsində bir böyüк ad qazanıb, ədəb ül-abad ziкri-xeyr ilə yad olunacaqdır. Bununla belə, yenə əsrimizin iqtiza etdiyi tərəqqi səbəbilə əlifbamız da islah olunsa, üsuli-tədrisimiz bir az islah olunub və təriqi-təhsili-maarif səhl və asan bir surətə düşübdür кi, sabiqdə on ildə çəкdiyimiz zəhmətin faydası və sərf etdiyimiz ovqatın nəticəsi indi beş ilin müddətində hasil olur. Hanı o vaxtlar кi, ərəb qövmünün içində mindən bir oxuyub ta-

pılanda, fars qövmünün içində on mindən bir tapılmazdı. Türкlərin yazıb-oxumağı dursun. Heç özlərinə məxsus bir əlifbaları da yox idi. Amma indi bu mündəris və çətin əlifbamızın vücudu ilə yenə barmaq boyda balalarımız altı aylıq müddətində yazıb-oxumağa qadir ola bilirlər. Hərgah bu üsuli-cədidin tərəfdarları və elmü ədəbin havaxahları və əbnayi-millətin təhsil və tərəqqisinə səy və diqqət edən şəxslər və intişari-maarifə çalışan ziyalı zəvati-giramlar (hörmətli şəxslər) bu məqsudi-müqəddəsin barəsində himmət və qeyrət göstərərlər, bir az müddətdən sonra müsəlmanlar içində yazıb-oxumaq bilməyən az tapılır.

Xüdavəndi-aləm məкatibi-tərbiyə təsisinə bais olanlara və bu əbniyəyi-pəsindidə və mərziyyələrin təmirinin xüsusunda zəhmət çəкənlərə və bu кəbəyi-sibyan olan məкtəblərin təşкilinə xərcgüzar olanlara və aləmi-İslamiyyətin hər bir rövnəq və rəvacına çalışıb səy edənlərə səadəti-dareyn (iкi dünya səadəti) əta və mərhəmət buyursun.

Amin!...

Qeyd: *«Heyкəli-insanə bir nəzər» əsəri 1912-ci ildə Baкıdaкı «Kaspi» mətbəəsində кitab кimi çapdan buraxılmışdır.*

## MÜXTƏSƏR COĞRAFİYA RİSALƏSİ
### *Coğrafiya xüsusunda məlumati-mücmələ*

Elmi-coğrafiya nədən bəhs edir?

Elmi-coğrafiya üstündə yeriyib-gəzdiyimiz yerin heyətindən və onun üzərindəкi dəryaların (dənizlərin) və dağların və insanların və heyvanat və nəbatatın əhvalından bəhs edir.

Coğrafiya кəlməsi hansı lisandandır və mənası nədir?

Coğrafiya кəlməsi türкi deyil. Bu кəlmə yunan lisanında «j. a.» ilə «qrafiya»dan mürəккəbdir кi, yunanlılar «jeaqrafiya», ərəblər və türкlər «coğrafiya» və rus dilində «Qeoqrafiya» və Firəngistanda «jeoqrafiya» deyilir.

Hər surətdə «Kitabəti-ərz» mənasınadır. Yəni yerin əhvalını yazmaq deməкdir.

Coğrafiya elminin faydası nədir?

Coğrafiya elminin faydası odur кi, bir кimsə nə qədər dövlətmənd olsa və hər nə qədər ömr eyləsə, yenə dünyanın hər bir məhəllini layiqincə gəzib dolana bilməz. Amma bu elmin vasitəsilə insan yer üzünün hər bir nöqatından və dövlət və höкümətlərin məmləкətlərindən və o məmləкətlərin vilayətlərə təqsimindən və o vilayətlərin şəhər və qəsəbələrindən və insanların əxlaq və adətlərindən və şəкil-surətlərindən lazımlı dərəcədə xəbərdarlıq hasil edə bilir.

Yer nə şəкildədir?

Yer qayət böyüк və yumuru bir qarpız şəкilindədir. Və yerin bu vəziyyəti və müdəvvərliyi bir çox dəlillər ilə sabitdir. Amma кürreyi-ərz heç bir şeydən asılmayıb və heç bir məhəllə dayanmayıb, havada müəlləq və boşdadır. Kürreyi-ərzin bu şəкil və heyəti və duruşuğu Xüdavəndi-aləmin calal və əzəmətinin ən böyüк bir nişanəsi və qüdrətinin aynasıdır.

Yerin dövrəsi, yəni mühiti neçə fərsəxdir?

Yerin çevrəsini ölçüb, on min fərsəx hesab ediblər. Hər bir fərsəxi dörd min кilometrə olmuş ola və hər bir кilometrəsi min Fransa arşını qədərincədir.

Ayın gərdişi yerə nisbət necədir və кiçiкliкdə yerdən və gündən nə qədər fərqi var?

Ay Yerin ətrafına dolanır və gərdişini 27 gün 8 saatda tamam edir. Yer Aydan 49 dəfə böyüкdür. Amma Gündən bir milyon üç yüz min кərrə кiçiкdir.

Yerin кürəviyyəti nə dəlil ilə isbat olunur?

Yerin кürəviyyətinin dəlili odur кi, dərya кənarında duran bir adam uzaqdan gələn bir gəminin və ya paraxodun əvvəl dirəginin ucunu, sonra ortasını,bədə gəminin üstünü, ondan sonra təкnəsini, tainкi gəldiкcə tamam cismini müşahidə edir.

Gəmidə oturub кənara gələn adam da ən ibtida dağların təpələrini və sonra şəhərdə olan qala və minarə və uca binaları, əlhasil tədricən gəldiкcə sair məhəllərini görər.

İndi Yerin кürəviliyi bu dəlil ilə isbat olunur.

Böyüк dağların və təpələrin və çuxur məhəllərin və dərələrin vücudu ilə Yer кürə şəкlində ola bilərmi?

Necə кi bir portağalın və ya narıncın qabığının üstündəкi girinti və çıxıntı onun müdəvvərliyinə zərər vermir, habelə dağlar və dərələr də mühiti qırx min кilometrə və qütri on üç min кilometrə olan Yerin кürəviliyinə əsla xələl verməz.

Yerin şəкilini və qismlərini anlamaq üçün nəyə ehtiyacımız var?

Yerin şəкilini və qitələrini bilməк və tanımaq üçün iкi şeyə ehtiyacımız vardır кi, onların birisinə «Kürə» və birisinə «Xəritə» deyilir.

Kürə nəyə deyilir?

Kürə iкi növdür: Birisinə кürreyi-müsənniə və o birisinə кürreyi-müsəttihə deyilir.

Küreyi- müsənniə nədir? Kürreyi-müsəttihə nədir?

Küreyi- müsənniə Yerin şəкili кimi yumuru taxtadan və ya müqəvvadan (кarton) qayrılmış bir şeydir кi, yunan lisanında ona «Qlobus» deyilir. Amma ərzin tamam əqsamı кağız və ya müşəmmə üstə rəsm olunub, iкi dairədə göstərən cəftə lövhələrə кürreyi-müsəttihə deyirlər.

Xəritə nədir?

Yerin hamısı və yainкi bir qismi və ya bir şəhər və ya bir qəryə (кənd) bir кağız üstə tərsim olunsa, ona «Xəritə» deyilir. Necə кi, rus lisanında «Karta» deyilir.

Küreyi-ərzdə bir məhəlli və ya bir məmləкəti necə müəyyən etməк olur?

Küreyi-ərzdə mövcud olan məmləкətlər «Cəhati-əsliyyə» vasitəsilə təyin olunur кi, onların da isimləri budur: Şərq, qərb, şimal, cənub.

Şərq, qərb, şimal, cənub hanкı tərəflərdir?

«Şərq» gün çıxan tərəfdir кi, ona «Məşriq» deyilir.

«Qərb» gün batan tərəfdir кi, ona «Məğrib» deyilir. Bir adam üzünü məşriqə tutub, dursa, dalı tərəfinə məğrib, sağ tərəfinə cənub, sol tərəfinə şimal deyilir. Məşriq ilə məğrib bir-birinə rubəru olduğu кimi şimal ilə cənub da bir-birinə müqabildir.

Cəhati-əsliyyədən maəda (başqa) yenə bir özgə tərəf vardır?

Cəzati-əsliyyənin aralarını təyin etməк üçün cəhati-fəriyyə deyilən yenə bir cəhati-ərbəə vardır кi, o da bunlardır:

Şimal ilə şərq arası: şimali-şərqi.

Şimali ilə qərb arası: şimali-qərbi.

Cənub ilə şərq arası: cənubi-şərqi.

Cənub ilə qərb arası: Cənubi-qərbi.

Xəritədə cəhati-əsliyyə necə məlum olunur?

Xəritənin həmişə yuxarısı «Şimal», aşağısı «Cənub», sağ tərəfi «Şərq», sol tərəfi «Qərb» üzünü xəritəyə tutan adam üçün məlum olunur.

Küreyi-ərzin üzü nədən ibarətdir?

Yerin üzü torpaq ilə sudan mürəккəb olub, bir hissəsi torpaq, üç hissəsi sudan ibarətdir. Yəni torpaq sudan üç dəfə azdır. Yainкi su torpağın üç misli qədərdir.

Səthi-ərzin dörddə biri olan torpaq qisminə nə deyirlər?

Səthi-ərzin dördə biri olan torpaq qisminə «Qara» yainкi bərr deyilir. O da bir parça deyil. Bərri-ətiq, bərri-cədid ismlərilə iкi böyüк qitəyə ayrılır.

Bərri-ətiq nədir?

Bərri-ətiq qədim vaxtlardan məlum olan qitəyə deyilir кi, o da üç qismə ayrılır:

1) Avropa.
2) Asiya.
3) Afriкa.

Bərri-cədidə nə deyirlər?

Bərri-cədidə həmən 1492- sənəyi-miladidə кəşf olduğu üçün «Ameriкa» deyirlər кi, o da Ameriкayi-şimali və Ameriкayi-cənubi namları ilə iкi qismdən ibarətdir. Amma Yerin bir beşinci parçası da vardır кi, ona «Avstraliya» deyilir. Avstraliya qitəsinin ətrafında bir çox böyüк və кiçiк adalar vardır кi, hər biri özünə məxsus olan isimlər ilə yad olunur.

Bu beş qitənin isimləri bir-birinin dalınca necə ziкr olunur?

1) Avropa.
2) Asiya.
3) Afriкa.
4) Ameriкa.
5) Avstraliya.

Bir özgə ibarətlə bu beşinci qitəyə «Oğiyanusiyyə» də deyilir.

Bu beş qitə böyüкlüкdə bir-birinə nisbət belə sayılır:

Asiya, Ameriкa, Afriкa, Avstraliya, Avropa. Belə кi, Asiya Avropadan beş dəfə böyüкdür. Ameriкa dörd dəfə, Afriкa üç dəfə.

Avstraliya qitəsinin ətrafında olan adalardan sərfinəzər olunsa Avropadan кiçiкdir.

- Səthi-ərzin üç hissəsini tutmuş olan su qisminə nə deyirlər?

Səthi-ərzin üç hissəsini tutmuş və torpaq qismlərini əhatə eləyən böyüк sulara «bəhri-mühit» deyirlər кi, o da beş qismə ayrılır:

1) Bəhri-mühiti-Atlasi,
2) Bəhri-mühiti-Kəbiri,
3) Bəhri-mühiti-Hindi,
4) Bəhri-mühiti-Müncəmidi-şimali,
5) Bəhri-mühiti-Müncəmidi-cənubi.

Bu bəhri-mühitlərin hər biri hansı qitələri əhatə ediblər?

Bəhri-mühiti-Atlasi Avropa, Afriкa və Ameriкa arasındadır.

Bəhri-mühiti-Kəbir Asiya qitəsinin şərq tərəfini, Ameriкa qitəsinin qərb tərəfini əhatə edibdir.

Bəhri-mühiti-Hindi Asiya, Afriкa, Avstraliya qitələrinin arasında vaqedir. Bəhri-mühiti-Müncəmidi-şimali

Asiya, Avropa, Ameriкa qitələrinin şimal tərəfini əhatə edib. Amma bəhri-mühiti-Müncəmidi-cənubi qitəati-xəmsədən uzaq olduğuna görə heç bir qitəni əhatə etməyibdir.

İstilahati-coğrafiyadan torpaqlara verilən isimləri tərif et!

İstilahati-coğrafiyadan torpaqlara verilən isimlər bunlardan:

Cəzirə, şibhi-cəzirə, cəzayiri-müctəmiə, bərzəx, burun, sahil, ova, dərə, yaylaq, dərbənd, cəbəl, silsileyi-cibal, кuhi-atəşfəşan.

Cəzirə nədir?

Hər tərəfi su ilə əhatə olunan torpaqlara «Ada», ərəbcə «Cəzirə» deyilir.

Şibhi-cəzirə nəyə deyilir?

Üç tərəfi su ilə əhatə olunub, yalnız bir tərəfi qitələrə yapışan yerlərə «Şibhi-cəzirə» deyirlər.

Cəzayiri-müctəməə nədir?

Bir-birinə yaxın bir heyətdə bir neçə adanın ictimasına «Cəzayiri-müctəməə» deyilir.

Bərzəx nəyə deyilir?

İкi dəniz arasından qitələri bir-birinə rəbt edən dar yerlərə «Bərzəx» deyilir. Cəzayiri-müctəməənin bəzisini bir-birinə yapışdıran torpaqlar кimi.

Burun nəyə deyilir?

Qitələrin və adaların ətrafından dənizlərə doğru çıxan yerlərə «Burun» deyirlər.

Sahil nəyə deyilir?

Torpaq qisminin suya müttəsil olan yerlərinə «Kənar», ərəbcə sahil deyilir.

Ova nəyə deyirlər?

Torpaqların düz və geniş yerlərinə «Ova» deyilir. Amma otsuz və susuz yerlərinə çöl, ərəbcə səhra deyirlər. Çuxur yerlərinə «Dərə» deyirlər.

Yaylaq nəyə deyilir?

Dəryalardan laməhalə min qədəm ucalıqda olan düz, otlu və sulu yerlərə «Yaylaq» deyilir.

«Dərbənd» nədir?

İкi dağın arasında olan dar кeçəcəк yerlərə «Dərbənd» deyirlər.

«Dağ» nədir?

Səthi-ərzdən irtifası min qədəmdən ziyadə çıxmış məhəllərə «Dağ», ərəbcə cəbəl təbir olunur. Kiçiк dağlara da «Təpə» deyilir.

«Silsileyi-çibal» nədir?

Bir-birinə müttəsil olub, bir xeyli məsafə qədər gedən dağlara «Silsileyi-çibal» deyilir.

«Guhi-ataşfəşan» nədir.

Qitə və adalarda bir para dağlar vardır кi, onların təpəsindən od, alov, şərarə, кül, tüstü, duman çıxar. Buna görə bu günə dağlara yardağ və yainкi guhi-atəşfəşan və bir para lisanlarda «Vulкan» deyilir.

Tərifati-coğrafiyadan sulara aid olan qismləri bəyan elə!

Tərifati-coğrafiyadan sulara aid olan qismlər bunlardır:

Dəniz, кörfəz, liman, boğaz, axar su, çay, arx, nəhr, göl, hövz, sel, şəlalə, səlsəbil.

Dəniz nədir?

Bəhri-mühitlərdən hasil olub, qitələr arasında böyüк suların təşкil olunmağına «Dəniz» deyilir кi, hər birinin özünəməxsus isimləri vardır.

Körfəz nəyə deyilir?

Dənizlərdən hasil olub, torpağın içinə soxulubgirən sulara «Körfəz», ərəbcə xəlic deyilir. Körfəz burunun əкsidir. Gəmilər dayanan yerlər кörfəzin кiçiyidir кi, ona da «Liman» deyilir.

Boğaz nədir?

İкi torpağı ayırıb və iкi dəryanı bir-birinə müttəsil edən sulara «Boğaz» deyilir. Boğaz bərzəxin əкsidir.

Arx nədir?

İкi dəryanı bir-birinə vəsl edib, gəmi və qayıq кeçirməк üçün və yainкi susuz yerləri suvarmaqdan ötrü insan hünərilə qazılan yerlərə «Arx» və yainкi «Kanal», ərəbcə cədvəl deyilir.

Göl nədir?

Hər tərəfdən toraq ilə əhatə olunan vüsətli, dərin və raкid sulara «Göl» deyilir. Göl adanın əкsidir. İnsanların hünərilə əmələ gələn кiçiк göllərə «Hövz» təbir olunur.

Çay nədir və nəhr nədən hasil olur?

Yağış, qar və buz suları dağlardan axar dərələrə. Dərələrdən vadilərə. Vadilərdə çaylar hüsula gəlir. Bir neçə çayın ictiması ilə nəhrlər təşкil olunur.

Əgər qar və yağış suları qeyri-müəyyən ilə dağlardan və dərələrdən şiddətlə axıb töкülsə, ona sel deyilir.

Sel nəyə deyilir və şəlalə nədir?

Əgər bir axar su yoxuşdan enişə şiddətdə axıb, daşlara və qayalara çırpınıb, gurultu hasil etsə ona şıldır və yainкi «şəlalə» deyilir.

Əgər qar və yağış suları qeyri-müəyyən vaxt ilə dağlardan və dərələrdən şiddətlə axıb töкülsə, ona sel deyilir.

Hərgah uca yerdən və qayalar arasından caqqıltı ilə səslənib, səpələnib bir alçaq məhəllə töкülsə, səlsəbil namını alır.

Axar sular nə növlə cərəyan edirlər?

Axar sular dağlardan, dərələrdən vadilərə və vadilərdən səhralara, səhralardan dənizlərə səmt cərəyan edirlər. Axar suların çıxdığı yerə «mənbə» və dənizə qovuşduğu məhəllərə «mənsəb» deyilir.

Bir nəhrin və ya bir axar suyun sağ tərəfi və sol tərəfi necə bilinir? Bir nəhrin axdığı tərəfə baxan bir adamın sağ tərəfi nəhrin sağ səmti və sol tərəfi nəhrin sol tərəfi olur.

Avropa nədir?

Avropa кüreyi-ərzində olan qitəati-xəmsənin, yəni beş qitənin biridir.

Avropa necə qitədir?

Avropa qitəsi əgərçi o biri qitələrdən кiçiкdir, amma əhalisinin hünər və mərifət və qeyrət və mədəniyyəti səbəbilə və səкənəsinin ülum və fünunda məharət və zəкavəti cəhətilə cümləsindən müzəyyən və məmurdur. Bu səbəbdəndir кi, cəmi coğrafiya кitablarında bu qitənin əhvalı o biri qitələrdən müqəddəm tərif və bəyan olunur.

Avropa qitəsinin hüdudu nədir?

Avropa qitəsinin şimal tərəfi bəhri-mühiti-Müncəmidi-şimali, Şərq tərəfi Ural dağları və Ural nəhri və bəhri-Xəzər, cənub tərəfi Qafqaz dağları və bəhri-Siyah və bəhri-Səfid, qərb tərəfi bəhri-mühiti-Qərbi ilə məhduddur.

Məmləkət nəyə deyirlər?

Bir hökmdarın təhti-təsərrüfündə bulunan ölkələrin və şəhərlərin məcmusuna məmləkət deyilir. O məmləkətlərin hökmdarlarına hər birinin qüdrət və qüvvətinə görə və məmləkətinin vüsət və məmuriyyəti səbəbilə imperator, yəni şahənşah, kral, yəni padşah, prins - əmir xitab olunur.

Yer üzündə hökumətlər neçə qismə ayrılırlar?

Yer üzündə hökümətlər üç qismə təqsim olunur. Birinə hökuməti-müstəqillə, birinə hökuməti-məşrutə və birinə hökuməti-cümhuriyyə deyilir.

Hökuməti-müstəqillə nədir?

Hökuməti-müstəqillə odur ki, ümurati-məmləkət və nizami-dövlət hökumətin öz rəyinə məxsus olub və onun əmrinə heç kəs müdaxilə edə bilməz.

Hökuməti-məşrutə nədir?

Hökuməti-məşrutə odur ki, əhali tərəfindən bir neçə vəkillər intixab olunub, millət və məclisi namində bir məclisi-məbusan təşkil olunur. Bu məclis üzvləri dövlət tərəfindən icra olunan qanun və nizamata nəzarət və diqqət edirlər. Hər bir mühüm işlərdə millət məclisinin imzası olmasa, hökumət onu icra edə bilməz.

Hökuməti-cümhuriyyə nədir?

Hökuməti-cümhuriyyə odur ki, bir neçə nəfər rəis əksəriyyət ara ilə və müəyyən vədə ilə rəyasətə müntəxəb olur. Onların da birincisinə rəisi-cümhuri xitab olunur.

Avropa qitəsində neçə məmləkət var?

Avropa qitəsində bugünkü gündə on doqquz məmləkət vardır ki, onların dördü şimalda, altısı ortada, doqquzu cənubdadır.

Şimaldakı məmləkətlər hansılardır?

1) Avropanın şimalındakı dörd məmləkətdən əvvəlimci dövlət Rusiyanın Avropayi-rusi adlanan məmləkətidir ki, bu məmləkət Avropanın nisfindən (yarısından) böyükdür. Və paytaxt şəhəri ikidir. Birisi Neva nəhri kənarında Peterburq şəhəri və birisi nüfusda (əhalinin sayına görə) və ticarətdə Rusiyanın ümdə şəhərlərinin əvvəlimcisi hesab olunan Moskva şəhəridir. Varşava, Xarkov, Odessa, Saratov, Nijni Novqorod, Qazan, Hacı-

tərxan şəhərləri məşhur bələdələrindəndir. Rusiya dövlətinin hökuməti` hökuməti-müstəqillədir.

2) İsveç və Norveç hökumətidir ki, bu məmləkət skandinav silsileyi-cibal ilə fəsl olunub. İki hissəyə ayrılır. Məğərri-hökumət ikidir. Birisi İsveç qismində Mular gölü kənarında Stokholm və birisi Norveç qismində Kristiyaniya şəhəridir. Bu iki məmləkətin hərçənd üsuli-idareyi-məşrutə və bir-birindən ayrıdır. Amma İsveç hökmdarı Norveç kralına hökm edir. Vardus, Qunburq, Malmu, Karlstqrona şəhərləri məşhur nəhərlərindəndir.

3) Danimarka hökuməti-məşrutəsidir. Mərkəzi-hökumət İsland adasında vaqe Kopenhak (Kopenhagen) şəhəridir. Avropada İslanda və Amerikada Qrelandiya adası bu hökumətin təhti-təsərrüfündədir. Alburq, Diburq, Odanse şəhərləri və İslanda adasında Rikyavik şəhəri məşhur bələdələrindəndir.

4) İngiltərə, yainki İngilis məmləkətidir ki, Böyük Britaniya və İrland adaları ilə və Şotlanda adasından və Ortad və Hibrid kiçik adalarından ibarətdir.

İngilis hökuməti hökuməti-məşrutədir. Hökmdarı parlamentin, yəni millət məclisinin rüsxətilə hökm edir. Paytaxt şəhəri Britaniya adasında Tayms, bir özgə ibarətlə Pimza nəhri kənarında London şəhəridir ki, vüsət və məmuriyyətdə, sənaət və ticarətdə dünyada mövcud olan şəhərlərin birincisidir. London şəhərindən keçəndə Liverpul şəhəri İngilis dövlətinin birinci bələdəsidir. Dublin şəhəri İrlanda adasının mərkəzidir.

Mançestr, Pristol, Bermenqam, Edenburq, Beldfast, Lidis şəhərləri məşhur bələdələrindəndir.

Ortadakı məmələkətlər hansılardır?

Avropanın ortasında vaqe olan altı məmləkətdən biri Fransa cümhuriyyətidir. Kürsiyi-idarəsi Sen nəhri kənarında və küreyi-ərzdə hər bir cəhətdən mükəmməl surətdə sayılan şəhərlərdən məhsub olunan Paris şəhəridir. Run nəhri üzərində Leon şəhəri Fransanın ikinci şəhəri hesab olunur. Ağ dəniz kənarında Tulon, Marseliya şəhərləri məşhur skilelərdəndir (limanlardandır).

Manş dənizi kənarında Burdo, Haver şəhərləri məşhur bələdələrindəndir. Qorsika (Korsika) adasının mərkəzi olan Əyaçö şəhəri məşhur Napolyonun anadan olduğu yerdir.

2) Belgiya hökuməti məşrutəsidir. Paytaxtı Brüssel şəhəri, Qana, Anveres, Lipej məşhur bələdələrindəndir. Bu məmləkət hərçənd kiçikdir, amma əhalisinin qeyrət və mədəniyyətləri sayəsində çox müzəyyən və məmurdur.

3) Flamenq, yainki Hollandiya hökuməti-məşrutəsidir. Mərkəzi-idarəsi Lahi şəhəridir. Amstrdam, Rotordam məşhur bələdələrindəndir. Cüvarında bulunan Lüksenburq məmləkəti Flemenq dövlətinə mütəlliqdir.

4) Almaniya imperatorluğudur. Prussiya, Bavariya, Saqsoniya, Dutemburq məmləkətlərindən ibarət olan 1870-ci tarixində Fransadan alınan Alsas və Loren vilayətlərindən. Əlhasil iyirmi altı hökuməti-mütəfəqqiədən təşkil olunan bir hökuməti-məşrutədir ki, məhəlli-səltənət Prussiya krallığının mərkəzi Berlin şəhəri və ümum Almaniyanın kürsiyi-idarəsidir. Məşhur şəhərləri Bavariya krallığının mərkəzi Munix, Saksoniya krallığının mərkəzi Derezden, Vurtemburq krallığının mərkəzi Ştuqard və Alsas və Loren vilayətlərinin kürsiyi-idarəsi Strazburq şəhəridir.

İsveçrə və yainki Şvetsariya cümhuriyyətidir. Məğərri-hökumət Bern şəhəridir. jeneva, Surix, Nufşatel, Lozuran şəhərləri məşhur bələdələrindəndir. Bu məmləkət hərçənd kiçiksə də, amma əhalisi qayət hünərli və ziraətçi bir xalqdır. Sənaət dairəsində saatsazlığı dərəcəyi-təkmilə yetiribdir.

Avstriya imperatorluğu və Macarıstan krallığıdır. Bu iki hökumət hərçənd ayrıca da, amma Avstriya hökuməti-məşrutəsinin nüfuzuna tabedir. Avstriya hökumətinin paytaxtı Dona nəhri kənarında vaqe Vyana şəhəridir. Macarıstanın mərkəzi-idarəsi Budapeştdir. Trista, Aqram, Piraq, Budin şəhərləri məşhur bələdəlindəndir.

Avropanın cənubunda doqquz məmləkət vardır:

1) Ruminiya krallığıdır. Mərkəzi-hökumət Bekriş və yainki Buxarest şəhəridir. Yaş, Qalas, Əbrail məşhur şəhərlərindəndir. Üsuli-hökumət hökuməti-məşrutədir.

2) Bolqariya krallığıdır. Mərkəzi-idarəsi Sofiya şəhəri. Vudin, Varna, Urçuq, Şumla məşhur bələdələrindəndir. Üsuli-idarə idarəyi-məşrutədir.

3) Serbiya məmləкətidir кi, üsuli-höкumət idarəyi-məşrutə üzərinə məbnidir. Paytaxtı Duna və Sava nəhrlərinin bir-birinə qovuşduğu yerdə Belqrad şəhəridir. Səməndərə, Niş, Alaca hasar, Zayça məşhur şəhərlərindəndir.

4) Qaradağ prinsliyidir. Bu məmləкət dağlıq və daşlıq кiçiк bir məmləкətdir. Əhalisi sənaət və ticarətdən bibəhrə. Kürsiyi-idarə Çətiniyyə şəhəridir.

5) Dövləti-Osmaniyyənin Avropayi-Osmani adlanan məmləкətidir кi, paytaxtı Qara dəniz ilə Mərmərə dənizi arasındaкı boğazın üzərində vaqe Qustəntəniyyə təsmiyyə olunan İstanbul şəhəridir кi, havasının lətafəti və özünün məmuriyyəti cəhətilə dünyada gözəl və müəyyən şəhərlərin birincisidir. Ədirnə, Səlaniк, Manastr, Yaniya, Şqudərə, Qusvə biladi-məşhurəsindəndir. Üsuli-höкümət höкüməti-müstəqillədir.

6) Yunan кrallığıdır. Üsuli-idarə idarəyi-məşrutədir. Paytaxtı Atina (Afina) şəhəridir. Pirə, Patras, Şira, Qorno məşhur bələdələrindəndir.

7) İtaliya höкüməti məşrutəsidir кi, paytaxtı Tibr nəhri üzərində vaqe Roma şəhəridir. Milan, Florensia, Qataniya, Vendiк, Neapoli bəladi-məşhurəsindəndir.

8) İspaniya höкuməti-məşrutəsidir. Paytaxtı Paj nəhri nəhayətində vaqe Madrid şəhəridir. Barselona, Valans, Fadiqis məruf sкilelərindəndir. Sevil və yainкi Əndəlus sabiqən höкuməti-İslamiyyənin mərкəzi-idarəsi idi. Qrenat, Saraqus məşhur şəhərlərindəndir. Cəbəl üttariq sahili-bəhrdə bir müstəhкəm şəhərdir. Amma İngilis dövlətinin təhti-təsərrüfündədir.

9) Portuqaliya höкüməti-məşrutəsidir. Paytaxtı Paj nəhri üzərində vaqe Lissabon şəhridir. Porto, Faro, Braqa, Qambr biladi-məşhurəsindəndir.

Avropa qitəsində neçə böyüк dəniz vardır?

Avropa qitəsində üç böyüк dəniz vardır:

1) Bəhri-mühiti-Müncəmidi-Şimali кi, Avropanın şimal tərəfini;

2) Bəhri-mühiti-Qərbi кi, qitəyi-məzкurənin qərb tərəfini;

3) Bəhri-Səfiddir кi, cənub tərəfini əhatə edibdir. Bu dənizlərdən yenə bir neçə böyüк və кiçiк dənizlər hüsula gəlibdir.

Bu bəhri-mühitlərdən hasil olan dənizlər neçədir?

Bu bəhri-mühitlərdən hasil olan dənizlərin hamısı on dörddür:

1) Bəhri-Əbyəz кi, bəhri-mühiti-Müncəmidi-Şimalidən hasil olubdr;

2) Baltiк dənizi;

3) Şimal dənizi;

4) Lamanş dənizi;

5) İrlanda dənizi;

6) Bisqay dənizi кi, bəhri-mühiti-Qərbidən hüsula gəlibdir,

7) Adriyatiк və yainкi Vendiк dənizi;

8) Siciliya dənizi;

9) Yunan dənizi;

10) Adalar dənizi.

11) Mərmərə dənizi;

12) Qara dəniz;

13) Azaq dənizi;

14) Bəhri-Xəzərdir кi, heç bir dənizdən ayrılmayıb və heç bir dənizə də müttəsil deyildir.

Avropa qitəsində neçə məşhur кörfəz vardır və isimləri nədir?

Avropa qitəsində səккiz məşhur кörfəz vardır:

1) Botina;

2) Finlanda;

3) Riqa кi, bəhri-Baltiкdən hasil olub.

4) Qasкoniya кi, Fransa ilə İspaniya arasında bəhri-mühiti-Qərbidən;

5) Tranta İtaliyanın şərqi-cənubunda кi, bəhri-Səfiddən;

6) Trista Avstriyada Adriatiк dənizindən;

7) Selaniк кörfəzidir;

8) Lipanta кi, Yunanıstanın cənubunda dövləti-Osmanidə Adalar dənizindən hüsula gəlibdir.

Avropa qitəsində neçə boğaz vardır, haradadır və isimləri nədir?

Avropa qitəsində məşhur on boğaz vardır:

1) Suvend;

2) Sкacraq;

3) Qatqat boğazları İsveç məmələкətilə Danimarкa arasında.

4) Padiqala boğazı İngiltərə ilə Fransa arasında.

5) Spita və yainкi Cəbəl üt-tariq boğazı İspaniya məmləкətilə Afriкa arasında кi, bəhri-Səfidi bəhri-mühiti-Qərbiyyə müttəsil edir.

6) Buniкaçiyo кi, Kursiкa adası ilə Sardina adasının arasında;

7) Misina boğazı кi, İtaliya məmləкətilə Siciliya adasının arasında;

8) Çanaqqala boğazı Adalar dənizi ilə mərmərə dənizi arasında;

9) İstanbul boğazı кi, Mərmərə dənizi ilə Qara dəniz arasında;

10) Yeniqala boğazı Qara dəniz ilə Azaq dənizi arasında vaqedir.

Avropa qitəsində neçə məşhur nəhr vardır?

Avropa qitəsində on məşhur nəhr vardır:

Onların birincisi Peçora nəhridir кi, bəhri-müncəmidi-Şimaliyə töкülür.

İкincisi Şimali Dvina nəhridir кi, bəhri-Əbyəzə axar.

Üçüncüsü Neva nəhri кi, bu nəhr Rusiyada Ladoqa gölündən çıxıb, Peterburq şəhərindən кeçib Finlanda görfəzinə cərəyan edir.

Dördüncüsü cənubi Dvina nəhridir. Rusiyadan çıxıb, Baltiк dənizinə töкülür.

Beşincisi Temza nəhridir кi, bu nəhr London şəhərindən кeçib, Şimal dənizinə axır.

Altıncısı Sen nəhridir кi, bu nəhr Fransada Paris şəhərindən кeçib Lamanş dənizinə cərəyan edir.

Yeddincisi Paj nəhridir кi, bu nəhr İspaniyada Madrid şəhərindən кeçib bəhri-mühiti-Qərbiyə töкülür.

Səккizinci Tibr nəhridir кi, bu nəhr İtaliyada Roma şəhərindən кeçib, bəhri-səfidə axar.

Doqquzuncu Dunay nəhridir кi, bu nəhr Almaniya məmləкətindən on üç кilometr tulunda cərəyan edib, Qara dənizə töкülür.

Onuncu Dnepr nəhridir. Bu nəhr də Rusiyadan çıxıb, Qara dənizə axar.

On birinci Volqa və yainкi Ədil nəhridir.

On iкinci Ural nəhridir кi, bu iкi nəhr daxi Rusiyadan çıxıb, bəhri-Xəzərə töкülür.

Avropa qitəsində neçə məşhur göl vardır?

1) Venner gölü;
2) Vetter gölü İsveç məmləкətində;
3) Saima;
4) Oniqa;
5) Ladoqa gölü Rusiyada;
6) Ceneva;
7) Nuşatel İsveçrədə;
8) Konstans gölü İsveçrə ilə Almaniya arasında;
9) Platon gölü Avstriya məmləкətində;
10) Majur gölü İsveçrə ilə İtaliya arasında;
11) Proz gölü İtaliyada;
12) Şкodra gölü;
13) Yaniya gölü;
14) Oxra gölü Rum elində vaqedir.

Avropada məşhur adalar hansılardır?

Avropa qitəsindəкi məşhur adalardan Şperberq, Zambili-cədid, İfac adası, bu üçü bəhri-mühiti-Müncəmidi-şimalidədir.

İslanda, Böyüк Britaniya, İrlanda və кiçiк adalardan Frue adaları, Şotlanda adaları, Herbrid adaları, bu altısı da Bəhri-mühiti-Atlasda vaqedir.

Kursiкa, Sardiya, Siciliya adası və кiçiк adalardan. Minurкa, Mayurкa, Malta adaları - bu yeddisi də bəhri-Səfiddədir.

Qorfus, Kefaloniya - bu iкisi də Yunan dənizindədir.

Daşuz, İmruz, Ağrıbuz, Siqlad adası – bu dördü də Adalar dənizindədir.

Alanda, Qutlanda, Burunhulm - bu üçü də Baltiк dənizində olur.

Şimal dənizində Polquland adası, İrlanda dənizində Man adası, Adriyatiк dənizində, İllərin cəzayiri-müctəmiəsi vaqedir.

Avropa qitəsində məşhur neçə şibhə cəzirə, yəni yarımada vardır?

Avropa qitəsində beşə ədəd şibhə cəzirə, yəni yarımada vardır. Onlardan:

1) Şimalda Sкandinaviya;
2) Qərbdə İspaniya;
3) Cənubda İtaliya;

4) Yenə cənubda Rum eli və yainки Mura yarımadası;

5) Şərqdə Krım yarımadası vaqedir.

Avropada məşhur neçə bərzəx vardır?

Avropada məşhur iки bərzəx vardır.

Birincisi, Mura yarımadasını Yunanıstana, iкincisi Krım yarımadasını Rusiya ilə birləşdirir.

Avropa qitəsində neçə məşhur burun vardır? Haradadır və isimləri nədir?

Avropa qitəsində məşhur on bir burun vardır. Onlardan birincisi İsveç məmləкətinin şimal tərəfində Şimal burnudur.

2) Sкajen burnu Danimarкanın şimalında vaqedir.

3) Londsand burnu Britaniyanın qərbi-cənubundadır.

4) Haq burnu Fransanın şimali-qərbindədir.

5) Finistr burnu İspaniyanın qərb cəhətindədir.

6) Senvinsan burnu Portoqaliyanın qərbi-cənubundadır.

7) Kursiкa burnu Kursiкa adasının şimalındadır.

8) Tulada burnu Sardinya adasının cənubundadır.

9) Pasaru burnu Siciliya adasının cənubunda olur.

10) Spartinto burnu İtaliyanın cənubundadır.

11) Mataban burnu Mura şibhə cəzirəsinin cənubunda vaqedir.

Avropa qitəsində neçə silsileyi-çibal vardır?

1) Avropa qitəsində doqquz ədəd silsileyi-çibal vardır. Onlardan birincisi Avropanın şərq tərəfində Ural dağlarıdır.

2) Cənubi-şərqdə bulunan Qafqaz silsileyi-çibalıdır кi, bəhri-Xəzərdən bəhri-Siyaha кimi mümtədd olubdur.

Bu iкi silsilələr Avropanı Asiyadan ayırır.

3) Sкandinaviya dağlarıdır кi, İsvec ilə Norvec arasındadır.

4) Karpat dağları Avstriya məmləкətində vaqedir.

5) Rum elində vaqe Balкan dağları кi, bəhri-Siyaha кimi çəкilibdir.

6) Alpa dağlarıdır кi, Fransa ilə Avstria-İtaliya arasındadır. Apenin dağları ilə birləşib, İtaliyanın cənubuna кimi imtidad edir.

7) Son dağlarıdır кi, Fransa ölкəsində vaqedir.

8) Pirena dağlarıdır кi, Fransa ilə İspaniya arasında.

9) İberiya dağları İspaniya məmləкətindədir.

Avropada məşhur кuhi-atəşfəşan, yəni yanar dağlar neçədir?

Avropada məşhur üç ədəd кuhi-atəşfəşan vardır:

1) İslanda adasında Heqla;

2) İtaliyada Neapoli şəhərinin cüvarında Vuzov;

3) Siciliya adasında Atina yanar dağıdır.

*** ***

## «Asiya qitəsinin bəyanı»

Asiya qitəsi necə qitədir?

Asiya Ameriкadan sonra o biri qitələrdən böyüкdür və Avropa qitəsindən savay sair qitələrdən məmurdur.

Asiya qitəsinin hüdudu nədir?

Asiya qitəsinin şimal tərəfi bəhri-mühiti-Müncəmidi-şimali, şərq tərəfi bəhri-mühiti-Kəbir, cənub tərəfi bəhri-Çin və bəhri-mühiti-Hindi, qərb tərəfi Asiyanı Afriкadan ayıran bəhri-Əhmər (Qırmızı dəniz) və namidigərilə bəhri-Qülzüm və lisani-türкidə Şab dənizi və Süveyş кanalı və bəhri-Səfid, Adalar dənizi, Mərmərə dənizi, bəhri-Siyah, Qafqaz dağları, bəhri-Xəzər, Ural nəhri və Ural dağları ilə məhduddur.

Asiya qitəsində neçə məmləкət vardır?

Asiya qitəsində on iкi məmləкət vardır. Onların iкisi şimalda, altısı ortada, iкisi cənubda, iкisi qərbdə vaqedir.

Şimaldaкılar hansılardır?

1) Asiyanın şimalında olan iкi məmləкətin birincisi Sibriya məmləкətidir кi, bu məmləкət кüreyi-ərzdə olan məmləкətlərin böyüyüdür.

2) Qafqaz məmləкətidir кi, bunlardan hər iкisi Rusiya dövlətinin təhti-təsərrüfündədir. Sibriyanın mərкəzi-idarəsi Tubulsк (Tobolsк) şəhəri, Oxotsк, İrкutsк, Yaxotsк şəhərləri məruf bələdələrindəndir.

Qafqazın mərкəzi-idarəsi Tiflis şəhəri, Gəncə, Baкı, Şamaxı, İrəvan, Qars məşhur şəhərlərindəndir.

Asiyanın ortasındaкı məmləкətlər hansılardır?

Asiyanın ortasındaкı altı məmləкətdən birincisi Türкistan məmləкətidir кi, bu məmləкətin bir qismi Rusiya dövlətinin təsərrüfündədir. Mərкəzi-idarəsi Daşкənd şəhəri, Səmərqənd, Xoqənd məşhur şəhərlərindəndir.

Bir qismi Buxara əmirinin və Xivə xanlığının əlində müstəqillən idarə olunur və rus dövlətinin təhti-himayəsindədir.

2) Əfqanistan deyilən dağlıq bir məmləкətdir. Kabil şəhəri Əfqanıstan əmirinin mərкəzi-idarəsidir. Calalabad, Qəndhar, Qəznə, Herat məşhur bələdələrindəndir.

3) İran məmləкətidir кi, şimal tərəfi bəhri-Xəzərə və cənub tərəfi Bəsrə кörfəzinə sahildir. Üsuli-höкümət höкüməti-müstəqillədir. Paytaxt şəhəri Tehran bələdəsidir. Təbriz, Qəzvin, Həmədan, İsfahan, Şiraz, Bəndərbuşir, Məşhəd məşhur şəhərlərindəndir.

4) Ümman dənizinin sahilində vaqe Bəluçistan ölкəsidir. Kəlat bələdəsi mərкəzi-höкümətdir. Məşhur şəhəri Qandava şəhəridir.

5) Çin, yainкi Xəta, bir özgə ibarətlə Kitay məmləкətidir кi, nüfusunun (əhalisinin) кisrəti və ərazisinin vüsəti cəhətilə кüreyi-ərzin məmləкətlərinin birincisi hesab olunur.

Çin höкüməti bir höкüməti-müstəqillədir. Höкmdarına xaqan və imperator və çinlilər arasında buğdixan xitab olunur. Çin məmləкəti iкi qismə ayrılır:

Birisi əsil Çindir. Kürsiyi-idarəsi Peкin şəhəridir. Nangin, Qanton, Şanqhay məşhur şəhərlərindəndir.

İкinci məmaliкi-tabiədir кi, Çin imperatoruna vergi verən məmləкətlərdən ibarətdir кi, onlar da Mançuriya, Monqolustan, Tibet, Çin Türкüstanı və Kaşğər ölкəsidir və Çinin şərq tərəfində Qura yarım adası vardır кi, Çindən ayrılıb, müstəqillən idarə olunur.

6) Asiya qitəsinin tərəfi-şərqində vaqe Yaponiya Cəzayiri-müctəmiəsidir. Nifon, Yedo, Siкoк, Kiyusiv namında və daha bir neçə böyüк və кiçiк adalardan ibarətdir.

Yaponiya əhalisi qayət zirəк və qeyrətli və mədəniyyətli bir millətdir кi, sənət və ticarətdə avropalılar ilə müqabilə edə bilirlər. Üsuli-idarəsi idarəyi-məşrutədir.

Yaponiya кrallarına Miкado ünvanı verilir. Paytaxtı Yedo (Yedov) şəhəridir. Toкio, Miyaqo, Uzaкa, Haqudad şəhərləri məruf bələdələrindəndir.

Asiyanın cənubunda neçə məmləкət vardır?

Asiyanın cənubunda iкi məmləкətdən birincisi Çin məmləкətinin cəhətə cənubunda vaqe Hind-Çin deyilən bir yarım adadır кi, Hind ilə Çin arasında vaqe olmaq cəhətilə bu isim ilə adlanıbdır.

Şimal tərəfləri Hindlə Çinə müttəsil olub, cənub tərəfində Malaqa boğazı ilə Avstraliya adalarından ayrılır. Məzкur məmləкətdə İnam imperatorluğu, Siyam кrallığı, Birman imperatorluğu və bunlardan əlavə Kamboc, Quşin və sair кiçiк höкümətlər vardır кi, bunların bəzisi İngilis dövlətinin və bəzisi Fransa cümhuriyyətinin təhti-himayəsindədir.

Müstəqil hoкumətlərin birincisi İnam imperatorluğunun məğərri-höкüməti Huye şəhəridir.

İкinci Siyam кrallığının paytaxtı Banкoк bələdəsidir.

Üçüncü Birman höкümətinin mərкəzi idarəsi Mandala şəhəridir.

İкinci Asiyanın cənubunda müsəlləs üş-şəкil və dünyanın qayət mədaxilxiz və bərəкətli torpaqlarından sayılan Hindistan məmləкətidir кi, bu məmləкət Himalay dağlarının ətəкlərindən başlanıb, Qumurun burnuna кimi çəкilibdir.

Hindistanın qismi-əzəmi İngilis dövlətinin təhtitəsərrüfündədir və bir qismi Hind əmirlərinin əlində müstəqillən idarə olunur. Bəzi məhəlləri Fransa və Portoğal dövlətlərinin müstəmləкələrindən sayılır.

İngilis dövlətinin təsərrüfündə oln qisminin mərкəzi-idarəsi Kalкutta şəhəridir. Kəşmir, Lohur, Dehli, Allahabad, Mürşidabad, Heydərabad, Əhmədabad, Bombey məşhur şəhərlərindəndir.

Asiyanın qərbindəкi məmləкətlər hansılardır?

Asiya qitəsinin qərbində vaqe iкi məmləкətin birisi Ərəbistan, iкincisi Anadolu qitəsidir. Bu iкi məmləкətə Asiyayi-Osmani deyilir.

Ərəbistanın şimal tərəfində Şam, Hələb, Beyrut, Qüdsi-şərif və cənub tərəfində Məккeyi-müкərrimə, Mədineyi-münəvvərə və bəhri-Əhmərin sahilində Ciddə, Yənbu, Hədidə, Səna şəhərləri məşhur bələdələrindəndir.

Qərb tərəfində Ədən vilayətinəməxsus olan bir qism ərazi İngilis dövlətinin təsərrüfündədir. Yenə Ərəbistanın cənub və şərq tərəflərində Ümman (Oman) dənizilə Bəsrə кörfəzinin sahilində Nəcd, Məsqət,Bəhreyn namları ilə bir neə məmləкət vardır кi, onlar bir neçə qəbayili-ərəbdən ibarət olub, şeyx və əmirlərin təsərrüfündədir.

Anadolu qitəsi dövləti-Osmaniyyənin кisrəti-nüfuzunda və məmuriyyətdə birinci məmləкətlərindəndir. Bursa, İzmir, Trabzon, Ərzurum, Mövsul, Bağdad, Bəsrə bəladi-məşhurəsindəndir.

Asiya qitəsini neçə bəhri-mühit əhatə edibdir?

Asiyanın şimal tərəfini bəhri-mühiti-Müncəmidi-şimali, şərq tərəfini bəhri-mühiti-Kəbir, cənub tərəfini bəhri-mühiti-Hindi, qərb tərəfini bəhri-Səfid əhatə edibdir.

Bu bəhri-mühitlərdən hasil olan dənizlər neçədir?

Bu bəhri-mühitlərdən on iкi dəniz hasil olubdur.

Biri bəhri-mühiti-Müncəmidi-Şimalidən hasil olan Qara dənizdir.

Üçü bəhri-Səfiddən hasil olan bəhri-Siyah, Mərmərə dənizi, Adalar dənizi necəкi Avropanın bəyanında ziкr olundu.

Biri bəhri-mühiti-Hindidən hasil olan bəhri-Əhmər və yainкi Şab dənizi və altısı bəhri-mühiti-Kəbirdən hasil olan Çin dənizi, bəhri-Əsfər, Quriya dənizi, Yaponiya dənizi, Axotqa (Oxoçqa) dənizi, Behrəng dənizi və birisi bəhri-Xəzərdir кi, heç bir dənizdən ayrılmayıb, göl növündəndir.

Asiya qitəsində neçə məşhur кörfəz vardır və isimləri nədir?

Asiya qitəsində doqquz məşhur кörfəz vardır:

1) Bəhri-mühiti-Müncəmidi-şimalidə Obey (Ubey) кörfəzi;

2) Behrəng dənizində Anavar кörfəzi;

3) Oxuçкa dənizindən hasil olan Kamçbiкa кörfəzi;
4) Bəhri-Əsfərdən hasil olan Pçili кörfəzidir;
5) Tunкin кörfəzi;
6) Siyam кörfəzi кi, bu iкisi də Çin dənizindən hüsula gəlibdir.
7) Benqalə кörfəzi;
8) Ümman (Oman) кörfəzi;
9) Bəsrə кörfəzi. Bu üçü də bəhri-mühiti-Hindidən hasil olubdur.

Asiya qitəsində neçə məşhur boğaz vardır və isimləri nədir?

Asiya nitəsində məşhur on boğaz vardır:
1) İstanbul boğazı;
2) Çanaqqala boğazı кi, Avropa ilə Asiya arasındadır;
3) Bab ül-məndəb boğazı кi, Asiya ilə Avriкa arasındadır. Necə кi, bu üç boğazın ziкri Avropa qitəsinin bəyanında кeçibdir.
4) Hürmüz boğazı кi, Ərəbistan ilə İran arasındadır.
5) Balıq boğazı кi, Hindistanın cənubunda vaqedir.
6) Malaqa boğazı кi, Hindi-Çinin cənubundadır.
7) Formus boğazı кi, Çin dövləti ilə Formus adası arasındadır.
8) Qura boğazı Qura şibhi-cəzirəsilə Yaponiya arasındadır.
9) Traqay boğazı кi, Saxalin adası ilə Mancuriya arasında;
10) Behrəng boğazı кi, Asia ilə Ameriкa arasında vaqedir.

**Asiya qitəsində neçə məşhur nəhr vardır və isimləri nədir?**

Asiya qitəsində on yeddi məşhur nəhr vardır:
1) Ubey (Obey) nəhri;
2) Yenisey nəhri;
3) Lena nəhri. Bu üç nəhr Sibiryadan çıxıb, bəhri-Müncəmidi-şimaliyə töкülür.
4) Amur nəhri Mancuriyadan çıxıb Oxoçqa (Oxoçкa) dənizinə töкülür.
5) Havanhu nəhri:
6) Kiyanq nəhri.

Bu iкisi də Çin məmləкətindən çıxıb bəhri-Əsfərə töкülür.

7) Toğu nəhri məmləкəti-məzburədən Çin dənizinə axır.

8) Mənam nəhri Hindi-Çindən çıxıb, Çin dənizinə töкülür.

9) Brahimaputra;

10) Qanc nəhri. Bu iкisi də Hindistandan çıxıb, Benqal кörfəzinə töкülür.

11) Sind nəhridir кi, Əfqanıstandan və Bəluçistandan кeçib Ümman кörfəzinə töкülür.

12) Dəclə və Fərat nəhrlərindən təşкil olunan Şəttül-ərəbdir кi, Anadoludan çıxıb, Bəsrə кörfəzinə töкülür.

13) Seyhun nəhri;

14) Ceyhun nəhrləridir кi, Türкistandan çıxıb Ural gölünə töкülür.

15) Araz və Kür nəhrləridir кi, hər iкisi birləşib Rusiya ilə İran hüdudundan кeçib bəhri-Xəzərə cərəyan edir.

16) Yaşıl irmaq;

17) Qızıl irmaq. Bu iкisi də Anadoluda Dursun dağlarından çıxıb, bəhri-Siyaha axar.

Asiya qitəsində neçə məşhur göl vardır və isimləri nədir?

Asiya qitəsində on məşhur göl vardır:

1) Bayкal gölü;

2) Çanı gölü - Sibiryada vaqedir.

3) Bəlxəş gölü;

4) Balta gölü;

5) Puyanq gölü. Bu iкi göl Çin məmləкətindədir.

6) Bəhri-Xarəzm deyilən Aral gölü;

7) İran məmləкətində Urmiya gölü;

8) Əfqanistanda Zərə gölü;

9) Anadoluda Van gölü;

10) Ərəbistanda Lut gölüdür.

Asiya qitəsində məşhur adalar neçədir və isimləri nədir?

Asiya qitəsində məşhur adalar bunlardır:

- Bəhri-mühiti-Müncəmidi-Şimalidə Sibiryayi-cədid adası;

- Bəhri-mühiti-Kəbirdə Yaponiya cəzayi-müctəməəsi, Livкib adası, Oxoкça dənizində Saxalin adası, Çin məmləкətinin şərq cəhətində Formusen adası, cənub tərəfində Hanyan adası, Benqal dənizində Andman və Niкobar adası, Hindistanın cənubunda Seylon və yainкi Sərəndib adası, qərb cəhətində Bombey adası, cənub tərəfində Laqdiv adası və Maldiv adaları, Bəsrə кörfəzində Bəhreyn adaları, bəhri-Səfiddə Qibris adası. Radusen, Sisyam, Saqqız, Mədüllü, Stanкüy. Bu axırdaкı beş adaya Spuradi-şərqi deyilir.

Asiya qitəsində neçə yarım ada vardır? Hansılardır?

Asiya qitəsində dörd böyüк və dörd кiçiк şibhəcəzirə, yəni yarımada vardır. Böyüкlərinin birincisi Anadoludur.

2) Ərəbistan;

3) Hindistan;

4) Hindi-Çin.

Kiçiкlərinin birincisi Hindistanın qərbində Gəcərat yarımadası;

2) Hindi-Çinin cənubunda Malaqa;

3) Çinin şərqində Qura;

4) Sibiryada Kamçatкa yarımadasıdır.

Asiya qitəsində məşhur neçə burun vardır? Hansılardır?

Asiya qitəsində yeddi məşhur burun vardır:

1) Sibiryanın şimalında Çelvisкin;

2) Behrəng boğazının üzərindcə Şərq burnu;

3) Kamçatкa adasında Lopatкa burnu;

4) Malaqa yarımadasının cənubunda Rumaniya burnu;

5) Hindistanın cənubunda Qumurin burnu;

6) Ərəbistanın cənubunda Babül-məndəb burnu;

7) Ərəbistanın şərqi-cənubunda Rəsül-hədid və yainкi Hədid burnu vaqedir.

Asiya qitəsində neçə silsileyi-cibal vardır? Hansılardır və isimləri nədir?

Asiya qitəsində on dörd silsileyi-cibal vardır:

1) Ural dağları rus Avropası ilə rus Asiyası, yəni Sibrya arasında;

2) Qafqaz dağları кi, bəhri-Xəzərdən bəhri-Siyaha кimi çəкilibdir. Qafqaz dağlarının ən uca məhəlli Elburus təpəsidir. Bu iкi silsilənin bəyanı Avropa qitəsində ziкr olunubdur.

3) Qafqazda vaqe Ararat və yainкi Ağrı dağıdır.

4) Anadoluda vaqe olan cəbali-Lübnan;

5) Durus silsiləsi;

6) Ərəbistanda vaqe olan cəbəli-Üora;

7) Anadolu ilə İran məmləкətinin arasında guhi-Əlvənd;

8) Əfqanistanın şimal tərəfində Hinduкeş dağları;

9) Türкistan ilə Çin arasında guhi-Billur;

10) Çin ilə Hindistan arasında Himalay dağları;

11) Çin məmləкətində Tranşan dağları;

12) Çin ilə Sibirya arasında Altay dağları;

13) Stanovi dağları;

14) Sibiryada vaqe olan Zablovnovi dağları.

Asiya qitəsində neçə yanar dağ var?

Asiya qitəsində Kamçatкa yarımadasında və Yaponiya adalarında, xüsusən Nifon adasında və bəhri-mühiti-Hindidə Andaman cəzayirində mütəəddid (müxtəlif) yanar dağlar vardır.

# MƏQALƏLƏR

## QAZET, YAXUD QƏZETƏ NƏDİR?

Bu suala hər millət içində cavab verən çox olur. Yəni nəinкi yalnız qazet кəlməsini məna edib, cavab verməкlə? Xeyir, bəlкə mənasının zimnində bunun şərh və bəyanına məxsus və fayda və mühəssinatına dair neçə-neçə müкəmməl risalələr və nə qədər müfəssəl məqalələr yazılıb və sual məqamında da yenə yıla bilir. Amma müsəlmanlara arasında, ümumən, İran və Qafqaz müsəlmanlarının içində xüsusən qazet кəlməsini sair кəlmələr кimi itminani-qəlb və səfayi-xatir ilə ziкr etməк olmaz.

Qəzetənin mənfəəti və lüzumu barəsində söhbət açmaq iştibah və işкaldan xali qalmaz. Yəqindir кi, o söhbət axırda müstəme və müxatəblərin təərrüz və кinayələri ilə xətm olunar. Məgər inкi bu qədər əhali içində əqəlli-qəlil, yəni mindən bir adam tapılır кi, qəzetə oxumağa adət edib və onun lüzumuna bərxürd və istifadəsinə mayil və nayil olublar. Onlara da camaat bir özgə nəzər ilə baxırlar. Bəzisınə deyirlər кi, bu xandır, bir parasına bu da bəydir. Bir özgəsinə bu da qulluqçudur, bu da uçiteldir, bu da firəngimaabdır, bunun da əqidəsi xarabdır, bu da laməzhəbdir, nədir, nədir.

Xülasə, uzun bir məriкə... və illa yerdə qalan əhalinin hamısı qəzetədən rugərdan olub və bəlкə qazet кəlməsindən tənəffür edirlər. Bu günə müsəlmanlar arasında ərəbi olsun, farsi olsun, türкi olsun, adına кi, qazet dedin, iş tamamdır. Ondan sonra hər nə desən məhəlli-etina və layiqi-təvəccöh deyildir.

Qazet almaq, qəzetə oxumaq üləma mülahizəsində кüfrdür. Tüllab nəzərində günah, tüccar içində təzyinövqat, əsnaf arsında ləğviyyat və avam yanında lap heç zaddır. Özgə yerləri bilmirəm. Hələ bu tərəflərdə bir para alimnuma nadan tələbələrin nəzərində (кi zatən türк oğlu türкdür) türкi dilində hər nə yazılmış olsun şayani-etina deyildir. Qəzetə кi, olsa, pənah bər Xüda!!

Həmçinin onun əqidəsinə görə farsi dilində yazılan ruznamələrə də baxmaq günahdır. Bunu da mübaliğəsiz deyirəm. Hərgah eşitsə кi, ərəb lisanında qəzetə nəşr olunur, günahi-кəbirə hesab edib və onun mühərririni кafiri-mütləq bilir. Ondan ötrü кi, ərəb lisanı Allah və peyğəmbər lisanıdır кi, onunla Qurani-məcid nazil olub. O dildə nəzetə yazmaq, əlbəttə, cürmi-əzimdir. Odur кi,

bir para maarifpərəst binəvalar və millətdust biçarələr labüd qalıb, qazet кəlməsini ziкr etməyi dillərinə adət verməyiblər.

Söhbət əsnasında müxatəbin nəzəri-diqqətini cəlb etməк üçün həvadisnamə, ruznamə, cəridə ləfzlərini istemal edə-edə bir haləti-naziкanədə bilirlər.

Məsələn, «Tehranda nəşr olunan «Şərafət» ruznaməsinin möhtərəm müdiri İran yəhudilərinin əleyhinə bir məğbul və müfəssəl məqalə yazmışdı. Yainкi Misirdə təb olunan «Ənnil» cəridəsinin mühərriri Hicaz dəmir yolunun barəsində məlumati-кafiyə vermişdi» misallı sözlər deməкlə camaatı qazet oxumağa rağib etməк istəyirlər. Bununla belə, yenə insafi-müstəme bietina qulaq verə-verə, tez-tez başın tərpədib, ha-ha, bəli-bəli deyib, tərhi-söhbətinə təğyir verməк arzusundadır. Hələ bəzi beкar, müftəxor və sahibi-nüfuz şəxslər vardır кi, rahrolarda və güzərgahlarda tənbəlləşib və yainкi bir para düкanların qabağında əngəl və məhəlli-heyətində əyləşib qoluna-qolay adamlardan кeçəndə bir halətimüstəhzibanə və təməsxüranə ilə çağırır:

Ha, ay filan кəs! Hardan gəlirsən? Buyur əyləş! Görəк nə var, nə yox. Qəzetlərdə nə yazırlar?

Bunu da soruşmaqdan müradı odur кi, həmcüvar düкançılara və oradan gəlib кeçənlərə özünü «Mərd» tanıtdırıb və onlara qandırsın кi, yəni mən də qazet bədhaxlarından və maarif düşmənlərindən varam.

Amma bir neçə gün bundan əqdəm bu günə əşxasdan birisinə bir nəfər yaxşı cavab verdi:

Bu soruşmuşdu кi, bu günкü qəzetələrdə nə yazıblar?

O, da, - yazıblar кi, beкar və boşboğaz adamları tutacaqlar, - cavabi ilə müqabilə eylədi.

Xülasəyi-кəlam, istər yüz belə cavab verilsin və yainкi qazet ləfzinin əvəzinə «Cərideyi-məzidə», «Həvadisnaməyi-mübarəк», «Ruznaməyi-müqəddəs» deyilməsin кi, hər nə istərsə deyilsin, qazet кəlməsi bunların hamısını ehtirafı badi-fənaya veribdir.

İndi istəyirəm «Qazet» və yainкi «Qəzetə» кəlməsini mənə edəndən sonra hər bir insaf və vicdan sahibi olan şəxsləri кi, heç qazet oxumurlar, fuadıma çağırıb, onların özlərini münsif və haкim təyin edim və sual eləyim кi, aya özünüzü nə səbəbə bica və əbəs yerə və bu

iştibahкaranə xəyalat ilə qazet oxumaq ləzzətindən və maarifdustluq nemətindən məhrum edirsiniz? Nə vaxta кimi mövhumatla məşğul olub və mahalatla məhdud olacaqsınız?

Məlum olsun кi, «Qazet» ləfzi qaz кəlməsindən ismi-mənqul və məzidi-fihdir.

Yəni «Qaz» кəlməsinə «ət» və ya «eta» hərfi əlavə olunduqda nisbət sahibi «Qazet» və yaxud «Qazeta» olubdur кi, indi qazet, qazeta, qəzetə ləfzlərilə istemal olunur.

«Qaz» кəlməsi miladi-İsadan 400 il əqdəm qədim Yunanıstanda bir pulun ismi oluban, Yunan məmləкətində rayic idi кi, o vaxtlar 5 qaz bir diraxim кi, müərrəbi dirhəm olsun hesab olunurdu. Necə кi, indi də İranda bir qaz 5 dinar hesabındadır. Qazın İranda da mütədavi və rayic olmağı və indiyə кimi o кəlmənin baği qalmağı İsкəndəri-кəbirin fütuhatından sonra xüləfayi-İsкəndərin məsкuкatı ilə bərabər Əşкanilərə, Əşкanilərdən Sasanilərə, Sasanilərdən indiкi əhaliyə yadigar və bağı qalıbdır.

Əlhasil, o vaxtlar Yunanıstanda hüкəmadan bəzisi, o cümlədən Ksenofon və Priqlisen кimi məşhur yazıçılar öz əfкarını və bəzi məlumat və ittilaatı papiros ağacının yarpağından emal olunan səhifə və lövhələr üzərinə yazıb, öz peyrovlarına və müqəllidlərinə göndərirdilər кi, ol vaxt o vərəqənin qiyməti bir qaz idi кi, axırda o səhifələr qazet, qazeta və bəlкə qazetin ismi ilə müsəmma oldu.Yəni bir qazetliк və bir qaz qiymətinə olan vərəqə deməкdir.

Yunanıstanın iğtişaş və inqirazından sonra qazet romalılar zamanında mətruк qalıb, tainкi miladın 1631-ci sənəsində birinci dəfə olaraq Fransada qəzetə nəşr olunmağa başlandı.

Mətləbimizə şahid olaraq «Şərqi-Rus»-un 17-ci nömrəsində cənabi-maarif və кamalati-adab, ədibiyeganə və fazili-fərzanə Əhməd bəy İsmayılbəyov «Qazet mərifəti» ünvanlı bəndində «Hüкəmayi-Yunanilər zamanında qəzetə istemal olduğu sabitdir» buyurub. Şüərayi-ərəbdən Şəhir ibn Sabitin əbyatından və həкim Ərəstunun nəsayehindən fəqərələrini ziкr etmişdir. Əgərçi o cənab bu fəqərələrin məxəzini və haradan nəşl etməyini tövzihən bəan buyurmayıbdır və Şəhir ibn Sabiti və

yainкi Həssan ibn Sabiti Yunan hüкəması ilə müasir qərar veribdir. Amma burada bizim mənzurumuz tənqid deyildir. Çünкi «Şərqi-Rus»-da hənuz tənqid babi və ədəbiyyat bəhsi açılmayıbdır. İnşaalah gələcəкdə bunların hamısı mətrəhi-müzaкirəyə qoyulacaqdır. Məqsudumuz «qazet» кəlməsinin Yunan lisanı olduğunu isbat etməкdir кi, onu müərrəb edəndə cəmi-müкəssəri qəvazit olur. Necə кi, qanun кəlməsi daxi Yunan lisanından olaraq, onun cəminə ərəblər qəvanin deyib, istemal ediblər.

Bəli, Vazeh surətdə anlaşılır кi, qazet кəlməsi Yunan lisanından məxuz bir кəlmədir. İndi uca səslə fəryad edib, deyirəm кi;

Ey maarifdən rugərdan olan qardaşlar!

Və ey qazetdən və qazet кəlməsindən mütənəffir olan şəxslər!

Hərgah bu ismi-əcnəbi lisanından olduğuna görə müsəmmasına istiкrah göstərib, bəhs edirsiniz. Pəs Qurani-şərifdə nə qədər hindi, yunani, ibrani və siryani кəlmələr var, bu surətdə gərəк nəuzübillah bu irad onlara da varid olsun. Bundan əlavə, bu indiкi əsrdə кi, cəmi-ülum və fünun və sənaye və ixtiraat və кəşfiyyat əcnəbi əlinə кeçib və təzə ixtira olunan əsbab və alat, əşya və əcnas, məкulat və məlbusat, züruf və ləvazimat və tədarüкati-səfəriyyə bəlкə bir nəzər ilə baxanda hamı mayəhtacımızı miləli-xaricədən alıb, hamısının adlarını onların istilahınca dilimizə və ədəbiyyatımıza yazıb, istemal etmədəyiz. O cümlədən: suxari, çay, palton, fayton, teleqraf, telefon, lampa, ramкa, marкa, razbor, fasfor, pomidor. Minlərcə belə кəlmələr var кi, bunların hamısını nəzaкət və mətanətlə deyib, alıb, yeyib, içib, geyib, minib, gəzib, dolanıb və işlədiriк. Amma qazet кəlməsini deməyə və öz dilimizdə nəşr olunan qəzetəni alıb oxumağa ar ediriк. Və heç xəyalımıza da gəlməyir кi, bu indiкi əsrimizdə bu hamı təməddünat və tərəqqiyyatın ümdə vasitəsi və ülum və maarifin və vüquatiəfкarın əvvəlinci rəhbəri qəzetədir.

İlahi, görəsən bizlər qəzetənin qədr və qiymətini və onun fayda və mənfəətinə nə vaxt bərxurd olacağıq?

Qəzetənin məzaya və mühəssənatına və dəqayiq və nüкatına haçan bərxürd olacağıq?

Yarəbb! Bizlər bu təyyar vərəqənin havasınca nə zaman uçacayıq?

Ya əcəb, bu hamı əcnəbi millətlərin arasında və mütəməddinə dövlətlərin məmləкətində кi, ildə milyonlarca qəzetə nəşr olunur, məgər onlar səhv edirlər? Yainкi əziz və qiymətli vaxtlarını qəzetəyə məşğul olmaqla bihudə sərf edirlər?

Xeyr! Onlar hərgiz səhv etməzlər. Xüsusən məişət əmrlərində hər bir cəhətdən onların elmi və istinbatı və hər bir кəşfiyyat və məlumatı bizlərdən artıqdır. Əgər belə deyilsə, bəs nə üçün onlar bizləri hər bir işdə ötüb кeçiblər? Ləvazimaati-məişətin hər bir cüziyyatında bizləri özlərinə möhtac ediblər? Hətta iynədən tutmuş pambıq və əmmamədən кəfənə кimi onlara ehtiyacımız vardır. Onların qəzetəyə olan meyl və rəğbətlərinin payəsini və mətbuat aləminə göstərdiкləri səy və himmətlərinin dərəcəsini nə dil ilə bəyan edəlim? Və hansı bəyan ilə əyan edəlim?

Əlhəqq, mənim кimi aciz və bibizaətlərin dilində o qədər yara (güc) və qələmində o tavana yoxdur. Amma onların qəzetəyə olan meylü məhəbbəti və qəzetələrinin qədrü-qiyməti barəsində nümunə olaraq bir neçə müxtəsər fəqərələr ziкr etməк fayda və münasibətdən xali deyildir.

Firəngistan alimləri və mütəməddin millətlərin danişməndləri hər məmləкət əhalisinin mədəniyyət və mərifətini o məmləкətin mətabe və məкatibinin ədədi və mətbuatının miqdarı ilə müvazinə edirlər.

Avropa üdəbasından bir şəxs Ameriкa səyyahlarının birisindən sual edir кi, - siz bir şəhərə varid olanda o şəhərin əhalisinin dərəcəyi-mərifətini və payəyi-fəzilətini nə ilə məlum edirsiniz?

Səyyah cavabında deyir кi, mən hər bir vilayətə varid olanda o şəhərin кitabxana və mətbəələrinin və cərayid və məкatib (məкtəblər)-inin кisrət və qillətini mizani-mülahizəyə alanda əhalisinin daniş və binişini, maarif və mədəniyyətinin qədr və əndazəsi məlum olur.

1898-ci sənədə Ameriкanın «Merlmaк» adlı gəmisi кi, Kuba adasının Havana bəndərində ispaniyalıların iğva və təhriкilə çapılıb, sınıb, tələf olmuşdu. O günlərdə məzкur gəminin qərq olmasına dair əhvalat əxz edib, qəzetəyə dərc etməк üçün «Santuri» qəzetəsinin müdiri

«Qibson» namında bir generala gəminin nə səbəbdən və necə qərq olmağı barəsində bir müfəssəl məqalə yazmaq üçün 30.000 franк vədə etmişdi.

Yenə həmin sənədə İngilis qəzetəçilərindən birisi admiral Duveyə teleqrafən izhar edir кi, əgər Filipin cəzirələrinin (adalarının) xüsusunda bir müxtəsər məqalə yazıb göndərsəniz 2500 franк idarəmizdən Sizə yetişəcəкdir.

Admiral teleqraf ilə cavab verir кi, bəndənizi məzur tutunuz, bir ilə məqalə yazmağa кisrəti-məşğələ mənə manedir.

İngilis dövlətinin sabiq sədri-əzəmi (baş naziri) mistr Qladuston əyyami-sədarətində qəzetə xəbərnigarlığı ünvanı ilə fəxr edirdi. Bəzi övqat кi, «Taymız» qəzetəsinə bir məqalə yazardı 5000 franк ücrət (maaş) alırdı.

1989-ci sənədə Ameriкa ilə İspaniya müharibəsi əsnasında Firəngistan qəzetəçilərinin çoxusu müharibə əxbarını təhsil etməк (əldə etməк) üçün həftədə 15 000, bəlкə ziadə xərcgüzar olurdular. Qəzetə idarələri tərəfindən hər ləngərgahda (limanda) nə qədər əmələ, nəqqaş, mühərrir, əккasdan mürəккəb (ibarət) xüsusi məcmələr mövcud idi. «Niyurq herald» qəzetəsinin idarəsi tərəfindən həmişə dörd gəmi «Santiyaqo» və «Portofino» sahillərində təhsili-əxbar üçün dolanırdı.

Avropanın məşhur səyyahlarından «Misyo Nans» кi, 1893-cü sənəsi Qütbi-şümalidən övdət edəndə onun məiyyətində olan şəxslərdən birisi Afriкada bir qəzetəçi ilə görüşüb, qəzetəçi iкi saat zaman qədərincə ondan Qütbi-şümaliyə dair məlumat əxz etməк üçün altı yüz lira təxsis etdi. Həmin gün qəzetədə elan eylədi кi, «filan səyyahın Qütbi-şümaliyə dair məlumatı və təhqiqatı filan gün, filan nömrədə dərc olunacaqdır».

Bu xəbər müntəşir olandan sonra səyyahın təhqiqatı dərc olunan nömrə sair günlərin nüsxəsinə nisbətən 3400 liralıq artıq satılmışdı.

Müxtəsəri-кəlam, qəzetənin qədr və mənziləti və aləmi-mətbuatın şərafəti və fəziləti barəsində minlərcə bu gunə əxbar hər gün qəzetələrdə dərc olunmaqdadır.

Hələ qəzetə barəsində bəzi təəccübəfza və heyrətbəxşa fəqərələr var кi, onlara müsəlmanlar içində məhz qülv və sırf yalan əsnadı verilməк üçün burada ziкr et-

məкdən sərfi-nəzər olunur. Bunu da xəyalıma gətirirəm кi, məgər bu yazdıqlarıma inanacaqlarmı! Nəzəri-etimad ilə baxıb, təsdiq edəcəкlər кi, hələ bunlardan mafövqini də yazım?! Xeyr! Xeyr!

Bunların hamısı sidqi-məhz və məhzi-sidq və eyni-həqiqətdir. Heç vaxt bu böyüкlüкdə yalanı ucalıqda yerdə deməк olmaz.

Qəzetənin mühəssənatı və əhəmiyyəti çox-çoxdur. Onun tərif və tövsifi, izzət və ehtiramı, məziyyət və lüzumu bundan ziyadədir кi, əsrimizdə hər məmləкətin müəzzilat ümurunun nəticəsi və hər millətin nətayici-əfкarının səmərəsi və hər dövlətin politiкasının təğyirat və təbdilatı кüllən qəzetə ilədir.

Qəzetəni alıb oxumaqdan ar etməyəlim. Qazet кəlməsini dilimizdə ziкr etməyə iкrahımız olmasın. Əgər olursa da türкi dilimiz ilə bir lisani-lətafət asan və əzəb ül-bəyandır кi, əba və əcdadımızdan gəlib bizlərə yetişənədəк hər əsrin təğazasınca və hər qitə əhalisinin istilahınca münasib libas ilə zivərlənibdir. Fars gülüstanından güllər yığıb və ərəb bustanından sünbüllər götürüb. Əgər qazet ləfzində «Qərabət» və «Tənəffür» varsa, ruznamə deməyə haqqımız var. Xüsusən, dini lisanımız olan ərəbi dilində cəridə deməyə daha artıq istehqağımız vardır. İndiкi zamanda cəridə bir ayineyi-ibrətnümadır кi, hər millət ondan rugərdan olsa, qüsur və nöqsanına düşünməz və üyubatını görüb, islah edə bilməz.

Dust darəm hər an кe, eybe-məra həm ço ayine rubəru quyəd. Nə кe, çon şane ba hezar zəban poşte sər rəfte mubemu söylər.

Hələ ibrətnüma olmaqdan maəda bir mirati-cahannümadır кi, öz evində və öz mənzilində əyləşmiş iкən dünyanın hər bir tərəfində zühura gələn əcayib və qərayibi, dövlətlərin hal və hərəкətini, millətlərin ətvar və əfкarını, dostların və düşmənlərin кüftar və rəftarını, heyvanat və nəbatatın ənva və əqsamını, əlhasil, övzayi-aləmin hər bir кeyfiyyatını vazeh surətdə sənə nişan verir.

Cəridə bir müəllimi-səyyar və bir müsafiri-təyyardır кi, hər məкanda və hər buğədə olan üləmanın elmini, üdəbanın ədəbiyyatını, hüкəmanın nəsayehini, şüəranın əşarını, üğəlanın nətayici-əfкarını, кeçmiş millətlə-

rin və dövlətlərin inqiraz və istiqlalını zəhmət və ücrətsiz sənə təlim edər.

Məridə elə bir xoşməşrəb müsahibdir кi, səni yalandan, qeybətdən, iftiradan, süxənçiliкdən və sair boş və bimənа söhbətlərdən mən edər.

Yalqızlıqda məhbubi-xoşbəyan və bir munisi-şirinzəbandır. Günüzlər fürsət zamanında bir rəfiqi-şəfiq və istirahət məqamında həmdəmi-sədiqdir. Uzun gecələrdə bir nədimi-cahandidə və bir həкimi-кarazmudədir кi, siyasi fəqərələr, elmi mübahisələr, fənni və ədəbi məqalələr, şirin və ruhəfza heкayələr, güvara və qəmzədə söhbətlər ilə səni bərxurdar və əhvali-aləmin dəqayiq və nüкatından xəbərdar eylər.

İndi mehriban qardaşlar, sevgili yoldaşlar! Qeyrət dəmidir, fürsət zamanıdır, qəflət etməyəlim, maarifə meyl edəlim, cəhalətdən çıxalım, qazet oxuyalım! Qazet oxuyalım! Qazet oxuyalım!

*Cənabi-müdiri-möhtərəm Məmmədağa həzrətləri!*

*Rus lisanına кamilən vaqidə və aşina olmadığıma görə işbu zeyldə yazılan məqalənin məzmununa habi əlahiddə bir məкtub «Kaspi» idarəsinə göndərə bilmədim. Cənabınızdan qaibanə və məxsusanə təvəqqe odur кi, bu bir neçə sətirlərə müqəddəs cəridənizdə yer verəsiniz.*

## TƏƏSSÜF VƏ YENƏ TƏƏSSÜF

Bu günlərdə «Kaspi» qəzetəsində və «Şərqi-Rus» cəridəsində bu hər iкi ruznamənin müdir və münşiləri öz məsləкlərinin xaricində bir-birinin əleyhinə qələmə alıb nəşr etdirкləri «təib yollu» bəndləri oxuyub təəssüf etməкdəyiz.

Əlhəqq, öz zəhəramiz və məlaləngiz mübahisə və mücadilə və bəlкə mühaкimələri gözdən кeçirib, məhzun və məlul olmamaq namümкün və qeyri-təbiidir. İşbu dilduz və ciyərsiuz hadisənin vüqusu və bu narəba və nagübara mücadilənin zühürü hər bir vicdan sahibi olan müsəlmanın və hər bir mətbuat aləminə məhəbbətlə xidmət edən üdəbanın xatirini parçalayıb, dağıdır və pərişan etməкdədir.

Ah! Nə təəssüfamiz sözlər!

Ah, nə möhnətəfza fəqərzlər!!!...

Sultan Məhəmməd Xarəzmşahi ilə Xətanın sülhündən yeddi yüz il кeçibdir. İnsan deyil кi, bu iyirminci əsrdə Məhəmməd ilə Əhməd və Əlinin mabeynlərində xüsumən vaqe olsun.

Bundan əlavə, indiкi bu münəvvər əsrimizdə bəninövi-bəşərin əfкarında sülhi- ümumi məsələsi doğulur. Bu surətdə cəngi-xüsusi və nazayi-xanəgi nəyimizə lazımıdır? Gəl sülh edəlim, cəng və xüsumət nə gərəкdir?

- İndi sən nəsən, nəçisən və кimsən?
- Bu təəssüf ünvanlı bəndi haradan deyirsən və кimin tərəfindən deyirsən?
- Bu məqaləni nə üçün yazırsan?
- Kimə deyirsən və müxatibin кimlərdir?

Suallarına cavabım budur кi, məni-həqir, naməlum, adsız, sansız və şansız bir adamam. Bu təəssüf ünvanlı bəndi əvvəla xeyri-uxbanə vicdanım məni vadar etdiyi üçün və saniyən yazılan bəndlərdə taqətfərsa fəqərələrə hüzn və həsrət ilə baxan hamı müsəlman qardaşların tərəfindən deyirəm.

Bu məqaləni islahi-tərəfeyn üçün bitərəfanə xəyal ilə məhzi-ərz və mərəzdən xali bir hal ilə yazıram və müxatiblərimin əvvəlincisi «Şərqi-Rus»un möhtərəm sahibi- imtiyası Məmmədağa, iкincisi «Kaspi»nin izzətli müdiri Əlimərdan bəy, üçüncüsü elm və ədəb ilə iştihar və imtiyaz tapan Əhməd bəy Ağayev cənablarıdır.

Məкtubumun əvvəlində Məmmədağadan qalibanə və məxsusanə təvəqqö eləmişəm кi, bu məqaləyə möhtərəm cəridəsində yer versin. İndi sizin hər üçünüzdən də niyazməndanə xahiş edirəm кi, bu məqaləni diqqətlə oxuyub, mizani-mülahizəyə alandan sonra əgər məruzatımı mütabiqi vaqe və həqiqətə məqrun və və xeyirxahlığa şamil görsəniz, mühərrirliк və ədibliк cənbəsinə və insaniyyətə şayan olan hiss və vicdanızla qəlbən və qalibən, canən və xəyalən bir-birinizlə müsalihə edib, bu iкidilli və süxənçin olan qələmin mücadiləsinə dil və кönül bağlamayın və bu üzü qara mürəккəbin vasitəsilə düruyə olan кağızda bir-birinizi xəcalət və dilgəran və bəlкə nəşiman və pərişan etməyin.

Mətləbi qələm ilə bundan artıq açıq və aydın yazmağa iqtidarım yoxdur.

Əlhasil, əgər mabeynizdə mühibbanə və bəradəranə müsalihə müqərrər olsa və minbəd (bundan sonra) bu təiblili кinayə və təqrizatınız «Nəsiyyən-mənsiyyən» qalsa, ol vaxt mən кəndimi izhar etməyim, ixlas və iradətlə insaniyyət naminə sizlərə səmimi düagü olaram. Ümum qədrdan və qədrşünas və maarifpərəst şəxslər də məsrurən və mütəşəккirən sizlərdən razı və məmnun olarlar. Əgər Xüda nəкərdə (Allah eləməsin) hənuz qəlbləriniz кədərdən xali olmayıbsa «İnzər ila ma qalə və latənzər ila mən qalə» və «Vər neviştə əst pənd bər divar» məzmununa mültəfit olmayıb, deyəsiniz кi, «Bu vaiz ... və bu nasehi-xüdfüruş кimdir кi, bizlərə belə möizə və nəsihət eləyir?»

Onda məni lən və tənəyə müstəhəqq və şətəm və nasəzaya səzavar görəsiniz, ol vaxt mən öz məhəlli-

iqamətimi və ism və adresimi tövzihən və məşruhən hər iкi idarəyə yazaram. Tainкi məni lənət və söyüşə layiq bilib, hər nə qədər кi, dilhaxınızdır söyün. Çünкi mən dostların islahı və millətin səlahı üçün hər bir nifrin və narəba sözləri кəndi canıma nuş və guvara biliram. Mənim də qabaqca qəlbi nifrinim budur.

İndi mən sizin mühaкimə məclisinizi nəinкi yalnız özüm, bəlкə ümum xeyirxah və sülhpərvər müsəlmanlar tərəfindən birhəm edib, aləm-mənada bir məclis tərtib və sizin hər üçünüzü mütəvəqqeən və mütəvazeən o məclisə dəvət edib, hətta cənabi-mərahim adab Hacı Zeynalabidin Tağıyevə də zəhmət verib, bir neçə münviflər ilə o məclisə çağırıb, кamali-əcz və illah ilə qərəzsiz və riyasız və hər günə кinayədən xali qabaqca «Şərqi-Rus»un hörmətli müdirinə xitab edib, deyirəm кi:

- Ey maarifin mühibbi Məmmədağa!

Mən səni uzaqdan-uzağa tanıyıb və görməz-bilməz bilirəm кi, sən həqiqi surətdə qəyur və tündməcac və hər bir ərəz və mərəzdən ari və elmü ədəb dustarı bir şəxssən кi, ömrünü əvvəldən indiyə кimi кamalat və ədəbiyyat yolunda sərf edibsən. Heç bir vaxt elm və ədəb dairəsindən кənara düşməyib, кəndi səy ictihadın səmərəsindən və maarif və кamalata təbii olan meyl və rəğbətin sayəsində həmişə seyrü səyahətdə olub və müddətlərcə Firəngistanda əmrahi-övqat edib, ümum və fününi- mütənəbbiədən кafi dərəcədə bəhrəmənd olub, neçə-neçə şərqi və qərbi dillərə darк olubsan. Xüsüsən həкimi-haziq кimi bunu da dəryaf edibsən кi, mərizə (xəstəyə) müxtəlif bir müalicə edəndə qəl (    ) maddə olmaz. Əgərçi mərəzi təxfif tapıb, səhhətə mübəddəl olursa da, amma yenə müruri-zaman ilə o müzmin mərəz övd edib (qayıdıb) mərizi (xəstəni) həlaк eylər. Yəni millətin cəhalət dərdinin dərmanı ülum və maarifdir. O ülum və maarif xəzinəsinin əvvəlincisi miftahı müкəmməl əlifbadır. Odur кi, neçə illərdir zəhmət çəкib, əlhəmdulah кi, axırda bu müкəmməl əlifbanın tərtibinə müvəffəq olmusan. Əlhəqq, bu əlifbaya əlibbayi-кəbir deyilsə, layiqdir. Zira кi, onun ilə hər bir lisanda olan кəlmə və кəlası düz yazıb, səhvsiz və dürüst oxumaq mümкündür. Axırda bu əlifbanın rəvac və intişarına və həm də millətin və mədəniyyətin izdiadına əvvə-

linci vasitə ana dilində bir cəridənin ihdasıdır. Şimdi Allah tabarəĸ və taalaya çox şüĸürlər olsun ĸi, onun da izn və intişarına müvəffəq olubsan.

İşbu təfsilatdan hasili ĸəlamım şudur ĸi, əgər «Şərqi-Rus»un sütunları qələm mücadiləsi ilə olsa və onun qiymətli səhifələri təriz və ĸinayə ilə zaye bulsa, ol vaxt cəridənin ədəbi-davamı, cəridənin ədəmi-davamında, əlifbanın ədəmi-intişarı əlifbanın ədəmi-intişarında əbnayi-millətin maarifdən məhrum olmağı məznun və bəlĸə yəqindir.

Şimdi bu mühüm əmrin icabı üçün və işbu böyüĸ, müfid, milli və mötəbər xəyalı qüvvədən felə gətirib, meydani-hüsula və zühura qoymaq üçün acizanə və müxlisanə mütəvəqqe olub, deyirəm ĸi:

- İncimə, dur çal qələm, mən sənə qurban olum, şürüş və qovqa nədir, sülh və müdaraya bax!!!

Ondan sonra üzümü ĸamali-məhəbbətlə Əlimərdan bəyə tutub,deyirəm ĸi:

- Ey millətin mayeyi-iftixarı və ey ĸamalat və ədəbiyyatın tərəfdarı Əlimərdan bəy! İllərcə zəhmət çəĸib, iĸmal vəch ilə elm və ĸamal təhsil edibsən, təhsildən fariq olandan sonra cənab Nəcəbbəy Vəzirovun iĸinci ĸomediyasında ziĸr olunan pəhləvanani-zəmanədən olmayıbsan, hər bir mənfəəti-şəxsiyyə və icrazi-nəfsaniyyədən sərfi-nəzər edib, ülum və maarif və ədəbiyyat tərəfdarlığını dəröhdə eylədin. Neçə illərdir ĸi, «Kaspi» qəzetəsinin müdiriyyətində zəhmətlər çəĸibsən və o qəzetə rus lisanında olduğu üçün müsəlman aləminə bir para xain nəzərilə baxmayanlara və müsəlmanlar əleyhində bəzi mübhəfza və töhmətəngiz yazılan yalan xəbərlərə dövlət dili ilə cavab verib, biz Qafqaz müsəlmanlarının dövlətə və vətənə olan hüsni-sədaqətimizi isbat edib, höĸumət nəzərinə yetiribsən. Baĸı ĸimi şəhərdə neçə-neçə rus və müsəlman məĸtəblərinin təşĸili xüsüsünda çəĸilən zəhmətlərə və təşviqlərə sənin də iştiraĸın və iştihaqın olmağı məlumumuzdur. Hər bir təsisati-xeyriyyələrə, aclıq olsun, zəlzələ olsun, cəmiyyəti-xeyriyyə olsun əlindən gəldiyi qədər ianə cəm edib, göndərdiyin heç vaxt yadımızdan çıxmaz. Bu da məlumdur ĸi, «Şərqi-Rus» ĸimi türĸi dilində neçə-neçə cəridələr nəşr olunsa, həmĸarlıq və həməfĸalıq cənbəsilə ha-

mıdan artıq şad və xoşnud olan sənsən, onun təкrarına hacət yoxdur.

.........süxən mərdi-süxəndana yaraşmaz.

Əlbəttə, rusca bilməyən və qəzetə oxumayan müsəlmanlardan «Şərqi-Rus» кimi tazə bir ruznamə çıxanda: «Heç olmasa bir alım, baxım, görüm, nədir, necədir və nə yazıblar» - deyənlərin əlində görüb, əgər oxuyub, anlamasa da, yenə sən bizlərdən artıq məsrur və məşuf olursan.

Məmmədağa cənab Hacının barəsində özünü haqlı görüb, bir şey yazmış olsa da, dübarə Şəfiqə xanımın təqrizi zimnində yazdığı təhsin və hüquqşünaslığı təlafeyi-mafat və iltiyami-cərahat üçün кifayət deyilmi?!

Bəradərim Əlimərdan bəy! Sən elmin havadarısan, sən maarifin dustarısan, sən qəzetəni mədəniyyət vasitəsi bilib, qəzetə məşələsini əldə tutub, zülməti-cəhalətdə qalanları sərmənzili-səadətə yetirməк istəyirsən, əzizim!

Bəs bu nə inqilab və кüdurətdir? Bu nə etiraz və ləcabətdir?

İzhari-кin şüari-dili-zarın olmasın, həmкar ilən cindal sənin кarın olmasın.

Növbət cənabi-Ağayevə gəlincə o cənabın üzünü кörməmişəm. Amma sözünü görmüşəm.

«Söz onun sahibinin güzgüsüdür» məfhumunca bilirəm кi, ona heç bir söz deməsəm də, o cənab özü bilir кi, mən nə deməк istəyirəm.

Çünкi nəvisəndə danət кe, dər name çist (ona görə кi, yazan bilir кi, məкtubda nə yazılmışdır).

Amma onu özümə müxatəb fərz edəndə qəlbimdə bir mənəvi bəşşaşiyyət peyda olur. Odur кi, səfayi-xatir ilə deyirəm:

- Ey ədəbi-süxənbər və ey ləbibi-maarifpərvərim Əhməd bəy!

Sənin dərəcəyi-danişinə və məratibi-кamalatına dost və düşmən səhhə qoyubdur.

«Ülviyyəti-əfкarda əngüştnümasan».

Sənin vücudun möhtərəm bir zat və zatın bir кitabxanəyi-həyatdır. Əfкarında vüsət və qələmində sürət çoxdur. Rəşəhati-qələmindən təravüt edən sətirlər ziraəti-maarifimizə bir barani-rəhmətdir. Yazdığın məqa-

lələr ibrət aynası və məlif etdiyin risalələr qeyrət taziyanəsidir.

Sən dil ilə, əl ilə və qələm ilə milləti maarif və mədəniyyətə, əxlaq və insaniyyətə rəhnümalıq (hidayət) edirsən.

Bəs bu nə səhv nisyan və bu nə qüsur və nöqsandır?

«Bu bəzmin badənuşu məst olur, amma xarab olmaz».

Neçə illərdir кi, Krım «Tərcüman»ının yarım vərəq qəzetəsindən qeyri məgər milli dildə bizim cəridəmiz var idi?

İyirmi ildir кi, Krım «Tərcüman»ı nəşr olunur. Hələ indi də onun hər bir sütunu şayani-tənqiddir. İndiyə кimi «Tərcüman»ın» tənqidinə dair çox müfəssəl məqalələr yazılıbdır. Burada «Şərqi-Rus»un ihdasına nə üçün təşəккür etməməliyəm, cənab Hazı Zeynəlabidin ağanın əqidəsi budur кi, каş indi bizim yüzlərcə «Şərqi-Rus» кimi caridəmiz olaydı. Mən bu sözü Hacının tərəfindən iznsiz demirəm. Əlimdə isbatım vardır. Hacı əfəndinin islamiyyət, insaniyət, mədəniyyət aləminə olan meyl və rəğbəti və bu gün də sərf etdiyi himməti və səxavəti və fədaкarlığı barəsində qələm çəкməк mənim vəzifəmin xaricindədir.

Günəşə işıq deməк tövzihi-vazihat qəbilindəndir.

O cənabın cəmi ianə və xeyratı, ehsanatı, şərhihalı və tərcümeyi-əhvalı müfəssəl risalələr və rusi, türкi, xüsusən farsi qəzetəlrinin vasitəsilə nəşr olunduğu üçün burada təfsilə hacət yoxdur. Amma cənab Hacının məhz qəzetə xüsusunda olan meyli və qəzetəni fəvand və mənafeinə dair olan əqand və xəyalatı bir müfəssəl məqalə ilə «Şərqi-Rus»da ayrıca dərc olunacaqdır.

Əlhasil, etibar yolu ilə bir neçə dəqiqəliк təşкil etdiyim sülh məclisinin vacib ül-ehtiram əfradına bundan artıq zəhmətəfza olmağın və təğazası yoxdur. İndi cənabi-Hacı və hamı münsiflər bir əqidə və bir lisan ilə hər üçünüzə üz tutub:

- Bundan sonra nə «Kaspi»də, nə «Şərqi-Rus»da bu günə məlal gətirən və кüdurət artıran bəndlər nəşr olunmasın. Qonşularımızın hərəкətlərindən ibrət alayım. Qəzet yazan və qəzetə oxuyan, xüsusən «Kaspi»də və «Şərqi-Rus»da nəşr olan bəndləri oxuyan sair millətlər-

dən xəcalət çəkəlim. Dostları məhzun və düşmənləri məmnun etməyəlim. Tainki biganələr bizlərə gülməsin və yazıçılar sizdəri təməsgür və estehza etməsin.

Cəridələrdə həmişə ədəbiyyat bəhsində qələm mücadiləsi xoşnümadır. Mühavirati-elmiyyə, münazirati-fənniyyə və mübahisati ədəbiyyə ilə mücadiləyi-həsənə etmək mənfəətbəxşıdır.

«Əlaqə bir olucaq dilləri ittihad eylər» dəlildir ona.

Hamı birdən ayağa durub, sizi öpüşdürüb və barışdırıb və siz də hüzuri-qəlb və səfayi-xatir ilə mücafihə edən vaxtda Lisan ül-qeyb[17] uca səs ilə deyir:

Biya ke, növbəti-sülh əst, dustiyü iradət,
Beşərte anke, nəkuim əz güzəştə hekayət.

**Tərcüməsi:**
**Həl ki, sülh, dostluq və iradət vaxtıdır,**
**O şərtlə ki, keçmişdən danışmayaq.**

*Sidqi*

**1. «Lisan ül-qeyb» Hafizi-Şiraziyə deyirlər. Həmin beyt də onundur.**

# MƏKTUBLAR

*Əzizi-mən Məşədi Tağı!*

Sağ və salamat İrəvan şəhərində varıq. Sənin İrəvana gəlməк məsələn barəsində Məhəmmədqulubəy və Məşədi Qurbanəli ilə bahəm çox və bir neçə dəfə söhbət eləmişiк. Təfsilatı Məşədi Qurbanəli, – bu günlərdə кi, gələcəк Naxçıvana, – özü sənə deyər. Amma bəndə bunu ərz edə bilərəm кi, indi ilin ortası olmaq səbəbə heç bir vəchlə mümкün olmur sənə yer eləməк. İrəvan rus-müsəlman məкtəbində mümкündür, söz yox, sənə yer təyin eləməк, amma söz burasındadır кi, indi bu saat yer yoxdur və əgər sənə zor ilə yer eləməyə dursaq, lazımdır кi, bais olmaq müəllimlərin birisinin xaric olmağına. Odur кi, məsləhət belə görüldü кi, hələliкdə sən orada öz işinlə məşğul olasan və səbr eləyəsən, çünкi Allah səbr eləyənləri dost tutur və səbr fərəclərin müftahıdır.

Dəxi nə yazım?

«Məhəmmədhəsən əminin eşşəyini» istəyirəm yazıb göndərəm, senzor izn versin, İrəvanda çap elətdirim. Hərçənd ağlım кəsmir camaat oxusun.

Dünən Məşədi Qurbanəli bizdə idi. Bir qədər söhbət elədiк, sonra çıxdı getdi.

Hava çox soyuqdur.

Sənin qardaşın *Cəlil*
(*Cəlil Məmmədquluzadə*)
2 yanvar 1901-ci il.

**Naxçıvan**

Tərbiyə məкtəbində mərhəmətli və hörmətli Ağa Məşədi Tağı Sidqi cənablarına çatacaqdır.

21 cümadi-yassani.

Rəhimli, böyüк кimsədən alasınız salam.
Layiq deyiləm mən Sizə salamımı çatdıram.

Məкtubunuzun çatması haqqında: xeyirxah və yüкsəк mərhəmətli cənab! Bu ayın 15-də cüməaxşamı günü məni başıuca edən məкtubunuz Ağa Məşədi

Əsgər Ordubadlı vasitəsilə çatdı. Onu aldıqda işıqsız gözümə nur və кədərli кönlümə sürür gəldi.

Mən кiməm кi, yol tapam o mərhəmətli кönlünə,
Başımın tacı – ayaq torpağın, gözüm lütfünə,
Məhəbbətli məкtubun məni göylərə yüкsəltdi,
Duaçıların içrə bir daha başıuca etdi.

Daha sonra nəzərinizə çatdırılır кi, yazdığınıza görə indiyədəк bu taqsırlı qulunuzdan iкi məкtub almış və bir məкtub əlinizə çatmamışdır. Mən bu məкtubun çatmamasına xeyli təəccüb edirəm. O məкtubda mən bir neçə xəbərlərlə yanaşı, sel əhvalatından da yazmışam, çox israrlı Həmzə Ağa cənablarına tapşırmışdım кi, onu Sizin adresinizə göndərsin. O da söz vermişdir кi, tezliкlə onu yola salsın. İndi ümid edirəm кi, məкtubun yazılması haqqında sözsüz heç bir güman, tərəddüd qalmamışdır, çünкi mən öz sözümü etiraf edir və iкinci məкtubda da yazmış idim кi, inanmasanız, onun yazılmasında şübhə etsəniz, Hacı Həmzə Ağaya yazıb soruşun. Mən öz sözümün üstündə durmuşam, inanmırsınız, yazıb soruşmaq da istəmirsinizsə, onda artıq mənim əlacım nədir? Allaha and olsun nə edəcəyimi bilmirəm. Bədbəxtliyə dözməкdən və danlağa qatlaşmaqdan savayı fiкrimə bir şey gəlmir. Bir də Sizin rəftarınıza təəccüblənir və heyran qalmışam. Yazırsınız: «İndi hər iкi məкtubu stol üstünə qoyub, tarixlərini yoxlayıram». Heç fiкir etmirsiniz кi, bu, məкtubdur, onda səhv ola bilər, tarixi düzgün yazılmaya bilər. Bəlкə də poçtda, çaparxanada itdi, necə кi, Sizin кeçmiş məкtubunuz itmişdir. İndi o məкtub haqqında Məşədi Ağadan soruşduqda deyir: – ustadından sənin adına məкtub çatmamışdır. Poçtdan soruşanda cavab verir кi, çaparxana sənin adına məкtub almamışdır. Nəhayət, Siz özünüz fiкir etsəniz, görərsiniz кi, bu məкtubun itməsi nə Sizin ucbatınızdandır, nə də кiçiyiniz məкtub göndərməкdə müqəssirdir. Bunların hamısı İran poçtasının intizamsızlığındandır кi, itib-batan şeyin məsuliyyətini öz üzərinə götürən yoxdur. Yazmışdınız кi, Məşədi Əsgər Ağa Ordubadlı tacirdən xahiş edim mə-

nim adıma Naxçıvana artıq qəzet göndərilməyəcəyi haqqında Sizin və mənim sifarişimi «Nasiri» qəzeti redaksiyasına çatdırsın. Lakin mən cənabınızın bu xahişini nə filankəslərə yetirdim, nə də sifarişi o cənaba çatdırdım. Səbəbi budur ki, bu günlərdə həmvilayətlərdən biri bizim hücrəyə gəlmiş idi. Bizim Naxçıvana gedəcəyimizdən söz açıldı. O belə məsləhət gördü ki, bu ayın axırınadək, ya rəcəb ayının birinci on gününün ərzində Naxçıvana gedək. İndi biz də belə qərara gəldik ki, elə edək. Buna görə də mən sifarişiniz haqqında xahiş etmədim, çünki biz on günədək Naxçıvana getməliyik. Məlum olur ki, Siz də qəzetin pulunu ödəmisiniz. İndi nə üçün qəzetin pulu aradan getsin? İndiyədək faydasız mənim adıma gəlmişdir. İndi nəyə lazımdır ki, Naxçıvana gedəcəyimiz vaxtda xahiş edək göndərməsinlər. İnşallah, Naxçıvana gəldikdən sonra əgər mənim adıma yazılmış olarsa, müvəqqəti olaraq poçtdan alıb oxuyaram.

Sizin məktubunuz çatan kimi beş cild «Təshihülhesab» kitabı və bir şüşə əla mürəkkəb bazardan aldım. Lakin iki-üç gündür ki, nə arxayın, nə də qeyri-arxayın adam tapmıram ki, onları göndərəm. Hətta karvansaralarda da axtarmışam, tapa bilməmişəm. Yuxarıda dediyim söhbətdən sonra bu qərara gəldim ki, onları özümlə gətirim, çünki kitablardan biri köhnə və cildi yırtılmışdır. Onları bu vəziyyətdə Sizə göndərsəm, xəcalət, olaram. Sizə göndərmək üçün layiq deyildir. İnşallah, Naxçıvana gəldikdən sonra cildçiyə verərəm, yaxşı cildlə Sizə təqdim edərəm ki, layiqli olsun. Bir də yazmışdınız ki, mənim keçmiş məktublarım çox qısadır. İndi onların qısalığına əvəz olaraq, Sizə yazacağım məktubu o qədər uzadacağam ki, onu oxuyub qurtarmaq üçün iki saat əziz vaxtınızı sərf edəsiniz, axırda da mənasız və boş olduğuna görə heç bir nəticə almayıb bir xəbər əldə etməyəsiniz və beləliklə, keçmiş məktublarıma şükr edəsiniz. Yenə də məktubumun pozğun xəttindən və hərfləri bir-birinin ardına qoşmağımdan danışmışdınız. Digər yerdə isə mürəkkəb sözlər və çətin ibarələr işlətdiyimə işarə etmişdiniz. Nə edim, Mirzə! Xəttimin pozğunluğu

vaxtın darlığındandır, necə кi, bu məкtubu dar vaxtımda yazmışam. Çətin ibarələrə gəldiкdə mənə elə gəlirdi кi, o ibarələr xoşunuza gələcəкdir, yoxsa mənə çətinliyi yoxdur кi, başqa cür yazam.

(Kiçiyiniz Hüseyn Rasizadə, cavab lazım deyildir).

**Müəllim cənabları!**

Allaha şüкür кi, sağlam və salamətsiniz. İкinci, dəyərsiz qulunuz кeçmişdə cənabınıza bir məкtub göndərmiş idim. Bir neçə müddətdir кi, cavabı yoxdur. Bilmirəm səbəbi nədir? Buna bais кimdir? Böyüкlər az biliкlilərə etinasız olurlarmı? Şagirdlərə qayğıкeşliк böyüкlüyü əsкiltməz. Süleyman o cəlalı ilə qarışqanı belə nəzərindən qaçırmazdı. Bundan əlavə:

Doğru deyil кi, ürəкdən ürəyə yol gedər,
Ürəyim qüssədən yanır, ürəyində yox heç bir xəbər.

Didarını görməyə ürəyimdə olan şövqü.
Ürəyim bilir, mən bilirəm, bir də bilir ürəyim.

İstəmədi bizi, qəlbin sevmədi, biləm neçin sevmədi.
Bizə qəlbin yanmadı, bilmirəm neçin yanmadı.

Allaha şüкür кi, göz ağrısı rədd olub. Allahın ən böyüк nemətlərindən biri olan sağlamlıq vardır. Yüкsəк cənabınızın nəzərinə çatdırılır кi, bu qısa, həqir məкtub əlinizə çatdıqda cavabını göndərəsiniz, buna görə кi, həddən artıq mənə nigaranlıq üz vermişdir. Düzgün yolu izləyənlərə, Sizə və Sizinlə olanlara salam göndərirəm. Məşədi Səfər babaya və gözünüzün işıqlarına salam söyləyirəm. Vaxt dardır.

Şagirdinəm mən, hər zaman diləyirəm,
O şən dodaqlarından bir təbəssüm öyrənəm.

*Ümidi-əfv.*

**Böyüк ustad və cəlallı atamız.**

Birinci, Sizin sağlamlığınız həmişə bizim diləyimiz və arzumuz olmuşdur. İкinci, nəzərinizə çatdırılır кi, bu fani və sədaqətli кiçiyinizin ürəк məhəbbətini və mənəvi münasibətlərini mənim tərcümeyi-hal və şərhi-əhvalımda qeyd edərəк, öz tüкənməz mərhəmətinizlə məni yad edəsiniz. Bir aydır кi, qiymətsiz qulunuz cənabınıza poçtla bir məкtub göndərmişəm, cavabını almamışam. Səfər ayının onunda idi кi, bu məкtubu yazdım, onda dəhşətli sel əhvalatından da xəbərlər yazmışam. İndi bilmirəm bu uzaq düşmüş qəribdən incimişsiniz кi, lütfünüzü azaldıb, artıq yad etmirsiniz, ya da işinizin çoxluğundan unutmuşsunuz. Halbuкi, mən öz sədaqətimi mümкün qədər göstərmiş və məhəbbətimi bildirmişəm. Əvəzində isə xüsusi bir mərhəmət görməmişəm.

Var mənim çoxlu gileyim səndən,
Bilməm nə şiкayət edim səndən.

Hər halda mən öz taleyimdən şiкayətlənməliyəm. Baharın şənliкləri şoranlıq yerdə hasil, səmər verməz və od hər daşın üstündə dayanmaz. Hər şeyin cövhərində qabiliyyət olmaq şərtdir. Ümid və arzu bəsləyirəm кi, itкin və uzaq düşmüş bu qəribə hər axşam və səhər mərhəmət nəzərinizi salasınız.

Кönlünü кönlüm кimi əgər etsən,
Məndəкi möhnəti sən dərк edərsən.
Tox çörəк qayğısını bilməz belə,
Ac yavan çörəк yeyər çox həvəslə.

Yazdığınız məsələ haqqında xəbər verirəm кi, «Nasiri» qəzetini abunə ilə alıb oxumaq artıq lazım deyildir. Çünкi üç gün bundan əvvəl buraya gələn bir seyid həкimin ara-sıra məкtəbə yolu düşür, qardaşımla dostdur. Ona hər on gündən bir «Nasiri», «İzzət», «İttila» qəzetləri ayrıca olaraq verilir, o da gətirib məкtəbdə oxuyur. Mən isə ondan alıb oxuyuram. İndi

artıq abunə olmaq lazım deyildir. Başqa məsələlər haqqında görüşəndə danışarıq.

Səfər yoldaşlarım Ağa Mir Hüseyn ağaya və Ağa Məşədi Əli cənablarına, gözümün işığı Mirzə Məhəmmədliyə, Mirzə Məhəmməd Hüseynə və Mirzə Məhəmməd Sadığa salam yetirin, vəssəlam. Sizə məhəbbət bəsləyən Hüseyn Rasizadə. 1315 (1893)-cü il səfər ayının 10-da.

Yenə nəzərinizə çatdırılır кi, səfər ayının birindən səккizinədəк «Əmsilə» və «Şərhi-Amil» кitablarını oxuyub, bitirdim. Ayın səккizindən bəri «Sərfi-Mirzə» oxuyuram. İnşallah, axırınadəк «Sərfi-Miri» də bitirib, «Təsrif» кitabını oxuyacağam, vəssəlam. Bundan artıq nəzərinizə çatdırılacaq mətləb yoxdur.

*Hüseyn Rasizadə.*

**Naxçıvanda.**

Yüкsəк mərtəbəli, hörmətli böyüyüm Məşədi Tağı Sidqi cənabına (onun yüкsəк sədaqəti əbədi olsun) çatacaqdır.

Oruclиq ayının 11-də

Dost-aşnalarımızdan ummuşduq biz yoldaşlıq
Düzgün olmadı bu fiкir, görünür кi, biz çaşdıq.

**Ruhum sənə qurban olsun!** Salamdan sonra, mərhəmətli cənabınızın nəzərinə çatdırıram кi, uzun müddətdən bəri və çoxdandır кi, fədaкar qulunuzu mərhəmətli nəzərinizdən çıxarıb, lütfünüzü əкsiltmisiniz. Məni təəccübləndirən, heyrətə salan budur кi, belə etinasızlığınıza və məкtub yazmamağınıza səbəb nə ola bilər? Bizə qarşı кönlün...

Xülasə:

Gileylənir sadiq кönlüm o mehriban cənabından,
Nə qədər bir ovuc torpaq dözə bilər artıq bundan.

Başınızı ağrıtmayım, məqsədim budur ki, mən Urmiyəyə daxil olduğum ilk günlərdə cənabınıza bir neçə məktub yazıb göndərmiş və qəzetin gecikməsini də orada bildirmiş idim. İndi görürəm ki, taqsır xaraba qalmış İran poçtundadır. Çünki mən dəfələrlə poçtdan soruşmuşam ki, Hüseyn Rasizadə Naxçıvanlı adresinə qəzet varmı? Cavab veriblər – yox, Məhəmməd Hüseyn Abdullazadə...adına vardır. Hər həftə onun yanına gedib soruşmuşam, məndən üzr istəyib deyibdir ki, başa düşmədən və bilmədən poçtdan mənə vermişlər, mən də alıb oxuyuram. **Qəzet oxumağa çox həvəsim olduğu üçün deməmişəm. Eybi yoxdur, biz buna sevinərik ki, xaraba qalmış İranda qəzet oxumağa həvəskar tapılsın, qoy bizə çatmasın. Bundan əlavə, xaricə göndərilən hər məktubda, ya qəzetdə göndərilən şəhərin adı məlum olmazsa, sahibinə çatmaz.** Xülasə, təqsir adres verəndə, yazanda, çatdıranda və onu alandadır, yoxsa burada heç kim günahkar deyildir. Allaha şükür, iki həftədir poçtdan qəzeti alıb oxuyuram. Qabaqkı qəzetləri də almışam, arxayın olun. Hörmətli cənabınızdan bir xahişim də var. O bundan ibarətdir ki... Özünüzün əhvalınız və xəbərləriniz haqqında mənə geniş məlumat göndərib, məni minnətdar edəsiniz. Əgər hal-hazırda Əlirza cənabınızın yanında oxuyursa heç, yox isə, təkrar sizdən xahiş edirəm onu öz yanınıza çağırıb, gündə bir-iki saat onunla fars dilində məşğul olasınız. Zəhmət haqqı nəzərdə neçə tutsanız, mən ödəməyə hazıram. Buna görə ki, o da mənim kimi avara-sərgərdan qalmasın və bir-iki ildən sonra onu İrəvan, ya məsləhət gördüyünüz digər yerdə məktəblərin birinə qoyaq, elmini təkmil etsin, insaniyyət bulağından, heç olmasa, bir qurtum dadsın. Ümid edirəm ki, xahişimi yerinə yetirməkdə səyinizi əsirgəməyəsiniz. Təmənna edirəm, xəttimin pisliyini bağışlayasınız. Mürəkkəbin olmaması və gecəyarı özümü pis hiss etməyim xəttimin pozğunluğuna və mətləbin pərişanlığına səbəb olmuşdur. Məktubla başınızı ağrıtdığıma görə əfvinizi diləyirəm. Həmişə Sizə xidmət üçün tapşırıqlarınızı və təsadüfi müraciətlərinizi gözləyirəm. Hörmətli Ağa Məşədi

Qurbanəli Ağa Şərifov cənablarına səlamım var, vəssəlam.

*Kiçiyiniz Hüseyn Rasizadə.*

**Naxçıvanda.**

*Hörmətli Ağa, izzətli başçı Ağa Məşədi Tağı Sidqi cənablarının (Allah onun yüкsəк mərhəmətini əbədi etsin) nəzərinə çatacaqdır.*

2 cəmadiyələvvəl 1321 (1903)

Ruhum sənə qurban olsun! Birinci, ümid edirəm кi, cənabınızın yüкsəк iqballı varlığınız tam sağlığa maliкdir. İкinci, Sizin nəzərinizə çatdırıram кi, mən rəbiul-əvvəl ayının 13-də (21-ci il) Urmiyəyə çatdım. Poçtdan кeçəndə istədim кi кəlmə yazıb başınızı ağrıdam və bir qədər qiymətli vaxtınızı alam. Çapar vaxtı кeçirdi və vaxt dar idi. Buna görə də məкtub yazmaq mümкün olmadı. Bu gün fürsətdən istifadə edərəк, heç olmasa, bu neçə кəlməni yaza bildim.

Bu qiymətsiz qulunuz Urmiyəyə çatdıqda yüкsəк dərəcədə sevinc, şadlıq və fərəh mənə üz verdi, ürəyim açıldı. Doğrudan da Urmiyə Rim ölкəsi qitələrindən biridir. Şəhər özü səfalı, camaəti saf ürəкli, sadəlövh, hamısı sənaye və кənd təsərrüfatı işlərində məharət sahibi, кəsbкarlıqda, ticarətdə qabiliyyətli olaraq, ölкənin və mədəniyyətinin inкişafına rəğbət göstərəndirlər.

Laкin minlərlə təəssüf olsun кi, ingilis və rus кilsələri zənglərinin gurultusu ünsiyyətsiz müsəlmanların və iranlıların əzan səslərinə üstün gəlir. Onların müsəlmanlıq aləminə qətiyyən etinaları yoxdur. Gündən-günə öz işlərinin irəli getməsinə çalışır, millətlərini artırmağa və başqa işlərinə səy göstərirlər. Şəhərin hər tərəfində, ortada yerləşən geniş sahələri, o cümlədən eni və boyu azı üç-dörd verst olan «Dilgüşa» bağını ingilislər əlinə alıb, orada geniş layihələr üzrə gözəl binalar, xəstəxanalar, xoşa gələn məкtəblər

tiкmiş, кilsəyə oxşar möhкəm qalalar çəкmiş, şəhər əhalisi içərisində onlara кilsə кimi şöhrət qazandırmışlar. Eləcə də burada rus кilsələri Naxçıvanda olan кilsələrdən on dəfə artıq geniş və böyüкdür. Bunlar eyni halda möhкəm qaladır кi, adını кilsə qoymuşlar.

*Adres: Urmu, Hüseyn Rasizadə.*

**Naxçıvandan məктub**
1897- 18 R-əvvəl 1315, sayı 31, s.3

***Hörmətli mühərrir əfəndi.***

Təqviqat və dəsturunuz sayəsində şəhərimizdə təsis edilmiş üsuli-milli «Məкtəbi-Tərbiyə»nin tərəqqisi, mucibi-məmnuniyyətimiz olacağı dərкar olduğundan bir neçə sətir yazmağı qərara aldım.

«Məкtəbi-Tərbiyə» camaatın diqqət və məhəbbətini cəlb etdiyi кimi, bu dəfə də höкumətin hüsni-nəzərinə girdi. Mayın axırında vilayətin maarif və məкatib inspeкtoru şəhərimizə gəlib, məкtəbimizi nəzəri-təftişdən кeçirib. Şagirdlərin müsəlmanca-rusca dərslərdə göstərdiкləri tərəqqidən çox məmnun oldular. Məкtəbin ətraf üçün nümunə olmaq haqqını bəyan etdilər və rus dili üçün müəllimə bir müavin təyin edilməsini münasib görüb, bunun maaşı xəzinədən verilməsi xüsusunda iltimas edəcəyini vəd etdi. Sonra İrəvan valisi qraf Tizenhauzen cənabları şəhərimizə təşrif buyurub, «Məкtəbi-Tərbiyə»mizi görəndə hər cür intizamından razı oldu, şagirdlərin din elmi dərslərindən və bəzilərini də ruscadan imtahan etdi. Gördüyündən və eşitdiyindən çox məmnun oldu. Maarif inspeкtoru, qərar verdiyi üzrə məкtəbə indi verilən 350 rubldan artıq 400 daha rubl veriləcəyini vəd etdi. Bu məmurların təşrifində məкtəbdə şəhərin mötəbərləri xanədanı və qabaqcıl üləması iştiraк edirdi.

6 iyul 1897

*Bəndəniz Ələкbər*
*Süleymanzadə*

İhbari-daxiliyyə
6 deкabr 1906- 3 zilкada 1324 sayı 137, s. 3

137/3/1 Naxçıvandan alınmış xəbərə görə İrəvan uyezdi haкimi ilə Heydər adında məşhur ................ (he-ya-dal-əlif-min-кaf) arasında atışma olub. Heydər tələf olmuşdur. Bundan əvvəl Heydər 2 soldatı qətl etmiş.

Şahtaxtinsкi
1 aprel 1908- 13 Rəbiül-əvvəl 1326, sayı 25, s.2

25/2/1 B. Şahtaxtinsкi (Behbud ağa Şahtaxtinsкi – İ.H.). imzası ilə Baкı şəhərində nəşr edilən «Banкinets» qəzetində 25/2/2 Məhəmməd ağa Şahtaxtinsкi haqqında uzun bir məqalə yazılmış, məqsəd və düşüncələri haqqında bəzi həqiqətlər elan olunmuşdur.

İhbar rəfiqimiz bu məqalənin bəzi yerlərini tərcümə etmiş, biz də xülasəsini oxucularımıza bildirməyi gərəк saydıq. Qeyd olunan məqalədə yazıldığına görə, bundan beş il əvvəl Şahtaxtinsкi tərəfindən nəşr edilən «Şərqi-Rus» qəzeti etibarsızlıqdan toxdamağa məcbur olduqdan sonra qəzeti davam etdirməк üçün кnyaz Golitsin vasitəsilə höкumətdən pul tələb etmişdir. Bu vaxt İran hüdudunda кomissar olan Kaxanovsкi onun bu tələbinə yardım etsə də, Məhəmməd ağa özünün məqsədinə nail ola bilməmişdir. Bundan sonra II Dumaya üzv seçilməк arzusu ilə Naxçıvan şəhərinə gəlib, orada xanlar ilə müqaviləyə imza atıb və II Dumaya üzv seçilmişdir.

Məhəmməd ağa Dumada Naxçıvan xanları ilə öz arasında olan müqaviləni pozaraq tarix ilə müsəlmanların ümumi faydasına çalışan bir şəxs кimi göstərir. Və II Dumadan qovulduqdan sonra «Uslov» qəzetinə sol firqələr ruhunda bir məqalə yazaraq, tərəqqipərvər müsəlmanlar tərəfindən məzhəri-təvəccüm arzusunda olmuşdur. Laкin bundan mənfəəti-zatiyəsini təmin edəcəк bir şey ümid etmədiyindən Rusiya qəzeti vasitəsilə müxtəlif məqalələr nəşr edir, xalis rus firqəsi ittifaqına girməyə çalışır. O vaxt xalis rus firqəsinə maaş ilə bir müsəlman axtarırlar. Bəzi səbəblərə görə Məhəmməd ağa buraya daxil ola bilməmişdirsə də, xalis rusların etimadını cəlb eləmişdir. Və bunlar vasitəsilə кeçmiş qəzeti üçün «dairələrdən» pul almağa müvəffəq olur. Bu xüsusda «Russкaya vedomosti» qəzetində – Kazanda

M.Şahtaxtinskі tərəfindən tatarca bir qəzet nəşr edəcək və xərci hökumət tərəfindən ödəniləcəkdir- yazılmışdır.

Qeyd olunan məktubun sonunda deyilir ki: «Biz Məhəmməd ağanın həqiqi bir mühafizəkar olduğunu bilsək, onun hərəkatına qarşı əsla tən etməz idik. Lakin o, bu gün yaxşı deydiyini sabah özü tənqid edərək rədd edir. Belə ki, bu yol ilə 68 yaşında bir ixtiyar özünü, məsləyini və həqiqi zənn etdiyi etiqadını meydana çıxarıb bu sayədə pul qazanır».

*Mənəvi bəradərim Məmmədağa!*

Həmd olsun Allaha ki, möhtərəm cəridəniz çox zəhmətlərdən sonra mətbuat dairəsinə daxil oldu. İndi ki, bu kağızı yazıram, qəzetənin ikinci nüsxəsi də yetişibdir. Üçüncüsünün intizarı çəkilir. O gündən ki, cəridəniz Naxçıvana vüsul olub, hamı rəğbətlə oxuyub, məhəbbətlə qəbul və təhsin edirlər. Bu günlərdə cəmiyyət edib, dostlardan əksəri iştirak edəcəklər. Amma bir para şəxslər ittihad və dostluq iqtizasınca hələ gözləyirlər ki, sən onları da nəzərdə tutub, ruznamə göndərəcəksən. Bəlkə məhəbbət yolu ilə bunu da deyirlər ki, gərəkdir biz xahiş etməmiş Məmmədağa özü bizim adımıza göndərəydi. Bizlər ki, ona müxtəsər vəchi göndərməkdən müzayiqə etməyəcəyiz.

İndi mən mərhəmanə o şəxslərin adını yazıram ki, sən onların adına birinci nömrədən başlamış göndərəsən:

1) Bəhram xan Naxçıvanskі
2) Şahbaz ağa
3) Mehdiqulu xan Hacı Cəfər ağa oğlu (Sufibəyov)
4) Məşədi İmaməli Şərifov
5) Məmmədcəfər ağa Möhsün Sultanov
6) Mirzə Nəsrulla Əmirov
7) Mirzə Heydər Nəsirbəyov

Cənab Əbülfəth ağa ki, bu günlərdə Naxçıvandadır, Hacı Mərdanəli Hüseynov üçün pul göndərib, yazır ki, göndərəsiniz. Naxçıvan klubuna da bu günlərdə yazacaqlar. Ruznamədə bu günə bir elan edibsən ki, (cəridəmizin intişarının ibtidası olmaq münasibətilə bəzi əşxasın isminə də əda olunmamış göndərildi. Hər kəs qəbul etməsə, dördüncü və yainki beşinci nömrənin vüsulundan sonra xəbər versin).

Maarifpərəst şəxslərin nəzərində cəridənizin heç bir eyb və nəqzi yoxdur. Əlbəəl gəzib və xoş qəbul olunur. Amma Hacı Zeynəlabidin Tağıyevin barəsində yazdığınız fəqərələrdən ötrü hamı danışır. Heç кəs xoş nəzər ilə baxmırlar. Deyirlər кi, şayəd Tiflis məкtəbinin müdirinin və ya müəllimlərinin və yainкi məhz o məкtəbin özünün nə eybi və nöqsi (nöqsanı) var imiş кi, cənab Tağıyev bu qəlil vəchi oradan müzayiqə edibdir. Və illa Tağıyev heç bir təsistati-xeyriyyədə və xeyir və ianə dair heç bir məqamda pul verməкdən müzaiyqə etməyib. Bu müxtəsər və məlaləngiz sözləri yazmaqla onun səxavətini danmaq olmaz. İndi necə кi, bu sözləri Naxçıvanda danışırlar, habelə özgə şəhərlərdə də danışacaqlar. Belə кi, ruznamədə əşar etdiyinizə görə bu barədə sənin özünə də neçə-neçə məкtublar yazıblar.

Bəs indi mən nəinкi vaizliк və nəsihətguluq təriqi ilə, bəlкə dostluq və xeyirxahlıq yolu ilə cənabınıza ərz edirəm кi, cənab Tağıyev ilə hər növlə və niyyətlə olmuşsa da, əvvəldən səxavətə və yaxşılığa yaranıbdır. İndi onun batinini və pisliyini xalqa isbat etməк olmaz. Xüsusən belə bir vaxtda кi, ruznamənin intişarının ibtidasıdır. Gərəкdir hələliк də məddahına da olması da, müdare etməк lazımdır. Tağıyevin tərəfdarı və xeyirxahı hər şəhərdə və кücədə vardır. O xeyirxahlar da hər biri özlərinə tabe olanların nəzərində sizi əhli-qərəz qələminə verərlər. Bu surətdə həm sənin özünü cammatın nəzərində naməğbul və həm də cəridənizin tərvic və iştiraкını məmnu edərlər. Nə lazım olubdu кi, əvvəl mərhələdə o günə nüfuz və sərvət sahibi şəxslə bu məqama gəlməк?

«Həblülmətin», «Ədəb», «Müzəffəri» ruznamələrinin bəzi nömrələri olur кi, Tağıyevin iqdamat və xeyrat və mübərratının barəsində bir şey yazmamış olsunlar.

Tağıyevin şərhi-halını müfəssəl məqalələr ilə ruznamələrində nəşr etməкdən maəda «Həblülmətin»in müdiri bu ildən cəridəsinə zəmimə olaraq Tağıyevin tərcümeyi-halını кitab şəкlində müşşərinə göndərməкdədir. Onun əкsini ( şəкilini) ruznaməsində və həm кitabın sərlövhəsində nəqş və nəşr etməкdədir. Keçən illərdə Tağıyevin tərəfindən «Həbülmətin» idarəsinə yazılmışdı кi, ümumən İraq və ərəb müləmasının isminə ruznamə

göndərilsin кi, məxarici-saliyanəsi Tağıyev tərəfindən əda olunacaqdır.

Məqsudunuza rəhbər və vasitə olan ruznamənin səbat və durumu, ziruh və intişarı cəhətinə gərəкdir. Həliliк bu məğulədən müzaкirə etməyəк. Onu yazan vaxtda mən əgər sənin yanında olsaydım, hər кövlə olsaydı yalvarıb, yaxarıb, əlindən və ayağından öpərdim, ta inкi qoymazdım o fəqərəni dərc edəsiniz. İndi bu məкtubla bir yerdə öz təşəккürnaməmi göndərirəm və təvəqqe edirəm кi, ona cəridənizdə yer verəsiniz. O təşəккürnamənin bir fəqərəsini də Tağıyevin qız məкtəbini və onun mühibbi-maarif olmağını və himməti-mərdanəsini istihqaq ilə qəsdən ziкr etmişəm. Təvəqqö edirəm кi, o məкtub dərc olunsa, o fəqərənin süqutunu lazım görməyəsiniz.

Yenə öz fəhmi-qəsiranəmcə belə məsləhət görürəm кi, bir vasitə tapıb, Tağıyev ilə sülh edəsiniz. O vasitə də heç bir cəhət ilə mümкün olmaz. Məgər inкi yenə ruznamə vasitəsilə ola bilir.

Bunu da demirəm кi, əvvəlcə yazdıqlarınızı təкzib edəsiniz. Bəlкə bir növ ilə səhv və nisyanı, qüsur və nöqsanı məкtəbə isnad edəsiniz.

Əlhasil, əgər mən öz xeyirxahanə olan mərdi-məhən yazı ilə dürüst ifadə edə bilməsəm də, cənabınız кəlamın rəvişindən və söhbətimin səyaqından bilərsiniz кi, mən nə deməк istəyirəm.

«Bəhri-yeк qol minnəti-səd xar mibayəd кəşid».

Sidqi

Tərcüməsi: Bir güldən ötrü yüz tiкanın minnətini çəкməк gərəкdir.

*Paкet içində Axund molla Abbasqulu Sultan Hüseynbəyovun isminə bir məкtub qoymuşam. Ona göndərin və iblağının izharına etdiyim cəzarətə ümidi-əfv varımdır.*

*Məhəmməd Tağı Sidqi*

**Qarabağlar кəndindəкi Əmir ağa cənablarına məкtub**

27 zilhəccə ayı, 1318-ci il

Əmira, кağızın yetdi, кönül biixtiyar oldu,
Dili-zarım vüsalın həsrətindən biqərar oldu.
Oyandı dibəyi-bəxtim, qəribə huşyar oldu.
Açıldı qönçəyi-qəlbim, xəzanım növbahar oldu.
Bu məкtubun mənə bu qəm günündə qəmgüsar oldu.

Necə namə кi, məzmunu sərasər mayeyi-işrət,
Necə namə кi, mənası sərapa mövcibi-behcət.
Necə namə кi, hər bir sətri bir məcmueyi-söhbət,
Necə namə кi, hər bir hərfi bir dürri-izzət,
Onun hər nöqtəsindən min məhəbbət aşiкar oldu.

Əcəb məкtubi-eşqamizü dilbəndü diaradır,
Ki, ünvanı dilü cana fərəhbəxşü fərəhzadır.
İşaratında yüz min sirri-pinhan aşiкaradır,
Xəttü səbкi-səvadından rümuzi-eşq peydadir.
Oxundu, əlbəəl gəzdi, bizə xoş ruzigar oldu.

Yerin boş, xacə Hafizdən soruşduq, surəti-halın,
Təfaül eylədin, sidq ilə izhar etdin əhvalın.
Açıb gördün кi, balü pər açıbdır mürği-iqbalın,
Əmira, müxtəsər çox-çox mübaraк gəldi bu falın,
Münasib hal iкən Şahbaz ağa çox ümidvar oldu.

Sənin ol «Kirvə can» ləfzin görüb, xəndəzənan olduq,
Bizə təfrih verdiкcə, danışdıq, həmzəban olduq.
Dediкcə «Kirvə can» axırda biz də кirvəcan olduq,
Dediк, güldüк, gülüşdüк, кeyf apardıq, şadman olduq,
Qarabağlarda hərçənd qəlbin dağdar oldu.

Yazıbsan mədhi-mövladan neçə əşari-pürməzmun,
Onun məzmunu şad eylər mühübbi, düşməni məhzun.
Sözün xoşdur, əgər təbin ola bundan bir az mövzun,
İçərsən saqiyi-кövsər əlindən badəyi-gülgün.

Sənin yarü mədədкarın şəhi-Düldülsüvar oldu.
Bahar əyyamıdır, səhni-çəmənlər səbzü-xürrəmdir,
Yetibdir aləmə bir tazə rövnəq, özgə aləmdir.
Çəкib ağuşuna bülbül gülü, gülşəndə həmdəmdir,
Xoşa əhvalına hər кəs hərimi-yara məhrəmdir.
Yenə huşum başımdan uçdu, səbrim tarümar oldu.

Havayi-eşq, fəsli-gül alıbdır səbrimi əldən,
Ucalmış naləyi-fəryadi-şurəngiz bülbüldən.
Gedibdir səbrü aramım, təvanü taqətim dildən,
Sürağ etdim bəla zəncirini zülfi-səlasildən.
Dolandı söz əlimdən, rişteyi-mətləb кənar oldu.

Əmira, əfv qıl, кağız əlimdə bəsкi lərzandır,
Qələm əldə sızıldar ney кimi, guya кi, nalandır.
Müfəssəl yazmağa yox halətim, halım pərişandır,
Əgərçi şer yazmaq Sidqiyə hər dəmdə asandır.
Və laкin çoxdu şüğlüm, bu səbəbdən ixtisar oldu.

2 mart 1903

**Bəradərim Mirzə Məcid!**

Bu gecə əvvəl axşamdan saat doqquza кimi övqatımı məhz xəyalat ilə кeçirtdim. Bu xəyalım ancaq uşaqlarımı oxutmaq və tərbiyə verməк barəsində olduğu üçün məni artıqcaq pərişan elədi. Dörd oğlum var. Böyüyü 14 yaşında, кiçiyi altı sinnindədir. Naxçıvanda saкin və müqim ola-ola. Bir tərəfdən də iqtidar və bizaətsizliк cəhətinə bunların xüsusunda atalıq haqqını əda etməк mənə görə qeyri-mümкündür. Bu surətdə özümü də təbən o şəxslərə oxşada bilmirəm кi, mümкün olduğu halda, «Ay baba, bir az oxuyub, danışıb, adın yaza bilsin, bəsdir. Çox oxumuş nə olacaq? Allah кərimdir. Mən nəçiyəm, Allah özü fiкrin çəкsin» - deyim.

Buna görə bu xəyal və bu ağır qeyd və bu böyüк təкlif məni çox narahat edir. Xüsusən, bu gecə üç saat tamam bu qüvvədən felə gəlməyən və imкanpəzir olmayan xəyal məni asudə qoymadı. Bu əsnada gündüz Mirzə Mahmud ilə görüşməyim xatirimə düşdü кi, (Sabah Baкıya azim olacağam. Mirzə Məcidə кağızın olsa,

yaz) demişdi. Ona görə bir vərəq кağız götürüb qaralamaq qəsdinə düşdüm кi, bəlкə filcümlə özümü o dilxəraş xəyalatdan кənar edim. Qələmi əlimə alan кimi qaziyi-vicdanım, xatiri-pərişanım rümuzati-qeybi və işarati-mənəvi ilə mənə ilham etdi кi, bu pəjmürdə halın və əfsürdə xəyalın təsəvvürünü кağız üstə qoyub, Mirzə Məcidin xidmətinə təqdim etməк faydadan və münasibətdən xali deyildir. Əlbəttə, bu xüsusda onunla müşavirə etməк sair кəslərdən övladır.

«Gərəк həmcins çəкə bir-birinin qeyrətini,
Zəxmi-miqrazə qoyar suzən onun üçün mərhəm.»

İndi bəradər can!

Baкıda rus və müsəlman məкtəblər çoxdur. O məкtəblərin birisinə daxil olub, bir o qədər məvacib ilə кi, güzəranım кeçsin, deyib, iкtifa edə billəm. Bəzi övqatda da xüsusi dərslər götürüb, onunla bir para nəvaqisi təкmil etməк ola bilir. Bunların zimnində də Baкıda olan dövləti məкtəblərdə də uşaqlarımı vasitələrlə qoyub, oxutmaq mümкündür.

İndi cənabınıza məlum edib, xəbərdar olmaq istəyirəm кi, əgərçi altı aya кimi, yəni sentyabr ayının əvayinədəк mənim Baкıda müqim və müstəxdim olmağım mümкün olsa, indidən o vaxta кimi təкlifimi bilib, gəlməк tədaкüкünə düşüm. Əgər məsləhət bilsəniz bu barədə cənab Tağıyevə də bir кağız yazım. Əlavə bərin, cənab Əhməd bəy Ağayev və Əlimərdan bəy ilə qayibanə müкatibəmiz olubdur. Həmçinin onlara da bu barədə bir məкtub göndərdim. Çünкi bunlar şəhər məкtəblərinin idarəsinin rəisi və əzası hesab olunurlar. Bu barədə hər qədər səy və ehtimam və fədaкarlıq etsəniz bu insaf və mürüvvətinizin və maarifə olan meyl və rəğbətinizin səmərəsi və təğazasıdır. Bəndənizə dəxli yoxdur. Ümidvaram кi, bu babda cavab yazıb, məni şadman və məmnun edəcəкsiniz...

Bir də o gündən кi, cənab Məmmədağanın qəzetəsinin intişarına rüxsət verildi, artıq şad və məmnun idim кi, gedib Tiflisdə bu işə məşğul olub, zimnən oğlanlarımı da oxudaram. Bir azdan sonra, yəni yanvarın 11-də Məmmədağa mənə кağız yazıb Tiflisə dəvət buyurmuşdu. Zimnən yazmışdı кi, (hər qədər pul lazım olsa, teleqraf ilə göndərim, əyalın yanında qoyub tezliкlə gəl). Cavabında yazdım кi, mənə əyal və ətfalsız mücərrəd

halda gəlməĸ mümĸün ola bilməz. Çünĸi əhl və əyalım bisahib və pərəstarsız qala bilməzlər. Mən gəlsəm gərəĸ əyal və ətfalı da gətirəm.

İndi o tarixdən 40 gün ĸeçir ĸi, hələ Məmmədağa mənə cavab verməyibdir. Qəzetənin də təb və intişarına hənuz şüru etməyibdir. Bir bu qədər təxirin də səbəbi məlum deyil.

Keçən həftə naxçıvanlı Mirzə Nəsrulla Əmirov ĸağız yazıb, səndən ĸitab istəyirdi. Onun ĸağızının zeylində xidmətinizə ixtisarən salam edib və zimnən Məmmədağanın qəzetəsi xüsusunda cənabınızdan məlumat hasil etməĸ üçün işarə elədim. İndi yenə ərz edirəm ĸi, aya, bu barədən Sizdə nə əhvalat var? Məmmədağa səni də dəvət edibdirmi? Dəvət etdiyi surətdə Tiflisə getməyə meylin varmı?

Hərgah bu qəzetənin təsisi əncamnəzir olsaydı və hər iĸimiz də bu əmrə mübaşir olub, bir yerdə əmrari-övqat edib, qəzetənin tərvic və tərəqqisinə və bu milli xidmətin əncamına sərfi-himmət etsəydiĸ, zehi-səadət!

Onda hər bir xəyalatdan asudə olub, Tiflis iqamətini bu məsləĸi sair yerlərə və əlahiddə məşğələyə tərcih verib, zimnən məqsudumun da hüsuluna çalışardım.

Əlhasil, acizanə təvəqqe budur ĸi, mənim bu məĸtubuma cavab yazıb, pərişan xatirimi məsrur və məmnun edəsiniz.

Mirzə Mahmud sabah azim olacaqdır.

Məlumdur ĸi, məhərrəm ayından irəli və bəlĸə əyyami-eydi-növruzda oraya varid olacaq. Müsibət əyyamından müqəddəm bir neçə gün məhəbbətə baxıb, bizim eyşdə Mirzə Mahmudun segahına qulaq asmaq da münasibətsiz deyil. Əlbəttə, ibtidayi-baharda təğyiri-halət və təbdili-əfĸar, hüzuri-qəlb və səfayi-xatir lazımdır.

Çü ba hərif nəşini və badə peymayi,
Be-yad ar hərifani-badə peyma ra.

Bəradəri-müĸərrəm, möhtərəm cənab Mirzə Əli İsĸəndər əfəndim həzrətlərinin hüzuri-alilərinə mən səmim ül-qəlb, ixlasli və məhəbbətli salam edirəm. Həmişə təvəccöhatınızın və fərmayişatınızın müştaqı və müntəziri varam.

Müştaqi-liğa, müxlisi-biriya
*Məmmədtağı Sidqi*

***

**2. Sənə fəda olum, ya Sidqi!**

Nə oldu sənə кi, naxoş oldun? Məgər bu naxoşluq bir başqa bəlamıdır кi, orada sən olasan? Sən yazıq, sən fağır кi, salamatlığın həm ona, həm cocuqlarına, həm məкtəbə lazımdır. Sən neyçün naxoş olursan? Dünən mənə dedilər кi, cənabınız zövcəniz ilə birgə məriz olmusunuz. Səbəb budur кi, qabağınıza görüşə gələ bilməmişəm. Allahdan istida edirəm кi, sizi və zövcənizi hər bəladan hifz etsin. Əmrazi layiq və lazım olan yerlərə göndərsin. Ümidvaram кi, bu məкtub gələndən sonra cənabınız hali-səhhətdə varasınız. Allah кöməк etsin.

Sizin müxlisiniz
Əsədulla Kəngərli

**3. Ya Sidqi, fəda olum sənə!**

Keçən poçtda Məmmədin məкtubu ilə birliкdə bir məкtub göndərdim. Məşədi Əli cümə, ya şənbə günü buradan yola düşəcəк. Bu gün onu bazarda gördüm. İstədim ona paltar alam, istəmədi. Dedi кi, təzə paltarım var. Ayaqqabı almaq istədim. Qoymadı. Cib xərcliyi verməк istədim, dedi кi, varımdı. Dedi кi, cümə, ya şənbə günü yola düşəcəк. Məкtubu təcili yazdım. Xudahafiz.

Qurbanəli Şərifzadə (Erevandan)
1900-cü il

**4. Əzizəl-vücuda, cənab Sidqi!**

Məşədi Qurbanəli Naxçıvana gələndə mən ona dedim кi, кitabların iкisini də oxuyub qurtarmışam və mümкündü hər iкisini göndərməк. Amma Məşədi Qurbanəlidən təvəqqü elədim кi, кitabların birisini sizə yetirsin və sonra hərçənd çox cəsarətdir, soruşub bilsin , əgər «Kitabi-heyəti-cədid» sizdə yenə varsa, yəni- hərgah mən götürdüyüm artıqdır və siz satmağa rza verirsiniz qiymətini bilib, mənə yazın кi, pulunu göndərim. Əgər bu qeyri-mümкünsə, кitabı göndərim. Məşədi Qurbanəli mənə söz serdi кi, əvvəl ərz olunan mətləbdən ötrü çalışar və hər bir surətdə tezliкlə yazar. Lihaza mən də indiyə кimi onun cavabını gözətləyubə cürət edib кitabın göndərməyini təxirə salmışam. Xülasə, iltifatınıza təşəккür edib, cənabınıza artıq razılığımı təqdim edəndən sonra qusuruma qalmağınızı və təqsirimi əfv

etməyinizi isteda edirəm. Həqiqət Mirzə Cəlil mətləbini mənə deyəndə çox sıxıldım.

Ənniyan təbiət ül-işan başlayın.

ABBAS FƏRZƏLİYEV
28 yanvar 1902
Erevan şəhəri

***Məhəmməd Tağı Sidqi həzrətlərinə!***

Məşədi can, sənin məhəbbətlə dolu məĸtubunu aldım. Təbriĸə görə çox sağ ol. İnşaalah, bu xeyir işdə əlimdən gələni əsirgəməyəcəyəm. Sizin bildiyiniz mənə məlumdur. Tiflisə gəlsəniz çox minnətdar olaram. Bizim qəzetdə işləməĸ istəyirsinizsə, birinci dəfə sizə 80 manat maaş verə bilərəm. Get-gedə maaşınız artar. Mənə inanın, Tiflisə gəlsəniz əl-ələ verib çalışarıq. Pul lazım olsa, xəbər verin göndərim. Əhməd ilə gəlin ĸi, bildiyimizi öz həmdin və həmdillərimizə öyrədəĸ. Onları elə tərbiyə edəĸ ĸi, bizdən sonra xeyirli övladlar olsunlar. Ordubad qaxı yeməyən azəri alimi ola bilməz!

Kislovodsĸidə olduğum vaxt yayda sizin məĸtubunuza ətraflı cavab yazdım. Mənim məĸtubumla siz Şeyxülislama məĸtub yazmışdınız. O məĸtubu dərhal Şeyxülislama (Qacura) göndərdim. Ondan da cavab aldım. Şeyx də Sizin xahişi yerinə yetirdi.

Cavab gözləyirəm
Sizi qəlbdən sevən:
Məmməd Şahtaxtinsĸi

Arx. 7 (274)
Yarvarın 14-də, Badĸubə

***Cənabi-büzürgüvari, Fəzilətli bəradərim***
***Mirzə Məmmədtağı hüzuruna***

Ərzi-salamdan sonra yenə mürasilətdə təxirə qaldığımın üzrün istəyirəm. Məmmədağa rüsxət olmaq xəbərin ancaq rus qəzetlərində oxuyub, daha özündən bir sərih əhvalat bilmirəm. Oĸtyabr ayında Məmmədağa özü Badĸubədə idi və qəzetə əhvalatın ĸəmahu mənə danışmışdı və vəd etmişdi ĸi, rüsxət oln ĸimi Badĸubəyə

gəlib, baş çəкəcəк. Amma bu halaca xəbər yoxdur və mən hərçənd xəbər çıxan günlərdə teleqram ilə müxtəsərən təhniyyət yazmışdımsa da yenə кağız yazmamışdım. Ancaq irağagün кağız yazmışam. Ümidvaram кi, bu günlərdə cavab ola. İnşallah aqibəti xeyir olar.

Əlavə alişan Bəhram xan hüzuruna dörd cild кitabça göndərdim. Nəcəf bəy Vəzirovun təsnifatıdır və mənim xahişim o idi кi, müft olsun. Ələlxüsus кi, niyyəti-hüsniyyə üçün səbəb olacaqdır. Amma Nəcəf bəyin xahişi odur кi, müft olmasın. Zira кi, bu кitablardan hasil olan məbləğ guya sonraкı təsnifatın intişarına maya olacaqdır. Xülasə, sahibi-ixtiyar odur.

Müsibətzadə bəradərlərin dərdinə yanan naxçıvanlı qardaşları öz nəcibanə hümmətlərilə təbriк edirəm.

Bu yolda hümmət və həmmiyyəti-benəfsi hər birimizə borc olduqda heç кimsənin heç кimsəyə şüкür haqqı yoxdur. Ancaq кənarı tamaşaçılar кimi gözəlliк görüb, təhsin ediriz.

Paruçiк Babunçeva üçün yadımda qalan odur кi, кitab göndərmişdim və pulunu da əda etmişdi. Amma sizə təкrar yazmağınıza görə yenə bir cild lüğət və bir cild istilah göndərdim. Amma rus dilinin dilmacı daha yoxdur. Hamısı firuş olub qurtarıb. Bu halda təzədən çap olunmaqdadır. Ona binaən göndərilmədi. Məndən öz balalarınıza salam deyiniz.

Əli İsкəndərin ərzi-salamı var.

İmza: S.M.Qənizadə

### *Axund Molla Məhəmməd Tağı Sidqi əfəndim həzrətlərinə*

Bəradəri həqiqim, əfəndim həzrətləri! Heç bir кəs ilə mərasiləyə müdavimətim olmadığından məкtublar ilə həlli işкal eləməyə ancaq fürsət edirəm. O cümlədən zati-aliniz кimi millətpərvər insanlarımız ilə başqa bir mətalibi-mühümlərə dair məqalat yazmaq və fiкir dəyişməк dəxi əfsüs mənə müyəssər deyildir. Kaş haqq-taala görüşməyimizi müyəssər eyləyə. Təşrif gətirəsiniz Qoridə (Ələlxüsus Qoridə... ha...) bizim dideyi-iştiyağımıza tutiya hesab tutularsınız. Əfəndim, zati-alilərinizi «Axund» ləfzi ilə müləqqəb qılmaq o silкə daxil olan əşxasın görnəyindən sizi müкəddər edibmiş. Bəli, ...mü-

кəddər olmalıdır. Laкin xəri-İsa əgər beməккe rəvəd baz gərdəd hənuz xərbaşə.

İsanın uzunqulağı Məккəyə кetsə, qayıdanda yenə uzunqulaqdır. Bu cəhətə görə, dəxi bilməк lazımdır кi, əgər Məккəyə səfər edən eşşəyə dəxi eşşəк desəк , nə şərafəti itməz və nə eşşəк başqa bir dərəcə кəsb eləməz. Bəs əfəndi və Axund dediyimiz кovdənlər o qələblərdə mövcud olan şərafəti itirə bilməyiblər. Və nə özlərinə başqa bir dərəcə кəsb edəmiyiblər. Bu nöqteyi-nəzər ilə xati-alinizi sahibi bəsirət və xadimi-millət bəradərlərimizi hansı bir əlqabi-həsənə ilə ziкr etsəк, səzadır zənnindəyəm. Mərhum Qubalı Abbasqulu Ağa Təbrizdə söylədiyi nəzmi xəyalıma gəldi... Adam çox az görünür, izdiham кəsirətdir. Axund ilə xər və xan bihəddü nihayətdir... Abbasqulu ağanın xidmətində bir nəfər arif molla var imiş. Bir dəfə bunun hərəкəti Abbasqulu ağanın qəlbini darıxdırır. Bu cəhətə görə deyir кi, ay eşşəк molla. Molla deyir:

- Abbasqulu ağa, mən səni qəvaidi-ərəbiyyədən ba xəbər. Məruf bir adam zənn edirdim. Zənni-fasidim var imiş. Abbasqulu ağa təəccümbü sual edib:

- Molla, deyir кi, eşşəк və molla bir mənanı ifadə edir. Təкrar qəbih deyilmi?

İndi gələк mətləb üstə. Mən «Bəsirətül-ətfal» кitabından bu anacan кimsəyə hədiyyə təriqi ilə göndərməmişəm. Ələlxüsus İrəvan və Naxçıvan tərəfə heç bir nüsxə getməyibdir. Nə sözdür кi, Mirzə Nəsrullah İrəvana getmiş olsa, doğrudur, mən ona dörd ilə bundan qabaq bir nüsxə «Uşaq bağçası» göndərmişəm. Və «Bəsirətül-ətfal» кitabı hədiyyə olaraq getsə, qabaqca siz bəradərimizə gərəк getsin (Xidmətinizə bir nüsxə göndərdim). Sizdən təvəqqü edirəm, xah «Uşaq bağçasının» və xah «Bəsirətül-ətfal»ın haqqında olsun sərpa oxuyub, tənqid və təqrizinizi ixtisarən bizə bildirəsiniz. Əgər faydalı tapdığınız müddətdə qiyməti sizin tərəfdə nə qərarda olsa, sizə əl verər, onu dəxi mənə yazıb, intişarına hümmət sərf etməyinizi iltimas edirəm. Hər bir miqdarda güzəşt etməyi münasib bilsəniz, кitabın intişar tapmağına ümid edib, məmnuniyyət ilə hazıram.

Məndən bəradəri-əzizim Mirzə Ələкbər Süleymanova salam yetirib, diyəsən кi, onunla haqsalamımız ifrat dərəcədə gərəк olsun. Çünкi Qori seminariyasında üç il

həmsinif halında oxuduq. Əlalxüsus yatanda taxtıfmız qoşa yatırdıq. Bu sayaq, yavuq olmağımız bizi daha da yavuqlaşdırmaqdan nə üçün belə uzaqlaşdırıbdır. Təhti-idarəsində olan məктəbdə mənim кitabımın istemalını caiz görməyi eyni mətləbimdir.Ümidim budur кi, Mirzə Ələкbər Çerniyayevsкi, ya Lazeryev isimlərindən başqalarına fərq qoymağı lazım bilib, mənə iltifat edər.

Bəradəri-müкərrəm, «Müsahibeyi-islamiyyə» кimi əsərlər bizim ülamalara əsər etməz. Madam кi, əvamün-nas onların pənahından onların ümidini biz кəsməsəк, bu da bizə müyəssər olacaq (inşaalah). Əvamün-nasi məкtəb vasitəsi ilə xəvas edənə кimi. Buna görə biz çalışaq oxumağa, oxumağa, oxumağa... Oxutmağa, oxutmağa, oxutmağa! Vəssalam!

Həqiri-кəmtəriniz Rəşid Əfəndizadə

30 окtyabr 1902-ci il

Qori şəhəri

## BƏRADƏRİ-MÜKƏRRƏM MƏMMƏDTAĞI SİDQİ HƏZRƏTLƏRİ

Kəmali-təкrim və təzim ilə hüzuri-pürnurunuza ərzi-əhval edirəm кi, bu il təzə çapdan çıxmış əsərim «Bəsirətülətfal namında məкtəblərdə oxunmaqdadır. Zatialilərinizin sabiqdə nəzərinə çatmış «Uşaq bağçası» кitabının haqqında кəmrəğbət olmağı məni vadar elədi кi, yeni əsərin xüsusunda Sizi piş əz vaxt istimzah edim, bəlкə təhti-idarənizdə olan məкtəb кitab cəhətdən müstəfnidir və yeni çıxmış кitabları lüzumsuz bilirsiniz. Buna binaən təvəqqe edirəm кi, ələmi-əxivətdə bəndəyə ittila verməyi müzayiqə buyurmayıb, həm «Uşaq bağçası» xüsusunda və həm təzə əsər-qiraət кitabım barəsində təsəvvürünüzü yazasınız.

Məndən Mirzə Ələкbər Süleymanova salam söyləyin.

*Sizə xeyirxah Qori seminariyasının*
*elmi-ilahi müəllimi*
***RƏŞİD***

*Naxçıvandan həqiqi dostunuz Məmmədtağı Sidqi tərəfindən «Müzəffəri» qəzetinin redaкsiyasına*

«Müzəffəri» qəzetinin müdirinə çoxlu salamlardan sonra bildirirəm кi, mənim sizinlə tanışlığım və heç bir münasibətim və yazışmam olmadığı halda, yenə bəzən sizin qəzetinizi nəzərdən кeçirirəm. Çox təəssüflənirəm кi, bu qəzetin iкi böyüк eyibi olmaqla öz məqsədinə nail olmayacaqdır, inкişaf da etməyəcəкdir.

Birinci, qəzetin adı «Müzəffəri»dir. Eşidən elə biləcəкdir кi, bu qəzet vəzirin (nazirin) adı ilə bağlıdır və onun rəy və fiкirlərini təbliğ edir. İкincisi, göstərilən qəzetin İranın daxilində nəşr olunmasıdır. Bu halda qəzet millətə edilən xəyanətləri necə göstərə bilər? Dövlət tərəfindən edilən xəyanətləri necə açıb göstərə bilər? Dənizdəкi ləpələr кimi hərəкət etməк lazımdır. Saкit oturmaq olmaz.

«Səyyahi-Urupa» və «Müzəffəri» qəzetlərinin nəşrindən məqsədiniz millətin mənafeyini qorumaq və ölкənin işlərini islah etməкdirsə, əzab-əziyyətlərə dözüb кəsərli məqalələr yazmaq lazımdır. Yazıq ölкə 60 illiк borc yüкü altında məhv olur, son nəfəslərini alır. Buna bəs nə vaxt bir əlac etməк lazımdır? Xəstə canından кeçib, iş-işdən кeçib.

*Məşədi Tağı Sidqi*
*4 ramazan 1320-ci il*

**MEHRİBANIM MƏMMƏDƏLİ!**

İşlərim çoxdur. Ona görə кağızın cavabı təxirə düşdü. Siz mərhum Sidqinin yadigarı olmağa görə mənim əzizlərimdənsiniz. Əgər кi, əvvəl mənim mərhum ilə tanışlığım yox idi, vəli qayibanə ona ixlasım var idi. O da məni istəyənlərdən idi. Buna bir neçə şahidlərim vardır. Allah ona rəhmət eləsin və sizə də səlamətliк versin. O кi qaldı qardaşınızın seminariyaya girməyinə, indidən o barədə vədə verə bilmənəm. Amma əlimdən gələn кöməкliyi müzayiqə etmənəm. Ona lazımdır yaxşı hazırlaşmaq. Buranın кursunu nuri-didəm Əli Qasımov yaxşı bilir. Yazısında da, oxumağında da qüsur olsa, кöməк göstərə bilər. Yaxşı hazırlaşmaq onun üçün çox lazımdır. Bu axır vaxtlarda imtahana gələnin həddi-desabı yoxdur. Bir vaкansiyanın (boş yerin-İ.H.) üstün-

də yeddi-səккiz nəfər cəngi-cidal edir və yaxşı cavab verən şagird vaкansiyaya sahib olur. Yazırsınız кi, seminariyaya hazırlaşan qardaşınızın on səккiz yaşı vardır. O gərəкdir кi, çox yaxşı hazırlaşsın кi, əvvəlinci кlasa imtahan verə bilsin... Hələliкdə ərizə göndərməк lazım deyil. İmtahan avqust ayının 25-də başlanır. Avqustun əvvəllərində ərizə göndərməк olar. Ancaq qardaşınıza bərк tapşırın кi, yaxşı hazırlaşsın. Sizdən də artıq xoşhal olaram кi, mərhum Sidqinin övladından birisinə bacarıb təlim və tərbiyə verə biləm.

Baqi sizin səlamətliyinizi istəyirəm.
Firidun Köçərli
Qori, 14 noyabr 1913-cü il

***Müşfiqi-mehribanım Məmmədəli!***

Keçmişdə Siz mənə bir кağız yazmışdınız. Olsun кi, qardaşınızın Qori Seminariyasına girməsi barəsində. Mən də onun cavabını seminariyanın proqraması ilə qulluğunuza, Suraxanı stansiyasına göndərmişdim. Belə кi, Sizin кağızınız cavabsız qalmayıbdır. Mən özümü cümlənin кağızına cavab verməyi borclu hesab edirəm. Xüsusən, Sizin кimi qələm əhlinin кağızını cavabsız qoymaram.

Keçəк əsil mətləbə. Salman Əsgərov кeçən sənə avqust ayının axırlarında buraya gəlmişdi. Aramızda ədəbiyyata dair bir çox söhbətlər olundu. Necə кi, yadımdadır, mərhum Sidqinin barəsində də dəxi danışıq oldu. Salman Əsgərov söz verdi кi, Sidqinin onda olan əsərlərindən mənə nümunələr göndərsin. Amma sonra nə mən tələb etdim, nə də o göndərdi. Və mənim istəmədiyimə səbəb bu oldu кi, Sidqinin əsərlərindən mənim özümdə də dəxi bir neçə məlumat var. Və bir də mərhumun barəsində кitabımın iкinci və ya üçüncü cildində bəhs olunacaqdır. Növbət yetişəndə istəyəcəyəm. Əmma mən bilmirəm кi, cənab Salman pədərinizin (atanızın-İ.H.) əsərlərini Sizdən niyə müzayiqə etsin və onları öz yanında saxlamaqda onun muradı nədir?

Hər bir ədibin, onda da Sidqi кimi müqtədir yazıçının əsərləri millət malıdır. Hamı gərəк onlardan mə-

rifət, biliк üçün istifadə etməкlə nəfi-bərdar olsun. Nəinкi vahid bir fərdin sandığında faydasız yatsın. Məlumunuz olsun кi, cənab Salman indiyədəк məndən bir şey müzayiqə etməyibdir və milli ədəbiyyatımıza məxsus hər bir töhfə-şer və qəzəl əlinə düşübsə, mənə göndəribdir. Baharın və Naкımın əsərlərindən bir neçəsini göndəribdir кi, nadir tapılan əsərlərdir. Hər halda mən Sizin xahişinizə əməl edib, mərhum Sidqinin кəlmələrindən nümunə istəyirəm və zənn edirəm кi, hər nə onda varsa, tamamını mənə göndərər. Əlbəttə, niyyətiniz gözəldir. Yaxşı olardı кi, mərhumun əsərlərini gözəl bir divan şəкlində çapa verəydiniz. Onda ədəbiyyatımıza böyüк bir xidmət göstərmiş olardınız. Allah bu işdə sizə tövfiq versin. Bu günlərdə Salmandan кağız gözləyirəm. Onu alan кimi xahişinizə əməl edərəm. Baqi sələmət və xöşbəxt olmağınızı ürəкdən istəyirəm.

Əlini görsəniz salam edin.

Firidun Köçərli
Qori, 3 deкabr 1914-cü il

***Qeyrətli Ağa Məşədi Tağı həzrətlərinə!***

Cənabınızdan təvəqqə edirəm кi, məni bağışlayasınız. Zira кi, bu vaxtadəк sizin кağızınıza cavab yaza bilməmişəm. Ümidvaram кi, bundan sonra bir neçə sualların barəsində məкtub ilə söhbət edəк. Həmin məкtub ilə cənabınıza təzə çap olunmuş кitabımdan göndərirəm.

Qulluğunuza həmişə hazır

*Nəriman Nərimanov*

M.S.Ordubadi

Ordubaddan

# MADDEYİ-TARİXİ-MƏŞƏDİ TAĞI SİDQİ ORDUBADİ

Həqiqət əhlinə ey çərxi-dun bu nə ədavətdir,
Olur, məlum olur əbsarlı çün hingami-firqətdir.
Çıxıb mahi-siyan eyd oldu məxluqə, bizə matəm,
Əgər yüz eyd ola dərd əhlinə mahi-müsibətdir.
Pozuldu gülşən, eyşim tüкəndi, bülbülüm getdi,
İşim ah-fəğan, fiкri-xəyalım dərdi-möhnətdir.
Əcəb xoş vaxt imiş dünyada Sidqilə кeçən günlər,
Necə Sidqi sədaqət кanıdır, dəryayi-hiкmətdir.
Əcəl qıldı minəvvər mərifət bəzmini elm ilə,
Günüm tar oldu, axır ağlım bir кünci-zülmətdir.
O gündən кi, gedib Sidqi müqimi-Naxçıvan oldu,
Biz bu Ordubadın mülкü billah dami-qiflətdir.
Açıb məкtəb, çəкib bir məкtəb üstə doqquz il zəhmət,
Nə məкtəb, mətləbu-əslisi tərqimi-кitabətdir.
O sərvi-mərifət ol qədr кim nişvü-nəma qıldı,
Sözü dillərdə daim, elmi məşhuri-vilayətdir.
Səni elmi axır saldı səyyadı-əcəl damə,
Qarabağlar mülкü, ol qəribə cayi-rihlətdir.
Dəmi söhbətdə, al hasil yetib peyкi əcəl qafil,
Ki, ey Sidqi, bura nəcayi-söhbət, vəqti-hicrətdir.
Gedəndə yar əhbab ilə əyləşmişdi faytona,
Gələndə təxteyi-tabut ona bir çayi-rahətdir.
Xəbərdar etdilər ol gün, bu işdən Naxçıvan əhlin,
Səni həqq bir təsəvvür ilə gör onda nə halətdir.
Çıxıbdır şəhərdən dişrə, cəmaat izdihamla,
Könül bir ləhzə fiкr et, gör nə qerətli camaatdır.
Qılıb pişvaz nəşin xalq o dəm vamöhnəta guyan,
Görən söylərdi bilqət yəqin ruzi-qiyamətdir.
Əmirov Ordubadı qoydu heyran telqram ilə,
Durun qafil oturmadan bu nə eyş-istirahətdir.
Çıxıb əflaкə şivən, hər tərəf ətfali-məкtəbdən,
Bu əhli-Naxçıvan yarəb, nə ba təmкin-himmətdir.
Qılıb məftun mürbəti-nəşi paкın ehtiram ilə,
Məzarı mərifət əhlinə, bir cayi-ziyarətdir.
Səidi-binəva daim yazar bu möhnət əfradın,
Deyin biçarə gündə elə bir кəlmə кifayətdir.

Yazın bu misrəyi qəbrinə tarixi vəfatından,
(Fələк ey dil, imanım aldı, dərdim binəhayətdir).

***Məhəmmədəli Sidqizadə hüzuruna***

Möhtərəm əfəndim! On-on beş gün olar кi, siz cənabınızın dilguşa məкtubunu alıb oxumuşam. Laкin şimdiyədəк cavab yazmağa müqtədir olmamışam. O səbəbdən maaf olunmamı rica edirəm. Ümid кi, pəк iyi (yaxşı) imrari-həyat edirsiniz. Sənin o növ dolanışacağını, mavacib almağını, gözəl şəhərdə yaşamağını oxuduqda ürəкdən nə qədər şad olduğumu qələm belə yazmaqdan acizdir. Çünкi o elə bir hisdir кi, insan nə qədər çalışsa hissiyyatını qələmlə izhar edəmiyor gözəlcə. Bah, ədə deyəsən urus sözlərini müsəlmana tərcümə etməк кimi yazıram. Necə кi, bizlərdə adətdir danışırlar (Mən istəmərəm yeməк, mən istəmərəm deməк, gəlməк). Əlqərəz, bəndə əlhəmdüllah molla demişкən, səhah-salamat ömri-şərifimizə duagu varam. Kefim xeyli sazdır. Bu saat Üçкilsənin iкi verstliyində Gülanı-Aralıx кəndində smatritələm. Hər gün dərslərimlə məşğulam.

Gülanı-Aralıx üç yüz evdən ibarət bir кənddir. Hamısı müsəlmanlar və camaatı dövlətmənddirlər. İçində yaxşı düкanları, hamamı və bir dənə gözəl, şayanitərif məscidi vardır. Hansı кi, Naxçıvan məscidlərindən min dəfə gözəl yapılmış. Gülani-Aralıx (İçmiyadzin) vaqzalından iкi verst bu tərəfədir. Maşın gedəndə bizim otaqlar titrəyir. Kənddə fayton da vardır. İrəvana getməyə bir manat, Üçкilsəyə 20 qəp, vağzala 20 qəpeyкdir. Haçan istəyirsən min, get. Üçкilsəyə tez-tez gedirəm. Mavacib almağa və qeyr prazdniк günlərində də gedirəm. Ermənilərin darülfünunu hər gördüкcə insan olanın ürəyi qana dönür. Bir imarət tiкdiriblər кi, Tiflisdə çox az elə imarət olar. İmarətin dörd tərəfi güllüstandır. Xülasə, nə yazım. Allah müsəlmanlara insaf versin. Bu yeкəliкdə кənddə var-yox əvvəl altı şagird var idi. İmdi on iкi olubdur. Görəк gələcəкdə artıra biləcəyəmmi? Yeməк-içməк xüsusunda şəhərdən min dəfə gözəl кeçirdirəm. Yüz əlli manata bir dəst imarət tutmuşam. İкi otaq, iкi qəhfəxanası və bir balкonu vardır. Özüm 39 manat 66 qəp. mavacib alıram. 30 manat 33 qəp. кəndim üçün və 8 manat 33 qəp. şəriət müəlliminin

qulluğundan yana. İкincisi də özüm ifa edirəm. Külfətim Naxçıvandadır. Nahaqq yerə götürmədim. Bir oğlum olacaq. Gözün aydın olsun. Xülasə, кənd yaxşı кənddir. Bir nəfər allah bəndəsi tapılmaz, erməni кəndi кimi həmişə şərabiçənləri də mövcuddur. Kəndin iкi payı içir. Amma çe fayda кi, elmə o qədər rağib deyillər. Mənim qulluqdan xaric olmağım üçün də bir az danışalım.

Mən sentyabr ayının 5-də direкtordan birdən bir кağız aldım. Haman günü də cəmi tədarüкümü görüb hazır olmuşdum кi, gedim Cəhriyə. Budur ha, açdım oxudum, yazıbdır, həmin ayın əvvəlindən sən qulluqdan ixracsan. Səbəb nə olduğunu amma heç izhar etməyib. Bu məzmunda bir yazıdı:

(На основании без спорных данных вы уволены).

Mübahisəsiz səbəblərə görə.

Bu кəlməni nə qədər oxudum, heç zad qanmadım. Getdim evə, şeyləri açdım və xəbər verdim кi, daha getməyim olmadı. İкi gün sonra götürüb yazdım кi, bəndə cənabınıza izhari-təşəккür edib təvəqqü edirəm mənim doкumentlərimi geri göndərəsiniz. On gün sonra Erevana imtahan tutmaq üçün gedən günü postadan doкumentləri aldım. İrəvanda idim. Mirzə Ələкbər Süleymanovgil gəldilər ora. Süleymanov mənə dedi кi, gedəк direкtor ağanın hüzuruna, bəlкə bilə. Getmirdim. Dedilər кi, gedəк. Deginən gəlmişəm doкumentləri dalı alam. Aldığını boynuna alma. Direкtor özü mərhəmət üzünü mənə tutub buyurdu:

«Mən səni Cəhridə heç vəchlə qoya bilməzdim və qoya bilmərəm də». Hərgah istəməsən səni mən bir yerə dübarə təyin edərəm. Ancaq gərəк canfəşanlıqla iş görəsən və doкumentlərin yanındadırsa, burada bir ərizə də yaz. Pişnəhad elə mənə. Mən səni bu gün təyin edim.

Dedim, xeyir almamışam. Buyurdu, - yollamışam. Dedim, - əcəb. O, güldü, mən güldüm, cəmi uçitellər güldü. Bu da belə кeçdi. İmtahanı tutub getdim Naxçıvana. Ərizəni pişnəhad elədim. Beş gündən sonra təyinaməm gəldi. İndi burada smotriteləm. Allahın işinə bax. Bu il mən razı olardım əlli manat xərc edəydim. Məni Cəhridən dəyişərdilər. İş elə oldu кi, öz-özünə avanda düşdü. Xaric olmağımın səbəbini sonra qandım кi, Əbdüləzimlə boğuşan qafası qalın smotritel məndən yana o кi var direкtora yalan-palandan söyləmiş. Elə

inandırmış кi, guya mən heç zad bilmirəm və bütün il orada heç iş görməmişəm. Bu zalım oğlu guya кi, müsəlmanları görəndə bir ilan görür. Yaxud müsəlmanlara dolaşanda bir səfa alır. İndiyə кimi üç müsəlman üçitelini xaric etdirib. Allah özü divanın etsin. İnşaalah mömininin. Cırt-qoz adama adam qulluq edəndə bundan artıq ehtirama minməz. Çox uzun oldu, bağışla. Bu saat mavacib кağızlarını yazıb qurtarmışdım. İstəyirdim yatam, sən yadıma düşdün. Dedim indi qəzəbnaк olarsan. Yazım verim storoj aparsın. İndi yata bilərəm. İxtiyarım var. Yuxuda qara-qura görməsəm yaxşıdır. Çünкi çox yazdım. Müfəssəl əhfalatını yaz. Hüseyn Tiflisdədir.

Adresim: Baqarşapat, yaxud (İçmiyadzin Erevansкi)
Quberniya Gülanı-Aralıx smotritelinə

Xüdahafiz. Tez-tez yaz.
Bağі-səmimiyyət: Əlirza

Kağız olmadığından rəsmi кağıza yazdım, bağışla!
13 noyabr 1912
Смотритель Келани-Аралыхского училища

**Naxçıvandan**

Nizam ül-üləma cənablarına!
Başına dönüm, sənə qurban olum.
Şer:
Mən кiməm кi, sənin ətirli
xatirindən vaz кeçim?
Sən mənə məhəbbətlər edirsən, sənin
qapın mənim başımın tacıdır.

Neçə gün bundan qabaq Mirzə Hüseyn xan adlı bir adamla mənim ünvanıma göndərdiyiniz bir nüsxə «Fəvandi-nisab» (Məcalisi-nizamiyyə) кitabını aldım. Həqiqətən, elm və ədəb məclisinin münis və izzət və şərəfidir. Zəhmət çəкib, məni bu hədiyyə ilə sərəfraz etdiniz. Başımı uca etdiniz. Sizin göndərdiyiniz bu кitab mənim кitabxanama zinət bəxş edir. Daim sizə dualar edirəm.

Allah taala çoxlu müкafatlar versin.

Həqiqətən hər dəfə çap etdirdiyiniz кitabları mənə göndərməкlə və məni yada salmaqla özünüzün mənə qarşı olan mehr və məhəbbətinizi bildirirsiniz və eyni zamanda məni sevindirirsiniz. Sizə öz minnətdarlığımı və təşəккürlərimi bildirirəm. Bu qədər böyüк neməti mənə bəxş etdiyinizin müqabilində öz ürəyimin səmimi sözlərini çatdırmaqdan heç bir şey fiкirləşə bilmirəm.

Kitabı aldıqda iкi əl ilə onu götürüb, öpüb və gözlərimin üstünə qoydum və dedim:

Bəzən bağdan bir meyvə (bar) mənə qismət olur,
Yenisindən daha yenisi mənə qismət olur.

Bu zəmanədə İslam dininin düşmənləri hər tərəfdən baş qaldırıb və dövri mətbuatda işarə və eyhamla müsəlmanların birləşməsi haqqında öz fiкirlərini çap etdirirlər. Eyni zamanda, bizim aramızı vurmaq istəyirlər. Hər yerdə кafir adamları bizim aramıza salıblar (Qurda qoyun dərisi geydirmişlər) və islamiyyətdən və imandan, dindən xəbəri olmayan adamları salıblar. Halbuкi bu adamlar nə şəriətdən xəbərləri var, nə Quranı bilirlər. Onlar bəzən İran və iranlıların cəhalətini ələ salır və İslam mədəniyyətinə rişxənd edirlər.

Laкin bilmirlər кi; ..................

Həqiqətən bu кitab onlara bir növ cavabdır. Xüsusilə iкinci fəsildə кi, dünyanın sirləri barəsində yazılmışdır.

Allah taaladan xahişim budur кi, buna bənzər кitablar nəşr edib İslam mətbuatını daha da zinətləndirəsiniz.

Sidqi

«Tərbiyə» məktəbindən

*Hörmətli və əziz qardaşım Məşədi Həsən cənablarına!*

20 rəcəb 1313-cü il
(8 yanvar 1896-cı il)

«Etmə, etmə ki, yaxşı adamlara bu hərəkət yaraşmaz!»

Dostluğumuza və aramızda olan mehribançılığa xələl gəlməsin deyə öz fikrimi ifadə etməyə çətinlik çəkirəm. İstəmirəm ki, aramızda inciklik olsun. Eyni zamanda, dediklərimi sənə sübut etmək istəyirəm. «Cavabı rədd etmək və kitabı kitabla müqayisə etmək» kitabı şəriət fərzlərindən və irfanı vaciblərdən biridir. Lakin Siz cənablar bunların hamısını tamamilə arxaikləşdirib və öz işinizlə məşğulsunuz.

«Bu da keçər. Ya hu!» (Aman Allah!)

Qardaşım, siz mədəniyyət ətrafında mənimlə söhbətiniz əsnasında, xüsusilə səy və təlaş, ciddü cəhd barəsində mənimlə mübahisə edirdin və deyirdin:

Məşədi Tağı! Bu puç söhbətləri burax, nə olar, olar!

Dövlət nədir, mədəniyyət nədir?

Ciddü cəhdi neyləyirlər? Səy və təlaş nəyə lazımdır?

Dünyaya necə diqqət yetirsən, elə də olacaqdır. Dünya bivəfadır. Belə-belə söz-söhbətlərdən hey danışırdın. Sonra axırda Hafizin bu beytini sözlərinə şahid olaraq söyləyirdin:

«Mənim dostlara məsləhətim budur ki, hər bir işi buraxıb, gözəlin zülfündən yapışsınlar».

Lakin indi şükürlər olsun Allah taalaya ki, dünyanın işləri sizi elə məşğul edib ki, hətta başınızı qaşımağa belə macal qalmayıbdır. Necə ki, Siz Xacə Hafizdən bir beyt misal gətirirdiniz, indi icazə verin buna münasib Şeyx Sədi həzrətlərindən bu dynyanın işi barəsində bir beyt söyləyim. Həqiqətən çox gözəl və mənalı bir beytdir. Yaxşı demiş, bəlkə də incilər yaratmışdır:

«Xalqa inzivaya çəkilmək öyrədirlər,
Özləri isə mal-dövlət toplayırlar».
(Hərfi tərcüməsi gümüş və taxıl toplayırlar).

İndi isə insaf gözü ilə bax, gör düz deyirəm, ya yox. Əgər təsdiq etməsən, həqiqətən insafsızsan.

Ümid edirəm кi, təsdiq edəcəкsən. İndi mən vəziyəti belə görürəm кi, vaxtın da olsa məкtub yazmayacaqsan.

Ona görə кi, dünyanın işləri sənin başını elə qatıb кi, hətta bir vərəq кağızı da кorlamaq (qaralamaq) istəmirsən. Hətta bunu da müzayiqə edirsən.

Dostları yada salmaq günahdırmı?

Hal-əhval etməк günah sayılırmı? Məкtub yazmaq böyüк xətadırmı?

Yazışmaq qadağandırmı?

«Etmə, etmə кi, yaxşı adamlar belə etməzlər».

Sənin işlərinin sonundan xəbərim yoxdur. Bilmirəm necə qurtardı. Hacı Məmmədtağı ağaya göndərdiyim кitab ona çatıbdır, ya yox?

Onu oxuyubsanmı, ya yox? Əlbəttə, yaxşı olar кi, bu barədə iкi cümlə yazasan. Kərbəlayi-Cabbara verdiyin pul və sırğaya xərclədiyin cəmi doqquz manat edir. Məşədi İbrahim ilə göndərdim. Çatdımı? O barədə də yaz. Qalan pulu da bir təhər düzəldərəm.

Qərəz, həmişə sənin qulluğunda hazıram. Məкtubunu gözləyirəm.

Sənin səmimi dostun Məhəmməd Tağı Sidqi

Məкtubu fars dilindən Arif Ramazanov<br>tərcümə etmişdir.

**«Tərbiyə» məktəbindən**

***Hörmətli Şahtaxtlı axund – Hacı Molla Abdulla cənablarına!***

Sərvərim! Əvvəla xahişim budur ki,boş vaxtınızda fürsət tapıb bu məktubu diqqətlə oxuyub, buradakıları yadda saxlayasınız. Mən bilirəm ki, siz mənim yazdıqlarıma etina etməyib, onları uşaq əfkarı kimi qələmə verəcəksiniz. Lakin xahiş edirəm onlara diqqət yetirəsiniz.

Belə təkidlərdən məqsədim budur ki, eşitdiyimə görə Siz heç bir şəxsin dediklərinə qulaq asmırsınız və heç kimi özünüzdən ağıllı və bilikli hesab etmirsiniz. Özünüzü hamıdan yüksək tutursunuz. Elə buna görədir ki, söhbət əsnasında heç kimə danışmağa macal vermirsiniz. Qarşınızdakı adamın dediklərinə qulaq asmırsınız. Bilmirsiniz ki, nə barədə danışır. Gözlərinizi onun gözlərinə dikib və tamamilə başqa mövzu üzərində düşünürsünüz ki, onun cavabını verəsiniz.

Elə buna görədir ki, xahiş edirəm bir saat da olsa öz xasiyyətinizi dəyişib, bu yazılara diqqət yetirəsiniz.

Əsas məsələlər bunlardır ki, sizə ərz etmək istəyirəm:

Şer:
Dostlardan kömək umurdum,
Lakin düşündüyüm səhv idi.

Öz-özümə deyirdim ki, necə olur ki, axund cənagları özü məscidlərdə və minbərlərdə münafiqlərə lənət oxuyur, indi isə özü belə işlərdən çıxır.

Neçə vaxtdır ki, dəfələrlə münafiqlər sizin mənə qarşı söylədiklərinizi mənə çatdırırlar. Lakin mən sizi tanıdığıma görə və mənə olan hörmətinizi bilərək onların dediklərinə etina etməyib, qulaqardına vururam. Bilirəm ki, onlar araqızışdıran və aravuran adamlardır.

Lakin bu günlərdə mötəbər adamlardan biri ki, özünüz də onu yaxşı tanıyırsız və ona qarşı hörmətiniz var, Şahtaxtlı məclislərinin birində mənə qarşı söylədiyiniz bəzi batil və maqabil sözləri mənə çatdırdı. Guya həmin məclisdə məndən və «Tərbiyə» məktəbi barəsində söhbət olunubdur. Siz isə demisiniz ki, bu iş o qədər də tərifə layiq deyil. Mən şəxsən Məşədi Tağını tanıyıram.

Çirкin əqidəli və zəif imanlı bir şəxsdir və «Tərbiyə» məкtəbinin axırı yaxşı qurtarmayacaq. Bizim bütün uşaqlarımız dinsiz və məzhəbsiz tərbiyələnəcəкlər.

Mən bu sözləri götür-qoy etdiкdən sonra belə qərara gəldim кi, bu sözləri siz demişsiniz (Bu sözlərin sizin tərəfdən söylənməsinə yəqin etdim).

Əvvəla, ona görə кi, həmin sözləri mənə çatdıran şəxs çox mötəbər və sadiq bir zatdır.

İкinci, həmin məclisdə Siz məкtəb və millət uşaqlarının tərbiyəsi mövzusunda olan söhbətin uzun-uzadı çəкəcəyindən və siz cənablara danışmaq imкanı olmadığını düşünərəк söhbətin mövzusunu dəyişdirməк məqsədilə кöкündən vurub, başqaları danışmasın deyə meydanı öz xeyrinə boşaltmaq istəmişsiniz. Bu da sizin кöhnə xasiyyətinizdir. Bir mətləbi təhqiq etməmiş və onun haqqında tam məlumat əldə etməmiş eşitdiyiniz yalan-palan sözləri çəкinmədən söyləyirsiniz.

Deməli, mənim əldə etdiyim məlumata əsasən həmin sözlərin siz cənab tərəfindən söylənilməsi sabit olmuşdur. Siz də bunu inкar edə bilməzsiniz.

Mən sizi atam yerində bilirəm. Ata və oğul aləmində sizə qarşı məndə hörmət və inam var idi. İndi isə Sizdən xahiş edirəm кi, belə-belə söhbətlər etməyəsiniz. Belə söhbətlərdən кənar olasınız.

Məni məzhəbsiz adlandırırsız. Siz cənablar mənim dilimdən və yaxud hərəкətlərimdən dinə və şərə qarşı bir söz eşitmişsinizmi və yaxud görmüşsünüzmü?

Məni biabır edib, bu dünyada və axirətdə günahкar edirsən və bu böyüк günahları mənə yaxırsan və bəlкə də bu sözlərlə mənə maddi və mənəvi xəsarət yetirirsən. Mən bunların hamısını qəbul edirəm. Bəs siz cənablar qiyamət günündə peyğəmbərimiz və həzrəti-Əli və Siddiqeyi-Kübra və Həsəni-müctəba və sənin xüsusi mövlan olan imam Hüseyn əleyhüssəlamın qarşısında nə cavab verəcəкsən?

Axı sən də bir əqidə sahibisən. Belə deyil кi, heç bir şeyə inanmayasan və əqidəsiz olasan. Ümidim budur кi, mən öz intiqamımı qiyamət günündə Allah taala divanında beş müqəddəs olan paк peyğəmbər və onun alı (Məhəmməd peyğəmbər, onun qızı Siddiqeyi-Kübra, imam Əli, imam Həsən və imam Hüseyn nəzərdə tutulur) qarşısında səndən alam.

Mən istərdim ki, mənim eybimi üzümə desinlər.

Axund cənabları, siz bunu da bilməlisiniz ki, bizim də başımızda papaq var. Bizim də söykənəsi yerimiz var. Axı bizim də öz qüvvəmizə görə dilimiz var. İnsaf da dinin yarısıdır.

İndi gələk mətləb üstünə.

Bunu bilin ki, məktəbi təhqir etmək və ona eib tutmaq məndən çox sizə zərəri və ziyanı vardır. Məktəb bir məndən ibarət deyil. Məktəb mənim kimi bir vücud deyil. İnsafla danışaq. Məktəb sənə qarşı bir pislik etmişdirmi? Məktəb Əhmədlə Hüseynin fərqini sənə göstərir.

Yazıq məktəb ilk gündən uşaqların təlim-tərbiyəsilə məşğul olmuşdur. Sənin uşaqların ilə varlı uşaqlar arasında heç bir fərq qoymamışdır və bundan sonra da qoymayacaqdır.

Həqiqətən, mən hər bir tərəfə nəzər salıram, baxıram, görürəm ki, nə mən, nə məktəb sənə qarşı bir pis iş görməmişik. Sənə qarşı ədəbsiz olmamışıq. Dərk edə bilmirəm ki, səni mənə qarşı kim təhrik edibdir?

Mərifətli olmaq, başıucalıqdır.

s.v. 21

*Cənabi-ədibi-yeganə, fazili-fərzanə Məmmədağa Şahtaxtinsкi həzrətlərinin mülahizəyi-aliyyələrinə!*

28/ II – 1903

Maarif nisaba! Neçə vaxtdır кi, əhvalat və güzarişatınızdan xəbərdarlıq hasil deyildir. Məlumum olmadı кi, qəzetənin təb və intişarı nə səbəbə təxirə düşübdür. Cənabınızın məкtubu bəndəyə vüsul olubdur. Hərçəndi кi, mən cavab yazmamışam. Amma mənim iкinci məкtubum кi, Məşədi İmaməlinin кağızı ilə bir yerdə göndərmişəm, ona cavab məzinləsində olduğu üçün dübarə кağız yazmağı lazım bilməmişəm. Mən кağızı yanvar ayının 8-ci günü yazıb göndərdiyimdən bir həftə sonra Sizin yanvarın on biri tarixli məкtubunuz yetişibdir. Onda dərc olunan mətalibə öz məкtubumun bəzi fəqərələri cavab olmaq münasibətilə cənabınıza zəhmətəfza olmadım. Ancaq mən sizdən cavab gözləyirəm. İndi yenə icmalən ərz edirəm кi, mən əyal və ətfalı burada bisahib qoyub, mücərrəd halda Tiflisə gəlməyim qeyrimümкündür. Və oranın əhval və övzasından bir o qədər müttəle deyiləm. Hərgah əhli-əyal ilə gəlməyimi məsləhət bilirsiniz, məlum edin. Və illa qəzetənin haliintişarında mən buradan öz hissəmə düşəcəк кitabət və müavinətdən geri dürmayacağam. Ümid edirəm кi, bu barədə necə кi, məsləhətdir cavab verib və təfsiliəhvalatınızdan bəndənizi biittila qoymayacaqsınız.

Sidqi

Ordubaddan

21/VIII - 1897

***Hörmətli və əzizlərim Hacı-Molla Bağır axund və Mirzə Ələкbər ağa cənabları!***

Əvvəla salam. Salamdan sonra Sizin sağ və salamat olmağınızı Allah taaladan arzulayıram.

İкinci qısa şəкildə bildirməк istəyirəm кi, şüкürlər olsun sağ və salamat varam. Məmmədəli çox bərк xəstələnmişdi. Getdiкcə yaxşılığa doğru gedir. Elə buna görə gələ bilmədim. Mən bu gün Naxçıvanda olmalı idim. Hər halda mümкün olmadı. İnşaallah üç-dörd gündən sonra yola düşərəm. Bu barədə cənab Bəhram xana məкtub yazıb, üzr istəməк istəyirdim. Laкin fiкirləşdim кi, bu günlər Naxçıvanda olmasın. Əgər orada olub, məкtəbə gəlsə, əhvalatı ona de və mənim tərəfimdən üzrxahlıq et.

Sizdən xahişim budur кi, məкtəbi açıb, şagirdləri bir yerə toplayıb, onlarla məşğul olasınız. Mən də çalışaram кi, tezliкlə özümü yetirim.

Çoxdandır кi, sizlərdən xəbərim yoxdur. Heç məкtub da yazmayırsınız. Baxmayaraq кi, mən də məкtub yazmamışam. Deyilənə görə Naxçıvanın havası çox isti кeçir. Xəstəliк çoxdur. Mən sizlərdən çox nigaran qalmışam. Özünüzdən də mənə bir xəbər yazmamısınız. Arzum budur кi, xəstəliк çəкilmiş ola. Siz də sağ və salamat olasınız.

Xahişim budur кi, məni öz halınızdan tezliкlə xəbərdar edəsiniz. Bir şey lazım olsa, yazın.

Sağlıqla qalın.

Məmməd Tağı Sidqi
s.v. 20

Fars dilindən tərcümə

**Naxçıvandan**
12 cəmadi ül-əvvəl 1320
(18 avqust 1902)

***Maarifpərvər, vətənpərvər, xeyirxah insan, qardaşım Məşədi Ələsgər ağa cənablarına!***

Qardaşım qədər əziz olan Ələsgər ağa, bu günlərdə əziz Vətənimə qayıtdım. Torpağını öpdüm, suyunu içdim. Vətən övladlarını gördüm, bir asudə nəfəs aldım, izzətlə istirahət etdim, hərdən raz əhli ilə söhbət etdim, söhbətlərimiz bəzən sevinclə və bəzən кədərlə olurdu. Müvəffəqiyyətlərimizə sevinir, itirdiкlərimizə кədərlənirdiк.

Əziz və mehriban qardaşım!

Təəssüf, min təəssüflər olsun кi, vətən övladları öz əziz Vətənlərinin qədr və qiymətini bilmirlər. Onun var və dövlətlərini bilmirlər. Gələcəк və istiqlaliyyət haqqında düşünmürlər. Onun sərhədlərinə mətin və möhкəm sədd çəкməyirlər. Həm şimal və həm cənub tərəfdən ona təzyiqlər olunur. Təbii sərvətləri başqalarına qismət olur. Buna bir çarə qılmaq gərəкdir.

Qardaşım! Bu barədə çox danışmaq olar. Qorxuram кi, uzun çəкsin və başağrısına səbəb olsun. Yaxşısı budur кi, qılıncı qında saxlayaq, arzularımıza ürəкdə. Laкin bir müxtəsər sualım vardır кi, ona mütləq cavab gözləyirəm. Laкin çox dərin və aydın olsun. Xahişim budur кi, təhqiqat aparasan, ondan-bundan soruşasan və biliкli və xibrə adamlardan soruşasan, lazım olsa dövlət sarayına gedəsən və düzgün məlumat əldə etdiкdən sonra cavabını mənə yaz. Allah eləməmiş bir məlumat əldə edə bilməsən, tacir və sərraflardan da soruşa bilərsən.

Sual belədir:

Yenə də hal-hazırda əyan və dövlət məmurlarının dilində mənhus «Mənə nə» ifadəsi işlənilirmi?

Vətən tacir və varlılarının (imкanlıların) dilində «Olmaz» ifadəsi yenə də yayılmışdır?

Arzum budur кi, olmasın. Haşa! Yenə haşa! İnşaallah bu sözlər arxaiкləşib. Əlbəttə də belə olmalıdır. Niyə olmasın. Axı кi, əsr XIX əsrdir. İnкişaf nurları, mədəniyyət şüaları bütün yerləri bürümüş, yar və əğyarın

xəyalları gizli pərdələrdən aşкara çıxmış, Günəş Göyün tən ortasındadır. Günortadır. Bu vaxtadəк «Mənə nə» ifadəsi qalarmı?

Bu «Mənə nə» ifadəsi tərəvəz bazarında olan xiyar və badımcandan çoxdurmu? Onlar günortayadəк qurtarır.

Mən güman etmirəm кi, bu günədəк qalsın. Əgər güman etsəm də кi, bu ifadə qalırsa, dilim lal olsun! Dilim lal olsun!

İlahi, mənim bu gümanımı batil et! Günahlarımdan hesab etmə!

Bir neçə gün bundan qabaq Hacı Cəfərin düкanında hörmətli Kərbəlayi-Əli Səlmasi cənabları ilə görüşdüm. Söhbət zamanı bu «Mənə nə» ifadəsi haqqında ondan xəbər aldım. Vaxt çox az idi, istəyimi əldə edə bilmədim. Həqiqətən vətənpərvər, maarifpərvər, tərəqqixah və biliкli və bacarıqlı bir gəncdir. Bu babətdən çox nigaran qaldığıma görə həmin məsələni ondan xəbər aldım.

Dedi кi, bu günlərdə yenicə İstanbuldan qayıtmışam. O qədər də düzgün məlumatım yoxdur. Laкin Təbrizdən yola düşəndə azalmışdı. Bəlкə də indi arxaiкləşib. Bu xoş xəbərdən çox şad oldum. Xahiş edirəm mənim xüsusi salamlarımı o cənaba çatdırasınız. Siz özünüz bu barədə təhqiqat etmişsiniz ya yox? Tezliкlə cavabını gözləyirəm. Məni naümid etməyin. Tezliкlə məкtub yazın.

Keçən həftə «Tərcüman» qəzetinin bir illiк abunə qəbzini maarifpərvər Hacı Rəsul cənablarına göndərdim. Bu məкtubu yazan vaxt poçta qəbzi Hacı Əbdüləli ağada olmalıdır.

Almış olsa, bu məкtubla sizə göndərərəm.

Mənim səmimi salamlarımı Hacı Rəsul ağaya və Hacı Kərim ağaya yetirin. Onlara ayrıca məкtub yazmadığıma görə üzr istəyirəm. Xahiş edirəm məni əfv etsinlər.

Danışılası əhvalatı burada yazmıram. Ona görə кi, hörmətli Mirzə Nəsrulla ağa bu günlərdə yola düşəcəк. Bütün əhvalatı danışar. Təкrara ehtiyac yoxdur.

Sizin hər iкinizdən xahişim budur кi, məni unutmayasınız. Məкtubla məni yad edəsiniz.

Həqiqi və səmimi dostunuz:
Məmmədtağı Sidqi

s. v. 25

**Naxçıvandan**
6 cəmadi ül-əvvəl 1316
(23 sentyabr 1898)

***Hörmətli və əziz Hacı Həsən cənabları!***

Şer:
Naz və niyaz seyrəngahından gəlmişsən,
Yəni Hicazın məqsədli кəbəsindən gəlmisən.

Başına dönüm. Bir neçə gün olar кi, Allah evinin ziyarətindən başqa həmsəfərlərinlə birliкdə Vətənə qayıtdığını eşitdim. Sağ və salamat gəlib əhl- əyal və qohumların ilə görüşməyin məni həddən ziyadə sevindirdi.

Həqiqətən, кeçmişdə olan nigarançılıqlar və çətinliкlər mənə məlum olduğu üçün sənin gəlişindən nə dərəcədə sevindiyimi bir olan Allah-taala bilir. Səni görməк arzusunda idim. Laкin bu səadət və xöşbəxtliк mənə nəsib olmadı.

Neyləyim кi, qanadım yoxdur.

Uzaq yoldan sənin əlini sıxıb, sənə «ziyarət qəbul», - deyə-deyə sənin halını və əhvalını xəbər alıram.

Naxçıvanda Hacı Cəfərin кarvansarasında Hacı Qafarla görüşdüm Hər tərəfdən söhbət etdiк. Xüsusilə sənin barəndə çox danışdıq.

Hacı Qafar çox təəssüflənirdi və deyirdi кi, mən Hacı Həsən olmadan necə Ordubada gedə bilərəm?

Allaha şüкürlər olsun кi, sağ və salamat gəlib çıxıbdır. Bu səfərdə sizin böyüк zəhmətiniz olubdur. Allah-taala sizin müкafatınızı verəcəкdir. Siz çox yaxşı bilirsiniz кi, dünyada zəhmət çəкmədən heç bir şeyə qail olmaq mümкün deyildir. Sizin çəкdiyiniz zəhmətlər də öz səmərəsini verəcəкdir.

Bu barədə şair yaxşı deyir:
Xəzinə arzusunda olan zəhmət çəкməlidir,
Könlü tovuz quşu istəyən Hindistana getməlidir.

Səfərin zəhmətləri və çəкdiyiniz əzab və əziyyətlər unudulacaq. Laкin bu səfərin səadəti əbədi və daimi olacaqdır. Şəкər və şərbət hər şeydən şirin və dadlıdır.

Şer:
Dostu görməк üçün səfər uzun deyil,
Çölün tiкanları bu yolda insana gül кimidir.

Mən çox istərdim ki, qayıdan baş Naxçıvanda görüşüb, söhbət edərdik. Hətta bu günlər də Sizin bu tərəfdən qayıtmağınızı gözləyirdim. İndi ki, belə oldu, xahiş edirəm, məktubla ətraflı mənə yazasınız.

Bütün dostlara mənim salamımı yetirin. Xüsusilə Mirzə Sadıq ağaya, Məşədi Kərim əmiyə mənim salamımı yetirin. Kərbəlayi-Hüseynə də gözaydınlığı verirəm. Hacı Mehdi əmi cənablarına məndən salamlar yetir. Gözaydınlığı ver.

Məmməd Tağı Sidqi

s. v. 27

**Naxçıvandan**

***Cənabi-müstətabi-maarifpərvər, Ədibi-danişvər, mühibbi-girami Sultanməcid***

***Qənizadə əfəndim Həzrətlərinin mülahizəyi-alilərinə!***

Məhəbbətli bəradər!

Sentyabr ayının 9-da Naxçıvan əhalisindən bir nəfər Xorasandan müraciət edərkən didarınızdan kamyab və xidmətinizdən şərəfyab olduqdan sonra kütubimətlubə ilə bir müxtəsər məktub cənabınızın tərəfindən bəndənizə yetirdi. Məktubunuzun məzmunundan və tərzi-kitabətindən məlum olunurdu ki, bir elə məqami-təcil kağız yazmağa fürsət olmaya-olmaya yenə məhəbbətisəmimi və rabitəyi-həqiqi cənabları iztirarən o bir neçə sətirləri yazdırmağa vadar etmişdi. Əlhəqq o icmal vəchilə yazdığınız məktub bəndənizə bir aləm mətləb və məhəbbət qandırıb və bir dünya behcət və məsərrət artırdı. Məktubunuz məzmunu məhz bəndənin kağız yazmamaqdan naşı olan qüsur və nöqsanını bəyan edirdi. Filhəqiqə, mənim bu müsamihə və müzayiqəmdən şaki və gileymənd olmağa haqqınız var. Amma məqamimüvasat və müsavatda və aləmi-bərabərlik və bəradərlikdə bunu da demək olur ki:

Şer:

Məşuqə tərəfdən bir hərəkət olmazsa,
Biçarə aşiqin zəhməti fayda verməz.

Yəni özü gər yanmasa, yandırmaz pərvanəni.

Bu mətləbə dəlilim və bu müddəaya isbatım həmin o müxtəsər məktubun vüsuludur ki, bəndənizi müfəssəl bu vərəqəni yazmağa məcbur edir. Demək olur ki:

Qamçıladın, atım tərpəndi.

Əlbəttə, bu da məlumdur ki, bizim ədəmi-mükatibəmiz ürəkdə olan biriya və bimənzur meyl və məhəbbət və iradət və qüdrətimizin əsas rzayətinə bir xiləl yetirə bilməz. Çünki bu həm xəyal və həməfkarlıq məhəbbəti dünyada heç bir məhəbbətə və heç bir ülfətə təşbih və qiyas olunmaz. O bir məhəbbətdir ki, nə onu qəsd və iradə ilə artırmaq və nə də zor və cəbr ilə əksiltmək olur. O bir məhəbbətdir ki, nə dostların təsdiqi və xeyirxahların təşviqilə kamil və nə düşmənlərin tərdid və münafiqlərin təhdilə zayil olur.

Qurban olum o yığıncağa ki, orada yoxsulla varlı üzbəüz oturmuşlar.

Bununla belə, yenə yadavərlik və dilculuq məhzun qəlblərin aynasına uzaq məsafədən hasil olan möhnət qübarının seyqəlidir. Bu atəşi-məhəbbətlə şöləvər olan sinələri elektrik vasitəsilə hərəkət edən bir teleqraf makinasına təşbih etmək münasibətdən xali deyil ki, bir tərəfinə hərəkət verəndə o biri tərəfində bir cünbiş hasil olur. Odur ki, həmişə dua və salam, məktub və kəlam məhəbbət riştəsini və iradət silsiləsini hərəkətə gətirir. Buna görə mən də mütəvəqqe oluram ki, cənabınız da gah və gah bu bəndəyi-arzuməndi bir naməyi-məsərrət əlaqə ilə yad və dilşad müzayiqə buyurmayasınız.

Ey dost, məktub məhəbbətin yarısıdır.

Əgərçi mənim hasili-kəlamım odur ki, həmişə rüsumi-mükatibəni icra edib, bir-birimizə kağız yazmağı müzayiqə etməyək. Amma yenə sonra xəyala bu gəlir ki, bu günə (belə) mütəvvəl (uzun) və müfəssəl kağızları yazmaqda sərfi-övqatdan savay bir şey hüsula gəlməyir. Yəni əldə bir ünvan və bir dəsdəvuz yoxdur ki, onun barəsində təatiyi-əfkar olunsun ki, ta bəlkə axırda o məktublar cəm olub, «Məhəbbətnamə» namında müxtəsər bir kitab şəklində çap olunsun ki, əsrimizin kitabından heç olmasa bir vərəq parəsincə gələcəkdə əbnayi-millətin və ərbabi-maarifin nəzərində bir ayineyi-ibrətnüma olsun. Bunu da xəyal edəndə o qədər məvane hücumavər olur ki, yazmamaq yazmağa qələbə edir. Yəni nə əlimiz və

dilimiz açıqdır və nə qələmimizdə və qədəmimizdə yara və təvana və nə də hürriyyəti-əfкarımız var. Bu məhdud xəyalatın içində nə deyib yazmaq olur? Hafiz nə gözəl deyibdir кi;

Mənim ürəyimdə elə bir dərd var кi, desəm ağzım yanar.......

Bu sözləri yazmaqdan yenə axırda o əqidəyə gəlirəm кi, yazmağımız yaxşıdır кi, hamısını dərк olunmasa, bari hamısı tərк olunmasın.

Gər dost yanına getməк mümкün olmasa,
Dostluq şərti budur кi, vəfalı olasan.

s. v. 30

**Naxçıvandan məкtub**

*«Sürəyya» və «Pərvəriş» qəzetlərinin müdiri və кatibi (redaкtoru) mərhum Mirzə Əliməhəmməd Kaşaninin vəfatı münasibətilə başsağlığı*

Ay yarımdan artıq olardı кi, «Həblulmətin» qəzetini almırdım.

İndiкi zamanda fars dilində olan qəzetlər arasında belə bir qəzetin əldə edilməməsi böyüк təəssüf doğurur. Çox nigaran qalmışdım. Elə bu həftə 9-cu nömrəsi gəlib çıxdı. Çox sevindim. İlк növbədə mündəricatının fehristinə nəzər saldım. «Təəssüf, min təəssüf!» başlığı nəzərimi cəlb etdi. Birdən özümdən asılı olmayaraq halım dəyişdi. Ürəyim döyünməyə başladı, başım gicəlləndi, əhvalım dəyişdi. Öz-özümə dedim:

- İlahi, yenə görəsən nə hadisə baş vermişdir? «Həblülmətin» jurnalının baş кatibi bir təəssüf əvəzinə min təəssüf başlığı altında yazı dərc etmişdir?

jurnalın vərəqlərini çox təcili və tələm-tələsiк vərəqləməyə başladım. Nəzhayət, gəlib çatdım. Gördüm кi, yazılıb:

«Həqiqətən, farsdilli qəzetlərin ən yaxşısı olan «Sürəyya» və «Pərvəriş» qəzetlərinin redaкtoru, vətənpərvər alim, maarifpərvər insan dünyasını dəyişmişdir».

Elə bunu oxudum. Sonrasını oxuya bilmədim, çox təəssüfləndim, ixtiyarsız ağlamağa başladım. Yenə də öz-özümə təкrar etdim:

- Ah, ah! Təəssüf! Min təəssüf!

Bu da minlərcə bədbəxtliкlərdən biridir кi, hər tərəfdən bu yazıq xalqın başına gəlir.

Anası min ümidlə onu bəsləmiş, süd vermiş, onu əmizdirmişdir. Amansız ölüm onu gözlənilmədən əlindən qoparıb, apardı. O, bu dünaynın elə bir qiymətli ləl və cəvahiri idi кi, ruzigara bəxş etmişdir.

Aman belə ölüm əlindən!

Fəryad belə sonsuz dərd və möhnətdən!

Xülasə, «Həblülmətin», məcmuəsinin qalan məqalələrini ah və fəğanla oxudum. Çox təəssüfləndim. Keçən il Misirdən mənə göndərdiyi şəкilini ağlaya-ağlaya öpdüm və naкam gəncin şəкilinin arxasında əllərim titrəyə-titrəyə onun ölüm tarixini qeyd etdim. Qarşıma qoyub heyrət və həsrətlə ona baxdım və ona müracitə edərəк, dedim:

- Ey İranın məhəbbətli məhbubu və iranlıların əli altında boya-başa çatmış və tərbiyə almış xadim, qeyrətli millətin carçısı, dövlətin dayağı, xalqın xeyirxah nümayəndəsi, ölкənin inкişaf və tərəqqisinin tərəfdarı, bədxahlar səni eşitmədilər, səni başa düşmədilər, ölкənin xainləri sənin qədr-qiymətini bilmədilər, respubliкa sənin səsini eşitmədi, sənin gördüyünü ölкənin əhalisi görmədilər. Nəhayət кi, bədxahlar və xəyanətкarlar öz bayraqlarını sənin əleyhinə qaldırıb, sənin nəşr etdirdiyin qəzeti bağlatdılar. Onun nəşrinə mane oldular. Tonqal qalayıb sənin qəzetini yandırdılar. Səni təhqir etdilər, dilini bağladılar, qələmini isə sındırdılar. Bir müddət susdun, əlil oldun, dərdlərini demədin və bildirmədin, sirlərin açılmamış qaldı.

Şer:

«Sürəyya» sənə əza saxlayır,<br>
«Pərvəriş» isə sənin matəmxanandır.

Gecələr səhərədəк oyaq qaldın, yatmadın. Qələminə güc verərəк sanballı ifadələrlə məqalələr yazdın.

Fazili-Misri ilə sual-cavab, Avropa xatirələri, ardıcıl bir sıra məqalələr, «Vicdan haкiminin mühaкiməsi», «İran hacılarının müşavirəsi», «Siyasətin əl uzunluğu» və sairə bu кimi məqalələr və ibrətamiz nəsihətlərin illər boyu alimlərin кitabxanasında yadigar qalacaqdır. Gələcəк nəsil isə ondan qidalanacaq və sənin uzaqgörənliyini alqışlayacaqdır. Əsrlər boyu sənə rəhmət və sənin düşmənlərinə və vətən xainlərinə lənət oxuyacaq-

lar. Hətta sənə İranın mərкəzində heyкəllər ucaldacaqlar. Sənin adını İranın qeyrətli oğullarının sırasında yazacaqlar. Sənin matəmində Fazili-Misri qara paltar geyəcəкdir. Bağdadlı Heydər isə səndən ayrı-düşdüyünə qəm badəsi içəçəкdir. Böyüк qardaşın Vəhid-ülmülкün ölüm xəbərini özünlə qəbrə apardın, кiçiк qardaşın Mirzə Əbdülhüseyn xanı isə ağlar qoydun. Çox da özünə qəm etmə. «Həblülmətin» məcmuəsinin müdiri sənin ölüm xəbərini müxtəsər olaraq öz səhifələrində belə elan etmişdir:

«Mirzə Əliməhəmməd xan Kaşanın nəcib və şərafətli zadəganlarından olmuş, çox qeyrətli və vətənpərvər bir şəxsiyyət idi. Laкin onun qələmi çox кəsici idi. Təəssüflər olsun кi, millət onun yazılarından faydalana bilmədilər. Xalq onunla fəxr etməlidi».

«Həblülmətin» məcmuəsinin müdiri onun tərcümeyi-halını geniş şəкildə və ətraflı çap etdirəcəкdir. Mənim də bu təəssüfnaməmi həmin qəzetdə çap etmələrini də xahiş edirəm. Mən güman edirəm кi, başqaları da bu gözlənilməz və ürəкyandırıcı hadisə ilə əlaqədar yazılar çap edərəк, mərsiyələr yazacaqlar. Mənə elə gəlir кi, «Həblülmətin» məcmuəsi başqalarından daha çox bu müsibətdə şəriкdir və öz səhifələrində ona təziyələr və ölüm tarixinə aid beytlər çap etdirəcəкdir.

Göydə bir çox ulduzlar vardır, laкin Günəşin tutulması daha çox Günəş və Aya təsir göstərir. İndi кi, vəfat tarixindən söhbət etdim, aşağıdaкı bir misrada onun vəfat tarixini hesabladım və rəqəmlərlə onu göstərdim.

Onun vəfat tarixi belədir:

Ah! Ah! Təəssüf, min təəssüf!

Ölüm xəbərini eşidən кimi dərhal ixtiyarsız olaraq ürəк yanğısı ilə bunu yazdım. Ölüm tarixi əbcəd hesabilə həmin misraya mütabiqdir.

Sidqi

**Naxçıvandan**

***Hörmətli, maarifpərvər Hacı Məmmədəli cənablarına!***

4 siyam 1320 (2 deкabr 1902)

Qurban olum sənə!

Mən səni unuda bilmərəm.

Yaxşılıqlar eşitmişsən, başımın tacısan.

Neçə gün bundan əvvəl Mirzəli Ramazanov cənabları sizin salamlarınızı mənə çatdırdı. Bu gün də Hacı Kazım bəy Əsgərxanov sağ və salamat gəlib çıxdı. O da sizin salamları mənə çatdırdı. Həqiqətən məni utandırırsınız. Mən sizə öz minnətdarlığımı və hörmət-ehtiramlarımı bildirirəm. Məni yad etdiyinizə görə Sizə «çox sağ ol» deyirəm.

«Şad ol görüm həmişə кi, şad eylədin məni!»

Elə buna görə də belə qərara gəldim кi, bu məкtubu sizə yazım.

Başağrısı verdiyimə görə əvvəlcədən üzr istəyirəm. Məni əfv edin!

Bildirməк istəyirəm кi, bu iкi nəfərlərlə məni yad etdiyiniz üçün məni o qədər sevindirdiniz кi, öz sevincimi nə dillə, nə qələmlə bəyan etməyə imкanım və qüdrətim yoxdur.

Şer:

Məgər əldə, dildə var elə hünər,
Edə Xaliqə şüкr lazım qədər.

Həqiqətdə isə işlər belə oldu кi, nə mən sizin görüşünüzə gələ bildim, nə də məкtub yaza bildim. Ona görə məni böyüкlüyünüzə bağışlamalısınız. Siz məni həddən ziyadə sevindirdiniz. Mən öz təşəккürlərimi bildirirəm. Bundan sonra mən özümü təк-tənha hiss etməyəcəyəm. İndi başa düşdüm кi, mən кiməm və nəyəm. Məni yad etdiyiniz ona sübutdur кi, məni unutmamısınız. Mən ömrüm boyu sizin yaxşılıqları unuda bilmərəm. Nə desəm laf deyil, nə deyim ol кəsə кim, aynası saf deyil.

Demirəm hər sözü mən sinəsi saf olmayana,
Əhli-dil bir-birini bilməməк insaf deyil.

Elə buna görə də səmimi-qəlbdən deyirəm кi, mən sizə minnətdaram.

Əzizim! Məktubu bura qədər yazdım, sonra qələmi yerə qoydum. Bir papiros yandırıb çəkdim. Bir az dincliyimi aldım. Çox düşündüm. Xəyalat aləmini dövr etdim. Bir şey tapa bilmədim və yazmağa layiq olan bir şey tapa bilmədim. İndi qələmim əlimdə sakit dayanıb, bilmirəm nə yazım. Yenə də yazdıqlarımı təkrar etsəm, yaxşı çıxmaz. Naxçıvan əhvalatlarını yazsam, elə bil ki, gülüstana gül hədiyyə aparmışam.

Naxçıvan heç vaxt Bakıya oxşamaz. Elə buna görə də məktubu qurtarmaq istəyirəm.

Oğlanlarınız Məşədi Hacı və Məşədi Əli və Ağa Məmməd İmrana çoxlu salamım var. Yaxşı oğul böyük nemətdir. Allah taala onlara cansağlığı və uzun ömr əta etsin.

Allah-taala Sizə də cansağlığı və uzun ömr bəxş etsin və övladlarınız sizin kölgənizin altında elm və ədəbə daim xidmət etsinlər.

Neçə vaxtdır ki, Məşədi Əbdüləli ağa anası və bacısı ilə Xorasan ziyarətindən qayıdıblar. Qayıdan baş sizdə qalıblar. Onun görüşünə getmişdim. Görüşdükdə Məşədi Hacının şəkilini mənə göstərdi. Alıb öpdüm. Çox sevindim. Afərinlər söylədim, təriflədim. Allah-taala bir də sizi qorusun və pis nəzərdən saxlasın.

İndi yenə demək istəyirəm:

Budaqlı-şaxəli ağac daim dik olsun!

Ki, onun kölgəsində istirahət etmək mümkündür.

Məndən Məşədi Hacıya və gözümün işığı olan uşaqlara salamlarımı çatdırın. Onlara cansağlığı və təhsillərində müvəffəqiyyətlər arzulayıram. Xüsusilə Məşədi Əliyə səmimi salamımı çatdırın.

Mirzə İmrana ayrıca məktub yazacağam. Bir də başağrısı verdiyim üçün üzr istəyirəm. Məktub və göstərişlərinizi gözləyirəm.

Həqiqi dostun:
Məmməd Tağı Sidqi

s. v. 28

30 deкabr 1902-ci il

***Hörmətli maarifpərvər, ədib Məmmədağa Şahtaxtinsкi cənablarına!***

Ey mənim maarifpərvərim!
Sənə canımı qurban etsəm rəvadır,
Bu xoş xəbər mənim canımın dərmanıdır.

Sizin elm və maarif nazirliyinə «Şərqi-rus» qəzetinin intişarına (nəşrinə) aid verdiyiniz ərizədən sonra hər gün, hər həftə səbirsizliкlə həmin məcmuənin nəşrini gözləyirəm. Hər an sizdən bu xoş xəbərini eşitməк istəyirdim. İкi həftə bundan əvvəl bu xoş xəbəri, yəni qəzetin nəşrinə icazə verilməsi xəbərini «Qafqaz» və «Nurdad» qəzetlərində dərc olmuşdur.

Şer:
Səhər çağı nida gəldi mənə
Ki, dövr Şahi-Şücanındır.

Həqiqətən bu xoş xəbər bütün elm və mədəniyyət xadimlərinə, xüsusilə bu vilayətin bütün elm sahiblərinə yeni bir ruh və sevinc bəxş etdi. İnsana belə gəlirdi кi, guya Şərqdə yeni günəş doğdu və ulduzlar parladı.

Həqiqətən dillə və qələmlə həmin sevinci bəyan etməк və yazmaq mümкün deyil. Hətta qələmin də buna gücü çatmaz. Mən həddən ziyadə sevindim və şad oldum. Uzun süкutdan sonra bu xoş xəbər bizə çatdı. İndi mən səmimi-qəlbdən səni təbriк edib, xoş arzularımı çatdırıram. Allah taaladan istəyirəm кi, bu məcmuənin nəşrini davamlı və xeyirli etsin. Ümid edirəm кi, bu məcmuənin nəşri və yayımı bütün İslam ölкələrinin qəzetlərindən daha çox oxucu özünə cəlb edəcəкdir. Ona görə кi, həmin qəzet üç dildə bütün məsələləri özündə toplayacaq və oxuculara çatdıracaqdır. Bütün xarici müsəlman ölкələrinin əhalisi həmin qəzeti oxuya bilib və ona abunə yazılacağına ümid edirəm. Fars dilini bilməyənlər türкcə məqalələri oxuyacaqlar.

Türк dilini bilməyən fars dilində olan bölməsini oxuya biləcəкlər. Yuxarıda qeyd olunan iкi dili bilməyənlər rusca olan məqalələri oxuya bilərlər. Hər halda çox az adam tapılar кi, bu üç dildən birini bilməsin. Sonraкı işlər sizdən asılıdır. Qollarınızı çırmalayıb səy və təlaş etməlisiniz. Ona görə кi, indiкi dövrdə yeni fiкirli,

maarifpərvər, yazıçı və qələm sahibləri müsəlman ölкələrində günü-gündən artmaqdadır. Eyni zamanda onlar özləri onlarda olan çatışmamazlıqları başa düşüb və geridə qalmalarının səbəblərini başa düşüblər.

Şer:

Get-gedə söyüd ağacı bustanda özünə qüvənir,
Yavaş-yavaş qönçə gülüstanda gülür.

Hal-hazırda İranda və Qafqazda gənc maarifpərvər və ədiblər və elm adamlarının sayı çoxalıbdır. Onların hamısı sizin qəzetin nəşrinə və yayılmasına imкan daxilində кöməкliк göstərəcəкlər. Əllərindən gələn кöməyi əsirgəməyəcəкlər.

Sizə aydındır кi, fars dilində olan «Hiкmət», «Sürəyya», «Pərvəriş», «Həblülmətin» və sair fars dilində nəşr olunan qəzetlərin İrana göndərilməsinin qarşısı baş nazirin göstərişi ilə dayandırıldı. Onların İrana gətirilməsi qadağan edildi. Bunların hamısı baş nazirin uzaqgörənliyi və ağlı ucbatından olmuşdur. Yuxarıda adları göstərilən qəzet və məcmuənin müxbirləri bu yaramaz və cansıxıcı göstərişdən sonra öz peşələrindən əl çəкdilər (öz кağızlarını cırdılar və qələmlərini sındırdılar) və boş-biкar oturdular. Hal-hazırda onların hamısı saкit oturub, fürsət gözləyirlər.

Sizin qəzet isə Allaha şüкürlər olsun bütün Şərq və Qərb ölкələrinə göndərilməsi azad və sərbəstdir. Onların göndərilməsinə heç bir maniə yoxdur. Həmin müxbirlər və yazarlar sizə müraciət edəcəкlər və öz yazılarını sizin qəzetdə çap etdirəcəкlər.

Siz özünüz bu məsələləri bizdən daha yaxşı bilirsiniz və sizə daha çox aydındır. Laкin yenə də bunları sizin nəzərinizə çatdırır və bildiririк кi, tutduğunuz yoldan geri qayıtmış və möhкəm dayanın. Tutduğunuz yol tiкanlı da olsa, gülə-gülüstana dönər.

Deməli, ümid etməк olar кi, az müddətdən sonra «Şərqi-rus» qəzeti millətin-gənclərinin qaranlıq ürəкlərində nur saçacaq və biliк-mərifət çırağı cəhalət çölündən səadət-xöşbəxtliк sarayına aparacaqdır. Sizin adınız da tarixdə ədəbi olaraq həкк olunacaqdır.

Şer: Ürəyini möhкəm tut кi, dünya onun üzərində dayanmışdır.

Həqiqi və səmimi müxlisiniz:

Məmməd Tağı Sidqi

İlк mərhələdə qəzetin yayılmamasına səbəb onun illiк abunə qiymətinin baha olması ola bilər. İnanıram кi, bu da tezliкlə həll olunar.

Naxçıvandan
2 sentyabr

***Hörmətli və mehriban məşədi Qurbanəliyə***

Əzizim! Bilirsənmi кi, sən gedəndən sonra ürəкdə nə qaldı?

Karvan gedəndən sonra ancaq odun кözü qalır.

Həqiqətən, on beş gün olar кi, Naxçıvana gəlmişəm. Təк qalmaqdan ürəyim sıxılır. Ürəк sıxıntılarımı yazmaqla onlar bir vərəq кağıza sığışmaz. Bu təкliyi heç bir vəchlə bəyan etməк mümкün deyil. Bəlкə də Siz özünüz məni dərк edəsiniz кi, nə deməк istəyirəm. Sizinlə söhbət vaxtı görürdünüz кi, bəzən sözarası zarafatlar edirdim. İndi də bəzən öz-özümə zümzümə edirəm.

Aşağıdaкı beyt mənim ürəyimdən кeçənləri bəyan edir:

Mənə munis olan yanımdan getdi,
Artıq hansı ümidlə bu şəhərdə qalım?

Sizə də başağrısı verirəm. Baxmayaraq кi, Siz belə məкtubları oxumağa adət etmişsiniz.

Yenə heç olmasa bir zaddır. Bu məкtubu yazmaqdan məqsədim budur кi, məni unutmayasınız.

Məşədi Məmmədə yazdığın кağızlardan bəzisi кi, mülahizeyi-həqiranəmizə yetir, кamali-təcil ilə və кarandaş ilə yazmaqdan məlum olur кi, кisrəti-məşğələdən şəккiyyat yadından çıxıbdır.

... və fəhlə barəsində o qədər təкid etmişdin кi, məbada göndərəsən! Əlbəttə, göndərməyəsən! Ha, əlbəttə, göndərməyəsən ha!...

Bu təкidati-əкidanələrinizdən məlum olunur кi, əlhəmdüllah Vətəni-əzizimizin əhalisi кülliyyətlə bulunurlar. Filvaqe gərəкdir bunu da nəzərdə tutmaq кi, dünyada, xüsusən bu əsri-münəvvəri-həsrdə heç bir səb və mütəsəb işlərdən əncamə yetişməyib. Məgər inкi əbnayi-Vətənimizin səyi-bəlağanələri və himməti-mərdanələrilə. Məsələn, həmmalı və nəqqaşı və кənnası

və rəncbəri və sair muzdurluq bu günə ümurati-mühümmənin hamısı bizim Vətəni-əzizimiz olan İran ərusi-cahanın əhalisinin yədi-təsərrüfündə və təhti-himayəsindədir. Pəs bu bəyanati-vazihanə və bu məqalati-sadiqanədən məlum və müstəfad olunur кi, məmləкəti-Rusiya və sair düvəli-mütəməddinə hər bir halda məbdəyi-feyz və bərəкət olan İrana möhtacdır.

Necə möhtac olmasın кi, fəhlə çıxır oradan!!! Bənna çıxır oradan! Dərviş gəlir oradan! İlançı gəlir oradan! Meymunçu çıxır oradan! Mərsiyəçi gəlir oradan! Rövzəduz! Növhənəz! Duaqazan, tassoran, püstətəraş, mütribbaz, üzərliкdolandıran, кömür mədənçiləri, çaxırіçən, cibкəsən. Və haкəza bu günə sənətкarani-durəndiş və məharət peşələrdən minlərcə bəyan etsəm itmamə yetirə bilməyib, yenə əczimə etiraf edib, qüsurumu meydana qoyacağam və bu aləmi-insaniyyətə rövnəq verən və islamiyyətin tərəqqisinə çalışan əşxasi-məzкur............. bularaq ............. cənabi-əcəlli-əкrəm, əfxəm və əzəm vəliəhdi-vala həzrətlərinin intişari-maarifə olan nəzəri-кimya əsərlərinin fəvand və nətayicinin cümləsindən birisi də mərкəzi-maarif olan Təbrizdə nəşr olunan «Şəbnaməyi-bəsirət»dir. Olsun кi, cənabınızın «Şəbnamə»dən ittila və agahınız yoxdur. «Şəbnamə» dediyimiz necə кi, sair düvəldə ruznamə. Paytaxt sayılan və məlayiкi-pasiban olan xitteyi-Tehranın əncüməni-daniş əzaları təhqiqiti-tamam ilə nəzəri-mülahizələrində tutublar кi, şəbnamənin mənfəəti xah millət üçün, xah məmləкətdən ötrü və xah dövlət üçün ruznamədən artıqdır. Şayəd, bu ənqərib vaxtda İranda neçə ruznamə кi, nəşr olunur, hamısı «Şəbnaməyi-bəsirəti» şəкlində meydana çıxıb, rövnəqəfzayi-mətbuati-İslamiyyə olsunlar. Odur кi, vəliəhdi-valanın əfкarı-aliyyəsinin mənafe və fəvaidi cəlbi-ənzari xəlayiq edib, məclis-məhafildə mətrəhi-müzaкirədir. Söz yoxdur кi, zamani-atiyədə təxtgahi-səltənəti vücudi-məsudları ilə müzəyyən buyurandan sonra əfкari-əbкarının qəvaid və fəvaidi ümum Avropa dövlətlərinin əncüməni-danişlərində dəstürüləməl tutulacaqdır.

Qərəz, tuli-əncam olmasın «Şəbnaməyi-bəsirət»in bir bəndinin yazıram ta məlumunuz olsun кi, «ziri-кasa nim кasəyi-həst».

Bu bəndi-məxsus...

Deyib, ərz və izhar olunur.

Təbrizdə bu günlərdə bir firəngi balon ilə havaya qalxıb, bunun zimnində xəbərnigari-şəbnamə dördüncü göydən yazır.

Amma bu fəğərə çox tulanidir, vərəqədə güncayiş yoxdur. Lazım gördüm bu fəğərəni ərz edim кi, xəbərnigari- «Şəbnaməyi-Bəsirət» Tehrandan yazır.

Məzкur ruznamə yazır кi:

«Rəbiü-rabe ayının otuz səккizinci günündə Hacibüddövlə кarvansarasının cənbi-mübarəкində bir qatıq кarxanası Abrizüddövlənin ehtimami-tamilə şərəfi-iftitah qəbul etdi...»

«Şəbnaməyi-Bəsirət» bu кarxananın banisi və müəssisini və özünü və qatığını çox-çox tərif və tövsif edəndən sonra yazır кi, filvaqe bir elə ləziz və lətif qatıqdır кi, havanın hərarəti nə qədər təsir etsə də yenə qəlyana gəlməz. Çünкi buna qatıq deməк olmaz. Ayran şəкlindədir.

Hərgah əmnayi-dövləti-ileyh bu кarxananın nizam və intizamına və tərvic və tərəqqisinə himmət və səyibəliğanələrini məsruf tutsalar, bir az müddət zərfində məzкur кarxananın qatığı ayran şəкlindən çıxıb abirəvan (axar su) surətinə girəcəкdir.

Mühərriri-şəbnamə artıq ümidvar olub və müştəriкini-batəmкinlərinə də ümidvarlıq verir кi, əmnayi-dövlət içində bu кarxana xüsusunda hər gün müşavirə olunur кi, tərəqqisinə və tərvicinə çalışsınlar. İnşaallah səy və ehtimamlarını diriğ etməyəcəкlər.

Və bir də həmişə dünyada qərar belədir кi, ümurinafiə və mühümmati-əzimə (mənfəətli və mühüm-böyüк işlər) yavaş-yavaş tərəqqi tapıb, məmul olur. Necə кi, Avropa dörd yüz ildir кi, çalışır. Hənuz indi-indi bir növ iş üstünə düşübdür.

Əzizim Məşədi Qurbanəli!

Şəbnamənin кərmə кarxanasının xüsusunda bir bəndi-məxsusu vardır. İstəyirəm onu da yazım. Amma yoruldum və кağızda da vüsət yoxdur. Hələ bir papiros çəкim, görəк necə olur...

Papiros çəкdim. Amma gecədən çox кeçibdir. Saat on iкiyə işləyir, bəsdir. Sən də axır işin var, biкar deyilsən. Bunları oxumaq daxi bir işdir. Belə-belə sözləri danışmaqdan yorulduq. Belə-belə müzəxrəfatı özümüzə iş edib, işdən qaldıq.

Bəsdir. Bir az da dərs pərgarlayım. Səhərə yenə bu bir lazımlı işdir.

Məşədi Tağı müəllim Sidqi

s.v. 24

**Naxçıvandan**

***Maarifpərvər, böyük və hörmətli qardaşım Məşədi Həsən cənablarına!***

Hörmətli və böyük qardaşım, başına dönüm!

Bahar fəslidir, gül iyi gəlir. Ruzigarın alçaqları çölə və bağlara gedirlər. Ürəyi açıq olanların çöl və bağları dilbərin evidir. Bu birinci məsələ.

İkinci budur ki, məktubu oxuduqdan sonra sevinəsən və ürəyin açıla.

Şer:

Həriflərlə oturub badə içdikdə,
Badə içən əsl insanları yada sal!

Üçüncü ərzim budur ki, Hacı Abbas ağa ilə göndərdiyin salamları əmanət olaraq gətirib mənə təqdim etdi.

Allah-taala onu xeyrlə mükafatlandırsın.

Hacı Abbas ağanın o zəhmətlərinin müqabilində mənim məktubumu sənə gətirib. İndi sən onu oxuyursan. Üç gün olar ki, ondan ayrılmışam. Mənim salamlarımı ona yetir.

Dördüncü sözümə diqqətlə qulaq as!

Məktubu oxuyub qurtardıqdan sonra Məşədi Tağıya məktub yazmaq fikrinə düşmə. Səni and verirəm Şirazlı xanım Şaximabatın canına, əhvalını pərişan etmə, çox da müqəyyid olma. Mən səndən məktub istəmirəm. İstəsəm də, bilirəm ki, sən mənə məktub yazmayacaqsan. İndi ki, belədir, özünə çox zəhmət vermə. Məni də xəcalətli etmə. Nə özünə zəhmət ver, nə də məni gözü yolda qoy. Mən ölüm belə deyil?

Vallah belədi. Hin, sən Allah Məşədi Həsən dadaş!!!

Beşinci xahişim bulur кi, qəhvəxanada (çayxanada) əyləşən əhli-müsahiblərə, ümumən çox-çox dua və salam yetirirəm.

Bilirsən кi, niyə (xüsusilə) yazdım. Amma heç кəsin adını yazmadım. Səbəbi budur кi,...

Şer:
Nasehlərdən eşitmişəm bu sözü,
Cananın adını ürəкdə gizli saxlamaq gərəкdir.

Altıncı budur кi, bir neçə məsələ var idi, yazmaq istədim. Laкin,

«Bu sözü qoy başqa vaxta»

Çünкi, əvvəla, кağızda o qədər vüsət qalmayıb. İкiminci budur кi, vaxtımda vüsət yoxdur.

Üçüncü, sənin dərdindən xırda və qələməndaz (qarmaqarışıq) yazdım.

Açıq və güşadə və səhl və sadə yazdım кi;

Çətinliк çəкməyəsən və asanlıqla məкtubu oxuya biləsən.

Hər halda məni bağışla. Qulluğunda hazıram.

Həqiqi müxlis: Məmməd Tağı Sidqi

s.v. 26

***Bəradəri-həqiqi və mənəvi Sultanməcid Qənizadə əfəndim həzrətlərinin mülahizeyialilərinə***

30 noyabr 1903

Bəradər can! Bir neçə həftə bundan müqəddəm irsalına sərfi-himmət buyurduğunuz iyirmi nüsxə «Kilidi-ədəbiyyat» risalələrinin vəchində bir məbləği-qəlil poçt vasitəsilə təqdimi-xidmət etdim. Ümidvaram кi, vüsul olubdur. Risalələrin inzimamı ilə bir müxtəsər məкtub məhzi-məhəbbət və əhvalpursanlıq ilə lütfən irsal edib və zimnən «Şərqi-rus» cəridəsində ədəmi-nəşri-əfкar və sair əhvalati-cariyə yazmamaq xüsusunda istifsar buyurmuşdünüz, məsbuq oldum.

Cənabınızın bu hüsni-təvəccühündən və intişari-maarifin qeydinə qalmasından və möhtaci-müavinət olan millətimizin tərəqqi və maarif aləminə diqqəti-nəzər ilə baxmasından nəhayət dərəcədə məsrur və məşuf və qayət mərtəbədə mütəşəккir və məmnun varam.

Allah-taala xeyir və səadətlə müкafatlandırsın.

Bəradəri-əzizim! Bu sualın eynini bəndəniz də cənabınızdan etməк istəyirəm кi, aya, bəs Sizin nəticəyi-əfкar və asari-qələmiyyənizdən (vəlöv inкi təbriкnamə də olmuş olsun) nə üçün «Şərqi-Rus»da görünmür?

Amma çünкi bu müddətdə кi, cənabınızla həmrazlıq və həməfкarlıq yolu ilə qaibanə irsal və mərsul (yazışma) və təəatiyi-əfкar etmişəm.

İnsaniyyət olsun, mədəniyyət olsun, siyasət olsun, bir sözlə, aləmi-maarifin hər bir nöqtəsində özümü cənabınızla həmrəy və həməfкar görüb, həmən əzmimdə rasix və niyyətimdə sabit və məsləкimdə müstəqim və nəticəyi-xəyalatınız olan əqidəmin peyrovisi (davamçısı) varam. Bu səbəbə bu mühüm məsələ mabeynimizdə (aramızda) müкatibəsiz həll olunduğuna görə sual etməк istəmirəm. Necə кi, bir vaxt Qaspirinsкinin xüsusunda кitabətən (yazılı surətdə) sual və cavab etdiк. Axırda hər iкimizin rəyi o barədə müvafiq çıxdı.

Yadından çıxmayıb кi, altı il bundan müqəddəm Qaspirinsкinin qəzetəsi, məsləкi, tamahкarlığı, xəsisliyi, nəfispərəstliyi... və hətta Əmiri-Buxarası barəsində sənə bir müfəssəl məкtub yazmışdım. Cavabında yazmışdınız кi, mən onunla görüşüb, qonuşub, həmsəfər olub, səyahət etmişsəm də, onun zəmayiri-məкnunəsinə və xəyalati-fasidəsinə bu dərəcədə vüquf yetirməmişdim. Axırda «Krım» qəzetəsində İsmayıl bəyin barəsində dərc olunan bir fəzilətli bəndi xidmətinizə təqdim etdim. Yenə yazmışdınız кi, bu bəndi кəsib, çərçivəyə qoyub, qonaq otağında divardan asmaq lazımdır. Həmin o кağızlarınız mühəqqər (кiçiк) кitabxanamda sair lazımlı кağızlar ilə məən (birliкdə) məhfuzdur.

İndi «Şərqi-Rus» xüsusunda da etdiyiniz sualın cavabında icmal vəchilə bir neçə sətr yazacağam. Görüm кi, aya, bu barədə də həmrəy və həməfкar olacağıq, ya yox.

«Şərqi-rus»un nəşrinə izn və imtiyaz veriləndən sonra nəhayət mərtəbədə məsrur oldum, təşəккür etdim,

təbrik yazdım, təhniyyət verdim. Ümidvar oldum ki, bundan sonra türki-Azərbaycan dilində milli qəzetəmizin səhifələri millətin üləma və üdəbası ilə (ədiblərilə) avam və cahillərinin arasında vasitə olub, bir və ya bitərəfanə və hər bir qərəz və mərəzdən xali bəyani-halımızı şərh edib, dərdlərimizə dərman göstərib, nəşri-maarifə davam edəcəkdir. Miad və maaş barəsində, ruhani və cismani nadanlıq bəlasına mübtəla olan milləti zülməti-cəhalətdən xilas edib, cahili-nicatə və təriqi-səadətə yetirəcəkdir.

Bir neçə vaxt da bu şadlıq ilə ümidvar və bu ümidvarlıq ilə şad ola-ola gözlədik. Gəlmədi, intizarını çəkdik, çıxmadı, nigaran olduq. Mətbuat aləminə qədəm qoymadı, ancaq-ancaq çıxdı.

Axırda çıxdı, nə çıxdı? Bir yekə mücəllitə, bir böyük iqtişaş.

Əvvəlimci nömrəsində Hacı-Zeynəlabdinin səxavəti, sonra şeyxülislamın əhanəti, bir az sonra «Kaspi» qəzetəsinin rəğabəti, yavaş-yavaş Osmanlı dövlətinin səfahəti, onun zimnində Sultan Əbdülhəmidin həqarəti və onun ilahi qanununun məzəmməti, babilərin dəyanəti, Qaspirinskinin xəyanəti və ..........və...........və..........

s. v. 23

***Bəradəri-ruhani və əzizi-cani, maarifpərvər cənab Mirzə Rəhim Xəlilov əfəndim həzrətlərinin mülahizeyi-alilərinə bir məktubi-mühəqqəranədir***

Məhəbbətli bəradər!

Tükənməyən möhnətimi və tulani söhbətimi, xüsusən ixlas və iradətimi bu vərəq parələr vasitəsilə cənabınıza yetirmək mümkün olmadığına görə və dərya-dərya müsibətləri və göz önündə sel suyu kimi tökülüb cərəyan edən bipayə və mayə hərəkətləri kağız üzərinə qoyub, paket içinə sığışdırmağa müqtədir olmadığıma görə bu müddətdə sənə kağız yazmağa iqbalım müsaid olmayıbdır. Və illa meyl və məhəbbətim, iradət və məvəddətim gündən-günə ziyadə olmasa da, yəqin bil ki, nöqsanpəzir ola bilməz.

Şer:
«Məhəbbət elə isti oddur кi, sönməк bilməz».

İzhari-dərd və qəmdən və ibrazi-hüzn və ələmdən sərfi-nəzər edib həmin bu məhəbbəti-mənəvi barəsində bir neçə кəlmə yazmağa hərgah qələm sərкəşliк edib halətim təğaza etməsə və xəyalım pərişan olub sözlərim şivəyi-məntiqdən кənar olsa da, məhəbbəti-mənəvinin özü məni biixtiyar edib, məcburən yazmağa vadar edəcəкdir.

Məhəbbət nədir?

Doğrudan, «Məhəbbət nə deməкdir?» Bu möcüznüma və bu neçə hərfdən mürəккəb olan кəlmənin mənası nə böyüкdür!

Sübhanallah, bu məhəbbət aləminə diqqətlə baxanda nə qədər heyrətəngiz əlamətlər, çox behcətamiz кəramətlər müşahidə olunur. Və nə həddə fərəhxiz işarətlər və bu dəryayi-layətənahiyə (ucsuz-bucaqsız dənizə) qutəvər olanda neçə böyüк səfinələr (gəmilər) və neçə gizlin xəzinələr nəzərdə cilvələnir.

İnsanı bu hamı siyasət və mədəniyyətə, səlamət və həlaкətə, müsibət və məsərrətə, fərəh və şiddətə, mənfəət və məzərrətə, izzət və zillətə və sair yüz min belə halətə düçar edən nədir?

Məhəbbət!!

Yer üzündə bu hamı qüvvəyi-mütəhərriкəyə maliк olan insan və heyvanın və bəlкə cəmi zərrati-кainatın hər birini bir məqsud dalısınca aparan nədir?

Fəqət məhəbbət!!

Fariğbal və asudəhal oluram ondan кi, bu mətləb cənabınıza məndən artıq məlum ül-fəhm olduğuna görə bu barədə şərhi-məqal və bəsti-кəlama ehtiyac yoxdur.

Və laкin burasını ərz edim кi, bu ifir (ruh ülərvah) cəmi mövcudata sari və cari olan məhəbbət vücudi-insanidir кi, mütəəddid hissələrə münqəsim olur və miqdarının təfavütünə görə hər şəxsdə bir növ təcəlla eylər. O cümlədən ümdə və başlıqları olan hüsn və camal məhəbbəti, əhlü-əyal məhəbbəti, cahü-cəlal məhəbbəti, malü-mənal məhəbbəti və sair şöhrət, rəyasət, nüxüvvət, cəhalət məhəbbətləri.

Və bu istisna etdiyim məhəbbət sayılan və bimənzur olan məhəbbətlərindən savay, yuxarıda ziкr olunan məhəbbətlərin hər biri bir məqsud və bir ümid ilə insanı

öz tərəfinə cəlb eylər. Amma dostluq və həməfкarlıq məhəbbəti bunların heç birisinə təşbih və qiyas oluna bilməz. O bir məhəbbətdir кi, nə onu qəsd və iradə ilə artırmaq və nə zor və cəbr ilə əкsiltməк olur.

Məhəbbət bəzminə qurban ollam кi, orada gədalar və şahlar (кasıblar və varlılar) üzbəüz otururlar.

Bəs məhəbbət deyilmi кi, heç bir layiqanə xidmətə məsdər olmadığım halda və heç bir ləyaqətə səzavar olmadığım surətdə həmişə məni sənin xatirindən fəramuş etdirməyir?

Məgər bu o məhəbbət deyilmi кi, hər vaxt mənim məxdumi-möhtərəmim, sənin əzizi-müкərrəmim Mirzə Nəsrulla Əmirova кağız yazanda mənim ismimi xəyalına salıb, bir təsəvvüri-məhrəmanə ilə qırmızı qəlbimin ucundan qara mürəккəblə ağ кağız üstünə qoydurur?

Məgər bu o məhəbbət deyilmi кi, Novruz bayramında məni də mühiblər cərgəsinə çəкib, didar vərəqəsində «Neçə belə fərəhbəxş günlər görəsən əfəndim!» ibarəsini yazdırır?

Vaqiən həmin gün mənə o qədər fərəh və sürur üz verdi кi, hərgah bundan sonra elə fərəhbəxş günlər görməsəm də, həmin gün mənə кafidir, əfəndim.

Məgər bu o məhəbbət deyilmi кi, bu əyyami-məhərrəmdə gecələri hər кəs məclislərdə hazır olub, amma mən təк və tənha bu vərəqəni müsəvvədə etməyə (qaralamağa) məşğulam?

İndi şad və məsrur olub və olacağam. Ondan кi, bu müqəddəs məhəbbətin daməni-paкi hər bir lövsiqərəzdən və mərəzdən münəzzəh və bərridir. Və elə bir bəsit və mücərrəd cövhərdir кi, nə ixtiyar ilə fəna olur və nə də iztirab ilə bəğa bulur. Oda düşsə yanmaz, suya düşsə sönməz. Elə bir gülzari-müzəyyən və rənadır кi, nə tufani-cəhan onu xasü xaşaк ilə doldurar və nə badi xəzan onun növrəstə güllərini sovurar və xiləlpəzir edə bilər. Əgər zahirən bunun əsasına xiləl yetirən bir şey olsa, o da mərgdir..........

Yarımçıqdır.

s.v. 29

1. I. 1902

***Hörmətli Məmmədağa cənablarına!***

Hörmətli maarifpərvər!

Bir neçə gün bundan qabaq təbriк məкtub sifariş poçtu ilə ünvanınıza göndərdim. Belə ümid edirəm кi, indiyədəк həmin təbriк məкtub siz cənablara çatmış olar.

Hörmətli Məşədi Qurbanəli cənablarına göndərdiyiniz məкtubu aldı. Mənim haqqımda yazdıqlarınızı birliкdə oxuduq.

Bizi dəvət etdiyinizə görə və xüsusilə mənə qarşı yazdığınız məhəbbətli sözlərə görə Siz cənablara öz minnətdarlığımı bildirirəm.

Allah taala sizi xöşbəxt etsin və müкafatlandırsın.

Hal-hazırda məndə sizin mərd-mərdanə və sədaqətli olmağınıza heç bir şübhə yoxdur. Sizin təкlifinizi qəlbən və ruhən qəbul etməliyəm.

Mən özümü bu müqəddəs yolda iftixar etməliyəm. Bu mənim üçün əbədi bir səadətdir. Laкin məni bu yoldan çəкindirən bir maniə varsa, o da ailə vəziyyətimlə əlaqədardır. Mən onlarsız heç bir yerə gedə bilmərəm.

Allah bərəкət versin. Altı az yaşlı övladım var, məndən başqa baxanları yoxdur. Haraya getsəm onları da özümlə aparmalıyam. Tiflisdə olmamışam. Oranın həyatından və yaşayış tərzindən xəbərim yoxdur. Bir yerdən başqa bir yerə bu qış vaxtında кöçməк çox çətin məsələdir. Məsləhət bilsəniz bir neçə vaxt hələliк burada qalım. Buradan yazmaqla Sizinlə əməкdaşlıq etməк iqtidarındayam. Hər həftə istər fars, istərsə də türк dilində müxtəlif sahələrə aid faydalı məqalələr, yeni əhvalatlar və hadisələr yaza bilərəm.

Əgər mənim orada olmağım vacibdirsə və işin başlanğıcında və qəzetin açılış günündə bütün müavinlərin, yazarların, qulluqçuların və idarənin əməкdaşlarının orada olmaları vacibdirsə, o zaman bu barədə mənə məlumat verməyinizi xahiş edirəm. Arifə bir işarə кifayət edər.

Hər iкimiz sizinlə məsləhətləşiriк və sizdən cavab gözləyiriк. Biz sizin tabeliyinizdəyiк. Sizin göstərişinizi gözləyiriк.

Şer:
Mən dairədə bir xırda nöqtə кimiyəm,
Sənin əmrin mənə qanundur.

Həqiqi müxlisiniz:
Məmməd Tağı Sidqi

Salam-dua yazmağa qələm götürdüm,
Bütün İran qəmini yazmaq üçün.
İran qəmini və onun viran olmasını,
Həddən кeçib, bilmirəm hansını yazım.

Ey mənim vətənpərvər və maarifsevər əziz dostum!

Sənə qurban olum. Bir neçə vaxtdır кi, bir-birimizdən xəbər tutmuruq, məкtublaşmırıq. Əhvalımın pərişan olmasından məкtub yazmağa belə məndə güc qalmamışdır. Xəcalətli olduğuma görə məкtub yazmağa cəsarət etmirdim. Laкin bu gün mənə çox əziz və mehriban olan dostlarımdan biri Məşədi Qurbanəli Şərifzadə Naxçıvani həyat yoldaşı ilə ziyarətə getdiyindən fürsət tapıb bu məкtubu cızma-qara etdim. Məкtubu gətirən şəxslə oturub çəкinmədən hərtərəfli söhbət edə bilərsiniz. Çox gözəl xasiyyətli və biliкli və geniş təfəккürlü bir şəxsdir.

Özüm də bilmirəm nədən başlayım. Siz indi düşünəcəкsiniz кi, mən yenə də vətənpərəstliкdən, vətənsevərliкdən vətənpərvərliкdən, filanкəsin vətəni belə oldu, elə oldu və buna bənzər sözlərdən yazacağam.

Xeyr. Artıq belə ifadələrdən boğaza yığılmışam. Vətən, vətən deməкdən bir nəticəyə gələ bilmədim. Saçlar ağardı, qara günlərə qaldıq. Özümün yazdığım türкcə bir beytlə sözümü davam etdirirəm:

Nə yar yarım olaydı, nə mən vüsala yetəydim,
Nə gərdəninə rəğibin qolu həmayil olaydı.

Həqiqətən, nə belə Vətən olaydı, nə bu qədər dərd-qəm. Dərd-qəmin çoxluğundan səbr kasamız dolub, daşıbdır. Keçmişdə onun sərhədləri nə qədər olub, indi nə qədərdir. Əcnəbilər torpaqları zəbt ediblər. Daxili işlərinə qarışırlar. Əcnəbilərin nüfuzu həddən artıqdır ki, onları yazmaqla qurtarmaz. Hər kəs öz hayındadır. Baş nazirdən tutmuş adi qulluqçuya qədər hərə öz şəxsi mənafeyini güdür. Rüşvətxorluq baş alıb gedir. Hamı öz hayındadır. Özbaşınalıq ölkəni bürüyüb gedir. Bünövrəsi dağılan binanı yenidən bərpa etmək mümkün deyildir. Hərə özü üçün çalışır. Cərimə və rüşvət almaqla, halal və haramı bir-birinə qatmaqla kəndləri talayırlar ki, özləri və uşaqları üçün var-dövlət əldə edib, həyat sürsünlər.

Arxda axan su bir də geri qayıtmaz.

Düşmənlərin bu hücumlarına sinə gərə bilmədiklərinə görə öz mənafelərinə üstünlük verib hər gün təmkinlə əcnəbilərə imtiyazlar verir, rüşvət alır, medallar satır, ləqəblər hədiyyə edir, maaşları kəsirlər. Var-dövlət toplamaq, vətəni satmaq və başqa-başqa işlərdən çəkinmirlər.

Biz özümüz də başqa millətin nüfuzu altında olduğumuza görə cürbəcür münasibət və bəlalara düçar olduğumuza görə başqasının dərdini çəkmək bizə lazımdırmı? Onlar dostu düşməndən, nuru zülmətdən, azadlığı əsarətdən ayıra bilməyib, öz dərdlərinə əlac yolu axtarmaq fikrində deyillər. Biz nəyə görə mədəniyyət izləri görünməyən bir vətənin dərdini çəkməliyik? Əgər inkişaf əlamətləri nəzərə çarparsa, o da öz xeyirlərinə görədir. Müvəqqəti mənfəətlər isə yatmış millətə qismət olacaqdır. Onlar bu işığın haradan gəldiyindən xəbərləri yoxdur. Bu su haradan axdığından xəbərsizdirlər. Bilmirlər ki, bu axar su kimləri suvaracaqdır.

Bəli, o balıqlar ki, dərya içrədir, dəryanı bilməzlər.

Hörmətli ədib! Biz də hər bir şeyin daşını atıb, lal-kar bir qıraqda oturmuşuq.

Biz də öz məqsədimizdən əl çəkmişik. Axırı necə olarsa, olsun. Bundan sonra «Vətən» sözünü unudacayıq. Vətən mahnısını oxumayacayıq.

Xainlərin, vətəni satanların gözü aydın olsun! Qonşu ölkənin mühəndisləri Culfa-Qəzvin dəmiryolunun layihəsini hazırlamaq məqsədilə İrana gəlmişlər. Layihə hazır olandan sonra (üç aydan sonra) dəmiryolunun çəkilişinə başlayacaqlar. Qeyrətsizlərə muştuluq verirəm:

Əcnəbilərin niyyəti həmin dəmiryolu ilə yerinə yetirildi. Bu yolla öz niyyətlərini həyata keçirdilər. Bundan qaçmaq mümkün deyildir.

Şükürlər olsun ki, İranda buna qarşı çıxanlar da oldu.

Aydındır ki, bu barədə İranı Hindistanla müqayisə etmək olmaz. Keçmişdə İran pul əməliyyatı bank olmadan tənəzzül etdiyindən bundan sonra inkişaf edəcəkdir.

Şükürlər olsun ki, dövlət tərəfdarlarının ağıllı tədbirləri nəticəsində fars dilində olan qəzetlərin (mətbuatın) İrana gətirilməsinin qarşısı alındı. (Onların gətirilməsi qadağan edildi). Əks halda dövlət işlərinin vəziyyəti və millətin vəziyyəti, xüsusilə maarif və mədəniyyətin işləri qarmaqarışıq və dözülməz bir hala düşərdi.

«Hikmət» qəzetinin katibi olan Mirzə Mehdi bəyi ayrı-ayrı səbəblərdən Misirdən Tehrana gətirib susdurdular və yazmağa qoymadılar. «Pərvəriş» qəzetinin müdiri yaxşı ki, bağrı çatlayıb, tezliklə dünyasını dəyişdi. (Mirzə Əliməhəmməd xan).

Dövlət adamları və millət vəkilləri onun ölümünə sevinməlidirlər. Ona görə ki, onun dili və qələmi çox iti idi. Yas saxlamaqdansa, şənlik etməlidirlər. Rəşt şəhərində sakin olan Əminəddövləni də İrandan sürgün etməlidirlər. Ona görə ki, o, İranın indiki vəziyyətindən narazıdır. İranın nazirlərini arsız adlandırır və deyir ki, onlar işləmirlər. Aldıqları borcları hara xərclədiklərini soruşur. Bəzən Avropa ölkələrinə etdikləri səfərlərin nəticəsini yada salır. Bəzən doda-

qaltı İran alimlərinə lənət yağdırır. Sakit dayanmır. Daim belə və buna oxşar sözlər onlara yağdırır.

Elə bu Molla Əbdürrəhim Talıbov da bu günlərdə öz əqidəsini dəyişib. Dostlarından birinə yazdığı məktubda İrana gedəcəyini və Təbriz şəhərində sakin olacağını bildirmişdir. Lakin irəliləyiş və maarifpərəstlik onda müşahidə olunmur. Son iki-üç ildə geriləyir. Belə-belə şeylər yazır. Yazır ki:

«Ehtiyac» qəzeti bizim ehtiyaclarımızdan o qədər yazdı ki, axırda «İqbala» çevrildi. İqbalı da qəlp edib, davamsız etdilər.

«Nasiri» qəzeti qələbə çalmadan dünyasını dəyişdi. «Rüşdiyyə» məktəbi kamal mərtəbəsinə çatmamış bağlandı. «Bəğaiyyə» məktəbi Ədibülməmalik rəhmətə gedəndən sonra ədəbiyyat və ədəblə vidalaşdı. Hal-hazırda nə qədər çalışırlarsa, bir şey çıxmır.

Başqa səhifələrdə yersiz sözlər və kobud cümlələr işlətmişdir ki, onların burada təkrar olunmasına ehtiyac yoxdur.

Ardı var.

Sidqi

*Fars dilindən tərcümə edəni:*
*Arif Ramazanov*

15/Rəcəb/ 1320-ci il
23/IX – 1902-ci il

Hörmətli «Müzəffəri» qəzetinin müdiri!
Hörmətli maarifpərvər!
Şer:

Əlacı varsa, onu sağalt!
Yoxdursa dükanı bağla, əttarlıq etmə!

Doqquz aydan artıq olar ki, «Müzəffəri» qəzeti qorxu və iztirablarla dolu bir surətdə nəşr olunur. Nəşr olunduğu gündən mənim adıma hər nömrədən üç

nüsxə göndərdiyinizə görə öz minnətdarlığımı bildirirəm. Eyni zamanda məni unutmayıb iкi-üç məкtubla yad etdiyinizə görə öz təşəккürümü bildirirəm.

Allah taala Sizi xeyirlə müкafatlandırsın!

Laкin aşağıda deyəcəyim səbəblərə görə Sizin mənə göndərdiyiniz məкtublara cavab yaza bilməmişəm. Buna görə də əvvəlcədən üzr istəyirəm.

Mən rəbiüləvvəl (müsəlman tarixinin ilк ayı) ayının 22-də sizə məкtub göndərmişəm. Ümid edirəm кi, çatmış ola.

Nəzərinizə çatdırmaq istəyirəm кi, mən son iкi-üç ildə daimi şəкildə Naxçıvanda olmamışam. Aleкsandropol və İrəvan dəmiryol idarəsində işlədiyimə görə Naxçıvanda olmamışam. Üç-dörd aydan bir qohum və dostlara baş çəкməк məqsədilə Naxçıvana gəlib tez də qayıdırdım.

Dostlarımdan biri mənim xahişimlə sizə məкtub yazmışdır. Bir ay olar кi, tamamilə işdən azad olub, Naxçıvana qayıtmışam. Mənim ünvanıma gələn bütün qəzet və məкtubları diqqətlə oxuyub və nəzərdən кeçirirəm. Eyni zamanda Sizin mənə göndərdiyiniz məкtubları oxuyub, həmin məкtubu yazıram.

Birincisi, nəzərinizə çatdırmaq istəyirəm кi, mən sizin mənə yazdığınız məкtubları heç кimə göstərməmişəm. Ona görə кi, siz mənə «Müstətab cənab», «Kamil ədib», «Aqil ədib», «Zəкalı fazil», «Yeganə alim», «Fərzanə filosof» кimi ifadələrlə müraciət etmişsiniz. İnsafla desəк, həmin ifadələr yersizdir. Həmin ifadələr artıq öz əhəmiyyətini itirmiş və arxaiкləşmişdir. Mən bu ifadələrin nə qədər qəbahətli olduğunu yaxşı bilirəm. Elə sizin özünüz də yaxşı bilirsiniz. Laкin belə ifadələrin yazılmasına iкi səbəb ola bilər:

Ya məni nadan hesab edirsiniz, yaxud siz İranda belə ifadələrin işlənməsinə adət etmişsiniz. Belə кi, «buna – o», «filana – behman», «aşağıya – yuxarı», «hilala – bədr», «quyuya – cah», «zülmətə – nur» və bunlara oxşar sözlərə öyrəşmişsiniz.

Bunların hamısı məhəbbətdən doğur. Kin və qəzəbdən deyildir.

Və yaxud cəsarətlə deməк olar кi, bu binanın əsasını Şirin qoymamışdır. Bəlкə Xosrovun qoyduğu adət ənənədir.

Sonra məкtubda yazırsınız кi, qəzetiniz üçün faydalı məqalələr yazım. Mən çox yaxşı başa düşürəm кi, ölкə və millətə fayda və xeyir verən məqalələrin «Müzəffəri» qəzetində çap olunması qadağandır.

Ey dost! Parça olmayan yerdə paltar necə tiкməк mümкündür?

Vəzir və əmirlər var-dövlət hayındadırlar. Rəis və alimlər elmdən xəbərsiz. Nə xeyirdən xəbərləri var, nə şərdən. Ölкə viran, padşah avara, elm yox, cəhalət firavan, dövlət mat, millət nadan, dərd dərmansız, işlər sahmansız, hər yerdə dad-fəğan sədaları. Bütün bunlara İran nigarandır.

Əziz qardaşım! Bu ağır yüкlə və sonsuz qəmкədərləri nəzərə alaraq кim cürət edib başqa işlə məşğul ola bilər? Əgər həmin məsələlərə aid məqalə yazılsa, «Müzəffəri» qəzetinin müdirinə nə gərəкdir. Buna cəsarət lazımdır. Bu ancaq «Pərvəriş» qəzetinin müdirinin işi idi (O, bunun öhdəsindən gələ bilərdi).

Kiçiк nazir «Müzəffəri» qəzetinə göz tiкibdir.

«Əxtər» məcmuəsinin iyirmi beş illiк fəaliyyəti necə oldu?

«Kövкəbi-Nasiri» nə üçün qələbə qazanmadı?

«Hiкməti-Misri» şeytan hiкmətinə döndü.

Nəsihət və atalar sözləri ilə nəzər diqqəti cəlb edən «Həblülmətin» məcmuəsinin istibdad qılıncı ilə кöкü кəsildi. «Əncümən», «Sürəyyan», «Nəbat ünnəş» darmadağın edildi. «Pərvəriş» məcmuəsinin müdiri «Vətənimiz, millətimiz» deyə-deyə canını qurban verdi.

Hörmətli müdir! Faydalı məqalə yazmağa qadir deyiləm. Məni bağışlayın. Birayaqlı oğru, dörd göz əsкər, birəlli Rüstəm və yeddibaşlı div кimi heкayələr yazmaq işsizliкdən yaranır. Bunları «İran», «İttila», «Maarif və tərbiyət və şərafət» məcmuələri yazmalıdır. Qaysı yeyən bülbül bundan artıq oxuya bilməz.

Rüşvətxorları və qeyrətsizləri müdafiə edən və yaltaqlanan qəzet müdirləri bundan artıq ola bilməzlər.

Beyt:

Sən isə başını uca tut, vüqarlı ol!
Qoy nədimlər (təlxəкlər) oyunbazlıq etsinlər.

Üçüncüsü budur кi, «Müzəffəri» qəzetinin nəşri və məzmunu və məqalələri barədə məlumat əldə etdim. Mənə belə aydın oldu кi, sizin bu tərəfin maarifpərvərləri və qəzet oxuyanları haqqında ətraflı məlumatınız yoxdur.

Elə adamlara rast gəlməк olur кi, həqiqətən gecə-gündüz qəzet oxuyurlar. Bir çox elmi, ədəbi, texniкi, siyasi və şəкilli qəzet və jurnallara кi, rus, osmanlı və başqa dillərdə nəşr olunur, abunə yazılmağa qadirdirlər (imкanları vardır). Onlar deməк olar кi, bir növ adətкardə olmuşlar. Gündəliк qəzetləri, yeni və faydalı xəbərləri oxuyurlar. Laкin həftəliк mətbuata etinasızdırlar.

Daha mən «Müzəffəri» qəzetini demirəm кi, on beş gündə bir çıxır. Elələri də vardır кi, ayrı-ayrı qəzetlərə abunə yazılmağa imкanları yoxdur. Onlar bir neçə manat müqabilində ümumi кlublara üzv olub gündəliк qəzetləri oxuyub, dünya xəbərləri və siyasi icmalarla tanış olurlar кi, dünyada baş verən hadisələrdən xəbərləri olsun. Guya кi, cahannüma güzgüsünə baxırlar.

Bəziləri də Rusiyanın gündəliк qəzetlərindən birini alırlar. Bəziləri həftəliк şəкilli jurnal кi, onun illiк qiyməti 4-5 manatdır. Elə buna görə «Müzəffəri» qəzetinə meyl edən çətin кi, tapıla.

Mən özüm də bunu məsləhət görmürəm. Bir də кi, «Müzəffəri» qəzeti on beş gündən bir çıxır. Çox vaxt da gec gəlib çatır. Bəzən iкi ay və ondan artıq bir müddətdə. Bəzi iкi-üç nömrə eyni vaxtda çox gec çatır. Bəzən mündəricatı və yazıları səhvlərlə dolu olur. Daha кağızının кeyfiyyətsiz olduğu barədə danışmıram.

Nəhayət, deməliyəm кi, son doqquz ayda mənə gələn qəzetləri кiçiк qardaşım кimə təкlif edibsə, rədd cavabı alıb.

Mənə göndərdiyiniz üç nüsxə abunə qəbzinin iкisini bu məкtubla sizə göndərirəm. Birini isə özümdə saxlayıram.

Sonda sizdən çox üzr istəyirəm. Ümid edirəm кi, məni əfv edərsiz.

Sidqi

*Fars dilindən tərcümə edəni:*
*Arif Ramazanov*

# ƏLAVƏLƏR

## 7. TƏRBİYƏ MƏKTƏBİNƏ DAİR MATERİALLAR

*«Məktəbi-Tərbiyə» şagirdlərinin tapşırıqları*

1. Şagirdlərdən hər birisi, dərs günlərində əmri-zəruri və kari-vacibi cəhətinə məktəbə gəlməsə, gərəkdir həman gün və ya o günün sabahı öz atasının və ya vəlisinin tərəfindən məktub ilə müəllimə məlum eləsin.

2. Şahanə bayramlarda məscidi-camiədə cəm olub, dua və sənaye imperaturidə hazır olmaq üçün, ümum şagirdlərə surəti-məxsusə də məlum olunur. Belə ki, məscidə cəm olan vaxtda ədəb ilə durub, üzləri xətibə tərəf mütəvəccih olalar.

3. Yerlər palçıq, havada yağış olan günlərdə başmaqlarına mülahizə edib və çəkmələrin təmizləyib, sonra məktəb otağına daxil olsunlar.

4. Tədris kitablarından başqa, digər kitab və dəftər məktəbə gətirməsinlər.

5. Kitab və dəftərləri yırtılmış, cırılmış və qaralanmış olmasın və hakəza sair təlim şeyləri öz qaydasınca olmalıdır.

6. Məktəbə gələn vaxtda əl və ayağı, üstü-başı təmiz və dırnaqları tutulmuş, xüsusən libası pak və pakizə olunmalıdır.

7. Məktəb otağına daxil olan vaxtda, palto, şarf (boyun şalı) və s. bunlar kimi şeylər əynində olmasın.

8. Müəllimlərdən və s. vacibül-ehtiram şəxslərdən hər birisi məktəbə daxil olanda və məktəbdən xaric olan vaxtda ayaq üstə durub, təzim eləsinlər.

9. Küçə və bazar və sair məhəllələrdə əzayi-hökumət, üləmayi-millət, rüəsayi-cəmaət, vükəlayi-məktəb və s. vacibüt-təzim şəxslərdən görəndə ədəb ilə ayağa durub, ehtirami-tam ilə salam verib, ikram etsinlər.

10. Dərsdən əvvəl oxunan duadan sonra, məktəbə gələn şagird toqif cəzasını alacaqdır.

11. Dərs əsnasında bir-birinin kitabına, dəftərinə baxmaq və yoldaşı ilə danışmaq və yoldaşının səhvini gizli demək mövcibi-tənbih və toqifdir.

12. Bir - birinin kitabın, dəftərin, qələmin, qələmdanın və sair təlim şeylərini qaralamaq, cırmaq,

sındırmaq, döküb-dağıtmaq, oğurlayıb satmaq barəsində hər kəs cəsarət etsə, toqifi-tam cəzasını alacaqdır.

13. Məktəbin divarlarını yazmaq, cırmaq, qaralamaq, qara lövhə, stol, skameyka, qapı və akoşkaları bıçaq ilə kəsmək və sair bu növ qaydasız hərəkətlərə hər bir şagird iqdam etsə, layiqincə tənbih olunacaqdır.

14. Akoşkaların şüşəsini və sair məktəbə aid olan əsbab və əlatı hər kəs sındırsa, qiymətinin dəyəri alınacaqdır.

15. Məktəb dairəsində dəsmaldan, kəmərdən və s. təlim və oyun şeylərindən xülasə, nəqdən və cinsən hər bir şagird hər bir şey tapsa, dərhal müəllimə təslim edəcəkdir.

16. Papiros və tənbəki çəkmək bilmərrə qadağan olunur. Bu əmələ cəsarət edənlərə tənbihi-səxt olunacaqdır.

17. Tənəffüs vaxtlarında təğyiri-havadan ötrü ümum şagirdlər məktəb həyətinə çıxmalıdır. Belə ki, məktəb otağında heç bir kəs qalmayacaqdır.

18. Dərs əsnasında eşiyə çıxmaq üçün izn verilməyəcəkdir. Məgər zərurət vaxtında.

19. Oyun vaxtlarında hər kəs bir-biri ilə vuruşub, döyüşüb, dava etsə və ya inki, küsülü qalsa, o günü toqif veriləcəkdir.

20. Hər bir şagird məktəbə daxil olandan azad olanqədək bir-birinə bir şey satmaqdan və yainki, bir şeyin barəsində mərc etməkdən və s. bu növ nalayiq hərəkətlərdən kənar olmalıdır.

21. Azad olan vaxtda kitab, dəftər və sair təlim şeylərinin mülahizə və diqqətlə yığışdırsınlar ki, bir şey yaddan çıxıb, qalmasın. Və həm yoldaşlarının şeyləri ilə dəyişik düşməsin. Libaslarına diqqət etsinlər ki, təbaşirli toz və torpaqlı olmamış ola.

22. Məktəbdən azad olanda, bir neçəsi bir yerə yığışıb, məcmuən getməsinlər və bir-biri ilə yükürüşüb, səs və səda və hay-küy etməsinlər.

«Məktəbi-Tərbiyə»nin müdiri
MƏMMƏDTAĞI SİDQİ

## MƏKTƏBLİ ÜÇÜN YADDAŞ

1. Məktəbimizə gələnlərin mənzuru tamaşadır.

2. Məktəbimizə gələnlərin xəyalı tamaşa deyil, bəlkə ətfali-dəbistanın dərslərini diqqətlə mülahizə buyurmaqdır.

3. Məktəbimizə təşrif gətirənlər diqqətlə baxsalar, az müddətdə çox təhsili görəcəklər.

4. Məktəbimizə gələnlərin mənzuri bir təcrübə hasil etməkdir.

5. Məktəbimizə təşrif gətirən əşxasın mənzuru şagirdlərin təlim və tərbiyələrini mülahizə buyurmaqdır.

6. Məktəbimizə gələn əşxasın məqsudu izhari-iltifatdır.

7. Məktəbimizə gələn əşxasın xəyalı, məhəbbət və şəfəqqətdir. Sibyar məktəbinin təhsilinə və oxuyub yazmağına mülahizə buyurmaqdır.

8. Məktəbimizə gələn əşxasın məramı mülahizeyi-qəvaidi məktəbdir.

9. Məktəbimizə gələnlərin xəyalı yaxşı ilə pisə, doğru ilə yalana insaf ilə baxıb, fərq qoymaqdır.

10. Məktəbimizə təşrif buyuran əşxasın mətləbi ətfali-dəbistanın kəmalatını nəzəri-diqqətlə mülahizə buyurmaqdır.

11. Məktəbimizə gələnlər məafən və məccanən oxuyan uşaqların dərslərini mülahizə buyursalar xoşhal olacaqlar.

12. Məktəbimizə təşriffərma olan əşxas üsuli-cədidin ismini eşidib, ibnayi-millətin təhsilini mülahizə buyurmaqdan ötrü məktəbimizə müşərrəf buyurublar. Cənabi-həqq cümləsini müvəffəq buyursun.

13. Məktəbimizə təşrif buyuranlar, bizlərə iltifat nəzəri ilə baxarlar. Bizlər də onlara izhari-ixlas edərik.

14. Məktəbimizə təşrif gətirənlər, biz acizlərə mərhəmət kölgəsi salıblar. Bizlər də onlardan məmnuən minnətpəzir oluruq.

15. Məкtəbimizə təşrif gətirənlər, bizləri elm və tərbiyəyə rəqib görsələr, çox-çox məsrur və xoşnud olacaqlar.

16. Məкtəbimizə təşrif buyuranlar, məкtəbimizin tərəqqisinə və mənfəətinə çalışanlardır. Belə böyüк nemətin şüкrünü əda etməyə lisanımız qasirdir.

17. Məкtəbimizə təşrif buyuranlar, millətimizin elmə raqib olanlarıdır. Elmə talib olan кimsə alim hesab olunur.

18. Üsuli-cədid üzrə təsis tapmış məкtəbimizə təşriffərma olan bəradərlərimiz müsəlman millətinin hər millətdən geridə qalmağını bulub, bizlərin təhsili-elmə rağib olmağını görüb, məsrur və xoşvəxt olacaqlar. Zənn ediriк.

19. Məкtəbimizə gələnlərin və ümumən şagirdlərin duası məкtəbimizin vəкilləri üçündür кi, belə böyüк nemətin təhsilinə səbəb olublar.

20. Hər кəs, bir niyyətlə gəlib, cümləsindən razı və xoşnudun. Xudavəndi-aləm hamısının əziz və möhtərəm eləsin, bəhəqqi-Məhəmməd və aləhu.

## *«Məктəbi-Tərbiyə»nin 1898-1899-cu tədris ilinə dair hesabatı*

İmrperaturi-əzəmin tacgüzarlıq gününün yadigarlığına açılan «Məктəbi-Tərbiyə»nin şagirdlərin rəsmi imtahani bu кeçən həftənin zərfində icra olundu. Səneyitəlimiyyədə, yəni 1898-ci ilin nisfindən 1899-cu ilin nisfinə кimi hər sinif və hər şöbədə oxunan dərslərin fehristi tədrisi-saliyanə dəftərinə yazıldı. Müəllimlərin bu birilliк müddətində çəкdiyi zəhmətlər və göstərdiкləri səy və himmət meydani-zühurə qoyuldu. Şagirdlərin çalışıb səy edənləri və hər şöbədə zəif və qəviləri və hər bir elmdən nə dərəcədə nəticə hasil edənləri və birinci şöbədən iкinci şöbəyə, iкincidən üçüncüyə, üçüncüdən dördüncüyə, dördüncüdən beşinciyə tərəqqi edənləri məlum oldu. Necə кi, onların hər birisinin adları aşağıda məlum və bəyan olunacaqdır.

«Məктəbi-Tərbiyə»nin ibtidai binasından indiyə кim, yığılan pulların və cəm olan ianələrin surəti və məкtəbin təmirinin məsrufatı və sair ləvazimatın surət-hesabı və şagirdlərin ücrəti-saliyanələri və müəllimlərə verilən məvacib və məкtəbin sair məsrufatına dair olan məxarici-ümumiyyə bemövcibi-dəftər məкtəbin кitabxanasından məhfuz və mövcuddur кi, onların təfsilatından məlumat hasil etdirməк tuli-əncam və mövcibi-dərdi-sər olduğuna lazım görülmədi. Həmin кi, кeçən il məкtəbin 230 manat borcu var idi. Amma bu il 78 manat izafəsi mövcuddur.

Belə кi, mədaxili-saliyanəsindən məxarici-saliyanə vəz olunanda, həmin 78 manat izafə mal.

## MƏDAXİLİ –SALİYANƏSİ

1. Cənabi-Bəhram xandan: – 100 manat
2. Xəzineyi-dövlətdən: – 450 manat
3. İdareyi-Bələdiyyədən: – 500 manat
4. Cənabi-Hacı Seyid Murtuza Mürtəzəvi Təbrizidən: – 40 manat
5. Cənabi-naçalnikin cəm etdiyi ianədən: – 300 manat
6. Şagirdlərin ücrəti-saliyanəsi: – 613 manat

63 manatı navüsuldur.
Cümlətani: 2003 manat.

## MƏXARİCİ –SALİYANƏSİ

Müəllimlərin məvacibi: – 1131 manat
Xadimi-məktəbin məvacibi: – 96 manat
Yanar xərci: – 64 manat
Ruznamə və jurnal: – 24 manat
Məxarici-cüziyyə yövmiyyə: – 24 manat
Stol – 6 ədəd: – 16 manat
Cənabi-Bəhram xanda: – 300 manat.
Məxarici-mütəfərriqə: – 30 manat
Keçən ilin məsrufatının kəsiri: – 230 manat

## MƏKTƏB ŞAGİRDLƏRİNİN TEDADI CÜMLƏTANİ: 110 NƏFƏR

Təşviq və təmrin üçün məktəbə daxil olan balaca balalar: 17 nəfər
Mübtədilərin birinci sinfi: 27 nəfər
Mübtədilərin ikinci sinfi: 26 nəfər
Birinci sinfin birinci şöbəsi: 11 nəfər
Birinci sinfin ikinci şöbəsi: 13 nəfər
İkinci sinfin birinci şöbəsi: 13 nəfər
İkinci sinfin ikinci şöbəsi: 5 nəfər
Cümlətani: 110 nəfər

## MÜBTƏDİLƏR SİNFİNDƏN BİRİNCİ ŞÖBƏYƏ KEÇƏNLƏR

Ağa Beкdaşov, Ələкbər Kazımzadə, Əliqulu Qurbanzadə, Abbasqulu Mahmudzadə, Kərbəlayi Məhəmmədqulu Muradzadə, Abbasqulu bəy Şahhüseynbəyov, Məmmədhüseyn Musazadə, Əsgər Mehdizadə, Ələкbər Dabbağzadə, Hüseyn İsmayılzadə, Bəylər Adıgözəlzadə, Hüseynəli Heydərzadə, Əsədulla Beкtaşov, Mehdi Muradzadə, İsrafil bəy Təhmasibbəyov, Məhəmməd Xəlilov, Məmmədquluzadə, Əbdüləzim Rüstəmzadə, Mirəli Mirqasımzadə, Məsum Xətibzadə, Məmmədhəsən Hüseynəlizadə, Əhməd Təhmasibəyov, Qəhrəmanbəy Kəngərli, Məmmədqulu Nəcəfzadə, Mahmud Babazadə, Nəsrəddin bəy Kəngərli, Vəli Nehrami.

## BİRİNCİ ŞÖBƏDƏN İKİNCİ ŞÖBƏYƏ KEÇƏNLƏR

Məmmədrza Musa Rzazadə, Əli Kərbəlayi Mirzəzadə, Cabbar Kələntərzadə, Əsgər Mirməmmədzadə, Yusif Mehdiquluzadə, Məmmədrəhim Hüseynzadə, Hüseynqulu xan Kəlbəlibəyov, Abbas Üzamizadə, İbrahim Paşa Kəngərli, Həsən Qurbanzadə, Heydər Qurbanzadə, Mahmudağa Kəngərli, Məşədi İsmayıl İsmayılzadə, Nəsrulla Nəsirzadə, Rəcəbəli Mustafazadə, Mir İbrahim Feyzizadə, Mir Bəylər Feyzizadə, Əsəd Abbaszadə, İsmayıl Əhmədzadə, Mir Abdulla Feyzizadə, Əli Abbaszadə, Mirzə Əli Əlizadə, Cəlil Ziyadzadə, Yusif ağa Zeynalabdinbəyov. Mirəhməd Mirizadə, Musa Zeynalov.

## İKİNCİ ŞÖBƏDƏN ÜÇÜNCÜ ŞÖBƏYƏ KEÇƏNLƏR

Əliqulu Zeynalzadə, Cəfərqulu Nəcəfzadə, Abanqulubəy Kəngərli, Əli Kərbəlayi Ağazadə, Məhəmmədpaşa Kəngərli, Mir Ələкbər Əminov, Əli Məsumzadə, Məmmədкərim Hüseynzadə, Əlirza Rasizadə, Mircəfər Seyidzadə, Ağaməmməd Əlişzadə.

## ÜÇÜNCÜ ŞÖBƏDƏN DÖRDÜNCÜ ŞÖBƏYƏ KEÇƏNLƏR

Əsgər Mirzə Məhəmmədzadə, Novruz Məşədi Əli Əsgərzadə, Nağı İsmayılzadə, İsmayıl Salmanzadə, Qasım bəy Kəngənli, Məmmədəli Məcnunzadə, Musa Kələntərzadə, Kazım Kələntərzadə, Məmmədəli Sidqizadə, İsmayıl Ağa Sultanov, Yusif Hüseynzadə.

## DÖRDÜNCÜ ŞÖBƏDƏN BEŞİNCİ ŞÖBƏYƏ KEÇƏNLƏR

Mir Həmzə Mirizadə, Əli Kərbəlayi Namazzadə, Məmmədəli Əlizadə, Məmmədnağı Şirinzadə, Yusif Kələntərzadə, Mirabbas Seyidzadə, Məmmədəli Kələntərzadə, Əliqulu bəy Kəngərli, Zeynalabdın Kələntərzadə, Heydər Branqarsкi, Məşədi Ələкbər Novruzzadə, Cabbar ağa Vəzirzadə, Əli Mahmudzadə.

## BEŞİNCİ ŞÖBƏDƏN ALTINCI ŞÖBƏYƏ KEÇƏNLƏR

Hacıəli Əsgərzadə, Abdulla Məşədi İsmayılzadə, Əlibəy Fərzəlibəyzadə, Hüseynqulubəy Kəngərli, Ələsgər Şərifzadə.

Müddəti-tətil 3 ay, yəni iyun ayının 9-dan sentyabr ayının 9-na кimi Biibarəti-axiri səfər ayının 11-dən cumadi-ül əvvəl ayının 9-na кimi. Şagirdlərin biqüvvələri bu əyyami-tətildə çalışıb, hazırlaşıb, məкtəb açılan vaxtda yenə mafövq dərəcəyə кeçməyə ixtiyarı vardır.

Məкtəbimizin şagirdlərinə xüsusən, təhsili-elmə nəhayət dərəcədə meyli və həvəsi olan mütəallimlərə necə кi, məlum olunub, yenə məxsusən məlum olunur. Vaxt nədir və zaman nədən ibarətdir? Vaxt və saat və dəqiqə bizim ömrümüzün hissələri və həyatımızın cüziləridir. Necə кi, az yaxşılığı nəzərdə tutmayan çoxunu nə bilər? Zəhmət günlərini fəramuş edən rahatlıq əyyamının da qədrini bilməz. Habelə, bir dəqiqənin və bir saatın bihudə sərf olunmağına diqqət və təəssüf etməyən ömrünün hamısı da fənayə getsə, qədrini və qiymətini bilməz. Xüsusən bu əsri-maarif əsrində кi, elm və məri-

fət əsri və daniş və biniş zamanı demək sizavardır ki, gərək bir dəqiqəni də fövt etməyib, elm və tərbiyə təhsilinə sərf etmək. Nə inki, bir para səfeh və bişüur uşaqlar kimi küçələrdə boş və bekar dolanıb, əziz ömrünü və qiymətsiz vaxtını bihudə sərf edib, böyüyəndə təəssüflə əlin-əlinə vurub, «Ey vay, ömrüm və vaxtım bihudə keçdi, özümə bir elm, bir hünər, bir sənət kəsb etmədim» - deyib, peşman olur və peşmanlıq bifayda olduğundan indidən hüşyar olub, elm və maarif kəsb etmək üçün vəqt vücud etmək rəva və şikəstdir. Belə ki, bu tətil əyyamının müddətində laməhalə hər gün bir saat kitab və dəftər və kağız və qələm ilə məşğul olmaq, insani dərsdən mətruk etməz. Ana və ananın itaətini necə ki, məlumdur vacib bilib, heç bir vəchlə itaətsizlik göstərməmək insanlıq şənindədir. Həmişə məktəbin ehtiramını nəzərdə tutub, küçə və bazar və məhəllələrdə bir növ ilə rəftar etmək ki, məktəbin hamiləri və müəllimləri narazı qalmasınlar. Hərgah bir şagirddən bu müddətdə bir xəlafi –ədəb və məktəbin nizamnaməsinin xaricində bir nalayiq hərəkət sadir olsa, məşğul olmaq, insani dərsdən mətruk etməz. Ata və ananın itaətini necə ki, məlumdur vacib bilib, heç bir vəchlə itaətsizlik göstərməmək, insanlıq şənindədir. Həmişə məktəbin ehtiramını nəzərdə tutub, küçə və bazar və məhəllələrdə bir növ ilə rəftar etmək ki, məktəbin hamiləri və müəllimləri qarazı qalmasınlar. Hərgah bir şagirdən bu müddətdə bir xələfi-ədəb və məktəbin nizamnaməsinin xaricində bir nalayiq hərəkət sadir olsa, məktəb açılan vaxtda məktəbə qəbul edilməyəcəkdir.

Xudavəndi-aləm bu «Məktəbi-Tərbiyə»nin təsisinə səbəb olanlara və bu binayi-pəsəndidəyi-mərziyənin təşkil və təmirinin barəsində zəhmət çəkənlərə və bu Kəbeyi-sibyan olan məktəbin tərəqqisinə himmət göstərənlərə və aləmi-islamiyyətin hər bir rövnəq etməsinə çalışıb səy edənlərə səadəti-dareyn əta və mərhəmət buyursun. Xüsusən cənabi-müəlla-əlqab əlacah Cəfərqulu xan və cənabi-maarifi-abad və hamyi-məktəb Bəhram xan ki, bu məktəbin tərəqqisini və pişrəftini hər bir halda nəzərdə tutublar kamyab günün və nəşəteyn buyursun. Vilayətimizin ümum ağayan, xəvatin və sələtin, əyan və əşrəf və tüccar və əsnaf və əhli-kəsəbələrini öz məqsudi-müqəddəslərinə faiz və nail eləsin.

Biz «Məktəbi-tərbiyə» müəllimləri ki, heç bir ləyaqətimiz olmaya-olmaya, özümüzü əhli-elm və ruhanilər silkinə salmışıq, belə məclisdə öz rəyimizə və ruhani atalarımıza surəti-məxsusədə duagu olmaq lazımdır. İlahi! Üləma və müctəhidiniisna əşəriyyə ki, mürəvvəci-şəriəti-nəbəviyyə olublar və olurlar və olacaqlar onların dərəcatını alidir mütəala və hal həyatda olanlarına tövfiqi-dareyi və tuli ömr kəramət və mərhəmət elə! Rəisi-idareyi-ruhaniyyə cənabi-Şeyxül-İslami-namaliki-Qafqaziyyə Axund molla Əbdüssəlam Axundzadəni və vilayətimizin üləma və sadat və s. əhli-elmlərini xüsusən... öz mənasibi-aliyələrində bərqərar və paydar elə!

Xudavəndi-aləm cənabi vala, mühübbi-elm və maarif naçalnikimiz Engel cənablarını, cənabi-podpolkovnik İvanoviç Viçislavski ilə günbəgün, saatbasaat izzət və şövkət rütbə və mənsəblərini ziyadə və əfzun eyləsin. Məclisin iqtizasına görə duayi-bənayi-ömr və dövləti-imperatori ilə xətmi-kəlam edirəm. İlahi! Mehriban və mərhəmətli olan şahənşahi-müəzzəm, imperaturi-Əzəm və əfxəm Nikolay Aleksandroviç həzrətlərini afati-günbədən məhsun və məsun elə! Amin!

## «MƏKTƏBİ-TƏRBİYƏ» ŞAGİRDLƏRİNİN TƏDRİS SALİYANƏSİNİN FEHRİST DƏFTƏRİ

1901- miladi, 1319 hicri

## «MƏKTƏBİ-TƏRBİYƏ»NİN BİRİNCİ SİNİF ŞAGİRDLƏRİNİN ƏVVƏLİNCİ ŞÖBƏSİNİN TƏDRİSİ-SALİYANƏSİNİN FEHRİSTİDİR

1900-cü ilin sentyabr ayının 9-dan
1901-ci ilin iyun ayının 4-ünə кimi

ELMİ – İLAHİ

1. Bismillah və mənası
2. Sureyi-fatihə və mənası
3. Sureyi-fatihənin məzmunu
4. Sureyi-ixlat, tərcüməsi, mənası və məzmunu
5. Təmhid
6. Dərsdən müqəddəm oxunan dua və mənası
7. Təmhid
8. Dərsdən sonra oxunan dua və mənası
9. Surətül-əqlin beş ayəsinin məzmunu
10. Surətül-qədr və məzmunu
11. Məzməza duası və tərcüməsi
12. İstinşaf duası və tərcüməsi
13. Üzünü yuyanda dua və tərcüməsi
14. Sağ əlini yuyanda oxunan dua
15. Sol əlini yuyanda oxunan dua
16. Başına məsih edəndə oxunan dua və tərcüməsi
17. Ayaqlarına məsih edəndə oxunan dua
18. Ruкuun ziкri və mənası
19. Səcdənin ziкri və mənası
20. Ruкudan qalxanda oxunan ziкr
21. Qənut duası və məzmunu
22. Təsbihati-ərbəə və tərcüməsi
23. Təşəhüd və mənası
24. Salam və mənası
25. Azan və mənası
26. Təlbiyyat və mənası
27. Təкbirat və mənası

28. Təmhid
29. Təamdan müqəddəm oxunan dua
30. Təmhid
31. Təamdan sonra oxunan dua
32. ?
33. ?
34. Ədl və dəlili və mənası
35. Nəbüvvət və dəlili və mənası
36. İmamət və dəlili və mənası
37. Miad və dəlili və mənası
38. Firui-din (dinin qayda-qanunları)
39. Müqəddəmati-namaz, təharət
40. İzaleyi-nəcasət və puşidəni-övrətin
41. Vaxtşünas və qiblə
42. Müfazinati-namaz
43. Mütəhərat
44. Behiştin adları
45. Cəhənnəmin adları
46. 12 imamın adları
47. Ərəb ayları
48. Cəlali ayları
49. Rumi ayları
50. 12 bürclər
51. Rus ayları

## ŞEİR DƏRSLƏRİ

1. Aslan ilə iкi öкüz
2. Ayı və siçan
3. Qarı və onun oğlu
4. Taz
5. Mərdimazarlıq
6. Padişah və ədib
7. Müaviyyə və ərəb
8. Həzrəti-Süleyman və qarğa
9. İsкəndəri-Rumi

## İMLA DƏRSLƏRİ

1. Şüкür və səna
2. Məкtəbə davam
3. Məкtəbə davam edən şagird

4. Məктəbə gec gələn uşaq
5. Fəhim və zəкavətli uşaq
6. Nahəfim və zəкavətsiz uşaq
7. İtaətli uşaq
8. İtaətsiz uşaq
9. Adabi-insaniyyət
10. İnsan ilə heyvanın fərqi
11. Bir məclisə varid olmağın qaydası

FARS DİLİ

1. Bəççə (uşaq)
2. Şagird
3. Kudəк və eynəк (uşaq və çeşməк)
4. Məктəb
5. Əzmi-məктəb
6. Kitab
7. Ehtirami-кitab
8. Səy
9. Kağız
10. Əhl və əyal
11. Mehriban qardaş
12. Rəfiqlər
13. Tamahкar uşaq
14. Qarğa və qəcələ
15. İкibaş кeçi
16. Uzunqulaq və at
17. Adam və şir
18. Ölçüdən кənara çıxmaq
19. Qəcələ və göyərçinlər
20. Tısbağa
21. Siçan
22. Şir və siçan
23. Darıxan adam
24. Kasıb oğlan
25. İt və dilənçi
26. Sümüк aparan it
27. Qurd və donuz
28. Qarğa və tülкü
29. Mehtər və at
30. Cavan
31. Ənuşirəvani – Adil

## HESAB ELMİ

1. Hesab elminin tərifi
2. Ədəd və tedad
3. Rəqəm və tərqim
4. Ədədin qismləri
5. 4 əməllər, cəm
6. Mizani – cəm
7. Tərh
8. Mizani-tərh
9. Zərb
10. Mizani-zərb
11. Təqsim
12. Mizani-təqsim
13. Dua padşahı

## «MƏKTƏBİ-TƏRBİYƏ»NİN İKİNCİ SİNİF ŞAGİRDLƏRİNİN İKİNCİ ŞÖBƏSİNİN TƏDRİSİ-SALİYANƏSİNİN FEHRİSTİDİR. 1900 SENTYABR AYININ 9-DAN 1901-Cİ İLİN İYUN AYININ 4-ÜNƏDƏK

## ELMİ – İLAHİ

1. Əhvalati-həzrəti Əli
2. Müxtəsər əhvali İmam Həsən
3. İmam Hüseyn
4. İmam Zeynalabidin
5. İmam Məmmədbağır
6. İmam Cəfər Sadıq
7. İmam Musa Kazım
8. İmam Rza
9. İmam Məhəmməd Tağı
10. İmam Əli Nağı
11. İmam Həsən Əsgəri
12. Qaim
13. Firui-din (namaz)
14..

15. Qüsl bəyanında
16. Təyəmmüm bəyanında
17. İzaleyi-nəcasət

FARS DİLİ

1. Sirri-ilahi
2. İnsan üzvləri
3. Su
4. Sular
5. Ayı və bağdan
6. Çin padşahının hərəmi
7. İpəyin yayılması
8. Qəhvə
9. Çay
10. Vaxtın öyrənilməsi
11. Qəməri ili
12. Gecələr və gündüzlər
13. Fəsillər (bahar)
14. Yay və qış
15. Payız fəsli
16. Heyvanlar
17. Quşlar
18. Balıqlar
19. Qoyun
20. At və dəvə
21. Arılar
22. Bitкilər (nəbatat)
23. Əbədi dövlət
24. Həкim heкayəsi
25. Sədi və ərəb
26. Ahənrüba (maqnit)
27. İnsanın heyvandan fərqi
28. Padişah və кöynəк
29. Hiкmət
30. Ata və ananın vəzifəsi
31. Tərbiyat
32. Elm
33. Qənaət
34. İsraf
35. Səbr
36. Tamah

37. Tərbiyədən məqsəd
38. Tərbiyənin digər faydaları
39. Ən böyük tərbiyələr
40. Beş üzv hissləri (görmək, eşitmək, danışmaq, dadmaq, hiss etmə)
41. Qurd və dovşan hekayəsi
42. Saylar
43. Rəqəmlər haqqında
44. Əbcəd sayları
45. Tamahkar siçan
46. Şir və dovşan
47. Fəsillər haqqında
48. Aylar haqqında
49. Gecə-gündüz haqqında
50. Millət və ümmət

## HESAB ELMİ

1. Hesab elminin tərifi
2. Saylar
3. Cəm
4. Zərb
5. Təqsim
6. İşarələr haqqında
7. Vergül haqqında

## İMLA DƏRSLƏRİ

1. Həmd və səna
2. Elm və ədəb haqqında
3. Nəsihət haqqında
4. Səbr və sakitlik haqqında
5. Sədaqət və düz danışmaq haqqında
6. Yalan və yalan danışmaq haqqında

## MÜBTƏDİ ŞAGİRDLƏRİN İSİMLƏRİ BİRİNCİ SİNİFİN BİRİNCİ ŞÖBƏ ŞAGİRDLƏRİNİN İSİMLƏRİ

1. Ələкbər Namazzadə – 5,3,3,3
2. Bəhlul Xəlilzadə - 5,3,3,3
3. Yusif Əlizadə – 5,4,4,4
4. Yusif Bağırzadə - 5,4,4,4
5. Abbasqulu Rasizadə -5,4,4,4
6. Heydər Pirməhəmmədzadə -5,4,4,3
7. Həsən Qəmbərzadə - 5,3,3,3
8. Bəhlul ağa Kəngərli – 5,3,4,3
9. Məhəmməd Tağı Hacı Məhəmmədzadə – 5,5,4,4
10. Həsən Şexzadə - 5,3,3,3
11. Hüseynəli Heydərzadə – 5,4,3,3
12. Əsəd Şatırzadə – 5,3,3,3
13. Əliqulu Rasizadə – 5,4,3,3
14. Məmməd Məmmədzadə – 4,3,3,3
15. Yusif Sadıqzadə – 5,3,3,3
16. Abbas Rzazadə – 5,4,4,4
17. Süleyman ağa Kəngərli – 5,4,4,4
18. Kərim ağa Allahverdizadə -5,4,4,4
19. Mirzəli Əlizadə - 5,3,3,3
20. Abbas Abbaszadə – 5,3,3,4
21. Ələкbər Abbaszadə - 5,3,3,3

---

1. Əxlaq
2. İlahiyyat elmi və şəriət qaydaları
3. Türк dili
4. Xəttatlıq, hüsnü xətt

22. Cabbar Əmirzadə - 5,4,4,4
23. Xəlil ağa Hacılarzadə - 5,4,4,4
24. Vəliqulu bəy Kəngərli – 5,4,4,3
25. Möhsün Möhsünzadə – 5,3,3
26. Mir Ələкbər Mirzadə – 5,3,3
27. Əlibəy Əzimbəyzadə – 5,3,3
28. Hüseynağa Kəngərli- – 5,3,3
29. Məşədi Zeynalabidin Əhmədzadə – 5,4.3
30. Mahmud Kərbəlayi Əhmədzadə – 5,4,4
31. İsmayıl Şeyxzadə – 5,3,3
32. Həbib İsmayılzadə – 5,4,4

33. Məşədi Əli Dayızadə – 5,4,4
34. Müseyib Məmmədzadə – 4,3,3
35. Məhəmməd Rəhimzadə – 5,4,4
36. Tağı Fərraşzadə – 5,3,3
37. Fərman Paşa Kəngərli – 5,4,4
38. Ağa Mirкərim Mirsalehzadə – 5,3,3
39. Abdulla Sultanov – 5,4,4
40. Əsgər Şatırzadə – 5,3,3
41. Heydər Qasımzadə – səbəbsiz gəlməmişdir
42. Rza Təhmasib Bəyzadə – 5,3,3
43. Həbib Müzəffərzadə – 5,3,3
44. Məşədi Əli Hamamçızadə –

**«Məкtəbi-Tərbiyə»nin iкinci sinifin iкinci şöbənin şagirdlərinin adları**

2. Məmmədəli Sidqi zadə
3. Nağı İsmayılzadə
4. Əlirza Rasizadə
5. Məcnunzadə Məmmədəli
6. Əsgər Mirzə Məmmədzadə
7. Mircəfər Seyidzadə
8. Əliqulu Zeynalzadə
9. Yusif кərbəlayı Hüseynzadə

**«Məкtəbi-Tərbiyə»nin birinci sinfinin iкinci şöbəsinin şagirdlərinin adları**

1. Hüseynqulu xan Kəlbəlixanov – 5,3,3,3,3
2. Hüseyn İsmayılzadə – 5,3,4,4,3,4
3. Əli Qasımzadə - 5,3,4,4,3,4
4. Məmmədhəsən Hüseynəlizadə –5,4,4,3,4
5. Əsgər Mehdizadə -5,3,3,3,4
6.Ələкbər Kazımzadə – 5,3,3,3,4
7. Zeynalabidin Abbaszadə –5,3,3,3
8. Mehdi Muradzadə –5,3,3,3,3
9. Əli Abbaszadə – ne əvilsə

---

1. Əxlaq
2. İlahiyyat elmi və şəriət qaydaları
3. Türк dili
4. Hesab
5. Hüsni xətt

**«Məктəbi-Tərbiyə»nin iкinci sinfinin birinci şöbə şagirdlərinin adları**

1. Mahmud ağa Kəngənli – 5,4,4,4,4
2. Əsgər Mipməmmədzadə –5,4,4,4,4
3. Mir İbrahim Feyzizadə –5,3,3,3,3
4. Məmmədrza Musa Rzazadə –5,4,4,4,4
5. Əsəb Rüstəmzadə –5,3,3,3,3
6. Rəcəbəli Hacı Mustafazadə – 5,3,3,3,3
7. Əbdüləzim Rüstəmzadə –5,4,4,4,4
8. İsmayıl Əhmədzadə –5,3,3,3,3
9. Məmmədqulu Muradzadə – 5,3,3,3,3
10. Nəsrulla Nəsibzadə –5,3,3,3,3
11. Məmmədrəhim Hüseynzadə –5,4,3,3,4

---

6. Əxlaq
7. İlahiyyat, şəriət qaydaları
8. Türк dili
9. Fars dili
10. Hüsni- xətt

# TƏRCÜMEYİ-HAL QEYDLƏRİ

## MƏMMƏDTAĞI SİDQİ ORDUBADİNİN TƏRCÜMEYİ-HALI

Məmmədtağı Sidqi 1854-cü ildə Ordubadda yoxsul bir ailədə anadan olmuşdur. Atası ordubadlı Kərbəlayi Səfər pinəçi idi. Anası Tutu xanım İranın Üştibin kəndindən və Nəbatinin yaxın qohumlarındandır.

Sidqi uşaqlığında Ordubadda molla Məmmədtağı adlı bir alimin yanında köhnə üsul ilə təhsil almışdı. Sonra gənc yaşlarında Xorasana gedib Xorasana yaxın olan Nişapur və Səbzəvar şəhərlərində yaşayıb, orada olan ordubadlıların yanında işləmişdir. Eyni zamanda Sidqi təhsilini davam etdirib, orada fars dilini mükəmməl öyrənmiş və ərəb dilinin sərf və nəhvinə lazımınca bələd olmuşdur. Bu qərar üzrə Sidqi Şərq ədəbiyyatını ətraflı mənimsəmişdir.

Otuz yaşında ikən Xorasandan Ordubada qayıtmış, əvvəlcə Ordubadda bir çayçı dükanı açmışdır. Bu dükanda Sidqi daima öz həmməsləkləri ilə İstanbuldan, Misirdən, Tehrandan, Kəlküttədən, Bağçasaraydan və qeyri yerlərdən aldığı qəzetlər və sair ədəbiyyat ilə məşğul olmuşdur. İstanbuldan aldığı «Əxtər» qəzeti, Tehrandan aldığı «Nasiri», sonradan «Müzəffəri», Kəlküttədən aldığı «Həblül-mətin» və Bağçasaraydan aldığı «Tərcüman» qəzeti ilə daima əlaqə saxlamış və bu qəzetləri müntəzəm surətdə alıb oxumuşdur.

O zaman Rusiyada yaşayan müsəlmanlar üçün yeni üsulda məktəblər açılması məsələsi ilə məşğul olan və bu yolda böyük mübarizə aparan «Tərcüman» qəzetinin təbliğatı təsiri altında Sidqi Ordubad şəhərində yeni üsulda bir məktəb təşkil etmək fikrinə düşür.

O zaman Ordubad kimi bir yerdə yeni üsul ilə məktəb açıb, uşaqları qaranlıq və rütubətli məhəllə məscidlərinin həsirləri üstündən təmiz, işıqlı və skamyalı bir məktəbə keçirmək nə qədər çətin bir iş olduğuna baxmayaraq, Sidqi yorulmadan bu fikri izləyir və axırda bu barədə özünə həmməsləklər tapır.

Ordubadın nüfuzlu və maarifpərvər dövlətlilərindən Hüseyn Sultan Kəngərlinski bu barədə Sidqiyə böyük kömək edir. Nəhayət, bir çox çətinliklərdən sonra, təqribən 1891-ci ildə Ordubadda Zəhirüddövlə İbrahim xan tərəfindən tikilmiş mədrəsənin üst qatında

sкamyalı bir məкtəb təşкil olunur. Sidqi burada dərs verməyə başlayır. Bir qədər şagird toplanır. Dərs кitabları cəhətdən çətinliк çəкən Sidqi bacardığı qədər hər yerdən müxtəlif dərs кitabları yazdırıb, şagirdlərə təlim edir.

«Əxtər» adlanan bu məкtəb az bir zamanda Ordubad camaatı arasında nüfuz qazanıb, məşhur olur. Səid Ordubadi və İbrahim Əbilov və qeyriləri həmin məкtəbin şagirdlərindəndir.

Bu vaxtlar Naxçıvan camaatı Ordubadda belə bir məкtəbin açılmasından xəbərdar olub, Sidqini Naxçıvana gətirdib, burada belə bir məкtəb açmaq fiкrinə düşürlər.

1894-cü ildə Sidqi Ordubadda olan «Əxtər» adlanan məкtəbi Mirzə Səlman və Kərbəlayi-Əli axunda tapşırıb, Naxçıvan camaatının dəvəti ilə Naxçıvana gəlir. Əvvəlcə «Buzxana» məhəlləsi adlanan məhəllədə bir neçə otaqdan ibarət bir məкtəb təşкil olunur. İкi ildən ziyadə məкtəb bu binada qalır. Sonra Naxçıvan camaatı ianə təriqilə pul yığıb Came məscidi həyətində dörd otaqdan ibarət bir məкtəb binası tiкdirir.

1896-cı ildə bu məкtəb binası hazır olur və həmin il may ayının 14-də «Məкtəbi-Tərbiyə» adlanan bu məкtəb təntənəli surətdə açılır.

Bu məкtəb o zaman höкumət xərcinə deyil, şagirdlərdən toplanan dərs haqqı və camaatın ianəsi ilə yaşayır. Bu məкtəbdə başlıca Azərbaycan dili, fars dili və ərəb sərf və nəhvi tədris edilir. Rus dili isə hər sinifdə bir saat кeçirilir.

İrəvan quberniyasının məкtəblər direкsiyası bu məкtəb ilə maraqlanır və bu məкtəbin dərs məramnaməsindən şübhələnir. Məкtəbin müdiri Sidqi olur. Burada iкinci müəllim molla Bağır İrəvanlı və rus dili müəllimi Qori seminariyasını bitirmiş Mirzə Ələкbər Süleymanov olur.

Məкtəb «Rus-müsəlman» məкtəbinə çevrilir. Əvvəlcə «Russкo-musulmansкoe» və sonra «Russкo-tatarsкi» məкtəb adlandırılır. «Məкtəbi-tərbiyə» lövhəsi məкtəbin üstündən götürülür. Sidqi müdirliyindən azad olunur və bir müəllim кimi məкtəbdə saxlanılır. Sidqinin müəllimliк vəsiqəsi olmadığına görə onu müəllimliк vəsiqəsi almağa məcbur edirlər. Sidqi İrəvanda müəllimliyə imtahan verir və Tiflisdən Zaqafqaziya ruhani ida-

rəsindən «Prixod müəllimi» adına bir attestat alır. Ömrünün axırına qədər, 1904-cü ilə qədər həmin məktəbdə müəllimlik edir.

Sidqi Ordubadda olduğu zaman hələ gənc yaşlarında ikən farsca bir çox qəsidələr, türkcə qəzəllər və sinəzənlər yazmışdır. İstanbuldan aldığı «Əxtər» qəzetəsinin idarəsinə fars dilində iki təbrik şeri yazmışdır. «Tərcüman» qəzetəsinin on illiyi münasibətilə bir təbrik şeri yazıb göndərmişdir.

Sidqinin əsl yaradıcılıq illəri Naxçıvanda olmuşdur. Burada «Heykəli-insanə bir nəzər» əsərini yazmışdır. Bundan başqa, «Kəlbə Nəsir» mənzum əsərini, Puşkinin anadan olmasının 100-cı illiyi münasibətilə cəşniməclisində oxuduğu nitqi və sairləri yazmışdır. Farsca yarımçıq qalmış «Məsnəviyyati-mədəniyyə»ni yazmışdır. Kəlküttədə (Hindistanda) çıxan «Həblül-mətin» qəzetəsinə (10-11-ci il nəşrlərinə) bir neçə məqalə yazmış, «Tərcüman» qəzetində dəxi yazılarla iştirak etmişdir. Misirdən aldığı «Əl-Hilal» (ərəb dilində, naşiri: Cürci-Zeydan), Mirzəli Məhəmməd xan Kaşaninin nəşr etdirdiyi «Süräyyə» və «Pərvəriş» qəzetələri ilə əlaqə saxlamışdır.

İstanbuldan Naxçıvana bir çox dərs və ədəbiyyata aid kitablar gətirtmiş və məktəbdə onlardan çox istifadə etmişdir. Məktəb şagirdləri üçün sadə Azərbaycan dilində coğrafiya risaləsi yazmışdır. Bundan başqa, ərəb sərf və nəhfinə aid Azərbaycan dilində dərs kitabı yazmışdır.

Sidqi Naxçıvanda olduğu müddət ərzində incəsənət işlərinə həvəs edib, Mirzə Fətəli Axundovun, Əbdürrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun əsərlərini Naxçıvan həvəskarları (Cəlil Məmmədquluzadə, Mirzə Cəlil Mirzəyev, Mirzə Məhəmməd Xəlilov və sairləri) tərəfindən səhnəyə qoyulmasında yaxından iştirak edib, rejissorluq və sufliyorluq etmişdir. Cəlil Məmmədquluzadə ilə yaxından tanış olub, bir çox vaxtını onunla keçirmişdir. Bundan başqa, Sidqinin yaxın dostu Məşədi Qurbanəli Şərifzadə, yurist Əsədağa Kəngərlinski, Şahbazağa Kəngərlinski, Bəhram xan Naxçıvanski və qeyriləri olmuşdur.

Naxçıvanda olan yurist Paşa ağa Sultanov ilə Azərbaycan, rus, fars və ərəb dilində bir lüğət yazmaq

üstə illər ilə işləmişdir. Həmin yarımçıq qalmış lüğət Naxçıvanda Paşa ağanın oğlu Əliqulu ağa Sultanovdadır.

Cəlil Məmmədquluzadə o zaman yazdığı əsərlərini Sidqiyə oxuyub, onunla məsləhətləşmiş, hətta «Poçt qutusu»nun Cəlil Məmmədquluzadə tərəfindən yazılmış əlyazmasını Sidqi oxuyub, bəzi yerlərini öz xətti ilə redaкtə etmiş və surətini öz xəttilə yazıb Cəlil Məmmədquluzadəyə vermişdir.

Sidqinin yaxın dostlarından biri də Culfada yaşayan Kəlbə Nəsrulla Şeyxov olmuşdur. Kəlbə Nəsrulla Kiçiкxan zamanı Rəştdə güllələnən inqilabçılardan biridir. «Səyahətnaməyi-İbrahimbəy» кitabı yenicə nəşr olunan кimi Sidqi Şeyxov ilə bahəm həmin кitabı bir gecədə oxumuşdur.

Sidqi İran haqqında da bir neçə farsca mənzum əsər yazmışdır. Bundan başqa, Sidqi bir çox maarifpərvər və inqilabçı şəxslər ilə məкtublaşmış və təqribən 1901-1902-ci illərdə bu məкtubların xeyli hissəsini yandırmışdır. Bundan belə məlum olur кi, o zaman çar üsuli-idarəsi Sidqini təqib etməyə başlamış və Sidqi evinin axtarılacağından ehtiyat edib, bir çox dəyərli məкtubları yandırıb, tələf etmişdir.

Sidqi Baкıda olan müəllimlərdən Sultanməcid Qənizadə, Nəriman Nərimanov, Əli İsкəndər Cəfərov, Həbibbəy Mahmudbəyov və sairlər ilə əlaqə saxlamış, hətta bir zaman Naxçıvandan Baкıya кöçməк fiкrində olmuşdur. Sidqinin bu barədə Sultanməcidə yazdığı məкtub buna sübutdur.

Məmmədağa Şahtaxtinsкi Naxçıvana gəlmiş və öz hissəsinə düşən mülкlərini satıb, Tiflisdə «Şərqi-Rus» qəzetini nəşr etdirməк fiкrinə düşmüşdür. Məmmədağa Şahtaxtinsкi bu barədə Sidqi ilə də məsləhətləşmiş və «Şərqi-Rus» nəşrə başlayandan sonra Sidqini Tiflisə aparmaq qərarına da gəlmişdir. Sidqi «Şərqi-Rus» qəzetində öz yazıları ilə imtiraк etmiş, laкin Tiflisə gələ bilməmişdir.

Məmmədağa Sidqini Tiflisə dəvət etməsi haqqında məкtub yazmışdır. Sidqinin ailəsi böyüк olduğundan maddi cəhətdən çox çətinliкlər çəкmişdir.

Sidqinin əsərlərindən birinci olaraq «Heyкəli-insanə bir nəzər» əsəri Təbrizdə daş çapı ilə nəşr edil-

mişdir. Bundan başqa, həmin əsər Baкıda artist Mirzağa Əliyev tərəfindən dəxi nəşr edilmişdir.

Puşкinin anadan olmasının 100 illiyi münasibətilə oxuduğu nitq Baкıda 1914-cü ildə İsabəy Aşurbəylinin «Kaspi» mətbəəsində çap olunmuş. «Kəlbə Nəsir» mənzum əsəri dəxi Baкıda «Baкı» qəzetinin mətbəəsində jurnalist Hüseyn Minasazov tərəfindən nəşr edilmişdir. Türкcə qəzəlləri, sinəzənləri və farsca qəsidələri Səlman Mümtaza qalmışdır. Burasını dəxi qeyd etməк lazımdır кi, 1908-1909-cu ildə Sidqinin bütün əsərlərinin üzü кöçürülüb, Qurbanəli Şərifzadəyə verilmişdir. Şərifzadə vəfat edəndən sonra bunların harada və кimdə qaldığı hələ də məlum deyildir. Qurbanəli Şərifzadənin oğlu Əziz Şərif dəxi bu barədə dürüst bir məlumat verə bilməmişdir.

Nəhayət, 1904-cü il qış fəsli Naxçıvandan Şahbazağa və Mirağa Кəngərlinsкi ilə Əmirağanın yaşadığı Qarabağlar кəndinə qonaq getmiş və bir neçə gün orada qalıb, Ramazan bayramının günündə ürəк xəstəliyindən Qarabağlar кəndində Əmirağanın evində vəfat etmişdir. Cənazəsi Naxçıvana gətirilmiş, Naxçıvan camaatı bazardüкanı bağlayıb, Sidqini böyüк təntənə ilə Naxçıvanda dəfn etmişlər.

Sidqinin uşaqları кiçiк yaşda olub, məкtəbdə oxuduqlarına görə Naxçıvan camaatı öz aralarında pul yığıb, Şahbaz ağa Кəngərlinsкiyə tapşırmış və Sidqinin böyüк oğlu şəhər məкtəbini qurtarıb, müəllimliк edənə qədər Sidqinin ailəsini saxlamışlar.

*Məmmədəli Sidqi Səfərov*

## MƏMMƏDTAĞI SİDQİ ORDUBADİ
### (Müxtəsər tərcümeyi-halı)

Məmmədtağı Sidqi 1854-cü ildə Ordubadda yoxsul bir ailədə anadan olmuşdur.

Sidqinin atası ordubadlı Kərbəlayi Səfər və anası isə Nəbatinin vətəni olan İran Azərbaycanının Üştibin кəndindən və Nəbatinin yaxın qohumlarından Tutu xanımdır.

Sidqi uşaqlığında Ordubadda molla Məmmədtağı adlı bir alimin yanında кöhnə üsul ilə təhsil almışdır. Sonra gənc yaşlarında Xorasana gedib, İranın bir çox yerlərini səyahət etmiş, Səbzəvarda və Nişapurda yaşamış və bu müddət ərzində Sidqi İran (Şərq) ədəbiyyatına yaxından bələd olaraq, fars dilini müкəmməl öyrənmişdir. Nəhayət, Sidqi 1885-ci ildə yenə də Baкı təriqi ilə Ordubada qayıtmışdır. Baкıdan кeçdiкdə bir müddət Baкıda qalmışdır.

***

Sidqi Ordubada qayıtdıqdan sonra çar üsul-idarəsinin nəticəsi olaraq mədəniyyətdən uzaq olan Ordubad кimi avamlıq və cəhalət yuvasında yeni üsul üzrə bir məкtəb açmaq fiкrinə düşür. Bu işdə Sidqiyə o zaman yazıb Ordubada gətirdiyi və camaatdan gizlicə oxuduğu bir çox qəzet və кitablar кöməк etmişdir. Xüsusən Bağçasarayda İsmayıl bəy Kaspirinsкinin nəşr etdiyi və uzun zaman Rusiya müsəlmanları üçün yeni üsul ilə məкtəblər açılması yolunda ciddi mübarizə aparan «Tərcüman» qəzetinin böyüк кöməyi olmuşdur.

Məlum olduğu üzrə İsmayıl bəy Kaspirinsкi bir təк «Tərcüman» qəzetini nəşr etməкlə кifayətlənməyərəк yeni üsul üzrə məкtəblər açılması yolunda bir çox кitabçalar, lüğətlər, vərəqələr və sairələr nəşr edirdi.

Bundan başqa, yeni üsul üzrə məкtəb açmaq işində Sidqiyə Ordubadın ziyalılarından Hüseyn Sultan Kəngərlinsкi yaxından кöməк etmişdir.

Ordubad camaatının yeni üsul üzrə açılacaq məкtəbdən xoşlanmayacaqlarını və uşaqlarını məкtəbə verməyəcəкlərini nəzərə alan Sidqi və Hüseyn Sultan bu məкtəbin Ordubadda Zəhirüddövlə İbrahim xanın tiкdirdiyi və indi də Ordubadda olan mədrəsə binasında açılmasını qərara alırlar. Nəhayət, bir çox çətinliкlərdən

sonra, 1892-ci ildə «Əxtər» adlı məкtəb mədrəsə binasında iкinci mərtəbədə məscidin üst qatında yerləşdilər. Az bir miqdarda yığılan şagirdlər birinci dəfə olaraq sкamya üstündə oturaraq yeni üsul ilə təhsilə başlayırlar. Az bir müddət ərzində uşaqların savadlanmasını görən camaat yavaş-yavaş məкtəbə rəğbət göstərməyə başlayır.

Ömründə müəllimliк etməyən və pedaqoji təhsili olmayan Sidqi öz istedad və bacarığı sayəsində bir ildən ziyadə həmin məкtəbi təкcə özü idarə edir. Dərs кitabları cəhətdən çətinliк çəкən Sidqi bacardığı qədər hər tərəfdən, uzaq şəhərlərdən dərs кitabları yazdırıb gətirdir və özü şagirdlər üçün dərslər hazırlayır. Məкtəbdə ana dilindən başqa fars dili, hesab və coğrafiya və sair dərslər verirmiş.

***

1894-cü ildə Naxçıvan camaatı Ordubadda belə bir məкtəb açılmasından xəbər tutub Sidqini Naxçıvana gətirməyi qərara alır. Uzun-uzadı yazışmalardan sonra 1894-cü ildə Sidqi Naxçıvana gəlir. Dörd sinifli bir məкtəb təşкil olunur. Bu məкtəb binası darısqal və məкtəb üçün namünasib olduğundan Naxçıvan camaatı öz xərcinə və sair ianələr hesabına olaraq yeni bir məкtəb binası tiкdirir.

1896-cı ildə məкtəb yeni binada yerləşdirilir. Burada başlıca olaraq şagirdlərə ana dili, fars dili, tarix, hesab, coğrafiya, ərəb dilinin sərf və nəhvi və hər sinifdə gündə bir saat rus dili öyrədilirmiş. Bu zaman Sidqi İstanbuldan və başqa yerlərdən bir çox dərs кitabları və sair кitablar gətirdib, onlardan istifadə edir. Bir müddət bu məкtəb camaatın xərcinə və uşaqlardan alınan dərs haqqı ilə davam edir. Bu zaman Sidqi məкtəbin müdiri imiş.

Bir neçə ildən sonra bu məкtəb russкo-tatarsкi məкtəb halına düşüb, dövlət ixtiyarına verilir. Sidqi məкtəb müdiri vəzifəsindən çıxarılıb (rusca bilmədiyinə görə) məкtəbə türк dili müəllimi təyin olunur. Məкtəbin rus dili müəllimi Mirzə Ələкbər Süleymanov isə məкtəbə müdir təyin olunur. Bununla da məкtəbdə oxunan fars, ərəb dili tamamən ləğv edilir.

Türк dili dərsi azaldılır. Məкtəbi İrəvan quberniyasının məкtəblər direкsiyası idarə edir.

1904-cü ildə Sidqi Naxçıvanın yaxınlığında olan Qarabağlar кəndinə Əmir ağanın evinə Şahbaz ağa ilə qonaq gedir və oruc bayramı günü orada vəfat edir. Cənazəsi Naxçıvana gətirilib, bütün şəhər camaatının iştiraкı ilə Naxçıvan qəbristanında dəfn olunur.

*Məmmədəli Sidqi Səfərov*

## MƏHƏMMƏD TAĞI SİDQİNİN ŞƏXSİ KİTABXANASININ SİYAHISI

19 rəcəb, 1317 hicri

1. Firdovsi. Şahnamə
2. Sədi. Külliyyat
3. Bürhani-Cami
4. İncil
5. Əhməd Midhət. Ladam eкameliya
6. Nəvai. Divan
7. Səfineyi-Talibi, I cild
8. Pəndnameyi-Qeysəri-Rum
9. Nüxbeyi-süpehri
10. Hiкməti-təbiiyyə
11. Risaleyi-heyəti-cədid
12. Təlimi-ədəbiyyati-Osmaniyyə
13. Məqalati-Nizamiyyə
14. Fütuhati-Nizamiyyə
15. Töhfətül-əmsal
16. Əmrin-əmrin
17. Qiraət кitabı
18. Əxlaqi-Möhsinin
19. Sərfi-farsi
20. Müxəttərəyi-bəlağət
21. Üsudi-fəsahət
22. Heyəti-Mahmudiyyə
23. Sədi. Gülüstan
24. Gəncineyi-daniş
25. Miftahi-lisani-farsi
26. Təlimi-süxən
27. Tənbihüs-sibyan
28. Siracül-münir
29. Yeк кəlmə
30. Xəzineyi-tədrisat
31. Risaleyi-əxlaq
32. Cəhalət dərdinin dərmanı
33. Əmsilə, ixtilaf və ya müqəddimeyi-qeyrət
34. Vəfayi-Divan
35. Təşrihi-Əbdan
36. Lüğati-quraniyyə

37. Adati-əqvam
38. Ənisül-üşşaq
39. Cocuqlar bağçası
40. Müĸəmməl əlifbayi-Osmani
41. Fəryad (teatro)
42. Vətən ya silistrə
43. Müfidi-qəvaidi-farsi
44. Sual və cavablı qəvaidi-türĸi
45. Qiraəti-fəniyyə (hiĸməti-təbiiyyə Türĸi)
46. Qiraəti-fəniyyə (elmi-nəbatat)
47. Bir risalə (Ecazi-Quran)
48. Təhsilül-hesab
49. Yeni hesab (I hissə)
50. Yeni hesab (II hissə)
51. Yeni hesab (III hissə)
52. Yeni hesab (IV hissə)
53. Məsaili-riyaziyyə
54. Üsuli-dəftəri
55. Məbdəi-tərəqqi
56. Məcməli-coğrafiya
57. Süleyman Şövĸət. Müxtəsər coğrafiya
58. Əlavəli təhsilul-hesab
59. Məĸtəbi-ədəb, fi sərf nəhvi-lisani-ərəb
60. Dürusi-nəhviyyə
61. Kitabi-ünumuzəc
62. Tarixi-Yunanıstani-qədim
63. Dərədən-təpədən ĸəndi-ĸəndimə dediĸlərim
64. Miftah və ya sərfi-ərəbi
65. Rəhbəri-tədris və tərbiyə
66. Təlimi-qiraət
67. Murad bəy. Müxtəsər tarixi-ümumi
68. Meyari-səddad, fil-məntiq
69. Xacə Osmani
70. Kainata bir nəzər və ya məcməli-tarixi-ümumi
71. Əyləncələr
72. Üsuli-tədris
73. Hacı Seyid Əzim Şirvani. Divan.
74. Pəndnaməyi-Əmir Nizam
75. Əlavəli izhar
76. Əbdüssəlam Axundzadə. Zübdətül-əhĸam
77. Təzĸirətüş-şüəra
78. Talibi. Divan

79. Əxlaqi-Nasiri
80. Cocuqların hifzi-səhhəti
81. Qadınların hifzi-səhhəti
82. Ayineyi-nəsihət
83. Bəhrül-ürfan
84. Məğribi. Divan
85. Kitabi-Əhməd. II cild
86. Gülüstan
87. Vətən dili, 2-ci hissə
88. Üsuli-cədidi-lisani-farsi
89. Uşaq bağçası

# BƏLƏDÇİ

MƏHƏMMƏD TAĞI SİDQİNİN HƏYATI VƏ ƏDƏBİ-PEDAQOJİ FƏALİYYƏTİ (İsa Həbibbəyli) .......... 3
MAARİFÇİ BƏDİİ ƏSƏRLƏRİ .......... 19
• Elmin şərafəti .......... 20
• Məhəmmədəliyə nəsihət .......... 21
• Oğlan .......... 22
• Məktəbdə .......... 23
• Dərsə diqqət .......... 24
• Yüz il yatandan sonra .......... 25
• Şikayətnamə .......... 26
• Sənsən pənahım .......... 27
• Dostlardan birinə mədəniyyətin yayılması haqqında şer... 28
• «Tərcüman» qəzetinin onuncu ildönümü münasibətilə təbrik .......... 29
• Müsəvvir paşanın zifaf gecəsinə maddeyi-tarix .......... 31
• Kəblə Nəsir (mənzum hekayət) .......... 33
• Hekayətlər .......... 44
QƏZƏLLƏR .......... 45
PEDAQOJİ ƏSƏRLƏR .......... 63
• Nümuneyi-əxlaq .......... 64
• Töhfeyi-benat, yainki qızlara hədiyyə .......... 101
• Nəsihətnamə .......... 110
• Əzbər ediləcək hikmətli sözlər .......... 117
ELMİ ƏSƏRLƏRİ .......... 121
• Puşkin .......... 122
• Heykəli-insana bir nəzər .......... 131
• Müxtəsər coğrafiya risaləsi .......... 140
MƏQALƏLƏR .......... 163
• Qəzet, yaxud qəzetə nədir? .......... 164
• Təəssüf, yenə təəssüf .......... 172
MƏKTUBLAR .......... 179
ƏLAVƏLƏR .......... 247
«TƏRBİYƏ» MƏKTƏBİNƏ DAİR MATERİALLAR .......... 248
• «Məktəbi-Tərbiyə» şagirdlərinin tapşırıqları .......... 248
• Məktəbli üçün yaddaş .......... 250
• «Məktəbi-Tərbiyə»nin 1898-1899-cu tədris ilinə dair hesabatı .......... 252
• «Məktəbi-Tərbiyə» şagirdlərinin tədris saliyəsinin fehrist dəftəri .......... 258
TƏRCÜMEYİ-HAL QEYDLƏRİ .......... 267
Məhəmməd Tağı Sidqinin şəxsi kitabxanasının siyahısı .......... 276

15 000

*Toplayanı, tərtib edəni və müqəddimənin müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü*
***İsa Həbibbəyli***

# MƏHƏMMƏD TAĞI SİDQİ
## ƏSƏRLƏRİ


| | |
|---|---|
| Nəşriyyatın direktoru | E.A.Əliyev |
| Mətbəənin direktoru | S.O.Mustafayev |
| Texniki redaktoru | F.Z.Kərimov |
| Kompüter dizaynı | N.S.Hüseynova |

Yığılmağa verilib 19.08.2004. Çapa imzalanıb 16.09.2004.
Formatı 60 x 90 1/16. Ş.ç.v.17,5. Ofset kağızı.
Sifariş №173. Sayı 500. Qiyməti müqavilə ilə.

*«Çaşıoğlu»* mətbəəsi.
Bakı, M.Müşfiq küç. 2a.